**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

# FOLKLOR VƏ YAZILI ƏDƏBİYYAT

## II kitab

**BAKI 2017**

**ELMİ REDAKTORU:** **Muxtar KAZIMOĞLU**
***AMEA-nın həqiqi üzvü***

**TƏRTİBÇİLƏR:** **Kamran ƏLİYEV**
***AMEA-nın müxbir üzvü,***
***Əməkdar elm xadimi***

**Fidan QASIMOVA**
***filologiya üzrə fəlsəfə doktoru***

**Folklor və yazılı ədəbiyyat, II kitab.** Bakı, "Elm və təhsil", 2017, 224 səh.

Kitabdakı məqalələr AMEA Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsində Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Kamran İmran oğlu Əliyevin rəhbərliyi ilə hazırlanmışdır.

folklor.az

F 3202050000 Qrifli nəşr
098 – 2017

© Folklor İnstitutu, 2017.

# ATALAR SÖZLƏRİ VƏ AFORİZMLƏR

**Kamran ƏLİYEV**
***AMEA-nın müxbir üzvü,***
***Əməkdar elm xadimi,***
***AMEA Folklor İnstitutunun***
***"Folklor və yazılı ədəbiyyat"***
***şöbəsinin müdiri***

Şifahi və yazılı ədəbiyyatın bir-biri ilə təması müxtəlif dövrlərdə özünəməxsus şəkildə təzahür edir və müxtəlif istiqamətlərdə özünü göstərir. Bu təmas heç vaxt formal əlamətlərə əsaslanmır, əksinə burada məzmun və məna yaxınlığı həmişə üstünlük qazanır. Şübhə yoxdur ki, şifahi və yazılı ədəbiyyat nümunələrinin bir-birinə yaxınlaşmasında yazıçı və şairlərə aid olan subyektiv amillər də az rol oynamır. Hər halda bu yaxınlaşmalar mədəniyyətin inkişafının təkan nöqtələrindən hesab edilə bilər.

Şifahi və yazılı ədəbiyyatın bir-birinə yaxınlaşması daha bariz şəkildə dastan və roman yaradıcılığında özünü göstərir. Həm də bu göstəricinin kifayət qədər qədim tarixi vardır. N.Gəncəvinin "Xosrov və Şirin", "Leyli və Məcnun", "İsgəndərnamə" kimi epik ədəbiyyat nümunələrinin dastan yaradıcılığını xatırlatması təsadüfi deyil. Bu faktlar onu göstərir ki, dastan yaradıcılığında xalq geniş epik lövhələr vasitəsilə öz arzu və istəklərini ifadə etdiyi kimi N.Gəncəvi, yaxud sonralar roman yaradıcılığı ilə məşğul olan sənətkarlar da öz əsərlərində xalqa söykənərək cəmiyyət həyatı ilə bağlı olan qəhrəmanların yaradılmasına daha böyük üstünlük vermişlər. Hər halda zəngin təhkiyə formasına və geniş planlı süjetlərə malik epos və roman bir-birini tamamlayan janrlardır.

Bu fikirləri şifahi və yazılı ədəbiyyatın digər janrları haqqıda da söyləmək olar. Amma başqa bir məsələ var ki, şifahi və

yazılı ədəbiyyatın janrdaxili əlaqələri də mövcuddur. Bunlar isə müxtəlif məzmun və müxtəlif çalarlarda özünü göstərir. Janrdaxili əlaqələr kimi atalar sözləri və aforizmləri nümunə göstərmək olar. Atalar sözləri xalq, aforizmlər isə ayrı-ayrı sənətkarlar tərəfindən yaradılan bədii nümunələrdir ki, onlar arasında sıx əlaqə və bağlılıq vardır.

Atalar sözləri və aforizmlərin bir-biri ilə əlaqəsi şair və yazıçıların atalar sözlərinə marağından başlayır. Atalar sözlərindən istifadə sənətkarın xalqa arxalanmaq istəyinin nəticəsidir. Bu istək iki formada özünü göstərir: birincisi, atalar sözləri sənətkarın ifadə etmək istədiyi fikrin və ideyanın daha qabarıq formada təqdiminə yardımçı olur; ikincisi, sənətkarlar özləri atalar sözlərinə ekvivalent olan aforizmlər yaradırlar.

Səməd Vurğunun "Komsomol poeması"nın "Qış gecəsi" adlanan birinci hissəsində son dərəcə maraqlı bir məqam vardır. Orada nəql olunur ki, ayazlı-şaxtalı bir qış axşamı yeddi yoldaş olub yola çıxan cavanlar xəstəhal Şahsuvarın vəziyyətini görüb dayanır və od qalayırlar. Odun istisi Şahsuvarın halını xeyli yaxşılaşdırır. Bu zaman kənardan bir atlı yaxınlaşır. Həmin anı şair belə təsvir edir:

Uzaqdan birisi - rüzgar qanadlı,
Gəlir baş götürüb işığa doğru.
Dedik, kim olmalı bu vaxtsız atlı?
O bəlkə quldurdu, bəlkə də oğru!
Hər halda ehtiyat gərəkdir - deyə,
Bəxtiyar tüfəngi doldurub qalxdı,
Zilləyib gözünü bir az da baxdı.
O, ilk gülləsini boşaltdı göyə,
Hər halda ehtiyat gərəkdir – deyə. (4,s.8)

Bu kiçik parçada "Hər halda ehtiyat gərəkdir – deyə" misrası, daha geniş mənada isə Bəxtiyarın söylədiyi fikir iki dəfə təkrar edilir. Bunun birinci səbəbi cavanların düşdüyü şəraitlə, yəni gərgin vəziyyətlə əlaqədardır. İkincisi daha mühümdür və

bu da ondan ibarətdir ki, həmin gənclər əqidə adamlarıdır. Əqidə adamı olmaq isə qarşıya qoyulmuş məqsədin uğurla reallaşması istəyinə çatmaq deməkdir. Bu halda xalqa güvənmək, xalq təfəkkürünə sığınmaq onları qələbəyə aparan əsas mənbələrdən biridir. Ona görə də "Hər halda ehtiyat gərəkdir" ifadəsi xalqda tez-tez işlənən "Ehtiyat igidin yaraşığıdır" atalar sözünün birbaşa özü də olmasa bənzəridir.

Poemada təsvir edilən sonrakı hadisələrdən bəlli olur ki, Bəxtiyarın dəstəsi ilə Gəray bəyin dəstəsi qarşı-qarşıya gəlir. Bu qarşılaşma sakit ötüşmür və atışma ilə nəticələnir. Atışmada isə ağır vəziyyətdə olan Şahsuvar atışmanın sona qədər davam etdirilməsini öz dostlarından xahiş edir və ölür. Atışmanın gedişində Cəlal Gəray bəyi qolundan yaralayır və Gəray bəy öz dəstəsi ilə geri çəkilir. Bu hadisə Gəray bəyi çox hiddətləndirir və öz daxilində bunun əvəzini çıxacağını qərarlaşdırır. Gəray bəy bu acığın hələ ürəyindən çıxmadığı bir vaxtda həmin qərarla da Kür qırağına gəlir, orada Bəhmənlə rastlaşır. Bəhmənlə Gəray bəyin dialoqu Gəray bəyin xarakterini, düşüncə tərzini ətraflı şəkildə izah etməyə də imkan açır. Onun nə qədər əzazil bir insan olmasının, qəlbinin kin-küdurətlə dolmasının şahidi oluruq:

– Vay, səni xoş gördük, haradan belə?
Bu namərd vətənə... Bu namərd elə
Yenəmi üz qoyub, salam verirsən?
– Haqlısan, ay Bəhmən, sözlərində sən
Fəqət nə etmək ki, belədir insan,
Əziz dostlarına küsər bir zaman,
Sonradan qövr eylər əski yaralar...
– Yoxsa, bu gəlməkdə bir fikrinmi var?
– Onsuz olurmu heç... Vardır, şübhəsiz...
Bu el, bu güzəran, bu mən, bu da siz,
Gəlin köməkləşək görək nə olur?
Axtaran dünyada hər haqqı bulur –
Demişlər babalar,

– Bu doğru, lakin
Bir az hövsələniz olmasa sakin
Yenə də günahsız qanlar axacaq,
Burax bur tərsliyi, gəl Allaha bax! (4, s.14)

Bu parçada Gəray bəyin dilindən söylənmiş "Axtaran dünyada hər haqqı bulur" fikri xalq içərisində geniş yayılmış "Axtaran tapar" atalar sözünün azca dəyişilmiş variantıdır. Amma bir qəribəlik də özünü göstərməkdədir. Bu da ondan ibarətdir ki, el arasında işlənən "Axtaran tapar" atalar sözü öz müsbət yükü ilə daha əhəmiyyətlidir. "Komsomol poeması"nda isə Gəray bəyin dilindən çıxan "Axtaran dünyada hər haqqı bulur" fikri xoş niyyəti ifadə eləmir. Çünki Gəray bəy qan və ölüm arxasınca gəlmişdir. Bu halda belə bir cəhət də sübut olunur ki, xalqda yaşayan və əsrlər boyu qorunan atalar sözləri müxtəlif vəziyyətlərdə, müxtəlif aspektlərdə işlədilə bilər.

Bədii ədəbiyyatda atalar sözlərindən istifadə, müəyyən məqamlarda onlardan bəhrələnmək hər bir sənətkar üçün özünəməxsus səciyyə daşıyır. Bu özünəməxsusluq sənətkarın məqsəd və məramından asılı olduğu kimi bədii inikas üsulu, obrazların xarakteri, müəllifin ifadə etmək istədiyi ideya ilə də sıx bağlıdır. Əlavə edək ki, sənətkarların mənsub olduğu bədii metod, yaxud aid olduqları ədəbi cərəyan da folklordan bəhrələnmədə fərqli rol oynaya bilər. Bu mənada Azərbaycan romantizminin görkəmli nümayəndələrindən olan Hüseyn Cavidin yaradıcılığında həmin bəhrələnmə spesifik səciyyə daşıyır.

H.Cavid yaradıcılığında bir çox sənətkarlarda olduğu kimi atalar sözlərindən istifadə onun mahiyyətinin olduğu kimi qəbul edilməsi anlamına gəlir. Yəni romantik şair ya öz fikrini qüvvətləndirmək, ya obrazın xarakterinin tam açılmasına nail olmaq, ya da inikas üsulunu qabartmaq üçün atalar sözlərinin məna və mahiyyətinə güvənc yeri kimi baxır. Nümunə üçün qeyd edək ki, xalq arasında "Qılınc yarası sağalar, söz yarası sağalmaz" kimi illərin sınağından uğurla çıxmış bir atalar sözü dolaşır. Bu atalar

sözü insanlar arasındakı münasibətlərə aid olduğuna görə daha çox yayılmış və daha çox işlək xarakter almışdır. H.Cavidin "Peyğəmbər" pyesində onun işlənmə məqamı çox maraqlıdır. Belə ki, pyesdəki bir səhnə Mələk-Peyğəmbər, Skelet-Peyğəmbər münasibətlərinə həsr edilib və bu səhnə fikir baxımından "Peyğəmbər" pyesinin ən qabarıq səhnələrindən biridir. Həmin səhnədə Mələk Peyğəmbərə Quranı – "altun qablı bir kitab"ı verib deyir:

"Haqqı təbliğ üçün sənin ancaq
Rəhbərin sənəti-kəlam olacaq" (2, s.11)

Skelet isə Mələyin sözünü təkzib edərək bunun tam əksini söyləyir:

"İnqilab istəyirmisən, mənə bax!
İştə kəskin qılınc, kitabı burax" " (2, s.11)

Beləliklə, tam aydın olur ki, Mələklə Skelet Peyğəmbərin düşüncəsinə təsir göstərmək üçün cəhd göstərir və mübarizə aparırlar. Bu mübarizə davam edir və ikinci mərhələyə daxil olur. Həmin həlledici mərhələdə Skelet Peyğəmbərin "alnında parlayan yıldız" görüb onu inandırmaq istəyir ki, "dərsi-hikməti" məndən almalısan. Şübhəsiz, bu hikmət dərsində Qılınc əsas mövzudur.

Bu anda kənardan baxan Mələk sakit dayanmır və yenidən məsələyə müdaxilə edir. Şübhəsiz, bu müdaxilə Skeletlə mübarizənin davamı kimi elə olmalıdır ki, Mələk Peyğəmbəri inandıra bilsin. Bu məqamda Mələk xalq təfəkkürünə sığınır və "Qılınc yarası sağalar, söz yarası sağalmaz" deyiminə ümid edir. O, "Yox, qılınc söz qədər deyil kəskin" (2, s.12). Bu sözlər sanki göydən düşmüş kimi olur və Mələyə elə gəlir ki, həmin sözləri eşidəndən sonra Peyğəmbər Mələklə razılaşacaqdır. Hər halda Mələk xalq təfəkkürünə söykənməklə öz fikrində daha möhkəm dayanır.

Hüseyn Cavidin "Xəyyam" pyesində isə skeletlərin məkanı olan bir məzarlıq təsvir edilir. Orada məzarçılardan biri "məzardan bir əyri sümük" çıxarıb deyir:

"Bu çürük qozbelə bax bir, bu bunaq
Torpaq altında qozdur, sarsaq" (3, s.86)

Şübhəsiz, burada xalq içərisində geniş yayılmış bir deyim yada düşür: "Qozbeli qəbir düzəldər". Bu atalar sözü müəyyən bir məsələ ətrafında həmişə səhv edən, yaxud dəfələrlə təkrar elədiyi səhvini heç vaxt düzəldə bilməyən və yaxud da nəyəsə söz verib onu heç vaxt yerinə yetirməyən insanlara aiddir. Aydındır ki, həmin atalar sözü barədə müxtəlif fikirlərin yaranması "Qozbeli qəbir düzəldər" deyiminin məcazi xarakteri ilə bağlıdır. Əgər belə olmayıb konkret məzmun daşısaydı, "Qozbeli qəbir düzəldər" deyimi bu qədər çoxşaxəlilik qazana bilməzdi. Amma məsələnin mahiyyəti bundadır ki, məzarçının sümüyə baxışı ilə atalar sözü tamamilə təzad təşkil edir. Yəni məzarçının rastlaşdığı "əyri sümük" atalar sözünə nəzərən tamamilə düzəlməliydi. Amma bunun əksinə olaraq sümük əyri olaraq qalıb. Başqa sözlə, qozbel elə qəbirdə də qozbeldir. Bəs bu halda H.Cavidin sənətkar mövqeyi xalq düşüncəsinə, xalq təfəkkürünə yaddırmı?

Bu sualı cavablandırmaq üçün məzarda dəfn olunan adamın xarakteri ilə tanış olmaq zərurəti meydana çıxır. Pyesdə digər bir məzarçı əyri sümük sahibini səciyyələndirərkən onun "daim söz götürüb, söz gətirən" adam olması qənaətini irəli sürür. Buradan isə belə bir nəticə alınır ki, "Qozbeli qəbir düzəldər" xalq deyimi tamamilə doğrudur, lakin əxlaqca naqis olan qozbeli qəbir də düzəldə bilmir və sözün həm məcazi, həm də həqiqi mənasında belə qozbellərin düzəlməsi axirətə qalır.

Dünyanın müxtəlif sənətkarları öz bədii yaradıcılıqlarında atalar sözlərindən istifadə etməklə yanaşı, həmin məzmuna ekvivalent olan aforizmlər yaratmaq təşəbbüslərində də olmuşlar. Bu təşəbbüs ilk növbədə sənətkarların dünya duyumu, insanlara və cəmiyyətə öz münasibətlərini bildirmək istəklərindən və iddialarından irəli gəlirdi.

Yaradıcı sənətkar ifadə etdiyi, izlədiyi ideyanın daha bitkin çıxması və insanlara təsir göstərmək imkanına malik olması üçün ümumiləşmə gücünə malik fikirlərə daha çox üstünlük

verirlər. Belə bir ümumiləşmə həm sənətkar istəyinin reallaşmasına şərait yaradır, həm də sənətə və sənətkara məhəbbət artırır.

Üçüncü bir cəhəti qeyd etmək lazımdır ki, aforizm yaratmaq düşüncəsi süni xarekter daşımamalıdır. Bu ya bədii situasiyanın özündən yaranmalıdır, ya da hər hansı bir obrazın xarakterinə uyğun şəkildə meydana çıxmalıdır. Burada başqa istiqamətlər də ola bilər. Amma bir cəhət həmişə aydın olmalıdır: aforizm yaradıcılığı təbii şərt və amillərə əsaslanmalıdır.

Xalq arasında bəzən "Belə yaşamaqdansa, ölmək yaxşıdır" fikrinə rast gəlirik. Bu fikir insanları cəsarətə, dəyanətə, bütövlüyə səsləyir. Ancaq maraqlı burasıdır ki, dünyanın azman sənətkarları həmin fikrə uyğun aforizmlər yaratmaqdan da çəkinməmişlər. Alman şairi Höte belə söyləyir: "Faydasız həyat vaxtsız ölümə bərabərdir". Həmin fikrin nə vaxt, harada, nə məqsədlə deyilməsinə baxmayaraq, orada Hötenin həyat haqqında arzuları öz ifadəsini tapmışdır. Höte insanları həyata ürəklə bağlanmağa, faydalı işlərlə məşğul olmağa çağırır və qətiyyətlə bildirir ki, faydasız yaşamaq vaxtsız ölüm deməkdir.

Anri Barbüs isə "Ölmək dəhşət deyil, dəhşət yaşamaqdır" mülahizəsində həyatın çətinlikləri qarşısında dayanan və hətta çıxış yolu tapa bilməyən bir insanın düşüncəsini ortaya qoymuşdur. Bu fikir sadə bir deyim yox, bəlkə də yazmağı bacaran sənətkar üçün bir əsərə bərabərdir.

Bəs böyük romantik sənətkar Hüseyn Cavid necə söyləyir? Bu mənada onun aşağıdakı misraları çox məşhurdur:

"Ölüm var ki, həyat qədər dəyərli.
Həyat var ki, ölümdən də zəhərli".

Bu misralar da H.Cavidin həyat təcrübəsindən irəli gələn misralardır ki, öz hikməti ilə ürəkləri yox, həm də əsrləri dolaşmaq gücünə malikdir.

Sənətkarların gənclik haqqında söylədikləri aforizmlər də maraqlıdır:

Nizami Gəncəvi:

“Gənclik insana gözəllik verən,
Gözəllik sönərsə, qəlb olurmu şən?”

Yenə də Nizami Gəncəvi:

“İstəyə gənclikdə mümkündür çatmaq,
Qocalıq gəldimi, axtar bir bucaq”.

Hüseyn Cavid:

“Gənclik, əlbəttə, başqa nemətdir,
Unutulmaz böyük səadətdir”.

Əfzələddin Xaqani:

“Gənclik bir qızıldır,ömrün əlindən
Düşərək torpağa yox oldu birdən.
Tapmaq həvəsilə həmin qızılı
Torpağı yuyuram göz yaşıyla mən”.

Maraqlı cəhət ondadır ki, bütün bunlar Afrika atalar sözlərindən biri ilə səsləşir:

“Cavanlıqda odun yığsan, qocalıqda üşüməzsən”.

Xalqın yaratdığı atalar sözləri və sənətkarların qələmə aldığı aforizmlər bir-birini tamamlamaqla həyati, realist gücə malikdir. Onlar öz fəlsəfi məzmunu ilə insanın həyata və insanlara baxışının inikasıdır.

Şifahi və yazılı ənənə arasında fərqlər olduğu kimi səciyyəvi yaxınlıqlar və oxşarlıqlar da vardır. Bu, hər şeydən əvvəl xalq təfəkkürü və həmin xalqa mənsub olan sənətkarların fərdi düşüncəsi ilə bağlıdır. Onların bir-birinə təsir imkanlarını düşünmək lazım gəlsə, şübhəsiz, belə bir qənaətə gəlmək olar ki, xalq təfəkkürü fərdi düşüncəyə daha çox təsir göstərir. Fərdi düşüncə ilə meydana çıxan aforizmlər isə atalar sözləri səviyyəsində olmasa belə hər halda onların da kifayət qədər təsir imkanları da vardır.

Atalar sözləri və aforizmlərin müqayisəsi onların bir-biri ilə əlaqəsini də aşkarlamağa imkan verir. Faktlar göstərir ki, bir sənətkarın yaradıcılığında müşahidə olunan aforizm xalq yaddaşında özünə möhkəm yer tutmuş atalar sözləri ilə sırf bağlıdır.

Nümunə üçün qeyd edək ki, Səməd Vurğunun aşağıdakı misraları hikmətli kəlam kimi daha çox tanışdır:

“Qızılı örtsə də, qara torpaqlar
Yenə qiymətini özündə saxlar”.

Bu misralar xalqın yaratdığı atalar sözü səviyyəsində yaddaşlarda qalır və həmişə də öz həyati gücünü qoruyub saxlayır. Bu misralar vasitəsilə yaxşı və pisi fərqləndirmək, dəyəri olanla dəyərsizi seçmək asanlıqla mümkündür. Başqa sözlə, həmin misraları bir çox həyat hadisələri fonunda örnək kimi də qəbul etmək olar.

Məsələ burasındadır ki, sənətkar fərdi düşüncədə cilalanıb. Bu dil xalq təfəkkürü ilə yaranan bəzi atalar sözləri ilə də tam səsləşir. Nümunə üçün qeyd edək ki, el arasında “Saxla samanı, gələr zamanı” kimi atalar sözü (1, s.563) məşhurdur. Həmin atalar sözünü Səməd Vurğuna aid misraların mənbəyi də hesab edilə bilər. Ancaq unutmaq olmaz ki, həmin atalar sözü sırf samanla, otla bağlı atalar sözü deyil. Yəni orada bir məcazilik vardır. Bu məcazilik həmin atalar sözünün həm dəyərini artırır, həm də uzunömürlü edir. Eyni sözləri “Saxla gönü, gələr günü” (1, s.563) atalar sözünə şamil etmək olar. “Hər parıldayan qızıl olmaz” (1, s.660) – bu atalar sözü isə dəyəri olanla dəyəri olmayanın müqayisəsi əsasında yaranıb. Əgər bunları cəmiyyətə aid etsək, onda belə bir qərara gəlmək olar ki, həm atalar sözlərində, həm də Səməd Vurğunun misralarında qədirşünaslıq ideyası qabarıq əks olunmuşdur.

Səməd Vurğunun daha çox məşhur olan başqa misralarında da atalar sözlərinin gücü vardır. Həmin misralar belədir:

“Günəşi örtsə də qara buludlar,
Yenə günəş adlı bir qüdrəti var”.

Əvvəlcədən qeyd edim ki, xalq yaradıcılığında və yazılı ədəbiyyatda Günəş obrazı daha geniş yayılmış obrazlardan biridir. Müəyyən mərasimlərdə, xalq həyatı ilə bağlı olan adət - ənənələrdə günəş işıq kimi, həyat mənbəyi kimi tez – tez təkrar-

lanır. Ona görə də insanlar günəşin qüdrətinə inanır, onun sönməz, əbədi olmasına şübhə etmirlər. Bu baxımdan Səməd Vurğunun günəş adlı qüdrətin həmişə yaşayacığı barədə düşüncəsi həyati əsaslara malikdir. Eyni düşüncəni atalar sözlərində də arayıb tapmaq çətin deyil. Məsələn: "Gün doğuşundan bəllidir" (1, s.468). Yaxud: "Gün öz işığını heç kəsdən əsirgəməz" (1, s.468) həm xalq düşüncəsində, həm də sənətkar təxəyyülündə formalaşan hikmətli kəlamlar fərdlə xalqın sıx əlaqədə olması faktını təsdiqləyir.

Sənətkarların yaradıcılığında müxtəlif məqamlarda deyilən elə aforizmlər də vardır ki, onlar həm bir – birini tamamlayır, həm də xalq təfəkkürü ilə bağlı olduğunu nümayiş etdirir. Nizami Gəncəvi yaradıcılığında aşağıdakı nümunə buna sübutdur:

"Bir inci saflığı varsa da suda
Artıq içiləndə dərd verir su da.
Sözün də su kimi lətafəti var
Hər sözü az demək daha xoş olar".

Yaxud:

"İncitək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin".

Tam təsdiq edilir ki, bir sənətkarın yaradıcılığında müxtəlif məqamlarda söylənən bu iki fikir eyni bir xətti ifadə edir. Belə bir xətt xalq təfəkkürünün məhsulu olan iki müxtəlif atalar sözündə də özünü göstərir:

"Artıq tamah daş yarar,
Daş qayıdar baş yarar" (1, s.70)

Yaxud:

"Danışmaq gümüş olsa, danışmamaq qızıldır" (1, s.279)

Atalar sözləri ilə aforizmlərin müqayisəsi başqa bir cəhəti də meydana çıxarır. Bu cəhət isə ondan ibarətdir ki, iki müxtəlif dövrdə yaşayan ayrı-ayrı sənətkarların yaratdıqları aforizmlər xalq təfəkkürünün məhsulu olan atalar sözləri ilə uyğun gəlir. XII əsrdə yaşamış Nizami Gəncəvi "Sirlər xəzinəsi" poemasında yazır:

“Kamil palançı olsa da insan
Yaxşıdır yarımçıq papaqçılıqdan”.

XX əsrdə yaşamış Hüseyn Cavid də belə yazır:

“İştə bax, axsaqlar rəqs təlim ediyor”.

Hər iki sənətkar müxtəlif əsrlərdə yaşamaqlarına baxmayaraq, öz əsərlərində həyatın və insanın dəyəri haqqında daha çox bəhs etmişdir. Bu sənətkarların humanizminin mahiyyəti də elə bundadır. Onların qələmə aldığı həmin aforizmlərin müqabilində atalar sözləri içərisində uyğun gələn kifayət qədər nümunələr də vardır:

“İgid ölər, adı qalar, müxənnətin nəyi qalar?”. (1, s.356), “Zər qədrini zərgər bilər” (1, s.344). “Ağ ayranı itə tökərlər, qara kişmişi cibə” (1, s.16). İnsanlar arasında geniş yayılmış “Çörəyi ver çörəkçiyə, birini də üstəlik” atalar sözləri də məhz bu qəbildəndir.

İstər xalq tərəfindən yaradılan atalar sözləri, istərsə də ayrı – ayrı sənətkarlar tərəfindən qələmə alınmış aforizmlər xalqın milli sərvətidir.

## QAYNAQLAR:

1. Atalar sözləri. Bakı, Yazıçı, 1985.
2. Cavid H. Əsərləri, III c., Bakı, Yazıçı, 1984.
3. Cavid H. Əsərləri, IV c., Bakı, Yazıçı, 1985.
4. Vurğun S. Əsərləri (beş cilddə), II c., Bakı, Şərq-Qərb, 2005.

# BƏKİR ÇOBANZADƏ VƏ FOLKLOR

**Cəlal QASIMOV**
***fil.ü.e.d., professor,***
***AMEA Folklor İnstitutunun***
***"Folklor və yazılı ədəbiyyat" şöbəsinin***
***aparıcı elmi işçisi***

XX əsrin əvvəllərində ictimai-siyasi həyatda baş verən yeniləşmələr ədəbi düşüncəyə də təsirsiz qalmadı. Xalq sərvətlərinin toplanması, nəşri və təbliği dövrün aktual probleminə çevrildi. "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin (ATTC) nəzdində folklor komissiyasının yaradılması, bu sahənin dövlət himayəsinə keçməsi, eləcə də onun tərəfindən maliyyələşdirilməsi toplama və nəşr işlərinin mütəmadi, sistemli və yeni elmi prinsiplər əsasında aparılmasına şərait yaratdı. Mətbu orqanlarda folklora dair yüzlərlə elmi məqalələr (hər məqalədə sosializm möhrünü görsək belə) nəşr edildi. Nəticədə, böyük bir folklorşünas nəsli yetişməyə başladı və beləliklə də, 1920-1930-cu illərdə folklorşünaslığın – folklor elminin əsası qoyuldu. Azərbaycanın bir çox ziyalıları kimi professor B.Çobanzadə də bu elmin yaranması və formalaşmasında özünün professional alim sözünü dedi.

Xalq ədəbiyyatının əhəmiyyətini, yerini və mövqeyini yüksək qiymətləndirən alim xalqı bütün ruhu, həyəcanları ilə təsvir edən ədəbiyyatı xalq ədəbiyyatı adlandırır və onu yazılı ədəbiyyatın, elmin və ədəbi dilin təməli hesab edirdi. Deməli, bu ədəbiyyat vasitəsi ilə xalqın tarixini, həyatını, yaşam tərzini, bir sözlə keçdiyi tarixi inkişaf mərhələlərini öyrənmək olar. Bundan başqa, alim xalq ədəbiyyatını yazılı ədəbiyyata nisbətdə "daha ziyadə cahani" (5, 32) əhatə etdiyini göstərirdi.

Bəkir Çobanzadə folklorun mənşəyindən bəhs edərkən göstərirdi ki, türk xalq ədəbiyyatı türk xalqı ilə birgə doğulmuş

və təkamül edərək günümüzə qədər gəlib çıxmışdır. Folklorun mənşəyi işlə, kollektiv əməklə bağlıdır deyən alim yazırdı: "İbtidai xalqların şer və sənətləri elə təbiət və iş arasında vasitəsiz bir bağ bulunduğunu görməmək qabil degil... Xalq şərqilərinin çox bir qismi xırman basmaq, buğda üyütmək, yun əyirmək, xalı toxumaq, yekə evlər qurmaq... kibi camaatla yapılan işlər zamanında söylənən şeirlərdir. Təbii, türk-tatar şeiri bu gün artıq ümumiyyətlə ibtidai şeirlərdən, heç olmazsa, mündəricəsi etibarilə uzaqlaşmış bulunduğundan belə toplu iş zamanlarında söylənən şərqilərin mövzusu, işin özünə deyil, bəlkə, başqa həyati nöqtələrə aid ola bilər" (6, 187).

Müəllifin professional dilçi, filoloq olduğunu nəzərə aldıqda onun bu fikirləri həmin dövr Azərbaycan folklorşünaslığının elmi-nəzəri səviyyəsi və həm də "folklor" konseptinə o dövrün elmi münasibəti haqqında təsəvvür yaradır. Bu cəhətdən B.Çobanzadəyə görə, türk folkloru ilk növbədə bu etnosun yaradılışının ayrılmaz tərkib hissəsidir. Müəllifin "türk xalq ədəbiyyatının türk xalqı ilə birgə doğulması" haqqındakı fikri gəlişi gözəl ifadə, yaxud türk folklorunun qədimliyini göstərən məcaz olmayıb, B.Çobanzadənin folklorun, şifahi sözün, ümumən poetik fikrin mənşəyi haqqında öz dövrünün elmi-nəzəri fikirlərinə bələd olduğunu ortaya qoyur. Belə ki, o, peşəkar linqvist alim olaraq öz dövrünün linqvogenezlə bağlı nəzəriyyələrinə, o cümlədən sözlə onun daşıdığı məna arasındakı semantik sahənin təşəkkül tarixinə öz dövrünün nəzəri baxışlarına bələd idi. B.Çobanzadə aydın şəkildə dərk edirdi ki, səslərdən təşkil olunan söz işarəyə çevrilən andan, yəni hansısa mənanı ifadə edən andan həm də ədəbiyyatdır. Çünki sözlə insanın qavraya bildiyi maddi və mənəvi olan hər bir şey işarələnir. Ədəbiyyat insanın öz hisslərini sözlə işarələməsindən başlanır. Bu cəhətdən türk folklorunun, türk şifahi poetik düşüncəsinin yaranması elə türk xalqının yaranma tarixi ilə üst-üstə düşür. Çünki bir folklor bütün hallarda onu yaradanların düşüncəsi və sözlü tarixidir. Bioloji varlıq olan

insan ictimailəşəndən, yəni özünü bir ictimai varlıq – insan kimi dərk edəndən öz kimliyi, mənşəyi haqqında düşünüb. Bu düşüncələr insanın, kainatın və "hər şeyin" mənşəyi haqqında miflərə çevrilib. Miflər isə ədəbiyyatın bünövrə daşı, ilk pilləsidir.

B.Çobazadənin türk folklorunun "təkamül edərək günümüzə qədər gəlib çıxması" haqqındakı fikri də özündə böyük məna daşıyır. Burada diqqəti cəlb edən əsas ünsür türk şifahi ədəbiyyatının "təkamül etməsi" haqqında konseptdir.

"Təkamül" marksist-leninçi fəlsəfənin, o cümlədən bu fəlsəfə əsasında yaranmış bolşevik-kommunist ideologiyasının ən əsas fəlsəfi-ideoloji anlayışıdır. Bütövlükdə materialist olan, idealizmi hər cür təsəvvürləri səviyyəsində inkar edən materializmə görə, şüur yüksək təşəkküllü materiyanın xassəsidir. Başqa sözlə, dünyanı dərk etmə və yenidən yaratma vasitəsi, aparatı, mexanizmi olan şüur materiyanın təkamülü nəticəsində meydana çıxmışdır. Bu cəhətdən təkamül təkcə B.Çobanzadənin deyil, eləcə də bütün sovet alimlərinin gerçəkliyin hər cür təzahür tipinə və şəklinə münasibətdə dəyərləndirmə etalonudur. Sovet ideologiyası təkamüldən qıraqda olan heç bir elmi və alimi qəbul etmirdi. Bundan dolayı B.Çobanzadənin də türk şifahi ədəbiyyatının türk xalqı ilə birlikdə təkamül etməsi haqqındakı fikri hər şeydən əvvəl folklora yanaşmada hakim fəlsəfənin baxışlarını əks etdirir. Lakin digər tərəfdən unutmaq olmaz ki, B.Çobanzadə peşəkar alim idi. O, təkamül konseptini materiyanın mövcudluğunun zəruri üsulu kimi də qavrayırdı. Təkamül – hərfi anlamda mükəmməlləşmə, kamilləşmədir. Doğrudan da, türk etnosunun yaranması ilə təşəkkül tapan türk şifahi xalq ədəbiyyatı bu etnosun inkişafı ilə mükəmməlləşərək qiymətli mənəvi xəzinə halına gəlmişdir.

B.Çobanzadənin folklorun mənşəyini işlə, kollektiv əməklə bağlaması da, heç şübhəsiz ki, dövrün ideologiyası ilə bağlı idi. İnsanın əmək vasitəsilə meymundan insana çevrildiyinin əsas götürüldüyü **marksist-leninçi fəlsəfədə əmək təkcə yara-**

**nışın əsası kimi deyil, eyni zamanda mövcudluğun yeganə mütərəqqi forması hesab edilirdi. Bu cəhətdən B.Çobanzadənin ilkin ədəbiyyata yaranma qaynağı kimi "əmək" faktoruna münasibəti tam səmimi və təbiidir.** Doğrudan da, ibtidai folklorun məzmunu, mahiyyəti və forması əməklə qırılmaz tellərlə bağlıdır. Xalq təsərrüfatının müxtəlif sahələri ilə bağlı olan folklor nümunələrinin forması da bir çox hallarda əmək prosesi ilə bağlıdır. "Bir, iki, ho, güc ver" kimi nitq folklorunun ritm, qafiyə, forma strukturu görülən işin formal srtukturunu inikas edir. Digər tərəfdən, ilkin folklor nümunələrinin magik-mistik qüvvələrlə bağlı olduğunu, başqa sözlə, bu qüvvələrə təsir etmək məqsədini güddüyünü nəzərə alsaq, onda bu folklor örnəklərinin də formal strukturu da "görülən işin" strukturunun inikas olunduğunu təsdiq etməliyik. Məsələn, ilanlarla bağlı ovsun nəğmələrində ovsunçunun ilanlarla davranışının (işinin) ahəngi əks olunur. İlanlarla "işləyən" ovsunçu təsir etmək istədiyi obyektin (ilanın) davranışına uyğun səs ahəngi, ritm seçir. Beləliklə, görülən işin məzmunu və forması bədii mətnin məzmununda və formasında öz əksini tapır.

XX əsrin aktual problemlərindən olan ədəbiyyatın, eyni zamanda folklorun qarşılıqlı təsiri məsələsi də B.Çobanzadənin yaradıcılığından kənarda qalmamışdır. **Məlumdur ki, hər bir xalqın şifahi ədəbiyyatı, folkloru həmin xalqın ədəbi zövqüdür. Ədəbi təsir də həmin ədəbi zövqün fəlsəfi mükəmməlliyindən və estetik gözəlliyindən asılıdır. Lakin təsir məsələsini yalnız əsərin fəlsəfi yükü və ya estetikası ilə məhdudlaşdırmaq olmaz, burada xalqların ictimai-siyasi, iqtisadi-ticari və sair əlaqələri də mühüm rol oynayır.** Bütün bu xüsusiyyətləri nəzərə alan alim yazırdı: "Bir şair, yaxud bir ədib, filosofun digəri üzərinə təsiri ədəbi, fəlsəfi məsələ olmaqdan ziyadə, ictimai bir məsələdir ki, mahiyyət və səbəbiyyəti ancaq bütün bir əsr və bu əsrdə təsir alan və təsir edən tərəfin ictimai vəziyyəti, yəni mənsub olduqları sinfin cürbəcür halları – iqtisadi, siyasi,

ədəbi məziyyətləri – bu təqlid və yaxud mübadilədə hesaba alınmaq lazım gəlir” (6, 192).

Bu fikirdə dövrün ictimai ideologiyasının inikas olunduğu şübhəsizdir. Əlbəttə, indiki dövrdə ədəbi təsirlə bağlı yeni nəzəri fikirlərin işığında B.Çobanzadənin bu fikri ilə mübahisə də etmək olar. Lakin mürəkkəbliyi haqqında geniş şəkildə bəhs etdiyimiz və əksər hallarda fikirlərin onların müəlliflərinin narahat, çətin psixoloji-mənəvi durumlarından qaynaqlandığını dəfələrlə qeyd etdiyimiz dövrün müəllifləri ilə mübahisəni biz birmənalı şəkildə artıq hesab edirik. B.Çobanzadə öz dövrünün oğlu idi və dövr elə idi ki, onun ideoloji-fəlsəfi qəliblərindən qıraqda duraraq nə isə yazmaq mümkün deyildi. Çünki qeyri-materialist konsepsiya ilə nə isə yazmaq üçün bu məkandan kənarlaşmaq, onun hüdudlarından qırağa çıxmaq lazım idi. Göz bəbəyi kimi qorunan dəmir çəpərlər buna yer qoymurdu. Lakin B.Çobanzadənin bu fikrində ideoloji pərdənin altında müəllifin öz baxışları var. Bu cəhətdən bir yaradıcı subyektin digərinə təsirini ictimai hadisə hesab edən alimin bunu təsir prosesinin subyekti və obyekti rolunda çıxış edənlərin “iqtisadi, siyasi, ədəbi məziyyətləri” ilə əlaqələndirməsi dövrün ideologiyası ilə bağlı olduğu halda belə, düzgün yanaşmadır.

Professor B.Çobanzadə yazılı ədəbiyyatımızın əvvəllər ərəb-fars, bir qədər sonra isə Avropa təsiri altına düşdüyünü iddia etsə də, xalq ədəbiyyatı barədə eyni qənaətdə deyil. Alim göstərirdi ki, islamiyyətdən sonra türklər orijinal bir ədəbiyyat meydana gətirmişlər ki, buna “təsəvüf-aşıq ədəbiyyatı” deyirlər. Onun fikrincə, türk xalq ədəbiyyatı həm forma, həm də məzmunca ərəb-fars xalq ədəbiyyatından daha üstündür. Türk-tatar xalqlarının şifahi ədəbiyyatının zənginliyinə bələd olan alim qeyd edirdi ki, eyni müqayisəni Qərb ədəbiyyatı ilə də aparsaq, yenə də üstünlüyü türk xalqlarının folkloruna verəcəyik: “Çünki, Avropada şəhər ədəbiyyatı, ümumi təhsil, teatrolar geniş inkişaf etmiş, mətbəələri, nəşriyyatı ədəbiyyatdakı xalq yaradıcılığını artıq çoxdan zəiflətmiş və bir çox yerlərdə öldürmüşdür” (5, 146).

B.Çobanzadənin bu fikri, əslində, türk şifahi ədəbiyyatının türk xalqının inkişafı ilə təkamül etməsi haqqındakı qənaətini inikas edir. Doğrudan da, hər bir folklor onun daşıyıcılarının həyat tərzini həm əks etdirir, həm də bu həyat tərzi ilə dəyişir. Məsələn, Şimali Azərbaycan folklor yaradıcılığı ilə Cənubi Azərbaycandakı folklor yaradıcılığı eyni templə dəyişmir. Şimali Azərbaycanda keçən əsrdə şəhərlərlə bərabər kəndlərin elektrikləşdirilməsi, bunun əsasında radio və televiziyanın ən ucqar kəndlərə belə gedib çıxması bir çox folklor janrlarının inkişafını dayandırdı. Elektrik işığının və buna uyğun olaraq radio və televiziyanın olmadığı dövrdə xalq uzun qış gecələrini kiminsə evində yığışıb əylənməklə keçirərdi. Bu gecələrdə adamlar nağıl, əfsanə, rəvayət danışar, uşaqlar icrasına otağın imkan verdiyi oyunlar oynar, çoxlu tapmacalar və s. söylənərdi. Bu, birmənalı şəkildə folklor mühiti, folklor həyatı, folklorla yaşanan həyat idi. Radio-televiziya bu həyata radikal dəyişikliklər etdi. B.Çobanzadə də Avropada şəhər ədəbiyyatının, ümumi təhsil, teatrların geniş inkişaf etməsinin, mətbəələrin, nəşriyyatların ədəbiyyatdakı xalq yaradıcılığını artıq çoxdan zəiflətməsini deyərkən məhz bunu nəzərdə tuturdu. Başqa sözlə, elmi-texniki inkişaf folklor yaradıcılığını tam aradan qaldıra bilməsə də, onun bir çox janrlarının canlı mövcudluğuna son verir. Məsələn, hazırda aşıqlar heç bir məclisdə dastan ifa etmirlər. Dastanlar canlı yaradıcılıq hadisəsi kimi öz funksionallığını itirmişdir. Amma bu, folklor yaradıcılığının ümumən aradan qalxması demək deyil. Nitq folkloru ilə bağlı janrlar öz funksionallığını həmişə saxlayır. Məsələn, şəhər mühitində lətifə (anekdot), dedi-qodu, şayiə kimi janrlar öz funksionallığını daha da artırır. Lakin bizimlə müqayisədə Cənubi Azərbaycanda folklor yaradıcılığı hələ də aktualdır. Cənubda bir çox yerlərin pis elektrikləşməsi, elat-tərəkəmə həyat tərzinin hələ də mövcudluğu, həmçinin dini folklorun inkişafına rəsmi ideologiya tərəfindən təkan verilməsi canlı folklor mühitlərini qorumaqdadır.

Digər tərəfdən, burada qeyd olunması vacib olan başqa bir amil də var. Bu, folklorun etnik özünümüdafiə, özünüqoruma funksiyasıdır. Bu funksiyanı Şimali Azərbaycanda çox zəif şəkildə müşahidə etmək olar. Cənubda isə fars dili və mədəniyyətinin hegemonluğu, Azərbaycan-türk dili və mədəniyyətinin inkişafına törədilən rəsmi əngəllər folkloru etnik özünüqoruma sisteminə çevirmişdir.

Qeyd edək ki, bu, universal bir qanunauyğunluqdur. Azlıqda, yaxud etnik-mədəni basqıda qalan xalqın folkloru onun qoruyucu sisteminə çevrilir. Bunu Gürcüstan azərbaycanlılarının müasir həyatının nümunəsində də görmək olur: "Ana etnosdan siyasi, inzibati, linqvistik, mədəni və s. cəhətlər baxımından ayrı düşmüş etnik toplumlarda etnoqrafik özünəməxsusluqlar milli özünüqoruma və özünüyaşatma mexanizmlərinə çevrilir. Eləcə də Gürcüstanda minillərdən bəri öz ana vətənlərində (torpaqlarında) yaşayan Azərbaycan türkləri zamanla milli hüquqlarından (milli məktəb, milli dildə tədris, tarixi etnotoponimika, milli-mədəni özünüfadə və s.) məhrum olduqca toplumun etnik kimlik atributları onları Azərbaycan türkləri kimi qoruyan və yaşadan formullar olaraq aktivləşmişdir. Belə toplumlarda zaman sanki donur. Azərbaycan ədəbi dili ilə, xüsusilə orta məktəb vasitəsi ilə həyata keçirilən, birbaşa əlaqəsi kəsilən məhəlli dialekt, etnoqrafik yaşam tərzi, milli adət-ənənələr, bayram və mərasimlər milli həyatın, etnik mövcudluğun əsas və dominant özünütəşkil sxemləri səviyyəsinə qalxır. Bundan dolayı Gürcüstandan Bakıya gəlib ədəbi mühitdə fəaliyyət göstərən azərbaycanlı yazıçı və şairlərin bədii dilində, ədəbi düşüncəsində fərqli, oxucuların və tənqidçilərin milli yaddaşını oyadan koloritli etnoqrafizm boy verir. Onlar ya şair Zəlimxan Yaqub kimi daha çox xalq şeiri üslubunda, milli poetik ənənə əsasında şeirlər qoşur, ya da yazıçı Mövlud Süleymanlı kimi öz bədii təsvirlərində canlı tarixi-etnik kolorit yarada bilirlər" (16, 3-4).

B.Çobanzadənin fikrincə, ədəbi təsir həmişə və hər yerdə qarşılıqlı təsirə çevrilmir. Bu, bir çox hallarda birtərəfli olur. "Bu günə qədər ədəbiyyatımız Avropa ədəbiyyatından aldıqlarını geri çevirməmişdir" (6, 193.) – deyən B.Çobanzadə bunun səbəbini "hakim siniflərimizin feodal, xırda-burjua mədəni səviyyəsinin çox aşağı olması" ilə izah edirdi. B.Çobanzadə şifahi xalq ədəbiyyatına münasibətdə isə tamamılə başqa mövqedə idi: "Türk-tatar xalq ədəbiyyatı və yaxud xəlqi ədəbiyyatı başqa xalqların ədəbiyyatlarına təsirdən geri durmamışdır. Türk xalq ədəbiyyatının erməni, rus, rumın, macar, fars …xalq ədəbiyyatları üzərinə təsiri bu qəbildəndir" (6, 193).

B.Çobanzadənin türk yazılı ədəbiyyatı ilə şifahi ədəbiyyatının müqayisəsi üzərində gəldiyi bu nəticəyə haqq verməmək olmur. Doğrudan da, türk eposunun müxtəlif janrları qədim rus eposuna, xüsusilə Avropa eposuna ciddi təsir göstərmişdir. Atilla dövrünün türklərinin Avropadakı zəfərləri onların həm də söz yaradıcılıqlarının zəfəri idi. Öz varlıqlarına qarşı Avropa xalqlarında yaratdıqları heyrət həmin xalqların türk eposuna olan maraqlarının da əsasında dururdu. Bu gün Avropa eposu türk eposundan gələn motivlərlə zəngindir. Xüsusilə Skandinav xalqlarının eposunda qədim türk dastanlarının izlərini adlarda, obraz və motivlərdə görmək mümkündür. Bu təsir orta əsrlərdə də davam etmişdir. Məsələn, təkcə "Koroğlu" eposunun taleyini xatırlamaq kifayətdir. Tanınmış alim S.Rzasoyun yazdığı kimi: "Azərbaycan folkloruna dünya şöhrətini bütün tarix boyunca bu dastan («Koroğlu» dastanı nəzərdə tutulur – C.Q.) gətirib erkən orta əsrlərdən bütün Avrasiya mədəni məkanına yayılaraq milli dastançılıq düşüncəmizi məşhurlaşdırıb. XIX əsrdən dastanın Avropa (şöhrətinin) tarixi başlanıb. Bu gün Azərbaycan qəhrəmanlıq və məhəbbət dastanları içərisində yayılma coğrafiyası, linqvistik arealı, tədqiqat tarixi «Koroğlu»ya bərabər ikinci dastanımız yoxdur. Hətta «Kitabi-Dədə Qorqud» kimi misilsiz abidəmiz bu göstəricilərə hələ indi-indi çatmaqdadır" (14, 11).

B.Çobanzadənin fikrincə, XI əsrdə yazılı ədəbiyyatın xalq ədəbiyyatı üzərində təsiri gücləndikcə ədəbiyyatla xalq arasında ilkin ünsiyyəti aşıqlar və sufilər yaratmışdır: “Orta Asiya dərvişləri Kiçik Asiya aşıqları ilə, daha doğrusu, cığatay sufi ədəbiyyatı ilə Osmanlı aşıq ədəbiyyatı, təbir caizsə, bütün türk aləmini aralarında paylaşdırmışlar” (6, 174.).

B.Çobanzadə türk dilçiləri arasında birinciliyi Mahmud Kaşqariyə verdiyi kimi folklorun toplanması sahəsində də birinciliyi ona verirdi: “Birinci türk xalq ədəbiyyatında yenə də məşhur Mahmud Kaşqaridir. Bu adam divanının dürlü yerlərində xalq ədəbiyyatından o qədər çox misal gətirmişdir ki, bunlar toplandığı təqdirdə on birinci miladi əsrə aid olduqca mühüm bir türk xalq ədəbiyyatı nümunələri məcmuəsi ortaya çıxar” (6, 174).

B.Çobanzadənin dərin filoloji müşahidələrinin nəticəsi olan bu qiymət sonrakı araşdırmalarla tam təsdiq olundu. A.Xəlil yazır ki, «Divan» həm də zəngin türk folkloru toplusudur. Folklor materialının böyük hissəsinin əski türk dilində saxlanması isə tədqiqatçı üçün dil spesifikasını da nəzərə almaqla daha geniş və sərbəst araşdırma imkanı verir. Təbii ki, əski mədəniyyətimizi belə mükəmməl şəkildə öyrənə bilməyimiz üçün böyük zəhmət və yüksək elmi istedad sayəsində ərsəyə gətirilmiş nəhəng abidənin müəllifi Ulu Bilginimiz Kaşqarlı Mahmud Hüseyn oğluna minnətdarıq. 930 il öncə türkoloji dilçiliyin əsasını qoymuş M.Kaşqarlı həm də daha bir elmin – türk folklorşünaslığının möhkəm təməlini hazırladığını xüsusi olaraq qeyd etməsə də, bunu “Kitab”dan aydın şəkildə müşahidə edirik (10, 28).

Müəllif öz fikrini təsdiq etmək üçün Kaşqarlı Mahmudun folklorşünaslıq fəaliyyətini aşağıdakı elmi prinsiplərə əsaslanaraq belə rekonstruksiya etmişdir.

1. Folklor materialının toplanması...
2. İnformatorun işarələnməsi...
3. Mətnlərin janr nominasiyası...
4. Dialekt xüsusiyyətlərinin saxlanması...

5. Variativliyin saxlanılması...
6. Mətnlərin müqayisəsi...
7. Mətnlərin təhlili... (10, 29-36)

Digər tərəfdən, B.Çobanzadənin Mahmud Kaşqari "Divan"ını sistemli bir "məcmuə" kimi görməsi də tədqiqatçılar tərəfində təsdiq olunmuşdur. A.Xəlil "Divan"ın bir məcmuə kimi universal quruluşunu belə səciyyələndirir:

1. "Divani lüğət-it-türk" (DLT) – ikidilli (türkcə-ərəbcə) lüğətdir;
2. DLT – izahlı lüğətdir;
3. DLT – ensiklopedik lüğətdir;
4. DLT – dialektoloji lüğətdir;
5. DLT – türk dilinin 8 bölmədən ibarət qrammatika kitabıdır;
6. DLT – tarix kitabıdır;
7. DLT – coğrafiya kitabıdır;
8. DLT – etnoqrafik topludur;
9. DLT – folklor toplusudur;
10. DLT – ədəbiyyat antologiyasıdır;
11. DLT – islamın ideoloji kitabıdır;
12. DLT – onomastik lüğətdir (11, 11).

Məlum həqiqətdir ki, folklorşünaslıq problemlərinin tədqiqi xalq ədəbiyyatının toplanması və nəşri işindən başlanır. Sovetləşməyə qədər folklorun toplanması və nəşri istiqamətində Azərbaycan ziyalıları tərəfindən müəyyən işlər görülsə də, bu olduqca az idi. 1920-ci ilə qədər ancaq bir neçə uşaq dərs kitabındakı beş-on atalar sözü, beş-altı tapmaca, beş-üç xırda xalq nağıllarından başqa, 1899-cu ildə Yerevanda çıxmış Qəmərli Məmmədvəlinin "Atalar sözü", bundan bir neçə il sonra çıxan Mirzə Məmmədin "Arvad ağısı", "Məclis yaraşığı", 1910-cu ildə çıxan (daş basması) "Molla Nəsrəddin lətifələri", 1912-ci ildə Bakıda Aşurbəylinin mətbəəsində çıxan "Balalara hədiyyə" kitabını və s. göstərmək olar.

Folklorşünasların qarşısında duran əsas vəzifələrdən biri folklor mətnlərinin xalq arasında işləndiyi kimi (dialekt, şivə və

ləhcələri qorumaqla) toplamaq idisə, ikinci məsələ toplama prosesində gənc qüvvələrin işinə nəzarət idi. Bu sahəyə lazımi diqqətin yetirilməməsi B.Çobanzadəni narahat edirdi. Doğrudur, o, folklorun toplanması, təhlili və təhsilə cəlb edilməsi istiqamətdə müəyyən işlərin görüldüyünü qeyd etsə də bununla kifayətlənməyi məqbul hesab etmirdi. Alim xalq ədəbiyyatının toplanması və təhlili sahəsində daha çox S.Mümtazın və Hənəfi Zeynallının əməyini yüksək qiymətləndirirdi.

Qeyd edək ki, folklorun kütləvi şəkildə, lakin müəyyən elmi prinsiplər əsasında toplanması özlüyündə müsbət hadisədir və ilk növbədə xalqın yaratdığı örnəklərin itib-batmasının qarşısını alır, eyni zamanda xalqın yaşam tərzinin, həyata və cəmiyyətə baxışlarının, keçdiyi tarixi inkişaf yolunun öyrənilməsini təmin edir. Lakin folklorun hansı prinsiplərlə toplanmasını bilməyənlərin bu işə kor-koranə qoşulması da müəyyən fəsadlar verirdi. Ona görə də B.Çobanzadə haqlı olaraq folklor toplayıcılarının elmi-nəzəri biliklərinin artırılmasını tələb edirdi.

Sovetləşməyə qədər folklor mətnlərinin toplanması daha çox fərdi maraqdan doğurdusa, bundan sonra bu nümunələrin toplanması planlı surətdə ekspedisiyalar və elmi ezamiyyətlər yolu ilə həyata keçirilirdi. ATTC-nin folklor seksiyası, Azərbaycan Ədəbiyyat Cəmiyyəti, xalq yaradıcılıq evləri, Yazıçılar İttifaqı, teatr muzeyi, konservatoriya, musiqi texnikumları, dərnəklər, bəzi məktəb və təşkilatlar toplanma işində xüsusi fəallıq göstərirdi. Bundan başqa, dövri mətbuat ("Kommunist", "Yeni yol", "Ədəbiyyat qəzeti" və "Azərbaycan kolxozçusu" qəzetlərinin, eləcə də "Dan ulduzu", "Maarif işçisi", "İnqilab və mədəniyyət", "Azərbaycanı öyrənmə yolu" məcmuələrinin…) vasitəsilə də əhaliyə müraciət edilir və xalq sərvətlərinin toplanmasında hamının səfərbər olması önə çəkilirdi. Məsələn, 1925-ci ildə "Yeni yol" qəzeti respublikanın əyalətlərindəki təhsil və mədəniyyət müəssisələrinə şifahi xalq ədəbiyyatı nümunələrinin

toplanılması üçün təlimat göndərildiyindən əldə edilən nümunələrin bir çoxu mütəmadi olaraq qəzetdə çap olunurdu.

Şifahi ədəbiyyatın ictimai həyatdakı rolunu yüksək qiymətləndirən B.Çobanzadə onun toplanmasının, tədqiqinin və tədrisinin lazımi səviyyədə olmamasından gileylənirdi. O hesab edirdi ki, atalar sözlərinin, dastan, tapmaca, zərbül-məsəlləri xalq ədəbiyyatının ən qiymətli nümunələrinin orta məktəblərdə tədrisi gənclərin formalaşmasında mühüm rol oynaya bilər. Ona görə də yazırdı: "Bu günə qədər qat-qat artmış geniş, dərin xalq ədəbiyyatımızı, qiymətli mədəniyyət xəzinəmizi məktəblərimizin tavanı altına, kitabxanalarımızın dolablarına və ən münasibi gənclərimizin atəşli dimaqlarına yerləşdirməliyik" (8, 45).

Şübhəsiz ki, B.Çobanzadə bu sözləri söyləyərkən folklorun milli-mənəvi əhəmiyyətini nəzərdə tuturdu. Müəllifin 1925-ci ildə "Maarif işçisi" jurnalında dərc olunmuş "Məktəblərimizdə xalq ədəbiyyatı" adlı məqaləsindən götürdüyümüz bu fikri həmin dövrdə milli ideyaların bolşeviklər tərəfindən hələ qanlı təqiblərə məruz qalmadığını göstərir. B.Çobanzadə milli ziyalı kimi bilirdi ki, milli vətəndaş yetişdirməyin yolu milli ənənələrin öyrənilməsindən keçir. Bunun ən böyük və əvəzolunmaz qaynağı isə xalq ədəbiyyatı – folklordur.

Folklorun toplanmasına bir nömrəli elmi-ədəbi və milli vətəndaşlıq vəzifəsi kimi baxan alim folklor nümunələrinin regionlarda məktəblilərin özləri tərəfindən toplanmasını daha məqsədəuyğun hesab edirdi: "Dastanlar, bilməcələr və zərbül-məsəllər xalq ədəbiyyatının ən qiymətli, hər cəhətdən ən faydalı və tədris tədqiqi ən asan olanlarıdır. Bu qismi xalq ədəbiyyatını məktəblərimizə keçirmək, onları bir addım belə Avropa, rus məktəblərindən geriyə çəkməz. Biləks onların səviyyəsinə daha çapuq irişdirər" (8)

B.Çobanzadə folklor örnəklərinin yalnız mütəxəssislər və ya alimlər tərəfindən deyil, müəllimlər və şagirdlər tərəfindən də toplanılmasını yüksək qiymətləndirirdi:

1. Hər şeydən əvvəl xalq dastan, bilməcə, atalar sözlərini toplamaq.

2. Sonra bunları hər hansı bir nöqteyi-nəzərdən (mövzularına görə, dillərinə görə, yaxud tələbələrin anlayış dərəcəsinə görə) siniflərə ayırmaq.

3. Məktəb ümumi iclasında (ədəbi axşamlar, bayram günləri) bunlarla tələbələri tanış etməli və onların bu yığılmış parçalar üzərində çalışmalarını, düşünmələrini, hətta əlavələr yapmalarını təlimə çalışmalı.

4. Böylə iclaslarda və axşamlarda tələbələrin məhəbbət və səmimiyyətini belə parçalara çevirdikdən sonra onları yavaş-yavaş dərsxanələrə soxmaq, orada oxutmaq və öyrətmək daha asan olur.

5. İş bu dərəcəyə vardıqdan sonra müəllim tələbələrin özlərini də bu xüsusda toplayıcı və tədqiqatçı olaraq qullana bilər. Tələbələrin toplandığı material nə qədər yanlış və faydasız olursa olsun, onun zehni inkişafı və tədqiqçilik damarının, ölkəşünaslıq sifətinin oyanması üçün böyük, pək böyük əhəmiyyəti vardır (8).

Qeyd edək ki, B.Çobanzadənin göstərdiyi bu 5 maddə özünə münasibətdə ayrıca təhlil tələb edir. Çünki bu 5 maddə, əslində, bir proqramdır və burada çox böyük vəzifələr nəzərdə tutulmuşdur. Bu cəhətdən, B.Çobanzadəyə görə, ilk növbədə xalq dastanları, bilməcələr (tapmacalar) və atalar sözlərini toplamaq lazımdır. Bu halda sual meydana çıxır: B.Çobanzadə zəngin folklor nümunələrimiz içərisində nəyə görə məhz bu janrların məktəblilər tərəfindən ilk növbədə toplanmasını zəruri hesab edirdi. O, nəyə görə nağılları, bayatıları, əfsanələri belə "təxirəsalınmaz" qruplara aid etmirdi?

Heç şübhəsiz ki, B.Çobanzadə burada folklor janrlarının məzmunundan daha çox, qeyd olunan janrların məktəb-tədrislə bağlı tərəflərini nəzərdə tuturdu. Belə ki, xalq dastanları bütün folklor janrları içərisində əlahiddə yerə malikdir. H.İsmayılov yazır ki, dastan epik sistemdə avtonom hüquqlara malikdir.

Əslində, dastan mətn avtonomiyası vardır. Xalq yaradıcılığı örnəklərinin digər elementləri onun strukturunda yalnız kanonik qəliblərə dola və ya hansısa vahidi əvəzləyə bilir. Amma dastanın strukturu dəyişmir; çünki o, sabit informasiya daşıyıcısı kimi bir işarə bütövüdür və mətn strukturunun sabitliyi həm də bununla bağlıdır (12, 295-296.).

Digər tərəfdən, "epos", sadəcə, dastan deyil, müxtəlif süjetlər, motivlər verən, mənsub olduğu xalqın ictimai-estetik təfəkkürünü bütövlükdə ifadə edən möhtəşəm dastan – potensiyadır. Onu tam halında bərpa etmək mümkün deyildir, mövcud mənbələr əsasında yalnız təsəvvür etmək mümkündür ki, həmin təsəvvür ideya-estetik, poetexnoloji, linqvistik və s. komponentlərin üzvi vəhdətindən ibarətdir (4, 12).

Göründüyü kimi, dastan elə bir janrdır ki, özündə epik, liirik və dramatik folklorun janrlarını, motivlərini, strukturunu birləşdirir. Bu cəhətdən məktəblilərin dastan toplaması onların Azərbaycan folklorunun universal janrı ilə ünsiyyəti deməkdir.

Atalar sözləri və bilməcələrə (tapmacalara) gəldikdə bunlar birbaşa təlim-tədrislə bağlıdır. Əslində, bu janrlar qədim dövrün bilikləri qoruma və yaşatma vasitələridir:

**Atalar sözlərində xalqın təcrübəsi ümumiləşərək, həyat və ictimai davranış normasına çevrilir.**

**Tapmacalarda etnosun əldə etdiyi biliklər qorunaraq, tapmaca tapmaq (sorğu-sual) yolu ilə gələcək nəsillərə ötürülür.**

B.Çobanzadənin daha sonra toplanmış folklor örnəklərinin mövzularına, dillərinə, yaxud tələbələrin anlayış dərəcələrinə görə siniflərə ayırmaq haqqındakı tövsiyəsi janr-növ təsnifatını nəzərdə tutur.

Janrlaşdırma folklorda ən mühüm və çətin məsələdir və hətta problemdir. Məsələnin problematikliyi folklorun bizim mənsub olduğumuz elmi məkanda yazılı ədəbiyyatın prinsipləri ilə təsnif edilməsindən irəli gəlir. Halbuki folklor sözlü nümunə-

lər dərəcəsində şifahi ədəbiyyat ola bilir. Lakin o, bütöv olaraq ədəbiyyat deyildir və bu halda ona ədəbiyyatın növ təsnifatının tətbiq olunması folklorun öz poetikası əsasında təsnifatının aparılması məsələsinin böyük bir problem olduğunu bir daha göstərir.

Məktəblilərə gəlincə, onların toplanmış folklor nümunələrini janrlaşdırması folklorun elmi dərki istiqamətində atılmış ilk mühüm addımdır. Janrı tanımaq mətni poetik əlamətlərinə görə tanımaq və nəhayət, həmin poetik əlamətləri bilmək deməkdir. Bu isə artıq folklorşünaslıq biliyidir. Məktəbli-tələbələrin belə biliklərə malik olması onların gələcəkdə folklorla peşəkar şəkildə məşğul olmasının əsas şərtlərindən biridir.

B.Çobanzadənin "məktəbin ümumi iclasında (ədəbi axşamlar, bayram günləri) toplanmış folklor nümunələri ilə tələbələri tanış etmək, onların bu yığılmış parçalar üzərində çalışmalarını, düşünmələrini, hətta əlavələr yapmalarını təlimə çalışmaq, o cümlədən belə iclaslarda və axşamlarda tələbələrin məhəbbət və səmimiyyətini belə parçalara çevirdikdən sonra onları yavaş-yavaş dərsxanələrə soxmaq, orada oxutmaq və öyrətmək" haqqındakı tövsiyəsi milli-mənəvi yaddaşın azərbaycanlı psixologiyasında oyadılması, folklor əsasında məqsədli təlim aparılması haqqında proqramdır. Qeyd edək ki, B.Çobanzadənin bu tövsiyəsi folklora barmaqarası baxan bəzi ziyalıların yanıldığını və eyni zamanda müasir Azərbaycan dövlətinin beynəlxalq mədəni siyasətində folklorun (muğam, saz-aşıq, xalça, Novruz bayramı və s.) dominant mövqeyə çıxarılmasının nə qədər böyük və müdrik siyasət olduğunu göstərir.

B.Çobanzadə hesab edirdi ki, əgər məktəblərdə iş bu istiqamətdə qurulsa, gənc nəslin nümunəsində folklorşünaslar əmələ gələr və onların folklorşünaslıq fəaliyyətləri gördüyü işlərin keyfiyyətindən asılı olmayaraq, əsas məqsədə – milli vətəndaş yetişdirmək məqsədinə nail olmağa gətirər.

Region folklorunun məktəblilər tərəfindən toplanması alimin fikrincə, eyni zamanda, bir neçə cəhətdən əhəmiyyətli idi.

1. Regionların folklor materiallarının toplanması və onların itib-batmasının qarşısının alınması baxımından;

2. Məktəblilərdə toplayıcılıq qabiliyyəti aşılamaq və xalq ədəbiyyatını sevdirmək baxımından;

3. Toplanmış materialları təhlil etməklə məktəblilərdə tədqiqatçılıq meyilləri və milli adət-ənənələrə sevgi aşılamaq baxımından;

4. Məktəblilərdə "ölkəşünaslıq sifətinin oyanması", vətənpərvərlik hisslərinin güclənməsi baxımından.

Onu da qeyd etməliyik ki, bəzi qüvvələr xalq ədəbiyyatının məktəblərə daxil olmasının, onun tədrisinin tərəfdarı deyildi. Onlar iddia edirdilər ki, «Xalq ədəbiyyatı müasir ruhdan uzaq, mühafizəkardır», «xalq ədəbiyyatı fanatizm, feodalizm, xurafat dövrünün izlərini daşıyır», «xalq ədəbiyyatı yekparə bir şey deyil, bəlkə, yaxınlaşdığı zaman sərab kibi uçan, buz kibi əriyən, nə dil, nə də mündəricə etibarilə qayda və qanun içərisinə alınmayan bir şeydir» (6, 177).

B.Çobanzadə iki hissədən ibarət olan «Türk dili və ədəbiyyatının tədris üsulu» əsərində yazırdı: «Ədəbiyyatın və bədii sözün tədqiqi ətrafında məktəblərdə çox qüvvətli və faydalı bir təşkilat meydana gətirmək və bu surətlə sözün təşkiledici qüvvəsindən şüurlu surətdə ta məktəb sıralarında, dərsxanələrdə xəbərdar olmaq çox mühümdür» (7, 105-106).

Yeri gəlmişkən qeyd etməliyik ki, türk xalqlarının dilini, ədəbiyyatını və folklorunu, eləcə də onların elmi-nəzəri prinsiplərini, inkişaf mərhələlərini öyrənmək baxımından B.Çobanzadənin «Türk dili və ədəbiyyatının tədris üsulu» əsəri olduqca qiymətli bir mənbədir. Alimin bu əsərini orta və ya ali məktəblərdə dilin, eyni zamanda ədəbiyyatın tədrisi ilə məhdudlaşdırmaq olduqca ədalətsizlik olardı. Hesab edirik ki, bu kitab dövrü üçün ciddi bir tədqiqat əsəri, mükəmməl bir monoqrafiyadır.

B.Çobanzadənin xalq ədəbiyyatının poetik mahiyyəti ilə bağlı fikirləri diqqəti xüsusi cəlb edir. O yazır: "Bizdəki xalq

ədəbiyyatının iki ünsürü vardır. Birincisi bütün türk xalqları üçün ümumi ünsürdür ki, bu ümumilik şəkildə, mündəricədə özünü göstərir. İkincisi, hər qrupun, hər şivənin doğurduğu ədəbiyyatda özünəməxsus əlamətlər, şəkil-üslub, nəma-mündəricə damğaları vardır" (6, 176).

Burada diqqəti cəlb edən odur ki, B.Çobanzadə folklor mətnində ümumi olanla xüsusi olanı, başqa sözlə, ümumi etnik köklə bağlı olan səviyyə ilə milli səviyyəni bir-birindən fərqləndirir.

Doğrudan da, istənilən xalqın folkloru onun keçdiyi bütün tarixi öz strukturunda inikas edir. Tarix bütün hallarda folklor mətnində işarələnir. Folklor mətnini təhlil edən tədqiqatçının ilk işi həmin səviyyələri bir-birindən fərqləndirə bilməsidir. Bunun üçün tədqiqatçı mətni mənalı işarələrin sistemi kimi təsəvvür etməyi bacarmalıdır. Bu, mətnə işarələr sistemi, başqa sözlə, semiotik səviyyədə yanaşmadır. B.Çobanzadə birbaşa semiotika terminindən istifadə etməsə də, o, mətndə işarələrin ünvanını dəqiq göstərmişdir. Bu, mətnin məzmun və şəkil (forma) əlamətləridir. Alimə görə, ümumi köklə bağlı səviyyə (ünsür) mətnin şəklində (formasında) və mündəricəsində (məzmununda) özünü göstərir. Bu qeyd olunan ünsür mətnin invariant (bütün variantlar üçün ümumi olan) əlamətləridir. İkinci səviyyə-ünsür isə artıq milliləşmə dövrü ilə bağlı məzmun və forma əlamətlərdir.

B.Çobanzadə təəssüf hissi ilə qeyd edir ki, "hər halda xalq ədəbiyyatımızın şəkil və mündəricəsi olduqca zəngindir və şimdiyə qədər törənən şair və mühərrirlərimiz tərəfindən gərəyi kibi tədqiq, təhlil və istifadə edilməmişdir" (6, 176).

Bir alim kimi bu səviyyələri bir-birindən dəqiq şəkildə fərqləndirən B.Çobanzadə göstərir ki, yazılı ədəbiyyatımız fars və ərəb ədəbi nümunələrinə bağlı olduğu halda, xalq ədəbiyyatımız daha ziyadə müstəqil, daha ziyadə orijinaldır. «Ta on beşinci əsrdə böyük türk şair və filosofu Mir Əlişir Nəvai bunun fərqinə varmışdır. Çünki onun «Mühakimətül-lüğəteyn» namın-

dakı əsərində fars dilinə qoyduğu türk dili ədəbi türk dili olmayıb, xalq dilidir» (6, 176).

Bu xüsusda alimin bir fikri diqqəti cəlb edir: «Yazılı ədəbiyyatımız hənuz təşəkkül və təəzzüv etməmişdir və xalq ədəbiyyatına bağlanmadıqca buna imkan da yoxdur” (6, 177).

Fikir ilk baxışda mübahisəlidir və ona görə də təhlil edilməyə möhtacdır.

Təşəkkül – şəkillənmə, təəzzüv – üzvlənmədir. B.Çobanzadəyə görə yazılı ədəbiyyat hələ nə şəkillənmiş, nə də üzvlənmişdir. Bu, ilk baxışda paradoksdur. Lakin fikri öz kontekstində götürdükdə B.Çobanzadənin nə demək istədiyi aydınlığı ilə ortaya çıxır. O, “yazılı ədəbiyyatımız xalq ədəbiyyatına bağlanmadıqca” deyir. Demək, söhbət yazılı ədəbiyyatın öz üzünü, istiqamətini xalq ədəbiyyatına döndərməsindən, ərəb-fars dil və ədəbi təsirlərindən xilas olaraq xalq ədəbiyyatı əsasında yenidən şəkillənməsindən – təşəkkülündən və üzvlənməsindən – təəzzüvündən gedir. Deməli, B.Çobanzadə buna ədəbiyyatımızın öz məcrasına qayıtması və sağlam milli əsaslar üzərində inkişaf etməsi kimi baxırdı. Ona görə də alim yazır ki, “həman bütün mədəni xalqların dili və ədəbiyyatı xalq dili və ədəbiyyatı üzərində təməl atmış və meyvə vermiş olduğu bir zamanda yeni mədəniyyətə girməyə hazırlanan bizlər üçün bu cəhəti gözdən qaçırmaq heç də caiz deyildir” (6, 177).

B.Çobanzadə belə hesab edirdi ki, sağlam milli ədəbiyyatın yaradılması üçün yeganə qaynaq xalq ədəbiyyatıdır: “Xalq ədəbiyyatı bir çox ağır və qarışıq istilah və təbirlərdən qurtulmaq üçün yeganə çarədir” (6, 177).

Səciyyəvidir ki, B.Çobanzadə bir müdrik alim kimi, bütün bu qlobal vəzifələrin təməlinin indi qoyulmasını və gələcək nəsillər tərəfindən həyata keçirilməsini düşünürdü: “Ümumiyyətlə pedaqoji üsulları, bir tərəfdən, ana dili, başqa tərəfdən, «ana mühiti», yəni ölkəşünaslıq prinsiplərini irəli sürməklə mək-

təbləri, bilxassə bizim məktəblərimizi xalq ədəbiyyatına doğru sövq etmiş olur" (6, 177).

* * *

"Kitabi-Dədə Qorqud" 1920-ci illərdə Ə.Abid, A.Musa-xanlı, R.Əfəndizadə, İ.Hikmət, S.Mümtaz, B.Çobanzadə və başqaları tərəfindən tədqiqata cəlb edildi. Bu xüsusda ümum-milli lider Heydər Əliyev deyirdi: "XX əsrin tarixində "Kitabi-Dədə Qorqud" eposu da misli görünməmiş təqiblərə məruz qalıb. Hətta onu öyrənməyə, tədqiq etməyə cəhd göstərənlərin taleyi də acınacaqlı olub. Azərbaycanda "Kitabi-Dədə Qorqud"un nüfuzlu tədqiqatçılarından biri olan Əmin Abid eposa həsr olunmuş bir neçə əsər çap etdirdikdən sonra əbədi susduruldu. Bəzi mənbələrdə eposun otuz boydan ibarət olduğu təxmin edilir. Azərbaycanın görkəmli dilçi alimi Bəkir Çobanzadə aşkar etdiyi yeni boy haqqında məlumat versə də, sonralar alim repressiyaya məruz qaldığına görə bu məlumatın dürüstlüyünü təsdiqləmək mümkün olmadı" (13, 9).

"Eyni cizgiləri müəllifi və yaxud başlıca siması olan Dədə Qorqudun hansı əsr və necə mühitdə yaşadığı, hətta həqiqi, yoxsa əfsanəvi olduğu haqqında qəti bir şey söyləməyən "Kitabi-Dədə Qorqud əla lisani-taifei-oğuzan"da da tapırıq. Burada isimləri keçən Dirsə xan, Dəli Domrul, Qazan bəy, Uşun Qoca oğlu Səgrək, bir sözlə, Daş oğuz və İç oğuz bəyləri, türk-oğuz dərəbəyləri burada nəsr, nəzm şəklində rast gəldiyimiz parçalar bizim **dərəbəylik dövrü**müzün ədəbi şəkil və ruhunu təmsil edir" (5, 190).

Bəkir Çobanzadə Dədə Qorqudun kimliyi məsələsinə də aydınlıq gətirir və göstərir ki, Dədə Qorqud adam adıdır. Dədə Qorqud bir kitab yazmışdır ki, adı «Kitabi-Dədə Qorqud»dur.

Azərbaycan filoloji fikir yaddaşında daha çox dilçi alim kimi qalmış Bəkir Çobanzadənin "Şahnamə" ilə dünya eposu, xüsusilə də «Kitabi-Dədə Qorqud əla lisani-taifei-oğuzan» arasında apardığı paralellər əsasında gəldiyi qənaətlər onun bir

filoloq kimi təfəkkürünün genişliyini, folkloru, ədəbiyyatı və dili vahid etnik-mədəni sistem kim təsəvvür etdiyini ortaya qoyur. Bu cəhətdən alimin aşağıdakı fikirləri diqqəti daha çox cəlb edir. B.Çobanzadə yazır: *"Şahnamənin Əbül-Qasım Firdovsiyə qədər keçirdiyi təkamülü nəzərə alındıqda dərhal qrek eposunun (İlliada və Odisey) və (Hamlet, Don Juan və Faust kimi) müxtəlif xarakterlərdəki dünya süjetlərinin keçirdiyi təkamül xatıra gəlir. Qrek eposu-dastanı öz əsas motiv və süjetlərilə Homerə (Homerin tarixi bir sima olub-olmaması ətrafında zamanımıza qədər davam edən münaqişəni nəzərə alaraq), daha doğrusu, Homer dövrünə qədər bir neçə əsr müddətincə müxtəlif istihalələrdən keçdiyi və nəhayət, Homer dövründə müəyyən sistem və yüksək bədii keyfiyyət qazandığı kimi «Hamlet» də bir tərəfdən qədim Qrek ədəbiyyatı ilə, digər tərəfdən Skandinav folkloru («Saqa»-larilə) bağlanaraq XII əsr miladidən Şekspirə qədər müxtəlif dillərdə müxtəlif mərhələlərdən keçir və nəhayət, dahi dramaturqun əlində son bədii şəklinə malik olur*" (9, 27).

Bu geniş, əhatəli, dərin məzmunlu fikir bir çox cəhətləri ilə diqqəti çəkir. Əvvəla, B.Çobanzadənin *"Şahnamənin Əbül-Qasım Firdovsiyə qədər keçirdiyi təkamülü nəzərə alındıqda dərhal qrek eposunun (İlliada və Odisey) və (Hamlet, Don Juan və Faust kimi) müxtəlif xarakterlərdəki dünya süjetlərinin keçirdiyi təkamül xatıra gəlməsi"* haqqındakı fikri məna etibarilə ciddi fikir paradiqmalarını nəzərdə tutur. İlk olaraq diqqəti cəlb edən "Şahnamə"dən Firdovsiyə qədərki məkanın diqqətə alınması və bu məkanın yunan eposlarından orta əsrlər Avropa ədəbiyyatına qədərki məkanla müqayisə olunmasıdır.

Fikrimizcə, B.Çobanzadə "Şahnamə"nin Firdovsiyə qədər keçirdiyi təkamül dedikdə fars eposunun inkişafının iki mərhələsini nəzərdə tutur:

Birincisi, **"Şahnamə"nin Firdovsiyəqədərki şifahi epos mərhələsi;**

İkincisi, **“Şahnamə”nin Firdovsi ilə başlanan yazılı epos mərhələsi.**

Yəni “Şahnamə” farsların milli eposu olmaqla ilk növbədə şifahi epik ənənə, folklor hadisəsidir. Firdovsi ilə bu dastanın inkişafında tamamilə yeni mərhələ başlanır. Bu mərhələ **zahiri və daxili** görüm planlarına malikdir.

**Zahiri görüm planında** Firdovsi fars epik ənənəsini sadəcə olaraq yazılı koda keçirir. Lakin **daxili görüm planına** görə bu, “sadəcə” köçürmə deyil. Burada çox mürəkkəb koddəyişmə, yəni şifahi koddan yazılı koda dəyişmə var. Məsələnin bütün mahiyyəti bu dəyişmənin hansı formada aparılmasındadır. Bu halda belə bir sual meydana çıxır: Firdovsi ənənəyə münasibətdə kimdir: transmissiyaçı, ya transformator?

Beləliklə, indiki halda koddəyişmənin, ən azı, iki səviyyəsi ilə üzləşirik:

Transmissiya; Transformasiya.

Transmissiyaya əsaslanan koddəyişmədə koddəyişdirici şifahi epik ənənəni sadəcə yazılı ənənəyə keçirir və bu zaman heç bir dəyişikliyə yol vermir, yaxud cüzi dəyişikliklər edir. Bu, **transmissiya** adlanır və bu prosesdə yaradıcı subyektin rolu daha çox **ötürücülüyə** xidmət edir.

Transformasiya isə koddəyişmə zamanı yazılı epik ənənəyə uyğun dəyişməni nəzərdə tutur. Bu dəyişmənin forma və məzmunu yaradıcı subyektin qarşısında duran ədəbi missiyası, onun istedadı və bir çox digər amillərdən asılıdır. Ənənənin ötürülməsi zamanı forma və məzmununda dəyişikliklər aparılması transformasiyadır və bu prosesdə yaradıcı subyektin rolu daha çox **dəyişdiriciliyə** xidmət edir.

Əlbəttə, fundamental tədqiqatlar aparmadan Firdovsinin özünəqədərki “Şahnamə” epik ənənəsinə hansı münasibəti (tranmissiya, yaxud transformasiya) bəslədiyini söyləmək çətindir. Məsələn, Nizami “Xəmsə”sində folklora münasibət bütün hallarda şüurlu transformasiyadır. Nizami nəinki folklor mətnlərini, hətta gerçək

tarixi hadisələri belə öz yaradıcı fantaziyasının süzgəcindən keçirmədən qəbul etmirdi. Lakin İranın tarixini nəzmə çəkməyi qarşısına məqsəd qoymuş Firdovsinin mövqeyinin necə olduğunu söyləmək böyük tədqiqatlar tələb edir. Lakin o, şair idi. Hadisələrə yaradıcı yanaşmaması mümkün deyildi. Lakin əsərinin sadə bir fars dilində, daha doğrusu, elə dastan təhkiyəsinə uyğun olması onun daha çox tranmissiyaçı şair olduğunu göstərir. Hər halda onun tarixə və folklora münasibətdə yaradıcı yanaşmasını Nizami ilə müqayisə etmək mümkün deyildir. Nizami yazılı ədəbiyyat düşüncəsi ilə işləyən mütəfəkkir filosof şair, Firdovsi isə daha çox dastançı şairdir.

Qeyd etməliyik ki, B.Çobanzadənin yuxarıdakı fikri onun məsələyə ayrı cür yanaşdığını göstərir. O, məhz "Şahnamənin Əbül-Qasım Firdovsiyə qədər keçirdiyi təkamül"dən söhbət açır, özü də bu təkamülü Avropa ədəbiyyatının nəhəng epos və obrazları ilə müqayisədə təqdim edir.

Təkamül, sadəcə, özünü təkrarlayan inkişaf yox, mövcud strukturun təkmilləşərək müsbət istiqamətdə dəyişməsini nəzərdə tutan inkişafdır. Buradan aydın olur ki, B.Çobanzadə şifahi "Şahnamə"dən yazılı "Şahnamə"yə qədərki yolu təkamül mərhələsi hesab edir. Bu halda Firdovsinin fəaliyyəti artıq şifahi ənənənin yazılı ədəbi ənənəyə transformasiyası planında da mənalana bilir.

B.Çobanzadənin yuxarıdakı fikrində Avropa ədəbiyyatının Hamlet, Don Juan, Faust kimi məşhur obrazları qədim yunan eposları "İliada" və "Odisseya"nın davamı, daha doğrusu, təkamülünün nəticəsi kimi təqdim olunur. Bu o deməkdir ki, B.Çobanzadə "İliada" və "Odisseya"nı, onların nümunəsində qədim yunan eposunu məhəlli milli hadisə hesab etmir. Bu halda Hamlet və onun müəllifi V.Şekspir, Faust və onun müəllifi Y.F.Höte, o cümlədən Don Juan və onun müəllifi qədim yunan eposunun təkamül xəttində durur. Yəni Hamlet də, Don Juan da, Faust obrazları da mahiyyət etibarilə qədim yunan eposunda öz arxetiplərinə malikdir.

B.Çobanzadənin "Şahnamə" haqqında digər fikirləri onun yuxarıda qoyduğumuz sualın "cavabını necə təsəvvür etdiyini"

öyrənməyə imkan verir. O yazır: *"Şahnamə və onun müəllifi də eyni tarixi yolla hərəkət etmiş və eyni şərəfli nəsibə nail olmuşdur. Firdovsiyə qədər cürbəcür şəkildə bir çox şahnamələr yazılmışdır. Tarixin xəbər verdiyinə görə Axametidlər zamanından başlayaraq İran epik materialı «Xudayinamə», yaxud pəhləvi dilində namları ilə yazılmış və eyni material islam dövründə də gərək həcm və gərəksə bədii işləniş cəhətlərindən xüsusən XII əsrdən başlayaraq Firdovsiyə qədər müxtəlif şəkillər almışdır. Firdovsi özünə qədər gələn bu materiala gərək tarixi və gərəksə əfsanəvi bir çox materiallar əlavə etməklə bərabər, ən mühümü, bütün bu materialı dünyanın ən yüksək bədii klassik ədəbiyyatı səviyyəsinə çıxaracaq surətdə işləmişdir"* (9, 27).

Alimin bu fikrinə təhlil müstəvisində yanaşdıqda onun elmi düşüncəsini aşağıdakı şəkildə sistemləşdirmək mümkündür:

**a) B.Çobanzadəyə görə, Firdovsinin özündən əvvəlki ədəbi ənənəyə münasibəti epik düşüncənin universal qanunauyğunluqları kontekstində baş vermişdir** ("Şahnamə və onun müəllifi də eyni tarixi yolla hərəkət etmiş və eyni şərəfli nəsibə nail olmuşdur").

Başqa sözlə, Homer "İliada" və "Odisseya"nı nəzmə çəkənə qədər yunan eposunun inkişafında baş verən dəyişikliklər ümumepik qanunauyğunluqlar kimi, fars eposunun Firdovsiyəqədərki inkişafında da özünü göstərir.

**b) B.Çobanzadəyə görə, "Şahnamə"nin epik konsepsiyası Firdovsiyəqədərki ənənə hadisəsidir** ("Firdovsiyə qədər cürbəcür şəkildə bir çox şahnamələr yazılmışdır").

Yəni Firdovsi İranın şahlarının tarixini nəzmə çəkməmişdən öncə İran etnik-mədəni düşüncəsində şahların tarixinin yaradılması ənənəsi olmuşdur. Bu ənənə epik kodla yaranan, yaşayan və gələn ənənə olmasına baxmayaraq, onu sırf epik hadisə kimi təsəvvür etmək doğru deyildir. Bunu daha əhatəli şəkildə "Oğuznamə" eposu ilə müqayisədə təsəvvür etmək mümkündür.

Bildiyimiz kimi, hazırda əldə olan oğuznamələr formasına və üslubuna görə iki qismə ayrılır: tarixi səciyyəli oğuznamələr və ədəbi səciyyəli oğuznamələr. Ədəbi oğuznamələrin ən nəhəng nümunəsi olan "Kitabi-Dədə Qorqud"un müəllifi əfsanəvi ozan Dədə Qorqud hesab olunur. Tarixi səciyyəli oğuznamələrin isə əksəriyyətinin konkret müəllifləri vardır. Lakin hər iki üslub öz başlanğıcını Oğuz kağan haqqında kosmo-etnoqonik mifdən götürür. Demək, "Oğuznamə" eposu ənənəsi tarixən hansı dəyişikliklərə uğramasından asılı olmayaraq, bu ənənədə dəyişməyən Oğuz kağan haqqında mif, daha doğrusu, bu mifin mahiyyətidir. Yəni Oğuz kağan haqqındakı mif daim bir semantik öz kimi bütün dəyişikliklərin vahid epik-tarixi sistem şəklində mövcudluğunu təmin etmişdir. Firdovsiyə qədər "Şahnamə" eposunda müxtəlif dəyişikliklər baş vermişsə də, bu eposun mifik nüvəsi dəyişməz qalmış və Firdovsi də öz "Şahnamə"sində həmin nüvəni zədəsiz, salamat saxlamağa və çatdırmağa çalışmışdır. "Oğuznamə" eposunun təkamülündə "Oğuz kağan" mifi bu eposun məna əsasını – semantik nüvəsini təşkil etdiyi kimi, "Şahnamə" eposunun inkişafında da belə bir nüvə olmuş və həmin nüvəni qorumadan "Şahnamə" epik ənənəsini, əslində, qoruyub yaşatmaq mümkün olmazdı. Bu halda ənənə dağılar başqa bir ənənəyə keçərdi.

**c) B.Çobanzadəyə görə, Firdovsiyə qədərki "Şahnamə" ənənəsi fərqli dəyişmələrə uğramışdır** *("Axametidlər zamanından başlayaraq İran epik materialı «Xudayinamə», yaxud pəhləvi dilində namları ilə yazılmış və eyni material islam dövründə də gərək həcm və gərəksə bədii işləniş cəhətlərindən xüsusən XII əsrdən başlayaraq Firdovsiyə qədər müxtəlif şəkillər almışdır")*.

Bu dəyişmələrin olması fars dövlətçilik və etnik-mədəni tarixi baxımından tamamilə təbii və qanunauyğun bir proses idi. Əvvəla, "Şahnamə" şahların tarixi kimi teokratik ənənə idi. Bir siyasi hakimiyyətin ömrünün uzunluğu onun "Şahnamə" ənənəsində yer almasından asılı idi. Ona görə də hər bir sülalə və onu təmsil edən şahlar "Şahnamə"yə düşməklə öz hakimiyyətlərini legitimləşdir-

məyə çalışırdılar. Bu da hər dəfə "Şahnamə" ənənəsində nəyinsə dəyişməsi demək idi. B.Çobanzadənin **"eyni material islam dövründə də gərək həcm və gərəksə bədii işləniş cəhətlərindən xüsusən XII əsrdən başlayaraq Firdovsiyə qədər müxtəlif şəkillər alması"** haqqındakı fikrində məhz bu nəzərdə tutulur.

Bu prosesin universal səciyyə daşıması "Oğuznamə" eposunda da özünü göstərir. Hər bir oğuz sülaləsi "Oğuznamə"ni yenidən yazdırır və öz sülaləsini orada əks etdirməklə hakimiyyətlərinin legitimliyini möhkəmləndirməyə çalışırdılar.

**d) Firdovsinin şifahi "Şahnamə" ənənəsinə münasibəti, əsasən B.Çobanzadəyə görə sistemləşdirici xarakter daşımışdır** *("Firdovsi özünə qədər gələn bu materiala gərək tarixi və gərəksə əfsanəvi bir çox materiallar əlavə etməklə bərabər, ən mühümü, bütün bu materialı dünyanın ən yüksək bədii klassik ədəbiyyatı səviyyəsinə çıxaracaq surətdə işləmişdir").*

Yəni Firdovsi özünəqədərki epik ənənənin tarixi mahiyyətini qorumağa çalışmış, bütün fəaliyyətində bu prinsipi saxlamağa səy etmişdir. Bu cəhətdən onun istər transmissiyaçılıq, istərsə də transformasiyaçılıq fəaliyyəti bu prinsipə – mövcud tarixin qorunması prinsipinə xidmət etmişdir.

Alim daha sonra yazır: *"Şübhə yoxdur ki, rus, fin, ingilis, alman, yerli Amerika epikası – dastan ədəbiyyatı da müxtəlif cəhətlərdən zəngin və orijinaldır. Lakin öz dövründə bu epik material Firdovsi kimi bir dahi şairin laboratoriyasında işlənməmişdir və başqa xalqların epik ədəbiyyatı ilə «Şahnamə» arasında olan əsas fərqlərdən biri də budur"* (9, 27).

Professor B.Çobanzadə bu yanaşmasında da epik düşüncənin universalizmindən çıxış etmişdir. Fars eposunu rus, finn, ingilis, alman, yerli Amerika eposu ilə müqayisə edən alim Firdovsinin varlığını fars ədəbiyyatının, bir növ, bəxtinin gətirməsi kimi təqdim etməyə çalışır. Lakin B.Çobanzadə kimi İran-fars ədəbiyyatının tarixinə dərindən bələd olan bir alim, heç şübhəsiz ki, Firdovsinin özünün də fars ədəbiyyatı tarixində bir təsadüf

olmadığını, zəngin və qədim İran-fars ədəbi ənənəsi əsasında yetişdiyini çox gözəl bilirdi.

B.Çobanzadə daha sonra "Şahnamə"ni "Kitabi-Dədə Qorqud"la müqayisə edərək diqqətçəkici fikirlər söyləyir. O yazır: *"Türk dillərində bulunan epik mahiyyətli və "Şahnamə" ilə, bizə görə, daha konkret və sıxı əlaqə saxlayan əsərlərdən birisi də qədim Azərbaycan türk dilində yazılmış olan "Dədə Qorqud" kitabıdır. Əvvələn, "Şahnamə" adının da göstərdiyi kimi, əsas etibarilə İran şahlarının dastanı olduğu halda, "Dədə Qorqud" oğuz xanlarının dastanıdır. "Şahnamə"də vaqeələrin rəhbərcə silsiləsi müəyyən xronoloji rabitəyə malik olduğu halda, "Dədə Qorqud" kitabında bu rabitə yoxdur, bunun yerinə hekayə və vaqeələrin rabitəsi, bu kitabda rol oynayan şəxslər, qəhrəmanlar vasitəsilə təmin edilir. "Şahnamə"dəki baş qəhrəmanın yerini burada Qazan işğal edir. Rüstəm kimi, Qazan da «qoğva üçün öndən təpən», yəni qoğva günü birinci hücum edən qəhrəmandır. Bundan başqa, şahənşah, şahlar şahı məfhumunun qarşılığı «Xanlar xanı» ünvanını daşıyan Bayındırxan və nəhayət yarım köçəri əfsanəvi aşıq Qazan, qopuz çalan, ad qoyan Dədə Qorqud həmin bütün hekayələrdə o, yaxud bu surətlə rol oynadıqlarından bu, dastana müəyyən vəhdət və rabitə bəxş edir"* (9, 28).

Alimin bu fikrində diqqəti ilk növbədə onun "Dədə Qorqud" kitabının «Şahnamə» ilə daha konkret və sıx əlaqə saxlayan əsərlərdən biri olması" haqqındakı düşüncəsi cəlb edir.

Əlbəttə, bütün dünya eposları öz aralarında onların hamısı üçün ortaq olan universal struktura malikdir. Bu cəhətdən "Şahnamə" və "Dədə Qorqud" da epos olmaqdan doğan belə bir ortaqlığa malikdir. Türklərin fars etnosu ilə tarixin dərinliklərinə gedib çıxan əlaqələri, o cümlədən bu əlaqələrin Şərq tarix və mədəniyyətində saxladığı qədim və nəhəng yaddaş hadisəsi – İran-Turan müharibələri, heç şübhəsiz ki, "Şahnamə" ilə "Dədə Qorqud" eposu arasındakı münasibətlərin yalnız tipoloji univer-

salizmlə məhdudlaşmadığından, göründüyündən qat-qat dərin olduğundan soraq verir.

Müəllifin diqqət çəkən fikirlərindən biri də "Kitabi Dədə Qorqud"un "*qədim Azərbaycan türk dilində*" yazılması hökmüdür.

B.Çobanzadəyə görə, **"Şahnamə" ilə "Dədə Qorqud arasındakı paralellər ilk növbədə bu eposların etnik funksionallığında ifadə olunur.**

Başqa sözlə, «Şahnamə» İran şahlarının dastanı olması, o cümlədən «Dədə Qorqud»un oğuz xanlarının dastanı olması bu etnik funksionallığın mahiyyət etibarilə siyasi-etnik, milli-siyasi funksionallıq olmasını göstərir. "Dədə Qorqud" janrı etibarilə oğuznamədir. "Oğuznamə" adı birbaşa milli mahiyyəti ifadə edən termindir. Burada "Oğuz" etnosu, "namə" ədəbiyyatı bildirir. "Şahnamə" adında ilk baxışda belə milli özünüifadə görünmür. Lakin bu, zahirən belədir. "Şah" birbaşa fars sözüdür. Bu halda Şahnamə" adı milli-etnik mahiyyətli olub, məhz "Fars şahları haqqında dastan" deməkdir.

**B.Çobanzadəyə görə, "Şahnamə" xətti zaman, "Dədə Qorqud" qeyri-xətti zaman konsepsiyası əsasında qurulmuş dastandır** *("Şahnamə"də vaqeələrin rəhbərcə silsiləsi müəyyən xronoloji rabitəyə malik olduğu halda, "Dədə Qorqud" kitabında bu rabitə yoxdur, bunun yerinə hekayə və vaqelərin rabitəsi, bu kitabda rol oynayan şəxslər, qəhrəmanlar vasitəsilə təmin edilir).*

Müəllif burada çox maraqlı, mürəkkəb məsələyə işarə etmişdir. Lakin B.Çobanzadə dastanların ("Şahnamə" və "Dədə Qorqud") zaman-məkan strukturundakı bu fərqə işarə edib, onu nümunə ilə göstərməklə kifayətlənmişdir. Ona görə də bu məsələyə burada diqqət vermək zərurəti yaranır.

"Kitabi-Dədə Qorqud"dakı anaxronizmlər, yəni zaman (məkan) uyğunsuzluqları haqqında deyilmişdir. Yəni dastanda zaman (buna uyğun olaraq, bundan doğmaqla: məkan) baxımından bir-biri ilə əlaqələnməyən, bir-birinə zidd olan hadisələr var. Bu, bir növ, zaman(-məkan) dolaşıqlığıdır və Bəhlul Abdulla

belə dolaşıqlıqları "Kitabi-Dədə Qorqud"da uyğunsuzluqlar" adı altında ümumiləşdirmişdir (2, 208-217).

Əslində, bu uyğunsuzluqlar dastanın poetikasının mühüm semantik məqamlarıdır. Kamal Abdulla bu barədə yazır ki, «Dədə Qorqud» dastanlarının iç, dərin qatı üzdəki bir çox anlaşılmaz, qeyri-məntiqi görünən mətləbləri və yaxud heç bir əlaqəsi hiss edilməyən nöqtələri, məqamları aydın şəkildə dərk etmək, anlamaq üçün, doğrudan da, bir açar kimidir. Bu qəribəliklərin arxasında möhkəm məntiqi uzlaşmaların durduğu şübhəsizdir (1, 242).

Aparılmış tədqiqatlar göstərir ki, məsələnin bütün mahiyyəti "Kitabi-Dədə Qorqud" və "Şahnamə"nin poetik strukturları fərqli zaman-məkan prinsiplərinə uyğun təşkil olunmuşdur. S.Rzasoy burada iki düzüm, təşkil prinsipini fərqləndirir: sintaqmatik düzüm və paradiqmatik düzüm. O yazır ki, "Kitabi-Dədə Qorqud"dakı «uyğunsuzluqlarla» bağlı dolaşıqlıqların bütün mahiyyəti mifoloji-epik düşüncənin sintaqmatik və paradiqmatik düzüm kodları ilə bağlıdır.

**Sintaqmatik düzüm** – diaxroniyanı, tarixi inkişafı, zamanın düzxətli strukturunu nəzərdə tutur. Düzxətli zaman tarixi şüur hadisəsidir və mifdənsonrakı hadisədir (Düzxətli zamanı nəzərdə tutan sintaqmatik düzümü mifin sintaqmatik strukturu ilə qarışdırmamalı!). KDQ-də boyların düzümünün zaman baxımından bir-birini təsdiq etməməsində, yaxud müxtəlif obrazların «dəfələrlə öldürülməsində» («ölüb-dirilməsində») və s. ifadə olunan zaman anaxronizmləri aydın şəkildə göstərir ki, burada sintaqmatik (düzxətli) zaman zahiri planı təşkil etməklə paradiqmatik zamana (düzümə) tabedir.

**Paradiqmatik düzüm** – qapalı, təkrarlanan, ritmik zamanı nəzərdə tutur. Bu, mifoloji düşüncəyə məxsus zamandır. Mifoloji düşüncədə zaman sakral mərkəzdən başlanır (doğulur), böyüyür, qocalır və qapalı dövrə vuraraq, başlanğıc nöqtədə tamamlanır (ölür). Bununla da bir dövrə başa çatır. Daha sonra «yeni» dövrə gəlir. Ancaq bu, «yeni» zaman ayrı bir zaman yox,

öləndən sonra dirilmiş əvvəlki zamandır; yeni zaman yoxdur, başlanğıcını sakral mərkəzdən götürən bir zaman var və o, qapalı, təkrarlanan ritmlə ölüb-dirilir (15, 279-280).

Bütün bunlar göstərir ki, "Kitabi-Dədəd Qorqud"da zaman və məkan mifik prinsiplə təşkil olunmuşdur. Bu, paradiqmatik düzüm prinsipi olub, qeyri-xətti düzümdür. Yəni məkan və zaman qapalı, təkrarlanan struktur üzrə təşkil olunur. Ona görə də "Kitabi-Dədə Qorqud"da hadisələr, məkan-zaman elementləri paradiqmatik şəkildə təkrarlanır, özü-özünü yaradır. Bu da öz növbəsində tarixi şüur baxımından "uyğunsuzluq" yaradır. "Şahnamə"də isə belə bir "uyğunsuzluqları" ya görmürük, ya da çox zəif şəkildə müşahidə edirik. Çünki "Kitabi-Dədə Qorqud"u yaradan ozan mifik şüur məntiqi ilə, "Şahnamə"nin müəllifi Ə.Firdovsi isə tarixi şüur məntiqi ilə düşünür və işləyirdi. Baxmayaraq ki, "Şahnamə" qədim fars mifləri ilə zəngindir, ancaq Firdovsi bütün bu miflərin paradiqmatik strukturunu dağıdaraq tarixi şüurun sintaqmatik prinsipinə, başqa sözlə xətti düşüncəyə tabe etdirmişdir. Bu cəhətdən B.Çobanzadənin "Şahnamə"də vaqeələrin rəhbərcə silsiləsinin müəyyən xronoloji rabitəyə malik olması" haqqındakı fikri məkan-zamanın sintaqmatik təşkil prinsipini, "Dədə Qorqud" kitabında bu rabitənin olmaması, bunun yerinə hekayə və vaqeələrin rabitəsinin bu kitabda rol oynayan şəxslər, qəhrəmanlar vasitəsilə təmin edilməsi" haqqındakı fikri məkan-zamanın paradiqmatik təşkil prinsipini nəzərdə tutur.

B.Çobanzadə bu iki dastanı epik strukturun müxtəlif səviyyələri və onları təşkil edən ünsürlər səviyyəsində müqayisə edərək göstərir ki, ayrı-ayrı hekayələr və epizodlarda daha konkret paralellərlə təsadüf edilir. Məsələn: Qazan, ya Salur-Qazan ilə oğlu Uruz, Təpəgöz, Dirsə xan ilə oğlu Buğac Bəkil oğlu İmran» hekayələrində bu fikrimizi qüvvətləndirəcək misallar tapa bilərik.

Salur Qazan ilə oğlu Uruzun hekayəsində Qazan ilə Uruzun vuruşması, Söhrab ilə Rüstəmin vuruşmasına səbəb olan hadisələrdən tamamilə başqa hadisələrlə şərtlənmiş olmaqla bə-

rabər, hər halda atasını axtaran, lakin onu tanımayan oğul ilə atanın vuruşması «Şahnamə»nin Rüstəm və Söhrab epizoduna konkret paralel təşkil edir. Rüstəm və Söhrab hekayəsində olduğu kimi, «Dədə Qorqud»un bu hekayəsində də oğul birinci həmlədə ataya qalibdir. Lakin Rüstəm Söhrabı öldürdüyü halda, Salur Qazan öz oğlu Uruz tərəfindən məğlub edilərək aman diləməyə məcbur olur. Yəni Rüstəm ilə Söhrabın üçüncü dəfə vuruşması çıxılacaq olursa, «Şahnamə» və «Dədə Qorqud» dastanlarının bu hekayələri bir-birinə daha yaxınlaşarlar (9, 28).

B.Çobanzadə çox maraqlı bir məsələyə diqqət çəkərək göstərir ki, «Dədə Qorqud» dastanında Oğuz qəhrəmanlarının heç birisi ərəb və yaxud fars adı daşımadığı halda, «Bəkil oğlu İmran» hekayəsində İmranın yoldaşlarından biri «Alp Rüstəm» yəni «Rüstəm Pəhləvan» adını daşıyır. Professor A.Babayev bu məsələyə münasibət bildirərək yazır: «Bizə görə, «Şahnamə»də ərəb adlarının qəhrəmanlarının olması X əsr İranında ərəb nüfuzu ilə əlaqədardır. «Dədə Qorqud» isə bilavasitə xalq tərəfindən yaradıldığından, ərəb istilaçılarının adları ora daxil ola bilməmişdi. Çünki xalq ərəb istilaçılarına nifrət edirdi. B.Çobanzadəyə gəldikdə isə o, «Dədə Qorqud»un Firdovsi dövründə yaranmış və təkmilləşmiş olması ilə bərabər, onun Azərbaycan dilində ilk ədəbi əsər olduğunu söyləyir» (3, 272).

B.Çobanzadənin bu elmi-nəzəri mülahizələrindən o da aydın görünür ki, şifahi koddan yazılı koda transfer edilən, içində folklor ənənələrini yaşadan ədəbi nümunələr (Firdovsinin "Şahnamə"si, Nizaminin "Xəmsə"si, Füzulinin "Leyli və Məcnun"u, Şeksprin "Hamlet"i, Hötenin "Faust"u və b. əsərlər) mərhələ, dövr, rejim, tanımır, bütün dövrlərin və xalqların əvəzsiz sərvətinə və şah əsərinə çevrilir. Daha doğrusu, hər hansı bir rejimdən, qövmdən və ya partiyadan deyil, xalqın istək və arzularından nəşət alan əsər bütün zamanların ədəbiyyatı olur.

## QAYNAQLAR:


1. Abdulla K. Sirr içində dastan və yaxud gizli Dədə Qorqud – 2. Bakı: Elm, 1999
2. Abdullayev B. «Kitabi-Dədə Qorqud»un poetikası. Bakı, “Elm”, 1999
3. Babayev A. Bəkir Çobanzadə. Bakı, 1998
4. Cəfərov N. Eposdan kitaba. Bakı, “Maarif”, 1999
5. Çobanzadə B. Seçilmiş əsərləri. Bakı, 2007, 5 cilddə, II cild
6. Çobanzadə B. Seçilmiş əsərləri. Bakı, 2007, 5 cilddə, III cild
7. Çobanzadə B.«Türk dili və ədəbiyyatı tədrisi üsulu», II qism, Bakı, 1929
8. Çobanzadə B. «Məktəblərdə xalq ədəbiyyatı», «Maarif işçisi», 1925, № 6-7.
9. Çobanzadə B. «Şahnamə və dünya epik ədəbiyyatı» (ədəbi paralellər). «İnqilab və mədəniyyət» jurnalı, 1934, № 9-10
10. Xəlil A.Əski türk savlarının semiotikası. Bakı, “Səda”, 2006
11. Xəlil A. Mahmud Kaşqarlının «Türk dillərinin divanı kitabı»nda ədəbi mətnlər. Bakı, «Səda», 2001
12. İsmayılov H. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. Bakı, “Elm”, 2002
13. Kitabi-Dədə Qorqud ensiklopediyası. 2 cilddə. I cild. Bakı, 2000
14. Rzasoy S. Azərbaycan koroğluşünaslığı və professor İsrafil Abbaslı (ön söz) / İ.Abbaslı. “Koroğlu”: nə var, nə yox? Bakı, “Elm və təhsil”, 2013
15. Rzasoy S. Oğuz mifologiyası. Bakı, «Nurlan», 2009
16. Rzasoy S. Muğanlıda Novruz karnavalı. Tbilisi, “Tbiliselebi”, 2014

# "XORTDANIN CƏHƏNNƏM MƏKTUBLARI": O BİRİ DÜNYAYA SƏYAHƏT

**Pərvanə BƏKİRQIZI (İSAYEVA)**
*fil.ü.f.d., dos.,*
*AMEA Nizami adına Ədəbiyyat İnstitutu*

Arxaik təfəkkürün izlərini yaşadan elə təsəvvürlər var ki, onlar strukturu və dayanıqlığı etibarı ilə uzunömürlü olur. Belə təsəvvürlərdən biri İslam Şərqi və eləcə də xristian Avropası mədəniyyətlərində ədəbi-fəlsəfi fikrin dönə-dönə müraciət etdiyi o biri dünyaya səyahət motividir. Bu görüşlər dini-mifoloji sistem daxilində mövcud olan yeraltı qaranlıq dünya və fövqəltəbii varlıqlar ilə əlaqəli təsəvvürlər kompleksidir.

Şərq-islam mədəniyyətində həmçinin Peyğəmbər əleyhissəlamın meracı ilə bağlı görüşlər nəinki islam dünyasında, həmçinin Qərbin ədəbi və fəlsəfi fikir tarixinə təsirsiz qalmamışdır. Bu baxımdan Qərb ədəbi düşüncəsinin dəyərli nümunəsi hesab edilən "İlahi komediya"nin süjeti, ispan ərəbşünas M.Asin Palasnosun 1919-cu ildə çap olunmuş "İlahi komediya"da müsəlman esxatologiyası" kitabında da qeyd etdiyi kimi, dünyanın sonu ilə bağlı islam dinindən gəlmə təsəvvürlərlə zəngindir. S.Qaraqoç da "Dante və İslam" məqaləsində yazır ki, M.Asin Palasnosun irəli sürdüyü müddəa ilk vaxtlar qəbul edilməsə belə, inkar da edilmədi və yeni tədqiqatlara rəvac verdi (1, s.73).

XX əsrin ortalarında italyan alimi Enriko Çerulli ərəb esxatoloji düşüncəsini əks etdirən "Merac kitabı"nın hələ XIII əsrdə kastiliya, daha sonra latın və fransız dillərinə tərcümə olunması faktına əsaslanaraq Aligyeri Dantenin bu mənbə ilə tanış olduğu və "İlahi komediya"da məhz həmin süjetdən istifadə etdiyi fikrini irəli sürür. Bir sıra tədqiqatlarda dini poema kimi qəbul edilən "İlahi komediya"da antik ədəbiyyat və xristian mənbələri ilə yanaşı, islam

teologiyasına da müraciət olunması, zənnimizcə, təbii bir hal idi. XX əsr dünya ədəbiyyatında X.L.Borxesin də merac motivinə üz tutması, daha doğrusu, Məhəmməd peyğəmbəri meraca aparan Büraqdan bəhs etməsi, tədqiqatçının rəyinə görə, "Borxesin hədislərdən xəbərdar olduğunu bildirir. Lakin o, merac hadisəsinə islam etiqadlı insanlardan fərqli şəkildə sərbəst yanaşır" (2, s.138).

O biri dünya motivi Qədim Şərqin erkən dövr abidələrindən "Bilqamıs dastanı"nda Bilqamısın ölümsüzlük axtarışlarında, eləcə də əski Oğuz abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanında "Salur Qazanın dustaq olduğu və oğlu Uruzun onu xilas etdiyi boy"da qəhrəman Salur Qazanın söylədiklərində də müəyyən şəkildə öz əksini tapır. Əski çağ insanının ölümün nə olduğu barədə ilk düşüncələri, əbədi həyat axtarışları üçün qaranlıq dünyaya yollanması, dirilik suyunun axtarılması və nəhayət, insanın özünün öləriliyini qəbul etməsi təsəvvürlərini bir arada birləşdirən o biri dünya haqda dini-mifoloji görüşlər kompleksinin yaranması bir-birini tamamlayır.

XX əsrin əvvəllərində görkəmli Azərbaycan yazıçısı Əbdürrəhim bəy Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları" əsərinin əsasında dini-mifoloji süjetlərdən olan İslam peyğəmbərinin meracı motivi dayanır. Ədib klassik ədəbiyyat nümunələrində işlənən o biri dünyaya səyahət motivini yeni interpretasiyada, mənsub olduğu cəmiyyətin ictimai-siyasi hadisələri fonunda təqdim etmişdir. Əsərdə o biri dünyaya səyahət edən obraz özlüyündə mifoloji xarakteri ilə seçilir. Müəllif ona qədər bu motivə müraciət edən ediblərdən fərqli olaraq ölüb-dirilmə xüsusiyyətinə malik mifoloji obrazdan istifadə edir. Bu isə son dərəcə orijinal bir yanaşma idi. Doğrudur, Xortdanın o biri dünyaya səfərində yuxu motivi əsas rol oynayır ki, bu elementdən də çox sayda dini və ədəbi mətnlərdə istifadə olunmuşdur. Belə mətnlərdə səyahət edənlərə bir qayda olaraq ya müqəddəslərdən biri, ya da mələklər yol göstərir.

"Xortdanın cəhənnəm məktubları"nda da qəhrəman o biri dünyanın bütün qatlarını dolaşır. Ona bu zaman yol göstərən xə-

yalı onu Qarabağa Mirzə Qoşunəli Təbrizinin yanına iksir dalınca göndərir. Əsərdə Mirzə Qoşunəli obrazı ilə Qarabağda və digər bölgələrdə yaşayan təriqət dərvişlərinin son nümayəndələrindən birinin surəti yaradılmışdır. Mətndə buna işarə edilərək: Mirzə Qoşunəlinin "Həzrət-vala nəvvab bu Şuşa şəhərini məskən qəbul edib burada sakin oldu. Mənim mərhum atam da, Allah atanıza rəhmət eləsin, Bəhmən Mirzə ilə bahəm buraya gələnlərdən həzrət valanın katibi və rəmmalı olubdur" (3, s.45) – deyilir. Zənnimizcə, Mirzə Qoşunəli obrazı XIX əsrdə Şuşada yaşayan şair, rəssam, musiqişünas Mir Möhsün Nəvvabın prototipidir. M.M.Nəvvabın astronomiya, kimya elmlərini mükəmməl mənimsəməsi, rəmmallıq etməsinə dair məlumatlar vardır. Musiqişünas Z.Səfərova şairin "Vüzuhül-Ərqam" risaləsinə yazdığı ön sözdə Nəvvabın əlkimyaçıların nüsxələri əsasında təcrübələr apardığı haqqında məlumat verir (5, s.8). "Təzkireyi-Nəvvab"da "müəllif nücum, kimya, xəvatin və s. elm sahələrinə yaxından maraq göstərməklə yanaşı, spiritizmlə – "istədiyi hər müqəddəs ruhu çağırıb, onunla sual-cavab etməklə də məşğul olduğunu" aşkarlamışdır" (6, s.59).

Əsərdən məlum olur ki, Mirzə Qoşunəlinin hazırladığı "dərmanın sirrini ondan savayı dünyada bir kəs bilməz. Bunu keçmişdə Mir Damad və Xacə Nəsir-Tusi bilərmiş" (3, s.49). Burada Ə.Haqverdiyev Şərqin tanınmış mütəfəkkiri Xacə Nəsrəddin Tusi ilə onun müəllimi Fəridəddin Damadın adını təsadüfən işlətmir. Nəsrəddin Tusi isə "Əxlaqi-Nasiri" əsərinin birinci məqalənin onuncu fəslində nəfsdən, ölüm vahiməsindən və ondan xilas yollarından bəhs etmişdir (6, s.12 ).

Ə.Haqverdiyev əsərdə dini elementlərlə yanaşı xalq təfəkküründə özünə yer etmiş təsəvvürlərdən də bəhrələnmişdir. Xalq düşüncəsinə görə xortdan gecələr dirilib qəbirdən çıxan, insanlara yamanlıq edən varlıqdır. Demonik varlıq hesab edilən Xortdan türk xalqlarında müxtəlif adlarla tanınsa da, oxşar funksiyalar yerinə yetirir. Anadolunun müxtəlif yerlərində "Xortlaq", Başqurdlarda "Ubır", Tomsk tatarlarının demonoloji təsəvvür-

lərində Obur//Ubır, Qaqauzlarda Hobur adlanan bu mövhumi qüvvə insanlara xətər toxundura biləcək gücdə olub, dönərgəlik funksiyası ilə də seçilir (7, s.282).

Yeraltı dünyanın sakini olan xortdanın bədii mətndə obrazını yaradan müəllif onun ənənəvi gedişatını, yəni qəbirdən çıxıb insanlar arasında dolanması süjetini əks istiqamətə çevirir. Əsərdə Xortdan "nagah xəyalıma cəhənnəm düşdü" – deyə yaşadığı bu dünyadan o biri dünyaya getmək istəyir. Xristofor Kolumb, Magellan, Vasko de-Qamma kimi səyahətçilərin adlarını çəkən müəllif onların səfər etdikləri o biri dünya və ədəbiyyatlarda "yeni dünya" kimi tanınan coğrafi məkanlarla Xortdanın cəhənnəm səyahəti arasındakı fərqi göstərərək, bunu İsgəndəri-Zülqərineynin qaranlıq dünyaya səyahətinə oxşadır. Belə bir motivin işləndiyi "İsgəndərnamə" poemasında da Nizami Gəncəvinin qəhrəmanı qaranlıq dünyaya dirilik suyu ardınca gedir. Ə.Haqverdiyevin qəhrəmanı Xortdanın isə səyahəti konkret olaraq cəhənnəmədir və burada əsas məqsəd o biri dünyadan xəbər gətirməkdir. Eyni motivə fərqli və bəzi məqamlarda ironik yanaşmanı isə Ə.Haqverdiyevin mənsub olduğu ədəbi məktəbin təsiri kimi də qəbul edə bilərik.

Hələ orta əsrlərdə bir çox müəlliflər də cənnət və cəhənnəmə səyahət motivinə spiritual-mistik yozum verməkdən uzaq olmuşlar. İ.Filştinski yazır ki, orta əsrlərdə yaşamış Əndəlüslü İbn-Şühəyddə və tanınmış filosof Əbül-üla-əl-Məərrinin "Risalət əl-qufran" əsərində o biri dünya motivi satirik ruhda işlənmişdir. Əsərin qəhrəmanı dövrün dil və ədəbiyyat elmlərinin bilicisi İbn əl-Hariha cənnət və cəhənnəmi səyahət edir, o dünyada özündən əvvəl yaşamış adlı-sanlı qələm əhlinin yaratdıqları əsərləri təhlil və tənqid edir (8, s.63). Tədqiqatçı "Ərəb ədəbiyyatı tarixi" monoqrafiyasında da Əl-Məərrinin adı keçən əsərindən bəhs edir. Əl-Məərri o biri dünya haqda dolaşan bəzi fikirləri iblisin dili ilə müzakirələrə çəkir. Əsərdə Şeyxin bir sıra fikirlərinə etiraz edən iblis şeytanlara onu cəhənnəmdə saxlamaq əmrini versə də, qara

qüvvələr cənnətlik insana qarşı çıxa bilmir ki, bununla da iyerarxiyalar arasındakı fərq gözlənilir. Cəhənnəm əhli düşdüyü vəziyyətdən şikayətlənmir, hər şeyi taleyin şıltaqlığı kimi qəbul edir (9, s.218-219). "Xortdanın cəhənnəm məktubları"nda isə cəhənnəm əhli nəinki taleyi ilə barışır, hətta iblisi arakəsməyə salıb bütün günahların səbəbkarı kimi ondan haqq-hesab istəyir.

Ə.Haqverdiyevin qəhrəmanının Tiflisdən Qarabağa gedən yolda rastlaşdığı mənzərə Xortdanın cəhənnəmdə görəcəklərinin başlanğıcı idi. Müəllif Tiflisdən Şuşaya gedən yolda cahilliyin, nadanlığın və dələduzluğun müxtəlif tərəflərini təsvir edir. Xortdanın cəhənnəmə səfəri uzun olur. Bu detal o biri dünyaya səyahət motivi təsvir edilən əksər mətnlərdə: istər folklor mətnlərində, istər bədii mətnlərdə (əsasən də utopik və antiutopik janrlarda yazılan əsərlərdə) özünü göstərir. Dünya ədəbiyyatı nümunələrini yada salsaq görərik ki, T.Mann, T.Kampanella, F.Bekon və b.-nın əsərlərində o biri dünyadan qayıdış ya çox səthi verilir, ya da heç təsvir edilmir. Müasir Azərbaycan ədəbiyyatında Anarın "Ağ qoç, qara qoç" romanında da həmin motivi izləmək olur. Demək olar ki, əksər mifoloji və bədii mətnlərdə o biri dünyaya gediş və dönüş zaman etibarilə asimmetrikdir. Gedişin bütün detalları ətraflı təsvir edilsə də, geri dönüş sürətli şəkildə baş verir. Folklor mətnlərində bunu daha çox şamanların o biri dünyaya ruh ardınca getdiyi məqamlarda izləmək mümkündür.

Ümumiyyətlə, əski təsəvvürlərdə o dünya ilə bu dünya arasında ciddi bir sədd yox idi. Qəhrəman özü ölüm aktından keçib o biri dünyaya adlayaraq orada bir sıra çətinliklərlə qarşılaşıb onları dəf edə və sonra da heç bir maneəsiz geri qayıda bilərdi. Bu elementə Azərbaycan xalq nağıllarında da təsadüf olunur. Azərbaycan nağıllarında da o biri dünyaya adlama motivi bəzi məqamlarda ironik xarakteri ilə seçilir. Od vasitəsilə o dünyaya adlama "Bəxtiyar" nağılında süjet elementlərindən biri kimi istifadə olunur. Nağılda müvəqqəti ölüm əks proyeksiyada təqdim olunur və müəyyən mənada oyun xarakteri daşıyır: guya o biri

dünyadan qayıdan Bəxtiyarın üzərindəki his və kül həm bu oyunun bir hissəsi, həm də əksər nağıl süjetlərində rastlaşdığımız elementlərdəndir. Nağılda pəri qızı vasitəsilə od içindən çıxarılan Bəxtiyar müəyyən mənada inisiasiya mərasimindən də keçmiş hesab olunur ki, "qayıdışında" onun üst-başına kül vurması, V.Proppun da qeyd etdiyi kimi, bəzi mərasimlərdə simvolik mənada yandırılaraq yenidən doğulmanı işarələyir (10, s.85).

Ölüb-dirilmə ölüm aktı kimi o biri dünyaya keçidin formalarından biridir. Ə.Haqverdiyev əsərdə bu keçidi yuxu elementi vasitəsilə təqdim edir. Xortdanın bu dünya hesabı ilə qırx gün yuxuda olması o biri dünyanın dörd ildən çox zaman kəsiyinə bərabər olur. "Ənənəvi dünyaduyumunda gerçəkliklə arasında zaman-zaman sədd qoyulmayan yuxu yaddaşsızlığın və ya ölüm aktının da eyni kimi qavranılırdı... Təsəvvüfə görə də yuxu insanın qeyb aləminə yetişməsinə əngəl olan pərdələri aradan qaldırır " (7, s.407).

O biri dünyaya səfər edərkən Ağ Molla Xortdanı sandıq içərisində saxlamağı məsləhət görür. Sandıq burada qəbrin simvolu kimi çıxış edir və həmin element də yenə inisiasiya səciyyəsi ilə seçilir. O biri dünyada müvəqqəti olma və bu mənada ölüb-dirilmə motivlərinə sehrli nağıllarda sıx şəkildə rastlanır. Azərbaycan xalq nağıllarında o biri dünyaya keçid əksər hallarda quyu, su (çay), meşə və s. şəkillərdə özünü göstərir. Türk xalqlarının mifoloji dünyagörüşünün məhsulu kimi ortaya çıxmış Qorqut Ata haqqında qazaxlar arasında dolaşan rəvayətlərdən birində göstərilir ki, Əzrayıl sandıq düzəldib Qorqutu içərisinə qoymaq istəyir, lakin Qorqut Əzrayılı aldadaraq onun özünü həmin sandığa salıb suya atır, bu arada isə ölüm halı baş vermir (11, s.16).

"Xortdanın cəhənnəm məktubları"nda diqqət çəkən bir məqam da Xortdanı o biri dünyaya yola salan Ağ Molla obrazıdır. Ümumən, müəllif əsərdə bir çox hallarda dərviş obrazı yaradır. Bu məqam həm Mirzə Qoşunəli Təbrizinin, həm Ağ Mollanın funksiyalarında özünü göstərir. Xüsusən Ağ Mollanın adındakı rəng simvolikası əsərdə heç də ötərgi xarakter daşımır.

Bu elementi arxaik düşüncədəki şamançılıq ənənələri və sufi simvolikası ilə bağlanır. Ağ rəng şamanlarda ululuq, ədalət və güc mənaları daşıyırdı. Ali ruhlardan sayılan Ülgenə şaman dualarında Ağ Ayas və ya Ayas Kaan kimi müraciət olunardı. B.Ögelin fikrincə, Altay türklərinin inanclarında Ülgeni təmsil edən ağ rəng cənnəti rəmzləndirir. Bu səbəbdən də şamanların başlıqları əksərən ağ rəngdə olardı (12, s.431). Altay və Sibir türklərinin mifoloji görüşlərində şamanların ruh ardınca o biri dünyaya gedib-qayıtması və ya ruhu yola salma motivləri mətndə Ağ Molla obrazının da müəyyən mənada həmin funksiyanı yerinə yetirməsi barədə düşünməyə əsas verir. Təsadüfi deyil ki, əsərin mövcud nəşrlərindən birində "Odabaşının hekayəsi" "Dərviş Nakam" adını daşıyır. Sufi ordeninə mənsub təriqət nümayəndələrinin ali, kamil olan varlığa can atması və bu yolda dünyəvi nə varsa hamısından keçməsi kimi xüsusiyyətlər "Xortdanın cəhənnəm məktubları" əsərində öz əksini tapmasa da, müəllifin məhz bu tipli obrazlara müraciət etməsi təqdir olunmalıdır. Ə.Haqverdiyev XIX əsrin sonu, XX əsrin əvvəllərində İrandan Azərbaycanın əksər vilayətlərinə keçərək burada şəbihgərdanlıq, sehrbazlıq və dərvişlik edənlərdən "Azərbaycanda teatr" məqaləsində bəhs etmişdir.

"Xortdanın cəhənnəm məktubları" əsərinin strukturu da məzmunu qədər maraq doğurur. "Bir neçə söz" adı altında verilən hissə əsərə sonradan əlavə edilmişdir. "Müqəddimə" daha geniş şəkildə işlənmişdir və Şərq ədəbiyyatı nümunələrindəki dibaçəni xatırladır. Məhz burada Xortdanın real dünyada seyr etdiyi cəhənnəm təsvir olunur. Onun cəhənnəmə aparan yolu real dünyanın içərisindən keçir. Xortdanın o biri dünyadakı sərgüzəştləri cəhənnəmi əjdaha qismində görməsi ilə başlanır. Əsərdə əjdahanın xudavəndi-aləmin göstərişi ilə cəhənnəmi udması və ilin altı ayı içərisindəki atəşi çölə, altı ayı da içəri verməsi, bunun da ilin fəsillərin ilə əlaqələndirilməsi, zənnimizcə, qədim əsatir süjeti üzərində qurulmuşdur. Cəhənnəmdə isə

Xortdanı qarşılayan kişi öz əcaib görkəmi ilə xtonik varlıqları təmsil edir. Odabaşının müşayiəti ilə cəhənnəmi gəzən Xortdan cəhənnəm əhlinin iblisi arakəsməyə salması və iblisin: "gedin öz içinizi axtarın, görün nə qədər şeytanlar taparsınız ki, mən onların əllərinə su tökməyə yaramaram" (3, s.70) və ya: "– Camaat! Şeytan mən deyiləm, bu kişidir, indiyədək bir xeyir iş yoxdur ki, bunun vücudu ilə bərpa ola... Belə şeytanlardan insanlara artıq ziyan dəyir, nəinki məndən" (3, s.72) söyləməsi olduqca mənalıdır. Ə.Haqverdiyev bununla nəfsinə əsir düşənlərin içərisindəki naqisliyi insanın cəhaləti və nadanlığında axtarır.

Mifoloji varlıq kimi şeytanın kor təsəvvür edilməsi isə onun xtonik varlıq olaraq yeraltı dünya ilə bağlılığına işarədir. Əsərdə Ə.Haqverdiyev "Nasixüt-təvarix"ə istinad şəklində şeytanın korluğu haqqında mövcud dini-mifoloji rəvayəti mətnə daxil edir: "Həzrət İbrahim əsrində, Həzrət Cəbrayıl mübarək qanadı ilə vurub şeytanın bir gözünü tökdü. Odur ki, şeytana lənət oxuyanda deyirlər "Lənət sənə gəlsin, kor şeytan" (3, s.65). Belə mətnlərdən biri də Adəm və Həvvanın cənnətdən qovulduqdan sonra şeytanın oğlu Xənnasın onlara nökər verilməsidir. Dini-mifoloji əsaslı obraz olan, suda batmayan, odda yanmayan Xənnasdan xilas olmaq üçün Adəm və Həvva onu qaynar suda bişirib yeyirlər. "O vaxtdan şeytan Adəm övladının qəlbində qalıb, onu hər bir pislik tərəfinə çəkir. "Nəfsi-əmmarə" buna deyirlər" (3, s.83).

Azərbaycan dramaturgiyasında Şərq ədəbi ənənələrini qoruyub saxlayan, xalq təfəkküründə yaşayan əsatiri görüşləri, mifoloji obrazları yeni tipli ədəbiyyatla ahəngdar şəkildə çulğaşdıran Ə.Haqverdiyev əslində XX əsrdə insan-nəfs qarşıdurmasını ədəbiyyatımıza gətirən ilk müəllif olmuşdur. "Xortdanın cəhənnəm məktubları"na sonradan əlavə edilən "Odabaşının hekayəsi", əlbəttə, əsərin ümumi strukturuyla bütünləşmir. Belə ki, əsər boyu Xortdanın cəhənnəmdə gördükləri Tiflis-Şuşa yolunda qarşılaşdığı və ya eşitdiklərinin sonluğudur; burada realist baxışlar və xalq təfəkküründən gələn ənənəvi təsəvvürlər bir-birini tamam-

layır. Odabaşının nəql etdiyi hekayət isə müəllifin müasiri olduğu dövrün gerçəklikləriydi. Bu gerçəklik əsərin finalında da əksini tapır; cəhənnəm əhlini təşvişə salan rus qoşununu görcək o biri dünyadan geri dönən Xortdanın yeni hökumətə münasibəti belə səslənir: "Biz də öz cəzamıza müntəzir olarıq" (3, s.125).

## QAYNAQLAR:


1. S.Karakoç. Edebiyat yazıları Ш. Eğik ehramlar. İstanbul, 1996.
2. T.Məmməd. Mədəniyyətlərin inteqrasiyasında özününküləşdirmə (Məhəmməd Peyğəmbərin meracı Nizami Gəncəvi və Xorxe Luis Borxesin yaradıcılığında) // Ədəbi-nəzəri məcmuə. Bakı, 2005.
3. Ə.Haqverdiyev. Seçilmiş əsərləri. II c. Bakı, 2005, 408 s.
4. Mir Möhsün Nəvvab. Vüzuhül-Ərqam. Bakı, 1989, 84 s.
5. A.Hacıyeva. Mir Möhsün Nəvvabın ədəbi-bədii irsi. Bakı, 2004, 210 s.
6. Xacə Nəsirəddin Tusi. Əxlaqi-nasiri. Bakı, 1989, 255 s.
7. C.Bəydili. Türk mifoloji sözlüyü. Bakı, 2003, 416 s.
8. И.М. Фильштинский. Представление о «потустороннем мире» в арабской мифологии и литературе // Восток-Запад. Исследования. Переводы. Публикации. Москва, 1989, 301 с.
9. И.М. Фильштинский. История арабской литературы. Москва, 1991, 726 с.
10. В.Пропп. Исторические корни волшебной сказки. Ленинград, 1946, 400 с.
11. A.Ercilasun. Deli Domrul ile Kazakların Korkut Atası arasında bir mukayese // "Milli Folklor" dergisi. Ankara, 1998, № 37. s.16-21.
12. B.Ögel. Türk mitolojisi. II c., Ankara, 1995.

# AZƏRBAYCAN DRAMATURGİYASINDA "KOROĞLU" MOTİVLƏRİ

**İslam SADIQ**
***filologiya üzrə fəlsəfə doktoru,***
***AMEA Folklor İnstitutunun***
***"Folklor və yazılı ədəbiyyat"***
***şöbəsinin elmi işçisi***

Azərbaycan xalqı çox zəngin ağız ədəbiyyatı yaratmışdır. Bu ədəbiyyat yaddaşlardan-yaddaşlara ötürülə-ötürülə, ağızdan-ağıza keçə-keçə cilalanmış, zənginləşmiş, gözəlləşmiş, gəlib günümüzə çatmışdır.

Azərbaycan yazılı ədəbiyyatının qidalandığı ən zəngin qaynaqlardan biri, bəlkə də birincisi həmişə xalqın yaratdığı söz xəzinəsi olmuşdur. Şair və yazıçılarımız bədii əsərlərini yazarkən şifahi xalq ədəbiyyatının motiv, süjet və obrazlarından ustalıqla bəhrələnmiş, sözün poetik siqlətini artırmaq, fikri gücləndirmək, obrazlılıq yaratmaq məqsədilə onlardan istifadə etmişlər. Dahi Nizami Gəncəvinin bütün əsərləri xalq yaradıcılığının ən gözəl örnəklərindən bəhrələnməklə yazılmışdır.

Azərbaycan yazılı ədəbiyyatının ən dəyərli ilkin qaynaqlarından biri "Dədə Qorqud", digəri isə "Koroğlu" dastanı olmuşdur. Azərbaycan poeziyası, nəsri, dramaturgiyası "Dədə Qorqud" motivləri ilə olduqca zəngindir. Bu baxımdan "Dədə Qorqud" dastanı ilə qoşa yalnız "Koroğlu" dastanının adını çəkmək olar. "Koroğlu" dastanının Azərbaycan poeziyasına təsiri geniş tədqiq olunmuşdur (1, 58-69 2, 20-42 3; 4). İmadəddin Nəsimidən üzü bəri Azərbaycan şairlərinin böyük əksəriyyətinin yaradıcılığında "Koroğlu" motivlərinə rast gəlinir. Bir çox şairlərimiz isə "Koroğlu" dastanından geninə-boluna bəhrələnmişlər. Elə mövzular var ki, həmin mövzuda şeir yazan şairlərimiz

istər-istəməz "Koroğlu"ya üz tutmalı olmuşlar. Bu ənənə Azərbaycan şairlərinin yaradıcılığında bu gün də davam etdirilir.

"Koroğlu" dastanının təsiri baxımından Azərbaycan dramaturgiyasının araşdırılması da böyük maraq doğurur. "Koroğlu" dastanından dram əsərlərində istifadə olunması bir çox mühüm amillərlə bağlıdır. Onlardan ən əsasları bunlardır:

1. "Koroğlu" dastanının xalq arasında çox geniş yayılması;
2. Koroğlunun bir qəhrəman kimi xalqın dilinin əzbəri olması, güvənc, ümid, inam yerinə çevrilməsi;
3. "Koroğlu" dastanının mövzu, süjet və motivlərlə zənginliyi;
4. "Koroğlu" dastanının dilinin gözəlliyi, saflığı, obrazlılığı, idiomlarla və s. zənginliyi;
5. "Koroğlu" dastanındakı şeirlərin poetik siqləti, xalq ruhunu ifadə etməsi;
6. "Koroğlu" dastanındakı ayrı-ayrı hadisələrin təsvirindəki səhnə elementləri, əsərin bütövlükdə tamaşa təsiri bağışlaması.

"Koroğlu" dastanının Azərbaycan dramaturgiyasına təsirində yuxarıda sadalanan amillərin hər birinin öz rolu olmuşdur. Sonuncu amil isə bu işdə ikiqat çox rol oynamışdır, çünki dastanın hər bir qolu əslində bir mükəmməl səhnə əsəridir və onların əksəriyyəti baş vermiş gerçək olayların təsvirindən başqa bir şey deyil. Bilirik ki, bəzi səfərlərdə Koroğlu aşıq paltarı geyinib sazla xanların, bəylərin, paşaların məclisinə girir və çalıb-oxuyurdu. Dastanda bunlar o qədər canlı və təbii təsvir olunur ki, bir teatr səhnəsini xatırladır. "Koroğlu dastanının Azərbaycan dramaturgiyasına təsirinin birinci səbəbini məhz bunda axtarmaq lazımdır.

"Koroğlu" dastanına Azərbaycan dramaturqlarından ilk dəfə Əbdürrəhim bəy Haqverdiyev müraciət etmişdir. Yazıçı "Yoldaş Koroğlu" adlı bir pyes yazmışdır. Bu əsər 1932-ci ildə Bakıda qələmə alınmışdır. Onun bir adı da "Azərbaycan kəndində inqilab gedişinin etapları"dır. Hazırda AMEA Məhəmməd

Füzuli adına Əlyazmalar İnstitutunun Ə.Haqverdiyevə məxsus 9 saylı fondunda bu əsərin üç əlyazması saxlanır (5, 6, 7). Bu pyes ilk dəfə Ə.Haqverdiyevin iki cildlik "Seçilmiş əsərləri"nin birinci cildində çap olunmuşdur (8, s. 451-497).

Ə.Haqverdiyevin "Yoldaş Koroğlu" pyesinin ilk baxışda "Koroğlu" dastanı ilə o qədər də sıx bağlılığı yoxdur. Yalnız hər iki əsərin qəhrəmanının adı Koroğludur. Əlbəttə, bu zahirən belədir. Yazıçı pyesin qəhrəmanının adını da təsadüfən Koroğlu qoymamışdır. Pyesdəki hadisələri diqqətlə çözələyəndə Ə.Haqverdiyevin bu pyesdə "Koroğlu" dastanından çox böyük ustalıqla bəhrələndiyi açıq-aydın nəzərə çarpır. Bu bəhrələnməni üzə çıxarmaq üçün dastanın və pyesin ruhunu dərindən duymaq, bir çox motivləri yanaşı qoyub, onları müqayisəli şəkildə araşdırmaq kifayətdir.

"Yoldaş Koroğlu" pyesinin qəhrəmanı Koroğludur. Bu adın "Koroğlu" dastanından gəldiyinə heç bir şübhə ola bilməz. Pyesin qəhrəmanı Koroğlunun əsl adı Salmandır. Yazıçı Salmanı Koroğlu eləmək üçün hər şeyi irəlicədən ölçüb-biçmiş, süjetin başlanğıcını məhz bu motivin açılması üzərində qurmuşdur. Əsərin ilk səhnəsindən bilinir ki, Salmanın atasının hər iki gözü kordur. O, çiçək xəstəliyinə tutulmuş və gözlərinin işığını itirmişdir. Sonrakı səhnələrdən bəlli olur ki, Salmana təkcə atasının gözləri kor olduğuna görə yox, həm də qoçaq, igid, diribaş və mərd bir oğlan olduğuna görə, xalq Koroğlu deməyə başlamışdır. Göründüyü kimi, həm dastanda, həm də pyesdə Koroğlu adının yaranma səbəbi bir-birinin eynidir.

Ə.Haqverdiyevin pyesin qəhrəmanının adını Koroğlu qoymağının və Salmanın bu adı böyük sevinclə qəbul edib, qürurla daşımağının arxasında çox böyük maraq doğuran bir mətləb durur ki, onun açılmağına ciddi ehtiyac var. Bu mətləbi açmaq üçün pyesdən bir parçaya diqqət yetirmək kifayətdir:

**Güldəstə** *(Salmana).* Sənin adın Koroğludur?

**Salman.** Yox, Salmandır. Mahmud dayı mənim adımı Koroğlu qoydu. Mən, kor İsrafil kişinin oğluyam. Amma bu ad

mənim xoşuma gəldi. İstəyirəm elə bundan sonra hamı mənə Koroğlu desin.

**Güldəstə.** Mən də Koroğlu deyim?

**Salman.** Elə hamı desin (9, s. 495)

Yazıçı bu kiçik parçada "Koroğlu" dastanına və Koroğlu obrazına xalq arasındakı sevginin, məhəbbətin çox aydın ifadəsini vermişdir. Salmanın ona Koroğlu deməyindən qürur duymağı və bu adı sevinclə qəbul edib, fəxrlə, qürurla daşımağı bunu aydın göstərir.

Yazıçı burada başqa adlar da seçə bilərdi. Salmanın öz adını da saxlamaq olardı. Bütün bunlar pyesin məzmununa o qədər də güclü təsir göstərməzdi. Lakin yazıçı əvvəldən öz qarşısına məqsəd qoymuşdur və onu pyesdə dolğun vermək üçün "Koroğlu" dastanına üz tutmalı olmuşdur.

Pyesin mövzusu Azərbaycanda sovet hakimiyyətinin yaranmasından, kolxoz quruculuğundan götürülsə də, burada dastanla səsləşən çox maraqlı motivlər var. Bunlardan ən birincisi hər iki əsərin qəhrəmanının eyni idealla yaşamağıdır. Dastan qəhrəmanı Koroğlu kimi, pyesin qəhrəmanı Koroğlu da kasıbkusubun, fağır-füqəranın, zəiflərin, gücsüzlərin tərəfində durur, onların haqqını qoruyur. Pyesin qəhrəmanı Koroğlunun da başlıca məqsədi "Koroğlu" dastanındakı ideal insan cəmiyyətini öz doğma kəndində yaratmaqdır. Doğrudur, pyesdə Koroğlunun nə idealı, nə də məqsədi haqqında heç nə deyilmir. Lakin pyesi, orada baş verən hadisələri diqqətlə çözələyəndə qəhrəmanın idealını və məqsədini aydın görmək olur.

Ə.Haqverdiyevin "Yoldaş Koroğlu" pyesində yazıçının həqiqətən "Koroğlu" dastanından bəhrələndiyini təsdiqləyən daha bir neçə motiv var ki, onlardan biri də qəhrəmanın kəndinin Dumanlı adlanmasıdır. "Koroğlu" dastanından bilirik ki, Çənlibel dumanlı, çənli, çiskinli bir dağ belidir. Buna əsaslanıb deyə bilərik ki, Ə.Haqverdiyev pyesin qəhrəmanı Koroğlunun kəndinin adını təsadüfən Dumanlı qoymamış, onu Çənlibelə uyğun-

laşdırmışdır. Koroğlu-Çənlibel və Koroğlu-Dumanlı paralelləri də bir-birinə uyğun gəlir.

Hər iki əsərdə eyni olan əsas motiv, əvvəldə deyildiyi kimi, qəhrəmanların atalarının kor olmasıdır. Dastanın qəhrəmanı Rövşənin atası Alı kişinin gözlərini Həsən xan çıxartdırıb onu işıqlı dünyaya həsrət qoymuşdur. Pyesin qəhrəmanı Salmanın atası İsrafilin gözləri isə çiçək xəstəliyindən sonra kor olmuşdur. Dastan da, pyes də gələcək qəhrəmanın atasının gözlərinin kor olması motivi ilə başlayır. Bunun özü də dastanla pyes arasındakı üzvi bağlılığı göstərən amillərdən biridir.

Dastan və pyesin hər ikisi eyni motivlə başladığı kimi, onların sonluğunun da eyni motivlə qurtardığını görürük. “Koroğlu” dastanında Koroğlunu Qıratsız, Misri qılıncsız və sazsız təsəvvür etmək mümkün deyil. Koroğlu həmişə döyüşə də qılıncla yox, sazla başlayır. Əksər qollarda Koroğlu işi davasız yoluna qoymaq istəyir, saz çalıb-oxuyur. Bundan başqa, Koroğlu bütün səfərlərdən Çənlibelə qayıdandan sonra Nigar xanımın xahişi ilə sazı döşünə basıb başına gələnləri danışır. Dastanın bütün qolları sazla bağlanır.

Ə.Haqverdiyev də pyesin sonunda sazı səhnəyə təsadüfən gətirməmişdir. Aşıq sazla səhnəyə çıxır və pərdə bağlanır.

Ə.Haqverdiyev “Koroğlu” dastanına təsadüfən üz tutmamışdır. O, 1899-cu ildə Peterqburqdan Şuşaya qayıtmış, burada yaşadığı iki il ərzində həm də xalq yaradıcılığı örnəklərini toplamaqla məşğul olmuşdur (10, s. 6).

Yazıçı 1923-1925-ci illərdə Azərbaycanı Tədqiq və Tətəbbö cəmiyyətinin sədr mavini və sədri işlədiyi illərdə də xalq yaradıcılığı örnəklərinin toplanması və nəşri işlərində yaxından iştirak etmişdir. Ə.Haqverdiyev Səbri Salehin “Abbas və Gülgəz” dastanının motivləri əsasında yazdığı 5 məclisdən ibarət eyni adlı operettanı dilimizə çevirmişdir (11)

Onun arxivində əlyazma şəklində çoxlu atalar sözləri, tapmacalar, xalq mahnıları və s. saxlanılır (12; 7, s. 29-30) Bütün

bunlar Ə. Haqverdiyevin xalq yaradıcılığına, folklora nə qədər bağlı olduğunu aydın göstərir.

Pyesin sonuncu şəklində Koroğlu Hacı Bayrama müraciətlə deyir: "Hacı, söz bayaqkıdır" (9 s. 523). Bu ifadə də "Koroğlu" dastanındakı "söz dəyirmandakıdır" deyimindən götürülüb pyesə daxil edilmişdir.

Ağız ədəbiyyatından geninə-boluna bəhrələnən şairlərimizdən biri Səməd Vurğun olmuşdur. Səməd Vurğun yaxşı bilirdi ki, xalq ədəbiyyatını bilmədən, ondan qidalanmadan böyük ədəbiyyat yaratmaq olmaz. Xalq ədəbiyyatına sevgi, maraq körpəlikdən Səməd Vurğunun iliyinə, qanına hopmuşdur. Şair sazlı-sözlü bir mühitdə doğulub, boya-başa çatmışdır. Onun laylası sazla çalınmışdır. Səməd Vurğunu hamıdan yaxşı tanıyan qardaşı Mehdixan Vəkilov yazırdı: "Səməd Vurğun kiçik yaşlarından başlamış xalq ədəbiyyatına, Vaqif və Vidadi şeirinə vurğun idi" (3, s. XXXIV). Çünki Səməd Vurğun bilirdi ki, "bizim aqil babalar bir dastan yaradır ikicə sözlə"(4, s. 31).

Səməd Vurğunun ən çox bəhrələndiyi ağız ədəbiyyatı örnəklərindən biri, bəlkə də birincisi "Koroğlu" dastanıdır. Şairin şeirləri "Koroğlu" dastanından gələn motivlərlə olduqca zəngindir. Bunlar ayrıca araşdırılmışdır. (5, s. 152, 153; 2. s. 21-24, 31, 33-34).

Səməd Vurğun dram əsərlərində "Koroğlu" motivlərindən yeri gəldikcə, böyük ustalıqla istifadə etmişdir. Bunun da çox dərin qaynaqları var. Səməd Vurğun "Koroğlu" dastanının bədii dəyərini çox gözəl bilirdi. Onun şeirlərini əsl sənət nümunəsi kimi qiymətləndirirdi. 1943-cü il sentyabr ayının 29-da Moskvada İttifaqlar Evinin böyük salonunda keçirilən "Azərbaycan şeir və musiqi gecəsi"ndə söylədiyi nitqdə "Koroğlu" dastanından böyük sevgiylə danışaraq demişdir: "Bizim xalqımızın təfəkküründə yaşayan bədii söz, məfhum, insanlığın böyük idealları, humanizm və idrakın təntənəsi uğrunda aparılan mübarizədə hər zaman mübariz bir vasitə olmuşdur. Heç də təəccüblü deyildir ki, Azərbaycanın bir çox məşhur dövlət xadimləri və el qəhrə-

manları, eyni zamanda, öz dövrünün qabaqcıl şairləri olmuşdur. Bizim məşhur Koroğlumuz bütün şərq xalqları arasında yalnız böyük bir qəhrəman kimi deyil, eyni zamanda, böyük bir xalq şairi kimi də şöhrət qazanmışdır. Bizim xalqımızın tarixində qılıncla qələmin çox gözəl bir qardaşlığı var.

Hoydu, dəlilərim, hoydu!
Yeriyin meydan üstünə!
Havadakı şahin kimi
Tökülün al qan üstünə!

Qoyun bədöylər kişnəsin,
Misri qılınclar işləsin.
Kimi tanab qılınclasın,
Kiminiz düşman üstünə.

Bəlkə də zaman gəlib keçdikcə Koroğlunun bu və ya digər hərbi məharəti unudulacaqdır. Lakin şair Koroğlunun bu qızıl sözləri xalqımızın sinəsində nəsildən-nəslə keçib yaşayacaq, özünə daha parlaq bir gələcək qazanacaqdır (6).

Səməd Vurğunun xalq yaradıcılığı örnəklərindən bəhrələnməsi ayrı-ayrı tədqiqatçılar tərəfindən geniş şəkildə araşdırılmışdır. Mehdi Hüseyn, (17, s. XXVIII-XXIX), Məmməd Arif (18, s. 68), Mirzə İbrahimov (19, s. 8), Osman Sarıvəlli, Bəxtiyar Vahabzadə (20), Cəlal Abdullayev (21.s.5-16), Rafiq Vəkilov (22,s.126-128), Mehdixan Vəkilov və başqaları Səməd Vurğun yaradıcılığını tədqiq edərkən onun ağız ədəbiyyatından bəhrələndiyini də ayrıca vurğulamışlar. Mehdi Hüseyn Səməd Vurğunun xaq ədəbiyyatının ruhu ilə yoğrulmuş bir şeirindən misal gətirərək şeirimizdə "Dədə Qorqud" və "Koroğlu" dastanlarının yenidən canlanması ilə bağlı yazırdı: "Bu böyük və tarixi and təkcə Səməd Vurğun şeirinin deyil, ümumən müharibə dövründəki ədəbiyyatımızın fikri-bədii istiqamətini müəyyənləşdirdi, ona məğlubedilməz mənəvi bir qüdrət aşıladı. Heç də təsadüfi deyil ki, bu vaxt poeziyamızda "Dədə Qorqud" və "Koroğlu"

dastanının döyüşkən və sərt üslubi xüsusiyyətləri yenidən və daha büllurlaşmış şəkildə canlanmağa başladı, köhnə ənənə yeni bir ənənənin yaranmasına səbəb oldu" (17, s. XXVIII-XXIX).

Paşa Əfəndiyev isə "Səməd Vurğun və xalq yaradıcılığı" mövzusunda ayrıca monoqrafiya yazmışdır (23). Lakin bu tədqiqatların hamısında "Koroğlu" dastanının Səməd Vurğun yaradıcılığına təsirindən ya danışılmamış, ya da ona ötəri toxunulmuşdur. Yəni bu mövzu indiyə qədər lazımi səviyyədə araşdırılmamışdır.

Səməd Vurğunun "Vaqif" dramı "Koroğlu" dastanından alınmış motivlərlə olduqca zəngindir. Bu dram əsəri demək olar ki, "Koroğlu" dastanının ovqatı üzərində köklənmiş, bir şairin qələmindən çıxmışdır. Dastan bütünlüklə müəllifin ruhuna hopmuşdur. Bunu dramın əvvəlindən axırına qədər duymaq mümkündür. Dramın elə ilk səhnələrində Eldarın adı çəkilir. Olayları diqqətlə izləyəndə görürük ki, "Koroğlu" dastanındakı Koroğlu-xan, bəy, paşa qarşıdurmaları eynilə Eldar-İbrahim xan və Eldar-Qacar qarşılaşmaları şəklində Səməd Vurğunun "Vaqif" dramında öz əksini tapmışdır. Dastanı və dramı oxuyub araşdırarkən aydın görürük ki, birincinin bütün ruhu ikinciyə hopmuşdur. Məsələn, Vaqifin İbrahim xanın adından Ağa Məhəmməd şah Qacara şeirlə yazdığı cavab əvvəldən axıra demək olar ki, Koroğlu nəfəsi ilə yoğrulmuşdur:

"Aldıq məktubunu Məhəmməd Qacar,
Tərlan oylağında sar ola bilməz!
Bu dünya qalmamış ulu şahlara,
Zülm də, zalım da var ola bilməz!
Göydən başımıza odlar yağsa da,
Bu ellər baş əyib xar ola bilməz.
Mayan turş ayrandır, zatın qırıqdır
Söyüd ağacında bar ola bilməz.
Basma ayağını bizim torpağa,
İlandan, əqrəbdən yar ola bilməz. (25, s. 61)

Bu misralardakı Koroğlu ruhunu, nəfəsini duymamaq mümkün deyil. Koroğlunun ayrı-ayrı şeirləri ilə müqayisələr

bunu bir daha təsdiqləyir. "Koroğlunun Ərzurum səfəri" qolunda Aşıq Cünun Koroğlunu Cəfər paşaya təqdim edərkən deyir:

Yüz sar gəlsə, bir tərlana neyləyər,
Laçın tək havada süzər Koroğlu. (26, s. 49)

Göründüyü kimi, Vaqifin yazdığı cavabın ilk iki misrası ilə dastandan götürülmüş bu parçanın məzmunu tamamilə eynidir. Birincidə tərlan sazla, ikincidə laçın sarla qarşılaşdırılmışdır. Vaqifin yazdığı cavabdakı "Basma ayağını bizim torpağa" misrası da Koroğlunun "Bəyazid səfəri"ndə dediyi "Qoymaram" rədifli şeirin aşağıdakı misraları ilə yaxından səsləşir.

Çənlibeldi qoç Koroğlu oylağı,
Şah da gəlsə Çənlibelə qoymaram. (27, s. 253)

Vaqif Qacara deyir ki, ayağını Şuşa torpağına basma, səni bura qoymarıq. Koroğlu da şahlara üz tutub deyirdi ki, Çənlibel mənim oylağımdı, sizi ora girməyə qoymaram. Burada Çənlibel-Şuşa-Vətən, Koroğlu-Vaqif-Vətən oğlu, Qacar-şah paralelləri tamamilə üst-üstə düşür.

Maarifə Hacıyeva da Vaqifin Qacara yazdığı məktubun Koroğlu şeirləri ilə yaxından səsləşdiyini xüsusi vurğulamışdır (28, s. 227).

Səməd Vurğunun "Vaqif" dramında "Koroğlu" dastanının təsiri ilə yaratdığı obrazlardan biri də İlyasdır. İlyasın prototipi dastandakı Keçəl Həmzə obrazıdır. Bildiyimiz kimi, Hasan paşa Koroğlunu tutmaq, öldürmək və ya heç olmasa atını oğurlamaq üçün Keçəl Həmzəni Çənlibelə göndərir. Keçəl Həmzə yazıq cildinə girərək Koroğlunu inandırır və Çənlibeldə qalır. Bir müddətdən sonra namərdliklə Koroğlunun atını oğurlayır.

İlyas da İbrahim xanın tapşırığı ilə hiyləyə əl atıb Eldarın dəstəsinə qoşulur, onu öldürmək istəyir. Fikrini də İbrahim xana belə deyir:

**İlyas:**

Bu gündən onlara qoşulam gərək.

**İbrahim xan:**

Necə? Nə deyirsən?

**İlyas:**

Belədir, bəli,
Qaçağı öldürər xəyanət əli.
Deyərəm: "Məni də asdırırdı xan.
Qaçıb qurtarmışam dar ağacından.
İnanar...Onlara yoldaş olaram
Bildiyim qisası sonra alaram (25, s. 39)

Burada məqsədlər və əməllər tamamilə bir-birinin eynidir. Hasan paşanın və İbrahim xanın, Keçəl Həmzənin və İlyasın məqsədləri Koroğlunu və Eldarı aradan götürməkdir. Onların bu işi görəcək bütün əməlləri də xəyanət üstündə qurulub

"Vaqif" dramında "Koroğlu" dastanı ilə səsləşən bu cür səhnələr yetərincə çoxdur. Əlibəyin dustaq olduğu səhnə Eyvazın, Bəlli Əhmədin və Dəmirçioğlunun Bağdadda Aslan paşa tərəfindən tutulduqları səhnəni xatırladır. Qacarın Vaqifi zindana saldırdığı səhnə də Aşıq Cünunun Cəfər paşa tərəfindən zindana salındığı səhnənin eynidir. Onların zindandan qurtarma motivləri də bir-biri ilə yaxından səsləşir.

"Vaqif" dramındakı "Koroğlu" təsirini, "Koroğlu"dan bəhrələnmələri Eldar obrazında daha qabarıq görürük. Adama elə gəlir ki, Səməd Vurğun Eldar obrazını yaradarkən bir an da olsa "Koroğlu" dastanından ayrılmamış, onu daim göz önündə tutmuşdur. Hətta belə demək olar ki, Eldar Səməd Vurğunun Koroğlusudur. Hələ səhnəyə çıxdığı ilk andan Eldarın özünü aparmağı, danışmağı, cəsarəti, hazırcavablığı haqqında verilən bilgilər də bunu deməyə əsas verir.

**Şeyx** *(İbrahim xanın qulağına):*

Bir bax gözlərinə...Baxışı qandır.
Kəndə qarışıqlıq salanlardandır.

**İbrahim xan:**

Aha...heç saymayır bu hərif bizi,

Görünür dadmamış qüvvətimizi (29, s. 46)

**Əli bəy:**

Ata, həbs etdilər yazıq Eldarı!

**Vaqif:**

İnsan uçuracaq daş zindanları (29, s. 30)

**İlyas:**

Eldarın halına bələdəm az-çox.
Tez-tez dəyişdirir o öz yerini,
Tovlayıb azdırır gündə birini
O qədər artıb ki, yenə qaçaqlar,
Tutmayır meşələr, dərələr, dağlar. (29, s. 46)

Bütün bunlar Eldarın gələcəkdə kim olacağı haqqında irəlicədən vurulan eyhamlardır.

Koroğlu xanların, paşaların, xotkarların əlindən qaçıb Çənlibeldə yurd saldığı kimi, Eldar da İbrahim xanın zülmündən qaçıb dağlara pənahlanır. Koroğlu da , Eldar da xalqın tərəfində dayanıb, zalımların zülmünə qarşı dururlar. Əli bəy Eldarı dağlarda gördüyünü atası Vaqifə xəbər verərkən onu Koroğluya bənzədir:

**Əli bəy:**

Gördüm Eldarı!
Toplayıb başına qəhrəmanları
Dağlarda yurd salıb Koroğlu kimi (25, s. 46)

Hər iki əsərdə eyni mənzərəni görürük: dağ, qəhrəman və başında igidləri.

Eldarın özü ikinci dəfə səhnəyə artıq Koroğlu kimi çıxır. Burada İlyasın bir qarının inəyini oğurladığı bəlli olur. Eldar qarının ovucuna pul qoyur ki, gedib inək alsın. Koroğlu da həmişə belə eləyirdi. Bundan sonra İlyasın üzünə tüpürüb onu qovur və deyir:

**Eldar:**

Axmaq! Koroğlunun bir təmiz adı
Xanlarda, bəylərdə tutar qoymadı. (25 s. 72)

Bu misralardan göründüyü kimi, Eldar təkcə igidliyi, qəhrəmanlığı ilə deyil, mənəvi dünyası ilə də Koroğluya bənzəyir.

Onun ideyası və idealı da, məqsədi və amalı da, hətta duyğusu, düşüncəsi də Koroğlu obrazından qidalanır.

"Vaqif" dramında Qacar Qarabağa gəlir. Kəndləri, evləri, eşikləri, hətta körpə uşaqları yandırır. Bir qoca kəndli onun yanına gəlir:

Yanır od içində körpə uşaqlar.
Bizim kəndlilərin nə təqsiri var?
Əmr edin dayansın yanğınlar , barı,
Xaraba qoymayın bu obaları!
Bu dağlar qoynunda aslan yatmışdır,
Burda Koroğlular at oynatmışdır. (25, s. 74)

Sonuncu iki misrada Qacara xəbərdarlıq edilir ki, bura Koroğlu yurdudur, onu unutma. Nəhayət, Eldar Qacarla döyüşə girir. Hər yerdən axışıb onun dəstəsinə qoşulurlar. Zülmlə, zalımla barışmayan, vətənin azadlığı uğrunda canından keçməyə hazır olan bütün igid oğlanlar Eldarın başına toplaşırlar. Eldar onların hamısına qılınca and içdirir. İgid və qəhrəman oğulların Eldarın başına toplaşması da, onların qılınca and içmələri də "Koroğlu" dastanından gələn motivlərdir.

Koroğlu kimi, Eldarın da şöhrəti hər yana yayılır. Bir qoca kişi onun yanına gəlir və Eldara deyir:

Sənə qiymətli bir baxşayışım var,
Mənə də atamdan qalıb yadigar... (25, s. 102)

Görəsən nədir bu qiymətli baxşayış? Atasından bu qocaya nə yadigar qalıb ki, indi onu elin-obanın xilaskarı bilib üstünə gəldiyi Eldara bağışlamaq istəyir? Qoca yapıncısının altından bir qılınc çıxarır və Eldara uzadaraq deyir:

Buyur! Misri qılınc deyərlər buna,
Sadiq yaşamışdır ana yurduna.
Böyük Koroğludan qalmış yadigar.
Budur, dəstəsində barmaq yeri var.
Al, oğlum! Göz üstə saxla sən bunu,
Yaşat ürəyində qoç Koroğlunu!

Sənə bata bilməz nə xan, nə paşa,
Yalnız yoxsulların eşqilə yaşa!
Vur, vuran əllərin görüm var olsun,
Qacarın başına dünya dar olsun! (25, s. 102-103)

Şeirin ruhu büsbütün "Koroğlu" dastanından gəlir. "Koroğlu" dastanında Misri qılıncı Koroğluya qoca atası Alı kişi verir. Dramda da bir qoca yapıncısının altından çıxardığı qılıncı Eldara verir və onun Koroğlunun Misri qılıncı olduğunu deyir. Hər iki əsərdə Misri qılınc və qocaların məqsədi eynidir. Onda Alı kişi də Misri qılıncı Eldara verən qocanın prototipidir. Hətta qocanın Eldara verdiyi qılıncdakı barmaq yeri də Koroğlunundur. Şeirdəki çox önəmli bir məqamı da açmaq lazımdır. Bunun üçün "Sənə bata bilməz nə xan, nə paşa" misrasını Alı kişinin Misri qılıncı Koroğluya verərkən dediyi sözlərlə yanaşı qoymaq yetər. Qoca Misri qılıncı Eldara verərkən ona deyir ki, nə qədər bu qılınc sənin əlindədir, sənə nə xan, nə də paşa bata bilməz. Alı kişi də Misri qılıncı Koroğluya verərkən ona demişdir:

– Rövşən, al bu qılıncı belinə bağla. Bu qılınc sən gördüyün qılınclara bənzəməz. Bu qılınca ildırım qılınc deyirlər. Bu elə bir qılıncdır ki, qabağında heç bir şey dayanmaz. Hər nəyə vursan, kəsər, tökər. Bu qılınc ilə sən xanlara, bəylərə, paşalara qan udduracaqsan. Bu qılınc ilə müxənnətlər, namərdlər sənin əlindən dad çəkəcəklər. Bu qılınc ilə sən qalalar sındıracaqsan. Ancaq bunun ildırım qılınc olduğunu heç kimə bildirmə. Bundan sonra bunun adına Misri qılınc deyərsən. Nə qədər ki, sən Qıratın belindəsən, bu qılınc da sənin belindədir, heç bir düşmən sənə bata bilməyəcək (27, s. 28-29).

Dastanda da, dramda da vurğulanan əsas fikir budur ki, Misri qılınc kimin əlindədirsə, o məğlubedilməzdir, heç bir düşmən ona bata bilməz. Burada bir sual doğur: Misri qılınc belində olan qəhrəman niyə məğlubedilməzdir? Alı kişinin sözlərindən bilirik ki, Misri qılınc ildırım qılıncıdır. Dastanda isə deyilir ki, Misri qılınc göydən düşən ildırım parçasından qayrılmışdır. Deməli, birinci

növbədə, ildırım qılınc olduğuna görə, Misri qılınc göy mənşəlidir. Göy mənşəli nə varsa, hamısı Tanrıya məxsusdur. Əslində Misri qılıncı yer üzünə Tanrı göndərmişdir. Ona görə də Misri qılıncın özündə bir Tanrı sehri, Tanrı gücü var. Hətta dramdakı xan və paşa sözlərinin də dastandan gəldiyinə heç bir şübhə yoxdur.

Burada bir məsələni açmaq lazımdır ki, şeirdəki "Koroğlu" təsirini görmək o qədər də asan deyil. Yuxarıdakı təhlildən göründüyü kimi, "Koroğlu" dastanının təsirini yalnız Koroğlu və Misri qılınc adlarında axtarmaq yanlışdır. Burada dastandan daha gözəl bəhrələnmələr var. Səməd Vurğun dastandakı motivlərdən o qədər böyük ustalıqla bəhrələnmiş, oradakı fikirləri, hətta hiss və duyğuları elə yüksək bacarıqla özününküləşdirmişdir ki, onları yalnız duymağı, adi gözlə yox, ağılın, düşüncənin gözüylə görməyi bacarmaq lazımdır. Bəlkə buna görə də Səməd Vurğunun ağız ədəbiyyatından bəhrələnməsi problemindən yazanların heç biri məsələnin bu qədər dərinliyinə varmamışdır.

Misri qılıncı qoca kişidən alan Eldar özünün Koroğlu olduğuna daha çox inanır. Koroğlunun hissləri, duyğuları da həmin andan axıb Eldarın qanına, iliyinə hopur. Bəlkə də bu hisslər, duyğular körpəlikdən onun canında yuva salmışdır, sadəcə olaraq Misri qılıncı əlinə alanda qəlbində bir oyanış oldu, qollarına güc gəldi, ürəyinə təpər doldu. Bunu Eldarın Misri qılıncı əlinə alandan sonra söylədiyi aşağıdakı sözlərdən aydın görmək olur:

Qıratın yalında qıvrılıb yatan,
Xanların, bəylərin gözünə batan,
Zalıma göz dağı, bizə şan qılınc,
Azadlıq uğrunda vuruşan qılınc!
İndi dayansın Qacar!
Cəngi çalın, hücum var! (25, s. 103)

Şeirdə hər şey güzgü kimi aydındır. Artıq Eldara elə gəlir ki, Qıratın belindədir, Misri qılınc da əlindədir. İndi gəlin onun şeirin sonundakı hücum nidasına baxaq. Bu misraların mayası Koroğlunun:

“Hoydu, dəlilərim, hoydu,
Yeriyin meydan üstünə.
Havadakı şahin kimi.
Tökülün al qan üstünə!” –

misralarından tutulmayıbmı? Onları söyləyən ürəklər eyni hava üstündə köklənməyibmi?

“Koroğlu” dastanının bir çox qollarında paşalar, xanlar Koroğlunun dəlilərini tuturlar. Koroğlu da gedib onları azad edir. Bağdadda Aslan paşa Eyvazı, Bəlli Əhmədi və Dəmirçioğlunu, Ərzurumda Cəfər paşa Dəmirçioğlunu, Bəyaziddə Xəlil paşa Eyvazı, Halaypozanı və Toxmaqvuranı həbs edirlər. “Vaqif” dramının sonuncu səhnəsində də Qacar Vaqifi zindana saldırıb öldürtmək istəyir. Eldar öz dəstəsi ilə Vaqifi zindandan çıxarmağa gəlir və Qacarla qarşılaşır. Qacar Eldarı çulu çırıq kəndli hesab edir və deyir:

“Mənlə vuruşmağa Koroğlu gərək! (25, s. 110)

Qacar burada özünü “Koroğlu” dastanındakı xanlara, paşalara tay tutur və hətta xanların, paşaların qorxduğu Koroğlu ilə vuruşmaq istəyir. Guya xotkardan, xanlardan, paşadan fərqli olaraq heç Koroğludan qorxmur. Bu zaman Eldar Misri qılıncı çıxardır və deyir:

**Eldar:**

Dayan! Misri qılınc gəlir üstünə...

**Qacar** *(çaşaraq)*:

Nə? Nə? Misri qılınc? Nə? Nə? Koroğlu? (25, s. 110)

Fikir verin. Bir az öncə Koroğlu ilə döyüşmək istəyən, guya onunla vuruşmaqdan qorxmayan Qacarı Misri qılıncın adını eşidəndə əsməcə tutur. Misri qılıncın, Koroğlunun adını eşidəndə Qacarın keçirdiyi qorxu hissini “Koroğlu” dastanında xanlar, paşalar çox keçiriblər. “Koroğlunun İstanbul səfəri”ndə Koroğlu bir qarının evində qonaq qalır. Qarı qonağının Koroğlu olduğunu biləndə özündən gedir, ayılanda durub qaçmaq istəyir. Koroğlu ondan soruşur ki, məndən niyə qorxursan? Qarı deyir:

– Niyə səndən qorxuram? Mən çox igid arvadam ki, sənin adını eşidəndə qorxudan bağrım çatlamayıb. Sənin adını eşidəndə paşalar qorxuya düşür. Pəhlivanlar gizlənmək üçün siçan deşiyi axtarırlar. Mən bir özümdən getmişəm, çox görürsən? (27, s. 51).

Göründüyü kimi, hər iki əsərdəki qorxu hissi də eynidir.

Səməd Vurğunun digər dramlarında da "Koroğlu" dastanından bəhrələnmələrə rast gəlinir. Lakin onlar ötəri səciyyəli olub, "Vaqif" dramındakı qədər qabarıq nəzərə çarpmır. Məsələn, "İnsan" dramındakı Eldar obrazı, "Vaqif" dramındakı Eldara oxşayır, "Vaqif" dramındakı Eldarın dilindən Qacara deyilmiş:

Gəl, gəl çulu cırıq kəndliyəm mən də
Şahla vuruşaram yeri gələndə (29, s. 552) –

misraları "İnsan" dramında da olduğu kimi Eldarın dilindən təkrarlanır. "Fərhad və Şirin" dramında da "Koroğlu" dastanının təsirini duymaq olur. Şirinin dilindən deyilmiş aşağıdakı şeir Koroğlu nəfəsi, Koroğlu ruhu ilə yoğrulmuşdur.

Fəqət Fərhadda da bu qüvvətdən var,
Onun qarşısında diz çökür dağlar.
İldırım əriyir hər nərəsindən,
Şahlar da tac tökür onun səsindən. (29, s. 411)

Araşdırmalar göstərir ki, Azərbaycan ədəbiyyatı "Koroğlu" motivləri ilə çox zəngindir. Poeziyamızın, nəsrimizin və dramaturgiyamızın daha çox qidalandığı ilkin qaynaqlardan biri "Koroğlu" dastanı olmuşdur. Bu baxımdan Səməd Vurğunun yaradıcılığı xüsusilə seçilir. Onun poeziyası "Koroğlu" dastanının motivləri ilə çox zəngindir. "Vaqif" dramı isə "Koroğlu" dastanı ilə səsləşmə baxımından Azərbaycan dramaturgiyasında istisna təşkil edir. Cəsarətlə demək olar ki, "Koroğlu" dastanının bütün bədii, poetik dəyərləri "Vaqif" dramının süjet və kompozisiyasına, ideya və məzmununa, qəhrəmanların idealına, psixologiyasına, hətta duyğu və düşüncələrinə hopmuşdur. "Vaqif" dramındakı bütün motivlərin "Koroğlu" dastanında oxşarı var. Dramın bütün obrazlarının dastanda prototipləri mövcuddur.

Eldar isə Səməd Vurğunun illərlə qəlbində yaradıb-yaşatdığı Koroğlu obrazından başqa bir şey deyil. Deməli, "Vaqif" dramı yazılı ədəbiyyatımızın "Koroğlu" dastanıdır.

## QAYNAQLAR:


1. İslam Sadıq. "Koroğlu" dastanının Azərbaycan şeirinə poetik təsiri // Azərbaycan Şifahi Xalq Ədəbiyyatına dair Tədqiqlər. AMEA Folklor İnstitutu. Bakı. 2013. Sayı XLII, səh 58-69.
2. İslam Sadıq. "Koroğlu" dastanının Azərbaycan şeirinə poetik təsiri // "Folklor və yazılı ədəbiyyat". 1 kitab. AMEA Folklor İnstitutu. Bakı. 2013. Səh. 20-42
3. İslam Sadıq. "Koroğlu" dastanının Azərbaycan şeirinə poetik təsiri. Əlyazması. Müəllifin şəxsi arxivi. 72 səh.
4. İslam Sadıq. "Koroğlu" dastanının Azərbaycanın qadın şairlərinin yaradıcılığına poetik təsiri. Əlyazması. Müəllifin şəxsi arxivi. 20 səh.
5. "Yoldaş Koroğlu". AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu Əbdürrəhim bəy Haqverdiyevin şəxsi arxivi. F.9, s.v.14, 42 vərəq+8 vərəq.
6. "Yoldaş Koroğlu". AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu. F 9, s.v.13, 13 vərəq
7. Mehri Məmmədova. Əbdürrəhim bəy Haqverdiyevin izahlı arxivi. Bakı 2012.
8. Ə.Haqverdiyev. Seçilmiş əsərləri. İki cilddə. 1 c. Bakı "Azərnəşr" 1956. Səh. 451-497
9. Ə.Haqverdiyev. Seçilmiş əsərləri. İki cilddə. 1 c. Bakı "Azərnəşr" 1971. Səh. 481-523
10. Kamran Məmmədov. Ə. Haqverdiyev// Ə. Haqverdiyev. Seçilmiş əsərləri. 2 cilddə. 1c. Bakı. "Azərnəşr. 1971. Səh. 5-24
11. Səbri Saleh. Abbas və Gülgəz Tufarqanlı. F. 9,s.v. 192. 28 vərəq
12. Türk dili haqqında. AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu. Əbdürrəhim bəy Haqverdiyevin şəxsi arxivi. F 9. s.v. 38. 62 vərəq

13. Mehdixan Vəkilov. Səməd Vurğunun tərcümeyi-halı // Səməd Vurğun. Əsərləri. 6 cilddə. 1 c. AMEA Nəşriyyatı. Bakı. 1960. Səh. XXXIII-LIV
14. Səməd Vurğunun aforizmləri (Tərtib edəni və ön sözün müəllifi İslam Sadıq). Bakı. Azərnəşr". 1987
15. İslam Sadıq. Koroğlu kim olub. Bakı. "Azərnəşr". 1998.
16. Səməd Vurğun. Azərbaycan ədəbiyyatı haqqında // "Ədəbiyyat qəzeti". Bakı. 1943, 21 oktyabr, № 26 (362)
17. Mehdi Hüseyn. Səməd Vurğun // Səməd Vurğun. Əsərləri. 6 cilddə. 1 c. AMEA Nəşriyyatı. Bakı. 1960. Səh. V-XXXI
18. Məmməd Arif. Azərbaycan xalqının ədəbiyyatı. Bakı. 1958
19. Mirzə İbrahimov. Səməd Vurğunun həyatı və yaradıcılığı haqqında // Səməd Vurğun. Əsərləri. 7 cilddə. 1c. AMEA "Elm" nəşriyyatı. Bakı. 1985. Səh. 5-21
20. Bəxtiyar Vahabzadə. Səməd Vurğun. Bakı. "Azərnəşr". 1968. 348 səh.
21. Cəlal Abdullayev. Səməd Vurğun poetikası. Bakı. "Gənclik". 1976
22. Rafiq Vəkilov. Səməd Vurğunun ədəbi tənqidi görüşləri. Bakı. "Yazıçı". 1982
23. Paşa Əfəndiyev. Səməd Vurğun və xalq yaradıcılığı. Bakı.
24. Məmməd Arif. Səməd Vurğunun dramaturgiyası. AMEA Nəşriyyatı. Bakı. 1964
25. Səməd Vurğun. Dram əsərləri və poemaları. Bakı. "Azərnəşr". 1974
26. "Koroğlu". Bakı. Gənclik. 1982
27. Azərbaycan dastanları (Tərtib edəni M.N.Təhmasib). 5 cilddə. IV c. Bakı. AMEA Nəşriyyatı. 1969
28. Maarifə Hacıyeva. Folklor poetikası. "Azərnəşr". Bakı. 2005. 240 səh.
29. Səməd Vurğun. Əsərləri. 7 cilddə. IV c. AMEA Nəşriyyatı. "Elm". Bakı. 1988.

# FOLKLOR VƏ KLASSİK ƏDƏBİYYAT
## (Xaqani Şirvani yaradıcılığı əsasında)

**Fidan QASIMOVA**
***filologiya üzrə fəlsəfə doktoru,***
***AMEA Folklor İnstitutunun***
***"Folklor və yazılı ədəbiyyat"***
***şöbəsinin böyük elmi işçisi***

Bildiyimiz kimi, folklor bir ölkə, ya da müəyyən bir bölgə xalqına məxsus müxtəlif mövzuları əhatə edən, bunları özünəməxsus üsulla toplayıb sistemləşdirən, şərh edən bir elmdir. Folklor xalq ənənələrini, adətlərini, inanclarını, mərasimlərini və s. özündə birləşdirir. O, bu gün də fəaliyyətini davam etdirir və xalq mədəniyyəti, milli dəyərlərinə məxsus yeni mövzular, mətnlər yaradır. İctimai həyatdakı dəyişikliklər mədəniyyətdə də öz əksini tapmışdır. Folklor müxtəlif mədəniyyətlər arasında əlaqə yaradır. Bu mənada folklor, keçmişlə gələcək arasındakı əlaqənin itməməsi, möhkəmlənməsində əhəmiyyətli bir funksiya yerinə yetirir.

Əlbəttə ki, şifahi xalq yaradıcılığının belə mühüm əhəmiyyətini dərk edən ədəbiyyat nümayəndələri də ondan yan keçə bilməzdilər. Məhz folklor nümunələri sayəsində istər klassik, istərsə də müasir ədəbi-bədii nümunələr oxucuların nəzər diqqətini özünə cəlb edir, onların müəlliflərinin yaradıcılığına daha da maraq artırır.

Azərbaycan klassik ədəbiyyatında, xalq ədəbiyyatı məhsullarının mövzu, forma və janrlarından faydalanaraq dil və mövzu cəhətdən daha güclü əsərlər yaradan nümayəndələr içərisində Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli və s. adları ağıla ilk gələn sənətkarlardır. Onların yalnız ölkəmizdə

deyil, həm də dünya ədəbiyyatında mühüm bir mövqe qazanmalarının səbəbi də məhz xalq yaradıcılığından bəhrələnmədir.

Özünün zəngin, çoxcəhətli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan, klassik yazıçılar arasında öz dəst-xətti ilə seçilən Xaqani Şirvani folklorun gözəl bilicilərindən olmuşdur. Bunu yazıçının əsərlərində işlətdiyi folklor nümunələri, yaradıcılığının təbiiliyi, axıcılığı, xalq ruhuna yaxınlığı təsdiq edir. Məlum olduğu kimi, artıq folklorla yazılı ədəbiyyatın qarşılıqlı əlaqəsi danılmaz bir faktdır. Araşdırma sahəmiz olaraq yalnızca klassik dövr yazıçıların əsərlərinə nəzər saldıqda da bu əlaqələrin müxtəlif cəhətləri, tərəfləri ilə rastlaşmaq olar.

Kiçik folklor janrlarından olan atalar sözü və məsəllər Xaqani Şirvani yaradıcılığında tez-tez istifadə edilən nümunələrdir. Şair bu nümunələrə yaratdığı bədii əsərlərin dilinin lazımlı bədii elementi kimi baxmışdır. O, qəhrəmanlarının xarakterik xüsusiyyətlərini, cərəyan edən hadisələrə öz münasibətini ifadə etmək, milli koloritin yaradılmasına imkan yaratmaq üçün onlardan yeri gəldikcə istifadəni labüd saymışdır. Məsələ, Xaqaninin bir beytində oxuyuruq:

Bir məsəl var, deyərlər: toyuq dən yedi, sonra,
Onun yumurtasından ləlu mərcan doğuldu (4, 114).

Var bir məsəl ki, oğlağa qaçmağı təklif etdilər,
Qəssabı göstərdi, dedi: oğlaq hara, qaçmaq hara? (4, 280).

Xalq öz yaratdığı nümunələrə daha yaxşı bələd olduğu üçün, onu sevərək yaddaşlarda saxladığı üçün şairin ifadə etmək istədiklərini tamamilə aydın şəkildə dərk edir:

Süfrəmin artığın yeyər Cəm kimilər, rəvamıdır,
Mənsə olum qarışqatək rizə yığan? Yazıq mənə! (4, 305)

Şairin əsərlərində atalar sözünü xatırladan misralar çoxluq təşkil edir. O, bu misralarla insanlarda gözütoxluq, ağıllılıq kimi sifətlərin daha üstün olmasını arzuladığını bildirir. Xəlil Yusifo-

vun da yazdığı kimi, “orta əsrin xüsusiyyətçi qanunlarına qarşı şair gözütoxluq, ağıllılıq tələb edir. Xaqaniyə görə o adam ki, zahirini bəzəyir, əlvan paltarlarla öyünmək istəyir, o, ilandan da əskikdir. Qoy belə adamlar heç olmasa əfi ilandan ibrət alsınlar, çanaqlı bağaya bənzəməsinlər:

Nolardı bircə bilsəydim bu dünyada nəyin artar
Yeyib-içsən gecə-gündüz, şərabi, noğlu, reyhanı?
Əmirə söylə bilsin ta ki, nəfs - it, cifə sərvətdir,
İtə həmkasə olmaqla gedər badə şərəf, şanı.
Ölər bağa çanağında, çıxar əfi qılafından,
İlandan kəm deyilsənsə, soyun bu rəxti-əlvanı.
Süleymanam demə, əvvəl yanından divləri rədd et,
Və ya zəncirlə, ya öldür, ya qov quli-biyaban.

Əlvan geyimlərlə, ləzzətli yeməklərlə öyünmək, onların əsiri olmaq divlər, şeytanlar əlində qul olmaqdır, öz insanlığını, dəyanətini itirməkdir. Nə üçün insanın ruhu tamah, həvəs zindanında dustaq olmalıdır” (5, 71). Bədii nümunədən də göründüyü kimi, şair folklorun mühüm bir hissəsini təşkil edən nağıllardan gələn obrazlarla öz fikirlərini daha təsirli şəkildə çatdırmağı bacarır.

Şairin ümumən Şərq poeziyasında mühüm mövqeyə malik olan "Töhfətül-İraqeyn" əsəri öz bədiiliyi ilə daima diqqət mərkəzində olmuşdur. Şair bu poemasında özünün ictimai, fəlsəfi fikirlərini ifadə etmişdir. Bu fikirləri ifadə edərkən də xalqın zəngin xəzinəsindən bəhrələnməyi unutmamışdır. Poemanın başlanğıcından etibarən folklor nümunələri diqqəti cəlb edir. Şair dövrdən şikayət xarakterli misralarında “İndi din göyündə Dəccallar çoxdur; Heyf ki, xilaskar bir Mehdi yoxdur” (4, 23) ifadəsi mifoloji mətnləri yada salır. Dünyanın sonu haqqında olan mifoloji mətnlərin birində deyilir ki, dünya sonu yaxınlaşanda bir gözü olan Dəccal gələcək, insanları öz doğru yolundan azdıracaq. Ancaq ona qarşı Mehdi Sahib əl Zaman peyda

olacaq, insanları öz arxası ilə düzgün yola çəkəcək və dünyanı xilas edecəkdir (6).

Azərbaycan əfsanələrində, nağıllarında tez-tez rast gəlinən yeddibaşlı ilanlara şairin misralarında da rast gəlinir:

Altıbaşlı dünya arzular insan,
Qızıl yeddibaşlı ilandır, ilan.
Kimin gözlərində qızıl tutub yer,
O, aynaya baxıb, özün görməyir (4, 26).

Son iki misradakı ifadə isə xalqda "Aynaya baxan öz camalını görər" (1, 48.) şəklində rast gəlinir. Müəllif bu ifadəni şeirin tələbi ilə bir qədər fərqli şəkildə işlədərək, insanlarda qızıla, pula hərisliyin mənfi tərəflərini izah edir.

Xaqani "Birə dözən, minə yetər" (1, 137) atalar sözünü ""Bir" gəlib "min" olar" şəklində işlədir (4, 30).

Şairin bu poemasında mifoloji dünyagörüşün məhsulu olan dünyanın qatları haqında fikirlərə (yeddi, doqquz), Dirilik suyu, rənglərin anlamı ilə bağlı ifadələrə də rast gəlmək mümkündür. Məsələn, "Torpağı o dünya torpağındandır // Dirilik suyu tək suyu dərmandır" (4, 31).

Dəryanın yanında bir damla nədir?
Sən heçsən, şah zəngin bir xəzinədir.
Xəzinəni bağlı gördüyün zaman,
Yatmış əjdahanı oyatma, aman! (4, 39)

Bu dörd misrada həm atalar sözü, həm də nağıl ünsürlərini görmək olar. "Dəryadan bir damcı" (1, 265) kimi atalar sözü və nağıllarda suyun qarşısını kəsək divlər, xəzinəni qoruyan əjdahalar yada düşür. Şair böyük bir məharətlə folklorun hər iki janrı vasitəsilə qəhrəmanına nəsihətlər verir.

Dillə bağlı xalqda xeyli ifadələrə rast gəlmək mümkündür: "Dil başı saxlar", "Dil yarası qılınc yarasından yamandır", "Dilini saxlayan, başını saxlar" və s. (1, 267-270)

Bu tipli atalar sözləri Xaqani yaradıcılığında özünəməxsus şəkildə işlənir. Aşağıdakı misralar başdan-başa atalar sözüdür.

Şair onları hətta mifoloji mətnlərlə də əlaqəndirərək yeni bir həyat verir:

Hər kim acıdildir, yaxşı bil bunu,
Şahın qapısına qoymazlar onu.
Dil gülünc etməsin deyə insanı,
İnsan ağzı olmuş dilin zindanı.
Bəzən dil sıyrılmış qılınca bənzər,
Ayıq ol, başını bədəndən üzər.
Can cəhənnəminə qapıçıdır dil,
Dilsizlik behiştin açarıdır, bil.
Balıq dilsizliklə tapdı gücünü,
Tutdu göy üzündə Balıq bürcünü.
İlan iki dilli olduğu üçün,
Cənnətdən qovuldu nifrətlə bir gün.
Canını saxlamaq istəsən əgər,
Çalışıb dilini saxla birtəhər (4, 39).

İnsanın yaranmasından bəhs edən mifoloji mətndə ilan behiştin qapısında duran qanadlı bir mələk kimi təsvir edilir. Ancaq şeytanı cənnətə ötürdüyünə görə cəzalandırılır və qanadları yox edilir, özü də cənnətdən qovulur (6). Bu mifoloji mətndən xəbərdar olan şair dillə bağlı fikirlərini belə mətnlərin, xalq ifadələrinin gücü ilə daha da təsirli və inandırıcı şəkildə ifadə etməyi bacarmışdır.

Qeyd etdiyimiz kimi Xaqaninin "Töhfətül-İraqeyn" əsəri folklor motivləri ilə zəngindir. Bu əsərdə el ədəbiyyatının müxtəlif janrlarına rast gəlmək mümkündür. “XII yüzillikdə əxiliklə bağlı olan mənqəbəvi-mifik anlayışlarda, el ədəbiyyatında Xızır obrazı, dirilik suyu, Xeyrəvan şəhəri ayrıca bir yer tutmuşdur. Xızır obrazı Şirvanla, Xəzər dənizi ilə bağlı təsəvvür olunur. Dirilik suyunun Muğanda, Şirvanda axdığından danışılır. Xaqani bu bədii-mifik və mənqəbəvi anlayışlara "Töhfətül-İraqeyn"də yer vermiş, el içərisində yayılmış mifik anlayışlarla əsərinin bədiiliyini artıra bilmişdir” (2, 460).

Xalq hikməti, nəsihətinin gələcək nəsillərin tərbiyəsindəki rolu danılmazdır. Şair də bu təsirin müsbət tərəflərini aydın dərk etdiyi üçün əsərlərinin mühüm bir hissəsini xalq hikməti kimi dəyərli nəsihətlərinə ayırmışdır. Hansı ki, bu hikmət və nəsihətlərdə gələcək nəsillərin sağlam ruhda böyüməsi, özünütərbiyə, məntiqi fikir yürütmə qabiliyyəti aşılanır.

Məsələn, xalqın elm, təhsilinə xüsusi fikir verən klassik ədəbiyyatın Nizami, Füzuli kimi nümayəndələri ilə yanaşı Xaqani də xalqın çəkdiyi əzab-əziyyətdən, zülmdən çıxış yolunu, əsasən, elmdə, bilik əldə etməkdə görürdü. O, insana hər zaman oxumağı, yeni şeylər öyrənməyi məsləhət görürdü. Şairin nəsihətamiz fikirlərində insanların lovğalığı, özünü öyməsi, yalan danışmaq, nadanlıq kimi keyfiyyətləri də pislənir və şair hər kəsi sadəliyə, doğru sözə üstünlük verməyə, dediyi hər bir fikri əsaslandırmağa, məntiqli fikirlər söyləməyə çağırırdı:

Cahildir özünü tərif edənlər,
"Çox bilirəm" demə, bilsən də əgər.
Boş söz insanların abrını tökür,
Yalan şirlərin də bağrını sökür.
Məntiqsiz, dəlilsiz yalan danışmaq
Nadan adamların işidir ancaq.
Əgər tavus kimi özünü öysən,
Xəcalət çəkərsən tavus kimi sən (3, 154-155).

Şair tez-tez əsərlərində dostluqla bağlı fikirlər irəli sürür. Onun nəsihətamiz fikirləri içərisində bu mövzu xüsusi yerə malikdir. Üzünü əsasən gəncliyə tutaraq əsl dostluqla bağlı həqiqi məsləhətlər, nəsihətlər verir:

Çalış az dostluq et, etsən də əgər
Dostluqda möhkəm ol, sözdə mötəbər.

Dostun əkdiyi gül olsa da tikən,
Çıxarıb yerindən onu atma sən (3, 242).

Xaqani yaradıcılığı ilə bağlı xeyli tədqiqatlar aparılmışdır. "Azərbaycan ədəbiyyatı tarixi" kitabında Xaqaninin ədəbi irsi ətraflı tədqiq edilir. Burada göstərilir ki, Xaqani "Divan"ında fərdin və cəmiyyətin dərmanını arayarkən onu el fəlsəfəsində axtarır, ataların: "Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir" – zərbi-məsəli ilə insanların və bütün toplunun sağlamlaşdırılması üçün "pislik qarşısında yaxşılıq et" – deyən çoxmənalı bir "hikmət" irəli sürürdü (2, 449).

Həmçinin bu kitabda haqlı olaraq qeyd edilir ki, Xaqani qadın və kişiyə bir gözlə baxmış, üstünlüyü ancaq qadın və kişilərin, ayrı-ayrı insanların bacarıq və ləyaqəti ilə ölçmüşdür. O, eldən, xalq yaradıcılığından gələn "aslanın erkəyi-dişisi olmaz!" hikmətini örnək götürmüşdür. "Hakimiyyət günlərində qadın və kişinin fərqi yoxdur. Döyüşdə dişi və erkək aslan birdir – bir-birindən ayrılmır" (2, 451).

Araşdırmadan da göründüyü kimi nəsihətamiz fikirlər Xaqani Şirvani yaradıcılığının mühüm bir hissəsini təşkil edir. Şairin bu mövzusuna həsr olunmuş əsərləri gəncliyin tərbiyəsi üçün əhəmiyyətlidir. Məsələn, şair "Gənclərə nəsihət"ində deyir:

Fitnə törətmə, ey fitnəkar cavan!
Fitnədir elləri dərdlərə salan.

Hiylə – oğurluqdur, xoşsa əvvəli,
Oğrunun axırda kəsilər əli.

Bu gün yoxdursa da kimsədə vəfa,
Vəsiyyət edirəm: olma bivəfa.

Bir kiçik adama nəvaziş etsən
Sənin böyüklüyün getməz əlindən (3, 241-242).

Göründüyü kimi, Xaqani Şirvani gəncliyə müraciət edərək onları pis işlərdən, fitnəkarlıqdan uzaqlaşmağa, yaxşılığa, xoş rəftara dəvət edir.

Xaqani Şirvani yaradıcılığından da göründüyü kimi, folklordan bəhrələnərək yaradılan hər bədii nümunə insanların estetik cəhətdən zənginləşməsində, qarşılıqlı münasibətlərin düzgün qurulmasında, oxucuda xoş əhvali-ruhiyyənin yaradılmasında mühüm rol oynayır. Tarixdən də məlum olduğu kimi, dövlətlərarası bir sıra mürəkkəb məsələlər də bədii sözün gücü ilə müsbət yöndə həll edilmişdir. Ümumiyyətlə, folklor və klassik ədəbiyyat birgə fəaliyyət göstərərək oxucuda humanist prinsiplərin, yüksək ideallların əsasını qoymuşdur.

Folklorla yazılı ədəbiyyat arasındakı əlaqə dünya ədəbiyyatından da məlumdur. İstər dünya klassikləri, istərsə də müasir dövr şair və yazıçıları folkloru əsərlərinin əsas məğzinə, mənbəyinə çevirmişlər. Bu, xalq mühitinə daha yaxından bələd olan, onlar arasında yaşayıb yaratmış yazıçıların əsərlərində daha parlaq şəkildə öz ifadəsini tapmışdır.

## QAYNAQLAR:


1. Atalar sözü. Bakı, Yazıçı, 1985.
2. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. II cild, Bakı: “Elm”, 2007.
3. Azərbaycan klassik ədəbiyyatından seçmələr. Üç cilddə, I cild. Bakı, “Şərq-Qərb”, 2005.
4. Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyat", 2004.
5. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, “Maarif”, 1982.
6. Şərur folklor örnəkləri (Şəxsi arxiv).

# PAŞA ƏFƏNDİYEV: SƏMƏD VURĞUN VƏ XALQ YARADICILIĞI

**Xəyalə ORUCQIZI**
***filologiya üzrə fəlsəfə doktoru,***
***AMEA Folklor İnstitutunun***
***"Folklor və yazılı ədəbiyyat"***
***şöbəsinin böyük elmi işçisi***

Azərbaycan folklorşünaslığına nəzər saldıqda Paşa Əfəndiyevin öz xüsusi yeri və çəkisi görünür. O, folklorumuzun ayrı-ayrı sahələrini tədqiq etməklə yanaşı, bunları gələcək nəsillərə ötürmək üçün dərsliklər hazırlamışdır. Azərbaycan elminə dəyərli töhfələr verən Paşa müəllimin yaradıcılığında folklor və yazılı ədəbiyyat məsələlərinə xüsusi diqqət yetirilir. Bu iki sahəni bir-birindən ayrı təsəvvür etmək olmaz. Yazılı ədəbiyyatımızdakı əksər əsərlərdə şifahi xalq yaradıcılığının izi görünür. Folklorumuzdan bəhrələnmə güclüdür. Bu da onu sübut edir ki, bizim xalqımız öz geninə nə qədər bağlı bir xalqdır.

Səməd Vurğun yaradıcılığının ilk illərindən ömrünün sonuna qədər folklordan özünəməxsus şəkildə istifadə etmişdir. Onun poeziyasında xalq ədəbiyyatımızın güclü təsiri dərhal hiss olunur. Dahi şairimiz Səməd Vurğun bütün yaradıcılığı boyu folklorumuzdan məharətlə istifadə etməklə yanaşı, şifahi xalq ədəbiyyatı, onun ideya və bədii xüsusiyyətləri, ondan istifadə yolları haqqında dəyərli fikirlər söyləmişdir. M. Qorkinin xalq ədəbiyyatının kütləvi şəkildə toplanıb öyrənilməsi çağırışına Azərbaycanda ilk dəfə səs verən gözəl şairimiz Səməd Vurğun olmuşdur. Şair xalq ədəbiyyatımızın toplanması və elmi şəkildə öyrənilməsini çox ciddi irəli sürürdü. Hal-hazırda Azərbaycanda bu işi Folklor İnstitutu yerinə yetirir. Professor Paşa Əfəndiyevin də fəaliyyət göstərdiyi İnstitutumuzda müxtəlif regionlardan

folklor materialları toplanır. Çox cildli antologiyalar çap olunur. Xalq ədəbiyyatı nümunələri tədqiqata cəlb olunur.

Son dövrlərdə Folklor İnstitutu tərəfindən nəşr olunmuş “Folklor da bir tarixdir” (Qarabağ) kitabı işğal altında olan torpaqlarımızın folklorunun öyrənilməsinə xidmət edir. Xüsusən işğalda olan torpaqlarımızın folklorunun öyrənilməsi ona görə vacibdir ki, məkrli düşmənimizə xalqımızın qədimliyini sübut edən materiallardır. Gələcək nəsillər xalq ədəbiyyatımızı, folklor mühitimizi öyrənmək üçün bu kitablardan yararlanacaqlar.

Səməd Vurğun 1934-cü ildə keçirilən Sovet yazıçılarının Birinci Ümumittifaq Qurultayında iştirak etmişdir. Orada yazıçı M. Qorki şifahi xalq ədəbiyyatından xüsusi məruzə etmişdir. Onun xalq yaradıcılığına verdiyi qiymət dünya folklorşünaslığı tarixində yeni hadisə idi. Bu qurultaydan sonra Sovet ölkələrində folklorun toplanması, nəşri və öyrənilməsi sahəsində böyük dönüş əmələ gəldi. Səməd Vurğun Moskvadan qayıdan kimi Azərbaycan Yazıçıları İttifaqının iclasında “Oktyabr və Azərbaycan ədəbiyyatı” adlı geniş məruzə etdi. O, məruzə edərkən M. Qorkinin fikirlərini önə çəkərək qeyd etdi ki, öz folklor ədəbiyyatınızı yığın, toplayın – bu, söz sənətinin başlanğıcıdır. Sənət, yazılı ədəbiyyat olmayan vaxt insan tarixində folklor ədəbiyyatı inkişaf etmişdir. Ona görə də öz folklor ədəbiyyatınızı öyrənin. Ondan siz çox şey götürə bilərsiniz. S. Vurğun çıxışında onu da vurğulayır ki, folklorda xalqın iztirabları, mübarizəsi, istismarçılara qarşı kin və nifrəti öz əksini tapır. “Bu ədəbiyyat əsas istiqaməti etibarilə əzilən siniflərin, məzlum təbəqələrin əhvali-ruhiyyəsini ifadə etmişdir. Məsələn:

Əzizinəm gül əllər,
Gül barmaqlar, gül əllər,
Dəryaca ağlın olsa,
Yoxsul olsan güləllər.

Əzizinəm gülən az,
Bülbül eylər gülə naz,

Dünya bir qəmxanadır,
Ağlayan çox, gülən az.

Səməd Vurğuna görə xalq yaradıcılığından yazıçılar yalnız xalqın iztirablarını, əhvali-ruhiyyəsini, psixologiyasını öyrənmirlər, xalqın bu mənəvi sərvəti eyni zamanda gözəl sənət nümunələridir. Səməd Vurğun qeyd edir ki, bəzi yazıçılarımız əcnəbi sözlərdən istifadə etməklə elə bilirlər ki, "yenilik" yaradırlar, əksinə onların şeirimizin sahib olduğu Azərbaycan türkcəsini pozmaq təşəbbüsləridir ki, biz bunlarla ciddi mübarizə etməliyik. Xalq sənəti, folklor və yazılı ədəbiyyat məsələsindən Səməd Vurğun digər məqalə və məruzələrində də danışmışdır. Həmin problemi o, Nizami, Füzuli, Vaqif, C. Cabbarlı, Ü.Hacıbəyov və başqa böyük sənətkarların yaradıcılıq təcrübəsi əsasında üzə çıxarırdı. Səməd Vurğunu bütün yaradıcılığı boyu xalq həyatı, xalq sənəti və sənətkar problemi maraqlandırmışdır. Səməd Vurğun qeyd edir ki, xalqdan öyrənmədən böyük poeziya yaratmaq olmaz. Lakin xalqa, onun bədii təfəkkürünə yaxınlıq xalq mahnılarını və nağıllarını sadəcə təkrar etmək demək deyildir. "Puşkinin "Çar Soltan haqqında nağıl" əsərinə nisbətən "Tunc atlı"sında daha çox xəlqilik vardır".

Səməd Vurğunun əfsanə haqqında mülahizələri də çox maraqlıdır. Şair hər bir əfsanə, rəvayət, hekayənin özündə real həyat, arzu, istək görür. Şairə görə əfsanə, rəvayət həyat hadisələrinin, tarixin xalq dilində bədii ifadəsidir. Şair müxtəlif dövrlərdə yaranan əfsanələrin məqsəd və qayəsinin, xalqın həyatı, məişəti, mübarizəsi, dünyagörüşü ilə əlaqədar olduğunu çox yaxşı bilirdi. O, müasir qəhrəmanlarımızı da əfsanələrin dili ilə rəngləməyi bacarmağı təklif edirdi. Səməd Vurğun öz əsərlərində nəzəri fikirlərini həyata keçirməyə çox zaman müvəffəq olurdu. Vaqif, Qızyetər, Fərhad, Azər baba, Vidadi və başqa surətləri buna misal çəkmək olar. Şair yazırdı: "Biz əsrimizin əfsanəvi qəhrəmanlarının surətini əfsanəvi bir qüdrətlə, bir dillə yaratsaq günahmı olar? Bunu yalnız bacarmaq lazımdır! Yüksək sənət dili üçün standart forma yoxdur. Sənətin məna üfüqləri

sonsuz olduğundan onun formaları da sonsuz və heç bir məngənəyə, hüdud çərçivəsinə sığışa bilməz.”

“Balalarımız üçün gözəl əsərlər yaradaq” adlı silsilə məqaləsində də bu fikirləri xalq şairimiz söyləmişdir. Səməd Vurğuna görə uşaqlar üçün yazılan əsərlərdə xalqın nağıl və əfsanələrindən bacarıqla istifadə etmək lazımdır. “Əfsanə sözündən qorxmaq lazım deyil, hər hansı bir əfsanə olursa olsun, biz onda həqiqət şəfəqləri görməliyik. Çünki onu insan yaratmışdır. Bütün əfsanələr həyat və insan yaranandan sonra yaranmışdır”.

Səməd Vurğun müharibə dövründə yazdığı məqalələrində qılıncın, sazın, sözün həmişə döyüş meydanlarında birgə cövlan etdiyini qeyd edir. Xalqımıza aid olan bu xüsusiyyət Böyük Vətən müharibəsi illərində də görünürdü. Səməd Vurğun həmin dövrdə yazıya aldığı məqalələrində bu qədim ənənəni yaşadan qəhrəmanları yad edir və Azərbaycan oğullarını Vətən uğrunda, azğın düşmənə qarşı böyük qəhrəmanlıqlara çağırırdı: “Bizim xalqımızın təfəkküründə yaşayan bədii söz, məfhum, insanlığın böyük idealları, humanizm və idrakın tərəqqisi uğrunda aparılan mübarizədə hər zaman mübariz bir vasitə olmuşdur. Bizim xalqımızın tarixində qılıncla qələmin çox qədim bir qardaşlığı var:

Hoydu dəlilərim hoydu,
Yeriyin meydan üstünə,
Havadakı şahin kimi,
Tökülün al qan üstünə.

Qoyun bədöylər kişnəsin,
Misri qılınclar işləsin,
Kimi tənab qılınclasın,
Kimisi düşmən üstünə.

Bəlkə də zaman gəlib keçdikcə Koroğlunun bu və ya digər hərbi məharəti unudulacaqdır. Lakin şair Koroğlunun bu qızıl sözləri xalqımızın sinəsində nəsildən-nəslə keçib yaşayacaq, özünə daha parlaq bir gələcək qazanacaqdır”.

Müasir dövrümüzdə də belə təbliğatları gənc nəsillə aparmalıyıq. Şagirdlərimiz orta məktəb dövrlərindən qəhrəmanlarımız haqqında məlumatlı olmalı, onları özlərinə ideal seçməlidirlər. Bir sözlə xalq ruhunda böyüməlidirlər. Dərsliklərimizdə başqa xalqların şifahi xalq ədəbiyyatı nümunələrinə yox, öz xalq ədəbiyyatımıza daha çox yer ayrılmalıdır. Bizim gələcəyimiz olan məktəblilər xalq ruhunda böyüməlidirlər. Xalq qəhrəmanlarımızın Vətən, torpaq uğrunda etdikləri fədakarlıqlar onlar üçün nümunə olmalıdır.

Səməd Vurğun poeziyada daim xalq ruhu, milli etnik xüsusiyyətlər görmək istəyirdi. Şairə görə yalnız bu yolla xalqın qəlbinə yol tapmaq olardı. Şair yazırdı ki, "yazıçı dünya meydanına hər şeydən əvvəl, öz xalqının milli aləmini, səciyyəsini, məişətini, məfkurəsini və mənəviyyatını təbii surətdə tərənnüm etmək yolu ilə çıxa bilər". Səməd Vurğun yaradıcılığını dünya miqyasına çıxaran da ömrü boyu sadiq qaldığı həmin xüsusiyyətlər olmuşdur.

1951-ci ildə Sofiyada keçirilən sovet-bolqar dostluğu aylığında iştirak edən Səməd Vurğuna bolqar yazıçısı Stoyan Daskalov söhbət zamanı sual verir ki, müasir texniki tərəqqi əsrində bizim ədəbiyyatın xalq yaradıcılığına münasibəti necə olmalıdır? Səməd Vurğun bu suala çox mənalı və poetik bir tərzdə cavab verib: "Övladın anaya olan münasibəti kimi". Bunun nəticəsi olaraq Səməd Vurğun haqqında əsər yazmaq qərarına gəlib və əsərin adını da belə müəyyən edib: "Övladın anaya münasibəti".

Səməd Vurğun elə sənətkarlarımızdandır ki, öz poeziyasını xalqın həyat və mübarizəsi ilə bağlayıb. Sənətkar üçün ən mühümü öz xalqının arzularını, düşüncələrini, psixologiyasını öyrənməkdir. Bunun üçün ən zəngin mənbə isə xalq yaradıcılığıdır. Milli olmayan, öz xalqına bağlı olmayan sənətkar heç vaxt xəlqi ola bilməz.

Ayaqlaş dövranın sürətilə sən,
Çalış ki, karvandan üzülməyəsən.
Özün yaratsan da bütün varlığı,
Özündə axtarma bəxtiyarlığı.
Elin məclisində ney tut, dilə gəl,

Beşgünlük aləmə gülə-gülə gəl.
Doldur piyaləni haqq şərbətindən,
Sən el bağçasında şur tutub, səs sal.
Elin ciyərilə yalnız nəfəs al.

Şairin öz elinə, Vətəninə necə bağlı olduğu bu poetik nümunədə də aydın şəkildə öz əksini tapıb.

Səməd Vurğunun formaca qoşma olan şeirlərində klassik şeir ənənələri ilə el ədəbiyyatı ənənələri birləşmiş, şairin həyata olan yeni baxışı ilə əlaqədar, köhnə forma yeni məzmun kəsb etmişdir.

İnsanı ucaldan əməyə, zəhmətə böyük qiymət verən gözəl şairimiz "Sənət" qoşmasında yazır:

Düyünlü dağları kökündən vuran,
Əmək cəbhəsində amansız duran,
Əqrəbli çöllərdə bağ, bostan quran,
Zəhməti güldürən sənət olacaq.

Azəri yurdunun zəhmətkeş oğlu,
Ürəyi sevinclə, ümidlə dolu,
Çəlikdən duruşu, dəmirdən qolu,
Zəhməti güldürən sənət olacaq.

Ey göylər suları, sən boşalma, dol!
Tutduğun çiçəkli, reyhanlı bu yol,
Hər qəlbə sevinclər vəd edən bol-bol,
Zəhməti güldürən sənət olacaq.

Səməd Vurğun ilk şeirlərində təbiət gözəlliklərini xüsusi bir ilhamla tərənnüm etmişdir. Fitrətən istedadlı gənc şair doğma vətəninin möhtəşəm gözəlliklərini ifadə etməyə çalışmışdır. "Dilcan dərsi", "Dağlar", "Dağların", "Səyahət", "Çiçək", "Kür çayı" və s. bu tipli qoşmalar şairin ilk şeirləri içərisində özünəməxsus yerə malikdir.

Çıxım gədiklərdən izin izləyim,
Ucalardan alçaqları gözləyim,

Ağır qəflə vurum, səndə gizləyim,
Heç kimsə bilməsin, sirdaşım dağlar!

Paşa Əfəndiyev yazır: "Dağlara sənətkarın da öz münasibəti olmuşdur. Koroğlunun dağlara müraciətlə dediyi bir sıra şeirləri var. Ana vətən rəmzi kimi dağlar Koroğlu üçün müqəddəsdir: ən müqəddəs dağ, ən toxunulmaz dağ doğma Azərbaycanın timsalı kimi dastana salınmış Çənlibeldir. Ona görə də Koroğlu dağların qoynunu "Ana vətən qoynu" adlandırır. Dağlar bu el qəhrəmanını boya-başa çatdırıb; dağlar onun sevinci, qüruru, xilaskarıdır. Dağlar Koroğlunun hər bir anında – həm sevincli, həm də qəmli anında sirr yoldaşı olmuşdur. Dağlar yalnız sinəsi ormanlı laləzar, göy meşəli məskən deyil, eyni zamanda sığınacaqdır; dağlar dost, yoldaş, sirdaşdır. Əndəlib Qaracadağinin yazıb saxladığı nümunələrdən misal göstərək:

Yaz olsun ərisin dağların qarı,
Gözünə görünsün qardaşım dağlar!
Koroğlu deyər bu dünyaya gəlmişəm,
Bir at, bir qılıncım dağlar".

Dağlar el üçün vuruşan igidlərimizi öz qoynunda gizlədib, onları ölümdən xilas edib.

Böyük şairimiz el yaradıcılığının, aşıq poeziyasının bu ənənəsinə sadiq qalaraq dağlara qoşmalar həsr etmişdir. Yaradıcılığının müxtəlif vaxtlarında yazmışdır. Yəni dağ mövzusu Səməd Vurğun üçün keçici olmamışdır. İlk qələm təcrübəsinə "Gözlərin", "Xanım" adlı qoşmaları da aiddir. Bu qoşmaların mövzusu sevgidir. Paşa Əfəndiyev qeyd edir ki, bu şeirlərdə vəfasızlıq, dönüklük, həsrət ilk plana çəkilmişdir. Yaxıb, yandıran, gözəl, cazibədar, eşqə mübtəla gözlər eyni zamanda dönükdür. "Aşiqlər könlünə yağı gözlərin", "Çəkmişdir sinəmə dağı gözlərin", "Axtarır bir özgə yarı gözlərin" – şair "binadan məftun olduğu gözləri vəsf edir. Lakin bu gözlərin onun imdadına çatmaq fikri yoxdur. Qoşma belə tamamlanır:

Ey xəyalı dilbər, cahan pərisi,
Yetişirmi sənə naləmin səsi,

Öldürüb cəsədi, alıb nəfəsi,
Niyə salmır məni yada gözlərin.

Həddindən artıqdır könlün vərəmi,
Məhv elədi məni hicran ələmi,
Zavallı Vurğunun yazır qələmi,
Şöhrət qazana dünyada gözlərin".

Klassik aşıqlarımızın işlətdiyi rədiflər üzərində ənənəvi yeni şeirlər yaradan Səməd Vurğunun lirik qoşmaları içərisində "Bənövşə", "Gözlər", "Gözlərin", "Gəlin" və. s aşıq poeziyası ənənələrinə söykənməsi baxımından səciyyəvi xarakter daşıyır:

Mən aşıq kimi gözlər,
Gözlərin kimi gözlər,
Qaşın kimi qaş olmaz,
Gözlərin kimi gözlər.

Səməd Vurğunun Aşıq Hüseyn Bozalqanlıya həsr etdiyi qoşma şair və aşıqlar tərəfindən rəğbətlə qarşılandı:

Aşıq Hüseyn, köklə sədəfli sazı,
Min cavablı bir sualdan danışaq,
Məclis quraq, söhbət açaq, söz tutaq,
Gül yanaqlı qoşa xaldan danışaq.

Qoy söz alım bir günahsız dodaqdan,
Düşmən baxıb həsəd çəksin uzaqdan,
Yar bəzənib çıxan kimi otaqdan,
Başındakı güllü şaldan danışaq.

Vurğun deyər bir dərd bilən yar olsun,
Zülfü bulud, ağ sinəsi qar olsun.
Yaxşı gündə, yaman gündə var olsun,
Qədir bilən əhli-haldan danışaq.

Səməd Vurğun bir sıra Azərbaycan aşıqları ilə yaxından dostluq etmişdir. Bu dostluq tezliklə sənət, şeir, saz, söhbət yarış dostluğuna çevrilmişdir. Şairin yazıb yaratdığı illərdə aşıq yara-

dıcılığına xüsusi qayğı göstərildi. 1928 və 1938-ci illərdə iki dəfə Azərbaycan aşıqlarının qurultayı keçirilmişdir. İkinci qurultayın rəyasət heyətində Ü.Hacıbəyov, H.Sarabski ilə yanaşı əyləşmişdir. "Bu illərdə Səməd Vurğun aşıq yaradıcılığına xüsusi fikir verir və qabaqcıl aşıqların Yazıçılar İttifaqına üzv qəbul olmalarına çalışırdı". Onlardan bir qrupu – Bozalaqanlı Aşıq Hüseyn, Aşıq Əsəd, Aşıq Mirzə, Aşıq Avaq, Aşıq Nəcəf, Aşıq İslam Yazıçılar İttifaqı üzvlüyünə qəbul olunmuşdular.

Otuzuncu illər mədəniyyətimiz tarixində aşıq şeirlərinin ən çox toplandığı və nəşr olunduğu illərdir. Bu illərdə şairlərimizdən S.Rüstəm və M.Rahim Azərbaycanın bir sıra rayonlarını dolaşmış, aşıq qoşmaları və dastan yaradıcılığından ibarət ayrıca bir kitab çap etdirmişdilər (1938). Şübhəsiz, daha bir sıra amillər aşıq yaradıcılığının inkişafına öz təsirini göstərirdi. Aşıqlara bütün ədəbi ictimaiyyət diqqət və qayğı göstərirdi. Səməd Vurğun aşıq sənətinin, sazın vurğunu olduğu kimi aşıqlar da dağ vüqarlı şairi sevir, adını dillərindən salmır, eldə, obada, məclislərdə ondan söhbət salır, şeirlərini oxuyur, haqqında rəvayətlər düzəldib söyləyirdilər.

Səməd Vurğun folklorun başqa janrları kimi, xalq mahnılarına da yaxından bələd olmuşdur. Onun hafizəsində müxtəlif məzmunlu və müxtəlif biçimli mahnılar özünə yer tapmışdır. Şair bu mahnılardan yeri gəldikcə əsərlərində istifadə etmişdir. Səməd Vurğun əsərləri üçün xüsusi bayatılar və mahnılar yaradırdı. "Vaqif" dramında Gülnarın, gürcü qızı Tamaranın dili ilə verilən mahnılar dediyimizə misaldır; onları el mahnılarından seçmək qeyri-mümkündür. Gürcü qızı Tamaranın həzin şərqisi:

Ayrı düşdü tərlan könlüm,
Öz mehriban yuvasından,
Göy üzünün durnaları,
Deyin, vətən havasından.

Bir dustağam qolum bağlı,
Bir qəribəm sinəm dağlı,

Bir xəstəyəm qəm otaqlı,
Ürəyimin yarasından.

Külək əsər, bel bükülər,
Könül yanar, can sökülər,
Gecə-gündüz yaş tökülər,
Gözlərimin qarasından.

Paşa müəllim yazır ki, Səməd Vurğunun bütün poeziyasında bir musiqilik, ahəng, ritm, melodiklik vardır. Şair xüsusilə sırf lirik və epik-lirik planda yazdığı əsərlərdə buna xüsusi əhəmiyyət vermişdir. Belə çıxmasın ki, şair şeirlərini yazanda əvvəlcədən fikirləşmiş, onların ahəng və musiqililiyinə diqqət yetirmişdir. Xeyr, Səməd Vurğun şeir üçün dünyaya gələn əsl istedaddır. Şeir onun sinəsindən büllur çeşmədən axan su kimi süzülüb gəlirdi. Aşıq poeziyası üslubunda mahnı formasında olan şeirləri şair və bəstəkar istedadını özündə üzvi şəkildə birləşdirən bir sənətkar qələminin məhsuludur. Çox maraqlıdır ki, bu şeirlər də aşıq şeirləri kimi tez yadda qalır, hafizəyə həkk olunur".

Böyük bəstəkarımız Üzeyir Hacıbəyov deyirdi: "Mən poeziyanı musiqisiz təsəvvür edə bilmirəm. Bu mənada Səmədin şeirləri əvəzsizdir".

Səməd Vurğun bayatılarımızdan böyük qürur və fərəh hissilə danışmış, onları dinləməkdən zövq almışdır. Cinaslı bayatılar şairi valeh etmişdir. Filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadə Səməd Vurğunla görüşünü xatırlayaraq yazır: "O, mənim xalq şeirinə məftunluğumu bildiyindən söhbəti bayatılardan salırdı. Bir neçə bayatı dedi. Mən xalq şeirinin qiymətli incilərindən söyləməyə başladım. Mən bayatı dedikcə, Səməd Vurğun onların gözəlliyinə heyranlıqla qulaq asır, başını həmahəng yelləyirdi.

Bayatılarımızda nə qüvvətli cinaslar var, dedi – Nahaq yerə cinası gözdən salmışıq. O, təkcə əllaməlik deyil, şairdən yüksək sənətkarlıq tələb edir. Üç cinas kəlmə tapmışam, onları şeirlərimdən birində işlədəcəyəm:

Ürəkdə yandı,
Ürək də yandı,
Ürək dayandı.

– Hə necədir? Bir qulaq as – Sonra da bu bəndi oxudu:

Uca-uca dağ başını qar alar,
Sönər şəmi könlüm evi qaralar,
Fələk bir gün yazdığını qaralar,
Çəkər məni baxt bu yana-o yana.

Xalqımızın dərdi, kədəri, iztirabları bayatılarımızın böyük bir qismində ifadə olunmuşdur. Onlar keçmişin acınacaqlı həyatından qalan yadigarlardır. Səməd Vurğun hətta xalqın zülmündən, ədalətsizlikdən şikayətini ifadə edən bayatıları dəyişdirmək, müasirləşdirmək istəyirdi. O, belə bir bayatını misal çəkirdi:

Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi,
Xəzəl olub tökülləm,
Viranə bağlar kimi.

Şair həmin bayatını dəyişdirərək müasir dövrümüzə uyğun şəklə salmışdır:

Ağlaram ağlar kimi,
Gücüm var dağlar kimi,
Gündə min bar yetirrəm,
Bülbüllü bağlar kimi.

Anam, bacım, qız gəlin,
Əl-ayağı düz gəlin,
Yeddi oğul istərəm,
Bircə dənə qız gəlin.

Bu bayatını Səməd Vurğun "Bəsti" poemasında və "Vaqif" pyesində işlətmişdir. Yaxud "Komsomol" poemasında "Qızyetər" adlı bir surəti təsvir edir. Ananın bütün həyatı boyu əkib-biçdiyi, yerişi ilə fəxr edib, boyuna and içdiyi yeganə oğlu vardı. Lakin tezliklə o, övladsız qalır:

Qızılgül olmayaydı,
Saralıb solmayaydı,
Bir ayrılıq, bir ölüm,
Heç biri olmayaydı.

"Vaqif" pyesinin 6-cı şəklində Kürd Musa iki bayatı oxuyur:

Qərənfiləm qələmsiz,
Qərarım yoxdur sənsiz,
Yorğanına od düşsün,
Necə yatırsan mənsiz.

Ceyranam düzə gəlləm,
Otlaram düzə gəlləm,
Yüz il qəzəmət çəksəm,
Qurtarsam sizə gəlləm.

Paşa müəllim qeyd edir ki, şair bayatılardan daha çox "Xanlar" pyesində istifadə etmişdir. "Qızyetər" surəti şairin kəşfi, nadir tapıntısıdır. Onun sinəsi el sözü, məsəl və mahnıları ilə doludur. O, gözəl, sədaqətli anadır. Yeganə övladı Xanlar onun üçün bir dünyadır. Əsərin bir yerində göstərilir ki, Xanların nişanlısı Mehriban onlara gəlir. Qızyetər onu əzizləyir, oxşayır, sinəsindən dediyi sözlərlə ovundurur:

Nə gəlinim var!
Can gözümün işığı!
Evimin yaraşığı,
Sən ol ağız ləzzətim,
Dindir qoca aşığı,
Kəmər bağla belinə,
Şərbət töküm dilinə,
Sən gəlinim olanda,
Xına qoyum əlimə.

"Aygün" poemasında:

Qum təpəsi kimi yeridikcə qar,
Buludlar kişnədi, göylər ağardı.

Burada ikinci misra bayatıdan götürülmüşdür.

Səməd Vurğun xalqın yaratdığı nağıl və əfsanələrdən də əsərlərində yüksək məharətlə istifadə etmişdir. “Ayın əfsanəsi”, “Qız qayası”, “Bulaq əfsanəsi”, “Aslan qayası” və s. əsərləri misal göstərmək olar.

“Bulaq əfsanəsi” poemasının əsasında əfsanə durur. Məlumdur ki, dirilik suyu “abi-kövsər”, “zəmzəm” suyu haqqında çoxlu əfsanələr var. Guya bu suyu içən adam əbədi yaşayışa nail olur. Qədimdən bəri ölüm hadisəsi insanlığı düşündürmüşdür. Bu təbii hadisəni insanlar müxtəlif şəkildə dərk edib mənalandırmış, necə deyərlər ona çarə axtarmışlar:

Qızılgül olmayaydı,
Saralıb solmayaydı.
Bir ayrılıq, bir ölüm,
Heç biri olmayaydı.

Sonralar insanlar ölümün hamı üçün olduğu qənaətinə gələrək axırıncı misraları belə demişlər:

Ölüm Allah əmridi,
Ayrılıq olmayaydı.

Poemada şair susuz çöllərə həyat gətirən kanalları xalqın əfsanələrdə uydurduğu “dirilik çeşməsi” ilə müqayisə etmişdir. Müasir dövrümüzdə əfsanələrə olan arzular insanların öz əlləri ilə həqiqətə çevrilir.

“Fərhad və Şirin” pyesində Azər babanın dediyindən öyrənirik ki, Şirvanın dirilik suyu yalnız əbədi həyat, can bəxş etmir, eyni zamanda elin qəhrəmanlarına güc, qüvvət verir, onları məğlubedilməz edir.

Səməd Vurğunun xalq yaradıcılığından qidalanaraq yazdığı poemalarından biri də 1937-ci ildə qələmə aldığı “Yazla qışın deyişməsi”dir. Bu poemada şairin xəyalı seyrə çıxır, “o dağ-bu dağ mənim deyə-deyə hər yeri qarış-qarış gəzir. Gəldiyi nəticə isə bu olur:

Dünya deyir: mən ikiyəm,
Sağımda yaz, solumda qış.

Yazla qışın deyişməsində hərə özünü tərifləyir. Onların sözünü şair belə tamamlayır:

Adım yazdır, yazılmış taleyimə nə dərd, nə qəm,
Səhərlərin ney səsiyəm,
Könlümdədir sədəfli saz.

Qış deyir:

Mən faşistəm, yaranmışdır üzüm qara,
Zülm edirəm insanlara,
Qan içirəm, həzz alıram,
Bu dünyanı mən salıram,
Boranlara, tufanlara.

Səməd Vurğunun əfsanə əsasında yazdığı ən yaxşı poemalarından biri də "Aslan qayası"dır. Əsərdə şair Mahniyar adlı gözəl bir qız surətini yaratmışdır. O, xan qızı olsa da atasının ona təklif etdiyi xanlardan, bəylərdən özünə ər seç, qüvvəmiz çoxalsın təklifi ilə razılaşmır. Azərbaycan nağıllarında, dastanlarında çox vaxt gözəl qızlar sevgilini adına, dövlətinə görə deyil, məhz igidliyinə, qəhrəmanlığına görə seçirlir. Şair poemada xalq yaradıcılığının bu xüsusiyyətindən bacarıqla istifadə edir. Mahniyar nişanlı kimi ancaq qəhrəman Aslanı qəbul etsə də, atası "çölün bu gədəsini görmək belə istəmir. İki sevgili bir-birinə qovuşur. Aslan xəncəri Bakıya hücuma keçən knyazın ürəyinə sancır. Yenə illər keçir. Çar orduları ikincə dəfə Bakıya hücum edir. Bu zaman Aslan Ağ at üstündə, ağ çuxa əynində tərkində də Mahniyar sarayı tərk etməyə məcbur olur.

Aman Ağ at, can Ağ at,
Dənizin qoynuna yat,
Bizi vermə düşmənə.

Onlar dənizin lap kənarına gəlirlər, qayanın üstündən Ağ at özünü dənizə atır:

Onlar çəkildi yoxa,
Bir də Ağ at, ağ çuxa.

Atalar sözlərində xalq öz fikir və duyğularını lakonik şəkildə ifadə etmişdir. Səməd Vurğun da xalqın bu hikmət xəzinəsindən – atalar sözü, məsəl və aforizmlər, müdrik ifadələrdən məharətlə istifadə etmişdir. "Vaqif" pyesində Vaqifin dili ilə deyir:

Atalar sözüdür, yaxşı qulaq as,
Aslanın erkəyi, dişisi olmaz.

Yaxud şair belə atalar sözü işlədir: "Qurddan olan qurd olar". Bu, çox qədim dövrlərlə səsləşən məşhur atalar sözüdür. "Koroğlu" dastanında da işlənmişdir:

Sarp qayalarda yurd olmaz,
Müxənnətdə söz dərd olmaz,
Çaqqal əniyi qurd olmaz,
Yenə qurd oğlu, qurd oğlu.

"Xanlar" pyesində: Ana, el içində bir məsəl də var:

"Yaxşı dost qardaşdan irəli olar".

Bundan başqa Səməd Vurğun dram əsərlərində "Elə köhnə hamam, köhnə tasdır", "Dəlidən doğru xəbər", "Donqarı qəbir düzəldər" və s. atalar sözlərini işlətmişdir.

"Fərhad və Şirin" dramında Azər baba elin igid oğlu Fərhadla söhbətində böyük Nizaminin aforizmlərindən istifadə edir. O, Fərhadın ucaltdığı hasara baxıb deyir:

Gözəldir, canlıdır qurduğun hasar,
Lakin diqqət yetir, bir nöqsanı var,
"Hər elmi öyrənmək istədikcə sən,
Çalış ki, hər şeyi kamil biləsən,
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan".

"Vaqif " dramında:

**Tükəzban:**

Yurdunu atana dünya dar olsun.

**Vidadi:**

Yaxşılıq insana bir sənət olsun,
Dünya başdan-başa bir cənnət olsun!

**Vaqif:**

Sizdən ayrılmayır könlümün quşu,
Ellərdə görürəm hər qurtuluşu,
Dünya yaranmamış ötərgi bir səs,
Günəş qaranlıqda yaşaya bilməz.

Azərbaycan şifahi xalq ədəbiyyatında, xüsusilə nağıllarımızda rast gəlinən qarı surətini S. Vurğun da əsərlərində canlandırmışdır. “Vaqif” pyesində şair sarayda baş verən fitnələr mənzərəsini yaratmaq üçün qarı surəti yaratmış və onun əməllərini açıb göstərmişdir. Qarı ilanı yuvasından çıxaran bir dillə Xuramanı yolundan azdırır, xəyanətə yuvarlayır.

Paşa Əfəndiyev ömrü boyu Azərbaycan folklorunu öyrənən, eyni zamanda öyrədən folklorşünas alimimizdir. O, öz yaradıcılığı ilə Azərbaycan folklorşünaslığının tarixində silinməz iz buraxıb. Onun folklor və yazılı ədəbiyyat məsələlərinə dair tədqiqatları çox əhəmiyyətlidir.

M. Həkimov, S. Rzasoy, “Yaddaş və şəxsiyyət” kitabında: “Paşa Əfəndiyevin fəaliyyəti, sadəcə olaraq millətə namusla, vicdanla xidmətindən başqa bir şey deyildir. O, folklora millətin mənəviyyatının daşındığı, milli varlığın ən ülvi dəyərlərinin şifrələndiyi müqəddəs xəzinə kimi baxmış, ona ehtiramla yanaşmış, onunla hörmət və izzətlə rəftar etmişdir. Bu baxımdan, onun toplayıb nəşr etdiyi mətnlərdən qorxmadan, cəsarətlə, güvənliklə istifadə etmək olar və edilir də.

Böyük şairimiz Səməd Vurğunun xalq yaradıcılığına nə qədər bağlı olduğunu, ondan necə məharətlə istifadə etdiyini professor Paşa Əfəndiyev öz tədqiqatında aydın şəkildə təsvir etmişdir.

## QAYNAQLAR

1. M. Həkimov, S. Rzasoy “Yaddaş və şəxsiyyət”.
2. P. Əfəndiyev “Səməd Vurğun və xalq yaradıcılığı”.
3. P. Əfəndiyev Azərbaycan şifahi xalq ədəbiyyatı.

# SƏMƏD VURĞUNUN " FƏRHAD VƏ ŞİRİN" DRAMINDA FOLKLOR MOTİVLƏRİ

**Aynur İBRAHİMOVA**
***filologiya üzrə fəlsəfə doktoru,***
***AMEA Folklor İnstitutunun***
***"Folklor və yazılı ədəbiyyat" şöbəsinin***
***böyük elmi işçisi***

Giriş: Folkor və folklorun araşdırma obyekti. Səməd Vurğunun həyat və yaradıcılığı.

Əsas hissə: "Fərhad və Şirin" dramında folkor elementləri. Səməd Vurğun yaradıcılığı, folklor laboratoriyası kimi.

Nəticə: Səməd Vurğun xalq ədəbiyyatının yaradıcısı kimi.

Folk (xalq) və lore (elm) sözlərinin birləşməsi ilə yaranan Folklor sözü ilk dəfə olaraq 1846 cı ildə İngilis alimi Vilyam Tomas tərəfindən işlədilib. Ən qədim elmlərdən olan folklor, toplumların özünəməxsus xüsusiyyətlərini araşdırır, adət və ənənələr elmi kimi tanınır.

Hər bir etnosun, millətin tarixi, təkamül yolu, mentaliteti fərqli, özünəməxsus olduğundan, folklor nümunələri də fərqlidir. Folklor xalqın maddi və mənəvi mədəniyyətini, yaddaşında olanları təhlil edir.

Folklor olduqca böyük sahəni əhatə edir: xalq ədəbiyyatı, xalq musiqisi, xalq oyun və meydan tamaşaları, dini ayinlər, xalqın mövsüm, mərasim, məişətlə, yaşam tərzi və inancı ilə bağlı adət-ənənələri, xalqın maddi və mənəvi mədəniyyət nümunələrini içərisinə alır və tətqiq edir.

Folklorun tədqiqat obyekti olan, bu nümunələrin, materialların incələnməsinin və tədqiqinin, millətimizin keçmişini, tarixini işıqlandırmaqda əhəmiyyəti əvəzsizdir.

Ədəbiyyatı şifahi və yazılı ədəbiyyata ayırsaq da, yazılı ədəbiyyatın şifahi ədəbiyyat nümunələrindən qidalanma teoriyasını inkar edə bilmərik.

Folklora müraciət, onun motivləri əsasında əsərlər yazmaq, Azərbaycan ədəbiyyatında da hər zaman prioritet olmuşdur. Azərbaycanın ədib və şairləri bədii salnamələr yaradır, onun ayrı-ayrı səhifələrinində xalqımızın rəvayətə, nağıla dönmüş maraqlı tarixini canlandırmışdır. Bu baxımdan miflər, əfsanələr, folklor nümunələri süjet və qəhrəmanların təsvirində ədiblərimizin çox köməyinə gəlmişdir.

Canlı xalq dilinə və təfəkkürünə əsaslanan poeziyamızın janrlar, forma və vəzn keyfiyyətlərini zənginləşdirən, fərdi yaradıcılıq axtarışları ilə Azərbaycan ədəbiyyatını dünyaya tanıtdıran və sevdirən böyük şairimiz Səməd Vurğun olmuşdur.

O, böyük mübarizələr meydanında, böyük hadisələr yaradan şairdir. Azərbaycan ədəbiyyatını Səməd Vurğunsuz təsəvvür etmək mümkün deyildir.

XX əsr Azərbaycan poeziyasının ən görkəmli nümayəndəsi, xalq şairi Səməd Yusif oğlu Vəkilov 1906-cı il martın 21-də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub.

Balaca Səməd 6 yaşında ikən anası Məhbub xanım cavan yaşında vəfat edib. Atası Yusif ağanın və ana nənəsi Aişə xanımın himayəsində yaşayıb. Şair uşaqlıq illərini doğma kəndində keçirib, ilk təhsilini kənd məktəbində alıb.

1918-ci ildə görkəmli ədəbiyyatşünas və maarifçi Firidun bəy Köçərli Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürərək Qazax müəllimlər seminariyasını təşkil edir. Məktəbə qəbul olunan kənd uşaqları arasında Səməd və Mehdixan Vəkilov qardaşları da var idilər. Firidun bəy Köçərlinin həyat yoldaşı Badisəba xanım Vəkilova (Köçərli) şairin yaxın qohumu idi.

Səməd Vəkilov təhsilə başladığı ilk günlərdən ondakı fitri istedad özünü göstərməyə başlayıb. Bu illərdə o, Vaqif, Vidadi,

Zakir və Sabir yaradıcılığı ilə yanaşı, A.S.Puşkinin, Y.M.Lermontovun və türk yazıçılarından Tofiq Fikrətin, Namiq Kamalın əsərləri ilə də tanış olub.

1922-ci ildə şairin atası Yusif ağa, bir il sonra isə nənəsi Aişə xanım vəfat edir. Bundan sonra Səmədə və qardaşı Mehdixana onların bibisi qızı Xanqızı Vəkilova qayğı göstərir.

Böyük şair ilk şeirlərini seminariyada oxuduğu müddətdə qələmə alıb. Bunlar xalq poeziyası formasından biri olan lirik qoşmalar idi və seminariyanın divar qazetində çıxırdı.

Şairin ilk çap əsəri olan «Cavanlara xitab» şeiri 1925-ci ildə Tiflisdə çıxan «Yeni fikir» qazetində dərc olunub. Bu şeiri o, seminariyanı qurtarması münasibətilə yazmışdı.

Seminariyanı bitirdikdən sonra Səməd Vəkilov Azərbaycanın bir sıra kənd və rayonlarında, o cümlədən Qazaxda, Qubada və dahi Nizaminin vətəni Gəncədə Azərbaycan dili və ədəbiyyatını tədris etməyə başlayıb.

Poeziya get-gedə şairin bütün varlığına hakim kəsilir. Gənc şair öz xalqını, vətənini, doğma torpağının əsrarəngiz təbiətini sevdiyi üçün «Vürğün» təxəllüsünü götürür.

Sənətkar yaşadığı regionun folklor mühitinə tam bələd olur. Bu onun daha sonralar, folklor motivləri ilə zəngin, dolğun əsərlər yaratmasında müstəsna rol oynayır.

Səməd Vurğun əsərlərinin özündən doğan aforizmlər və müdrik kəlamlar xalqın yaddaşında qalır. "Fərhad və Şirin" əsərində təsvir etdiyi zamanın ictimai-siyasi, ədəbi-mədəni mühitini dərindən bilən şair hadisələrin təsvirində xalq yaradıcılığı ənənələrindən istifadə edir, xalq ədəbiyyatının janrlarını, folklor nümunələrini canlandıraraq onlara yaşamaq haqqı verir. Bir çox xalq yaradıcılığı nümunələri haqqında informasiyanı da Səməd Vurğunun əsərindən almış oluruq.

Bildiyimiz kimi xalq ədəbiyyatı sadəcə anonim xalq ədəbiyyatından ibarət deyildir. Səməd Vurğun özü, xalq ədəbiyya-

tının yaradıcılarından biridir. Böyük və bütöv olan Səməd Vurğun yaradıcılığı, yazılı ədəbiyyatla folklorun kəsişdiyi yerdir.

Azərbaycanın ilk xalq şairi, Səməd Vurğun 1941-ci ildə Nizaminin "Xosrov və Şirin" poemasının motivləri əsasında "Fərhad və Şirin" mənzum dramını yazır.

Müharibə dövründə yazılmış bu dram əsərində böyük vətənpərvərlik duyğuları tərənnüm edilir. "Fərhad və Şirin" bir növ milli köklərimizin başdan – binadan qəhrəmanlıq olduğunu, ən yüksək insani və qəhrəmanlıq nümunələri ilə özünü təsdiq etmiş olduğunu göstərirdi" (1, s. 237.)

Dramın əsas mövzusu Nizamidən də əvvəl xalq içərisində cərəyan edən bir əfsanə ilə bağlıdır.Nizaminin qələmə aldığı əfsanədən S.Vurğun sərbəst istifadə edərkən, oraya Azərbaycan motivləri artırsa da, əsərə tarixi konkretlik verməmiş, əfsanəvi süjeti saxlamışdır .

Qələmə aldığı hadisələri Azərbaycanın atəşpərəstlik dövrü ilə bağladığından burada Zərdüşt, Hürmüz və Əhrimən adlarına tez-tez rast gəlirik.

S.Vurğun Vaqif və Xanlardan sonra Fərhadı özünə qəhrəman seçir, öz xalqı və vətəni ilə möhkəm bağlı olan qəhrəman surəti yaradır. Səməd Vurğunun Fərhadı xalqın oğludur, xalq ona böyük ümidlər bəsləyir.

S.Vurğunu "Fərhad və Şirin" dramında ən çox maraqlandıran məsələ xeyirlə şərin, işıqla qaranlığın mübarizəsidir. S.Vurğun bu məsələni fəlsəfi yüksəkliyə qaldırmışdır.

Əsər başdan ayağa bərəkət və işıq saçan Hürmüz Tanrıya xitabla, sitayişlə doludur:

"Ulu Hürmüz ! Günəş parlat havada,
Özün aşiqləri yetir murada!" (5, s. 318)

Sitayişi edən isə Azər babadır, Fərhadın atası, müdrik qoca. Azər adının müəllif tərəfindən seçilməsi təsadüfi deyildir. Azərbaycan xalqı, arzu və istəklərini özünün təmsilçisi, elçisi Azər baba vasitəsilə çatdırır (3).

Dövlətin başçısı, Şirinin anası sərkərdə Banu, Azər babaya böyük qiymət verir:

“Sağ ol , Azər baba ! Əskik olma sən,
Fərhad igidsə də , atası sənsən” (5, s. 319).

Burada Azər baba- xalqın özüdür. Dövlətin sərkərdəsi isə Banudur və xalqına böyük önəm verir.

Əsərdə müəllif xalqı necə görmək istəyirsə, eləcə də təsvir edir. Xalq azaddır, şeirdən, qəzəldən ,musiqidən ilham alır.

Burda hər səhər
Dəstəylə gəzişir atəşpərəstlər.
Azadlıq sevəndir bu xalq əzəldən,
Bir də musiqidən,şerü qəzəldən
Burda ilham alır hər dünya görən (5, s.322).

“Azər baba özündə xalq müdrikliyini, xalqın yaradıcı qüvvəsini, onun xoşbəxtliyə, azadlığa olan güclü meylini ifadə edir. Onun, öz zamanına görə, bir qədər dini xarakter daşiyan fəlsəfəsində S.Vurğun dünyəvi cəhətə, həyata, insanların sadə və təbii ehtiyaclarından irəli gələn etiqad və zehniyyətə üstünlük vermişdir” ( 4, s. 141).

Bir zamanlar atəşə tapınan, atəşi doğrudan doğruya tanrı qəbul edən Azərbaycanlıların atəşə sitayiş âyinlərinin izlərini görürük əsərdə. Xalq Atəşin hərarətin həyat və varlıqlar üzərində çox böyük təsirini görür və həyatın özünü meydana gətirən bir qüvvə olaraq, onu ilahi qüdrət sayır. Atəşi tanrı qəbul etməklə, bunun yanında “dualist=iki tanrılı” bir inancın da varlığına inanırlar. Belə ki; bu fəlsəfi görüşün icabı, bir olandan bir-birinə zidd olan xeyir ilə şər doğmaz. Bunların ikisi də əzəli, tək olan tanrılardır.

Xeyir ilahisi, bir nurdur və yaxşılığın qaynağıdır. Şər ilahi, qaranlığın və pisliyin qaynağıdır. Xeyir ilahı “Hürmüz”, Şər ilahı isə “Ehriman”dır. Bunlar bir-biri ilə davamlı mübarizə aparır. Yaxşılıq çoxaldığı zaman Hürmüz, şər çoxaldığı zaman Ehriman qalib gəlir.

Xalq atəşi xeyir, ilahı Hürmüz’ün bir simvolu qəbul edir.

Xeyir – bərəkət tanrısı Hürmüzə əsər boyu müraciəti, sitayişi görmüş oluruq. Azər baba, xalqının dolanışığı, güzəranı üçün Hürmüzə yalvarır:

Yenə də Hürmüzə yalvardım ki, mən,
Azacıq xoş keçsin bu ilki rüzgar,

Yoxsa məhv olacaq yenə taxıllar.
Çörəksiz bir ölkə hər vax tac olar,
Düşmənə daima o möhtac olar (5, s.334).

Atəşpərəstlərin Atəşgədə deyilən və həmişə atəş yanan müqəddəs yerlərini görürük əsərdə. Bu atəş heç sönmür və həmişə yanır. Heç kimsə, buna toxuna bilməz, hətta nəfəsi ilə belə çirklədə bilməzdi. Ona görə atəş yandıran rahibin əllərində əlcək və ağzı örtülü olurdu. Atəşpərəstlər, atəş yandığı müddətdə Xeyir ilahının Şər ilahıyə galib gələcəyinə inandıqları üçün, atəşin daima yanmasının vacib olduğuna inanırdılar.

“(İgidlər dəstə ilə hər tərəfi axtarırlar. Fərhad bir tərəfdə külüngə dayanaraq pərişan bir halda durur.Azər baba üzünü uzaqdakı atəşgədələrə tutaraq,diz çöküb dua edir.)

Ulu Hürmüz !.. Saxla bizi bəladan,
Nələr çəkdi tarix boyu bu vətən…..
Bu vətən ki, Zərdüştlərin yurdudur,
Hər igidi bir yenilməz ordudur.
Ulu Hürmüz !..Ayağa qalx səsimdən,
Kömək üçün çağırıram səni mən” (5, s. 349)

Qədim türklərin dini əqidələrində totem görüşlərinin də mühüm yer tutduğunu bilirik. Totem dedikdə əcdadlarımızın bu və ya digər heyvan, yaxud bitkiyə inamı nəzərdə tutulurdu. Qədim insan seçdiyi totemin qəbilə üzvlərini qorumaq iqtidarında olmasına inanırdı. Su mənşəli sayılan Buğa – öküz qüvvət və qüdrət təcəssüm etdirən totemdir. Ay səcdəgahı sayılan Buğa surətni, Səməd Vurğun əsərdə çox böyük məharət və ustalıqla təsvir etmiş,əsərin gücünü bir az da artırmışdır.

"Ataşgədə. Qürüb vaxtıdır. Sağ tərəfdə böyük və əzəmətli öküz heykəli. Öküzün qaşqasında dümağ təpəli var. Əhali ataşgədəni mühasirəyə almışdır. Azər baba öküz heykəlinin qarşısına gələrək başını sığallayır.

Qolunda gücü var qara torpağın,
Bərəkət gətirir sənin ayağın.
Yerimi şumlayıb əkən də sənsən.
Hər sirrin, yenidir, hər mənan dərin,
Qəlbə mehribandır qumral gözlərin.
İnsanlıq səninlə çatır çörəyə,
Sən çarə tapırsan hər bir diləyə.
Get, ulu Hürmüzə yalvar ki,bir də
Ölüm və xəstəlik olmasın yerdə!" (5, s. 350.)

Təkcə Azər baba deyil, Banunun da Hürmüzə müraciətinin şahidi oluruq;

"Ulu Hürmüz.....söylə nədir günahım?
Noldu balam, noldu mənim pənahım?" (5, s. 353.)

Və yaxud;

"Var olun, var olun. Igid balalar!
Yaxşı yol göstərsin sizə ruzigar!
Düşmənlə qoç kimi durun üz-üzə,
Sizi tapşırıram ulu Hürmüzə" (s. 357.)

Zərdüşt, bir gün dünyanın sona çatacağını, qiyamətin qopacağını, Cənnət və Cəhənnəmin var olduğunu, ölən insanın ruhunun hesaba çəkiləcəyini, özündən əvvəl gələn peyğəmbərlərdən və ya gətirdiyi kitablardan yaxud da onlara inananlardan öyrənərək qəbul etmişdir. Bununla bərabər, insanlara dünya və axirət səadətini öyrədən və doğru yolu gösdərən bir peyğəmbərə tabe olmaq səadətinə qovuşmadığı üçün, doğru yolu tam olaraq tapa bilməmişdir.

Əsərin sonunda Fərhadın günəşə xitabən söylədiyi son sözləri də çox təsiredicidir;

“Dayan, ey külək!...
Ağlama, ey tufan, çaxma ey şimşək!
Alışdı mum kimi, söndü varlığım,
Söndü hər əməlim, bəxtiyarlığım.
Ey günəş üzündən o pərdəni at!
Matəmə dönməsin qurduğun büsat!
Of beynim,…ürəyim!…., Çəkil ey bulut,
Ah, nələr danışır bu sonsuz sükut….
Əlvida, əlvida, böyük təbiət!
Əlvida qəlbimdə ölən məhəbbət!...” (5, s.449)

Xalqımızın ilkin inam və etiqadları, yaşam tərzi ilə bağlı olan mifik təsəvvürlər xalq yaradıcılıq nümunələri ilə günümüzə gəlib çatmışdır. Bu nümunələrin improvizə edilmiş forması “Fərhad və Şirin” mənzum dramında öz əksini tapmışdır. Səməd Vurğun mənzum dram vasitəsilə şifahi yaradıcılığımızın bir çox ilkin növlərini: nəğmə, əfsun, alqış, qarğış, inanc, cadu, dua və başqa nümunələrini bizə çatdırmış, maddi və mənəvi sərvətimizə çevirmişdir. Atəşpərəstliyə qədərki ənənələr, ya unudulmuş, ya da zərdüştlük ayinləri ilə çarpazlaşmış adət-ənənələr təsvir olunmuşdur.

Xalq məişətindən ayrı təsəvvür etmədiyimiz mövsüm, mərasim, əmək nəğmələri, xalq törənləri ozanların ifasında əsərin əvvəlində əks olunmuşdur:

“Qədim Azərbaycan. Bərdə padşahlığı. Uca sənətkarlıqla işlənmiş qala. Bu qalanın tikilib qurtarması münasibətilə böyük xalq bayramıdır. Ozanlar çalır, qızlar, oğlanlar rəqs edirlər” (5, s. 315).

“Türk tayfalarının ilkin magik təsəvvürlərinin poetikləşməsi, şifahi bədii yaradıcılıqda əks olunması dövrünün məhsulu olan əfsunla, müəyyən mərhələdə ibtidai insanın gündəlik həyatında, həyatı dərketmə və öz bildiyi kimi ifadəetmə prosesində mühüm mövqe tutmuşdur. Zaman keçdikcə, təbiətin sirləri insan üçün açıldıqca əfsun-ovsun təsəvvürləri də zəifləmiş, bir janr kimi arxaikləşmişdir” (2, s.11).

S.Vurğun sözün gücünə inamı əks etdirən bu arxaikləşmiş folklor janrından da yararlanmışdır. Qəhrəmanının – Şirinin psixikasına güclü təsir vasitəsi kimi inamın təntənəsinə nail olmuşdur. Şapur kahin libasına girərək (eyni zamanda cildə girmiş də olur) qızıl gülü Şirinə verir:

“Al, qızım, bu gülü əlində saxla,
Üç dəfə nəfəs al, sonar da qoxla!
O vaxt döyüntülər qəlbindən gedər,
Xəyalın göyləri ziyarət edər.
Dünya gözlərində gülümsəyərək,
Ney kimi dil açar hər gül,hər çiçək…” (5, s.347)

Gülü alaraq üç dəfə qoxulayan, Şirinin qəlbində günəş doğur, gözlərində dünya gözəlləşir, ağaclar çiçək açır, çöllərdə ceyran-cüyür qaçır. Ovsunun köməyi ilə Şirinin qəlbi ram edilir.

Xeyir və şər təsəvvürlərini şəxsləndirərək, xeyiri alqışlamaq, şəri isə qarğışlamaq anlayışlarından doğan, alqış və qarğışlar, xeyir-dua Fərhad və Şirin dramında geniş təsvir olunmuşdur.

**Fərhad:**

Xeyir-dua ver!
Ayağım altında titrəməsin yer,
Günəş işığını məndən kəsməsin.
Başımdan qara yel gəlib əsməsin.
Gözümdən daima çəkilsin yuxu,
Qəlbimə girməsin şübhə və qorxu.
Gül dodaqlarınla xeyir –dua ver,
Ayağım altında titrəməsin yer!...

**Şirin:**

Xeyir-duaçıyam sənə hər zaman!
Get, zəfərlə qayıt bu imtahandan.
Daşlara dəyməsin oxun, kamanın,
Sənin dostun olsun hököm zamanın,
Hər insan qüvvəti, hər qaya, hər dağ

Qarşında diz çöküb titrəsin zağ-zağ.
Yazılsın alnına min zəfər səsi,
Adınla fəxr etsin Odlar ölkəsi!

Təbii ki, müəllif bu folklor vasitələrdən istifadə edərək, qəhrəmanların iç dünyasının açılmasında, mükəmməl nəticələr əldə etmişdir.

**Fərhad:**

Ata, bu dünyada böyüyüm sənsən,
Bir sənin qarşında baş əymişəm mən.
Bil ki, alt-üst olub dönsə də cahan,
Sənin duaların çıxmaz yadımdan!
Səninlə fəxr edir varlığım bütün,
Səni yad etməsəm, anmasam bir gün
Göyün ildırımı başımda sönsün;
Ahım dağlardakı dumana dönsün! (5, s. 440)

Şifahi söz sənətini aşıq yaradıcılığından kənarda təsəvvür etmək mümkün deyil. Azərbaycan tarixən ozan-qopuz, daha sonralar isə aşıq-saz diyarı kimi tanınmışdır. Aşıq-saz-söz yaradıcılığı ozan-qopuz yaradıcılıq ənənəsinin davamı və varisidir. Ozan-aşıq keçidinin əsas mahiyyəti ozan sənətinin tarix səhnəsindən çəkilərək öz yerini aşıq sənətinə buraxmışdır. Əsərdə S.Vurğun Ozan obrazı yaratmış, ozan obrazını – aşığ obrazı ilə əvəzləməmişdir.

**Azər baba:**

İndi meydan açın bizim Ozana:
Əlilə saz tutub şer yazana (s. 444.)

**Ozan:**

Sənin göstərdiyin bu böyük hünər
Dastan olacaqdır uzun əsrlər (5, s. 442)

Xalqımızın tarixən sınaqdan çıxardığı, zəngin məzmun çalarlara malik atalar sözü və məsəllər də Səməd Vurğun yaradıcılığından yan keçmir.

Formaca kiçik olan bu janrdan müəllif "Fərhad və Şirin" mənzum dramında istifadə etmiş, vətənpərvərlik, etibarlılıq, sədaqət kimi yüksək əxlaqi keyfiyyətləri tərənnüm edən atalar sözlərinin köməyi ilə xarakterləri daha koloritli, orijinal etmişdir.

**Xosrov:**

Ata olan yerdə oğul danışmaz! (5, s. 324)

**Fitnə:**

Ağzının dadının nə bilir kişi,
Cibə tökərlər ki, qara kişmişi….. (5, s. 326)

**Azər baba:**

Oğul arxadırsa, qız yaraşıqdır….. (5, s. 351)

Bu qoca dünyada bir adət də var:
Qadın olan yerdə ədalət də var!.... (5, s. 352)

Səməd Vurğun əsərlərinin özündən doğan aforizmlər və müdrik kəlamlar xalqın yaddaşında qalır. "Fərhad və Şirin" əsərində təsvir etdiyi zamanın ictimai-siyasi, ədəbi-mədəni mühitini dərindən bilən şair hadisələrin təsvirində xalq yaradıcılığı ənənələrindən istifadə edir, xalq ədəbiyyatının janrlarını, folklor nümunələrini canlandıraraq onlara yaşamaq haqqı verir. Bir çox xalq yaradıcılığı nümunələri haqqında informasiyanı da Səməd Vurğunun bu əsərindən almış oluruq.

Azərbaycan xalq ədəbiyyatının tarixi köklərinə baxdıqda bir fakt öz möhtəşəmliyi ilə diqqəti çəkir; türk etnosuna daxil olan xalqların - türkmənlərin, qazaxların, qırğızların, özbəklərin, istərsə də azərbaycanlıların ağız ədəbiyyatı bir çox xalqların yazılı ədəbiyyatında öz izlərini buraxıb.

Səməd Vurğunun əsərlərində ənənəvi biliklərin çeşidi əlvanlığı ilə seçilir. Tapmacalardan tutmuş xalq təbabətinədək bir çox bilgilər şairin əsərlərində əks olunub. Xalq yaradıcılığına önəm verməsi, Vurğun əsərlərindəki misraların bir çoxunu sonradan atalar sözü statusunda təqdim olunmasına rəvac verib.

Səməd Vurğun yaradıcılığında onlarla misralar var ki, artıq xalq tərəfindən yüz illərdir ata sözü, müdrik kəlam kimi işlədilir. Səməd Vurğunun mənəvi dünyası, bədii irs, yaratdığı əsərlər folkloru zənginləşdirən yaradıcılıq aləmidir. Azərbaycan şifahi və yazılı ədəbiyyatında Vurğun poeziyası və yaradıcılığının qüdrəti onun qədim və zəngin türk kulturoloji qaynaqları ilə əlaqəsində, xalq yaradıcılığına dərindən bağlılığındadır.

Səməd Vurğun dramaturgiyası vətənpərvərlik dramaturgiyasıdır.

## QAYNAQLAR:

1. Atif Zeynallı. Səməd Vurğun sənəti. Bakı, Elm, 1990 s. 237
2. Azad Nəbiyev. Azərbaycan folklorunun janrları. Bakı, BDU nəşri, 1983
3. Azad Nəbiyev. Nəğmələr, inanclar, alqışlar, adətlər. Bakı, Elm, 1986.
4. Məmməd Arif. Səməd Vurğunun dramaturgiyası. Bakı, Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı, 1964, 141 s.
5. Səməd Vurğun. Əsərləri. Bakı, Elm, 1988.
6. Səməd Vurğun. Əsərləri. Bakı, Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı, 1961.

# YENİ ŞEİR ŞƏKLİ: LAYLA-ELEGİYA

**Nizami MURADOĞLU**
***filologiya üzrə fəlsəfə doktoru,***
***AMEA Folklor İnstitutunun***
***"Folklor və yazılı ədəbiyyat" şöbəsinin***
***böyük elmi işçisi***

Azərbaycan yazılı ədəbiyyatı və şifahi xalq yaradıcılığının mövcud olan müxtəlif janr növlərinin sintezi nəticəsində müasir ədəbi mühitdə özünə geniş yer alan bəzi şeir formalarının öyrənilməsi ədəbiyyatşünaslıq və folklorşünaslığımızda aktual bir problem olaraq qalmaqdadır. Son dövrlərdə xalq yaradıcılığı məhsulu olan layla və ağıların yazılı poeziyanın müxtəlif şeir şəkilləri ilə birlikdə sintezi şəklində ortaya çıxan layla-elegiyaların öyrənilməsi işi də bu aspektdən mühüm əhəmiyyət kəsb edir. Müasir poeziyamızda layla-elegiyalar layla, ağı janrının yeni bir forması olub layla və ağı elementlərini özündə ehtiva edən, lakin quruluşuna, vəzninə, qafiyələnmə sisteminə görə dəyişən bir şeir şəklidir. Bu şeir şəklinin yaranması Azərbaycan xalqının arzuolunmaz Qarabağ savaşına cəlb olunmasından sonra şəhidlərin anımı ilə əlaqələndirilir. Layla-elegiyalarda ağı kimi kədər, dərd-ələm, layla kimi əzizləmə, oxşama kombinasiyaları qarışaraq hüzünlü bir şəkildə təzahür edir. Layla-elegiyaların fərqli cəhətlərinə qısa bir nəzər salaq.

Layla, adətən, anaların beşik başında öz körpəsini sakitləşdirmək, yuxuya vermək məqsədilə oxunan, əsasən, altı misralı şeir növüdür. Bəzən laylaları oxşamalarla qarışdıraraq dörd və beş misralı şeir şəklində də verirlər. Lakin laylalar öz məzmunu, ahəngi və formasına görə oxşamalardan fərqlənir. Belə ki, oxşamaların əsas fərqli cəhətləri uşağın oyaq vaxtı əzizlənməsi və şeirin iki, dörd, beş misralı olmasıdır.

Laylanın ilk dörd misrası bayatıda olduğu kimi (a, a, b, a) qafiyələnmə sistemi ilə qurulur, son iki misra (5-6) əzizləmə anlamında bir-birini təkrar edərək qafiyələnir:

Quşlar uçur havada,
Balası var yuvada.
Gözüm boy atmağında,
Dilim sənə duada.
Balam, laylay, a laylay,
Gözüm laylay, a laylay (5, 244).

Paşa Əfəndiyev laylaların təsnifatını verərkən yazır: “Layla formasına görə də bayatıdan seçilir. Bunlar bəzən “lay-lay” sözləri ilə başlayır, bəzən də “lay-lay” sözləri şeirin sonunda iki misrada məqsədəuyğun şəkildə təkrar olunur. Məsələn:

Atıban tutdum səni,
Əcəb ovutdum səni.
Ömür üzdüm, cəfa çəkdim,
Şükür böyütdüm səni.
Balam lay-lay, a lay-lay,
Gülüm lay-lay, a lay-lay” (2, 155).

Layla-elegiyalarda isə laylalarda olduğu kimi əzizləmə mənası olsa da, burada daha çox kədər, dərd ünsürləri əsas yer alır. Vaxtsız getmiş övlad acısının ana-bacı ürəyinə vurduğu ağır dərdin təzahürü layla-elegiyalarda bəzən bir qədər də üsyankarcasına verilir.

Layla-elegiyalarda ağı elementlərinin təzahürü də əsas yer tutur. Sədaqət Nemətova “Poetik yaddaşımızda ağılar” kitabına yazdığı ön sözdə qeyd edir ki, “Ağı vahid bir poetik formada gerçəkləşən janr deyil. Onun poetik ifadə imkanları genişdir. Belə ki, bizə ağı janrında olan müxtəlif xalq şeiri şəkilləri məlumdur. Bunların içərisində ağı-oxşamalar, ağı-laylalar, ağı-bayatılar və s.vardır”(13,9).

Ağı-laylalar xalq yaradıcılığı nümunələridir, müəllifi yoxdur, layla-elegiyalar isə yazılı ədəbiyyatın müəllifli şeir nümu-

nələrindəndir. Layla-elegiyalar ağılardan fərqli olaraq yalnız yas mərasimlərində söylənilmir, eyni zamanda müxtəlif ədəbi-bədii gecələrdə, anım mərasimlərində ifa olunur, bəzən səhnələşdirilərək tamaşaya qoyulur. Layla-elegiyalar konkret müəlliflər tərəfindən ayrı-ayrı fərdlərin şücaət və qəhrəmanlıqlarının nəticəsi olaraq onların şərəfinə və yaxud bir elin, yurdun tarixi faciəsi ilə bağlı olaraq yaradılır. Xocalı soyqırımı ilə bağlı yazılmış layla-elegiya nümunələri bu qəbildəndir. Layla-elegiyalara musiqi yazılır, aktyorlar tərəfindən ifa olunur.

Qeyd etmək lazımdır ki, qəsidə janrının növlərindən olan mərsiyələr də ağı-elegiyalardan fətqlənir. Klassik ədəbiyyatımızda mərsiyələr, əsasən, müqəddəs şəxslərə, əhli-beytə ünvanlanır, həzrəti Hüseynin şəhadətinə həsr edilir, əruz vəznində yazılırdı. Nizami Gəncəvi, Məhəmməd Fizuli, Seyid Əzim Şirvani mərsiyənin ən parlaq nümunələrini yaratmışdılar. Sovet dövründə dini qadağalar bir növ mərsiyə janrının unudulmasına xidmət etsə də, tək-tək hallarda elegiya, rekviyem adları ilə yazılmış şeirlərə rast gəlmək olur.

Elegiya mərsiyə tərzində yazılmış qəmli, kədərli, hüzünlü lirik şeirdir. Dünyasını dəyişən insanların xatirəsinə yazılmış bu şeirlərdə də ağı ünsürləri əsas yer tutur. Müasir poeziyada sərbəst və heca vəznlərində yazılan elegialara rast gəlmək olur. Xalq şairi Bəxtiyar Vahabzadənin ulu öndər Heydər Əliyevin həyat yoldaşı, tibb elmləri doktoru, professor Zərifə xanım Əliyevanın vəfatı münasibəti ilə yazdığı mərsiyə-rekviyem də bu qəbildəndir:

“Gəlmişəm!” – səsləndi ölüm bir anda,
Gözəl bir insana necə qıydı o?
Sən bir arxaya bax!
Böyük bir xalqa
Arxa olan kəsin arxasıydı o (17).

Bu tip elegiya və ya rekviyemlər sağlığında şöhrətlənmiş insanlara öləndən sonra yazılırdısa, layla-elegiyalar ölümü ilə

şöhrətlənən, ölməzlik qazanan şəhidlər, yerlər-yurdlar, bununla bağlı çiçəklər, güllər haqqında yazılır. Layla-elegiyalar heca və sərbəst vəznlərdə yazılır, konkret qəlibə salınmır, hətta post modernist üsulda da bu şeir şəklinin izləri müşahidə olunur.

Əzizxan Tanrıverdi laylalarda "L" samitinin əhəmiyyətini dəyərləndirərək qeyd edir ki, "L" sonor samitinin alliterasiyası təkcə musiqilik və ahəngdarlıq yaratmır, həm də "müəyyən bir varlığı həddən çox istəmə" semantikasını qüvvətləndirir. Məhz bu baxımdan ahəngdarlıq, harmoniya və reallıqla sintez şəklində olan poetik məna anaların, nənələrin, ağbirçəklərin şirin zümzümə ilə dediyi laylalar vasitəsi ilə körpələrin yaddaşına köçürülür, onların yaddaşında şüuraltı olaraq daim – ölənədək yaşayır (14,143).

Bu baxımdan yanaşdıqda şairlərin elegiyalara layla elementlərini gətirmələri tamamilə təbii qəbul edilməlidir. İstər şeirin ahəngdarlığının və harmoniyasının zənginləşdirilməsi baxımından, istərsə də, qəhrəmanın sevildiyini və əzəmətini anlatmaq baxımından bu təhkiyə üsulu uğurlu sayıla bilər.

Ramazan Qafarlının laylalarla əlaqəli fikirləri də bu yanaşmada orjinallığı ilə seçilir: "Şeirdə uşağı əyləndirən nə ananın canını qurban deməsidir, nə də sorğusundakı istəkdir, əvvəldə "balam" sözünün təkrarı və misra sonunda qafiyələnən kəlmələrlə ahəngdarlıq yaranmasıdır" (8, 195).

Qeyd edək ki, görkəmli folklorşünas alim M.H.Təhmasib "Məktəb" jurnalında folklora münasibət məsələsi" adlı məqaləsində yazırdı: "Məktəb"in ən məhsuldar əməkdaşlarından olan Abbas Səhhət jurnalın 1912-ci il 14-cü nömrəsində çap etdirdiyi "Ana və bala" şeirində uşaq folklorunun ən gözəl nümunələrindən biri olan arzulamalardan bir neçə bənd vermişdir. Şeir belə başlanır:

Oturmuş ana,
Basmış bağrına
Nazlı körpəsin,

Laylay deyir ona.
Uşaq yatmayır,
Baxıb ağlayır,
Anası onu
Bu cür oxşayır:
Dağda darılar,
Sünbül sarılar,
Qoca qarılar.
Bu balama qurban!..

...Jurnalın bu tipli əsərləri çap etməkdə məqsədi daha çox folklor nümunələrini verməkdən ibarət olmuşdur. Başqa sözlə desək, bu nümunələr əsərə rövnəq vermək üçün bədii vasitə kimi deyil, əksinə, əsərlər həmin nümunələri nəşr etmək, uşaqlara çatdırmaq üçün bir növ vasitə rolunu oynamışdı" (15, 479).

Müstəqillik dövrü poeziyasında layla və ağı elementlərindən istifadə edilməsi isə şeirin bədii siqlətini artırmaq, onun emosional təsir mexanizmini gücləndirmək, bədiiliyinə rəng qatmaq məqsədi daşıyır.

Əsasən müstəqillik dövrünün müəllifli məhsulu olan layla-elegiya janrının milli-mədəni irsimizin tərkib hissəsi olması onun folklor və yazılı ədəbiyyat müstəvisində birgə araşdırılması və öyrənilməsi zərurətini də gündəmə gətirir. Belə ki, indiyə qədər diqqətə alınmasa da, bu gün birmənalı şəkildə deyə bilərik ki, layla-elegiyaların ilkin variantlarına "Kitabi-Dədə Qorqud"-da rast gəlirik. "Bayborənin oğlu Bamsı Beyrək boyu"nda Beyrək əsir düşəndən sonra bacılarının, nişanlısı Banıçiçəyin söylədikləri ağılar bu günkü layla-elegiyaların ilkin formalaşmaqda olan nümunələrindəndir: "Banıçiçək qaralar geydi, ağ qaftanını çıxardı. Payız alması kimi al yanağını dartdı, yırtdı.

"Vay, al duvağım iyəsi!
Vay, alnum-başım ümurı!
Vay, şah yigidim, vay, şahbaz yigidim!
Toyınca yüzinə baqmadığım, xanım yigit!

Qanda getdin, beni yalnuz qoyıb, xanım yigit?!
Göz açuban gördigim,
Könül ilə sevdigim,
Bir yasduqda baş qoduğım!
Yolunda öldügim!
Qurban olduğım!
Vay, Qazan bəgin inağı!
Vay, Qalın Oğuzun imrəngisi Beyrək!" (7, 58)

Göründüyü kimi, bu gün şəhidlərə deyilən layla-elegiyaların genetik təzahürləri insanlığın yaranışından bu və ya digər formada mövcud olmuşdur. Müasir zamanda hər hansı bir acının nəticəsi olaraq bu folklor janrı daha da geniş yayıldı və hazırda formalaşma prosesindədir.

Burada bir daha Əzizxan Tanrıverdinin "L" sonor samitinin dinamikasının insanın körpəliyindən ölənə qədər keçdiyi inkişaf yolunu izləməklə laylaların əslində forma dəyişikliyi ilə insanlığı izlədiyinin şahidi oluruq: "Bu sıralanma, bu semantik dinamika istər-istəməz başqa bir məqamı da yada salır: "L" samitinin alliterasiyası bu dünya ilə vidalaşma anlarını əks etdirən poetik parçalarda da müşahidə olunur: "Kitab"da – "Əcəl aldı, yer gizlədi... Gəlimli, gedimli dünya, Son ucu ölümlü dünya"... (l-l-l-l-l-l); kədərli bayatılarda –

Eləmi halım fələk,
Dil bilməz zalım fələk.
Kəsdin can bağçasından
İki nihalım fələk" (14, 143).

Layla-elegiyalar daha çox 20 Yanvar və Qarabağ müharibəsi şəhidlərinə yazılır. Belə ki, 20 Yanvar şəhidlərindən olan iki sevgilini: – İlham və Fərizəni xüsusi olaraq qeyd etmək lazımdır. Yanvarın 19-dan 20-nə keçən gecə mənfur sovet qoşunlarının qarşısına əliyalın çıxıb sinəsi ilə öz azadlıq və istiqlaliyyətini müdafiəyə qalxan Azərbaycanın igid övladlarından biri də İlham Əjdər oğlu Allahverdiyev idi. İlham 1962-ci ildə Ağdam

rayonunda anadan olmuşdu, Bakıdakı Dadaş Bünyadzadə adına gəmiqayırma zavodunda tokar işləyirdi. (İndi həmin zavod İlham Allahverdiyevin adını daşıyır). Həmin gecə İlham Allahverdiyev qəhrəmancasına həlak olur. Fərizə Çoban qızı Allahverdiyeva həyat yoldaşı İlhamın qara xəbərini alanda üzərinə neft töküb özünü yandırmağa cəhd edir. Lakin evdə olanlar ona kibriti alışdırmağa imkan vermirlər.

Daha bir gün keçir, yanvarın 21- i səhər saat 6-da Fərizə yerindən qalxıb altı ay bundan öncə olmuş toy şəkillərini stolun üzərinə töküb doyunca baxır və bir parça kağıza bu sözləri yazır: "Mən onsuz yaşaya bilmərəm. Siz məni"... (17)

Fərizə sirkə dolu stəkanı başına çəkib özünü və bətnindəki körpəsini tələf edir. İlham və Fərizənin məzarı Şəhidlər xiyabanında yan-yan dəfn edilir. Bu faciə eşidib bilən bütün insanları dərindən sarsıdır. Bu böyük eşqin gücünə insanlar bu gün də heyrət edirlər. Bu ucalıq və məhəbbət abidəsi böyük sədaqət, vəfa, iradə, vətənpərvərlik və qeyrət simvoluna çevrilibdir.

Hüseyn Əsgəroğlu "İlham-Fərizənin sevgi dastanı" əsərində laylay deyərək bu sevgiyə münasibət bildirir:

Dan sökülür, gün çıxır,
Qar yağır, yağış yağır.
Küləklər uğuldayır,
Yarpaqlar pıçıldayır.
Fəqət ulu Tanrıdan
Nə haray vardı, nə hay,
Kim yanacaq halına
İlham-Fərizəm, lay-lay (4, 440).

Şəhidliklə bağlı olaraq yaranan layla – elegiyalardan biri də Orxan Paşanın Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsinə həsr etdiyi "Şəhid köynəyi lalələr" (12, 147) şeiridir. Orxan Paşa yeddi bəndlik bu şeirini mahnı-elegiya adlandıraraq kiçik bir dramatuji səhnə yaratmışdır. Əsərdə üç personaj iştirak edir:

1. Mübarizin anası

2. Kölgə ruh kimi Mübariz
3. Müğənni

Şeirin birinci bəndində oğlunun hərbi xidmətdən qayıdacağı ümidi ilə yolunu gözləyən ananın həsrəti, yanğısı ifadə olunmuşdur. Altı misralıq bu şeir parçasının əvvəlki dörd misrası bayatı janrında olub nənələrimizin dar gündə, ağır zamanlarda çağırdığı ənənəvi ağılar xarakterlidir. Digər iki misra ananın hələ də ümidlə yaşadığına işarə verir. Oğlu şəhid olsa da, ana yenə də oğlunun yolunu gözləyir, onun nə vaxtsa qayıdacağına ümid edir. Şeirin birinci bəndinin laylalarda olduğu kimi dörd misrası a, a, b, a - son iki misrası c,c şəklində qafiyələnmişdir.

Dağların yastı yolu,
Su gəlib basdı yolu.
Balam getdi, gəlmədi,
Yağılar kəsdi yolu.
Nola balam gələydi,
Gözlərim dincələydi!..

Şeirin ikinci və üçüncü bəndləri Mübariz İbrahimovun xəyali obrazının dili ilə verilmiş, Vətən-Oğul vəhdətinin uğurlu poetik nümunəsi yaradılmışdır, qafiyə sistemi isə dəyişilmişdir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, layla-elegiyalar forma və qafiyələnmə baxımından sərbəstdir.

Suya, torpağa dönmüşəm,
Çöl-çəmən olmuşam, ana!
Mən Qarabağa dönmüşəm,
Mən Vətən olmuşam, ana!

Mahnı-elegiya müğənninin ana-oğul deyişməsi fonunda oxuduğu nəğmənin nəqaratı ilə sonlanır. Vətən, el qeyrəti çəkən igid Mübarizin axan qızıl qanı lalə rəngli köynəyə çevrilib bayraqlaşır. Rəmzi anlamda bu çevrilmədə bayrağımızın qırmızı rəngində olan şəhid qanlarının təcəssümü müqəddəsləşdirilmişdir.

Layla-elegiyalar bəzən qloballaşaraq daha da böyük məzmun kəsb edir. Qarabağ savaşlarının şiddətli zamanında, Laçının işğal edildiyi günlərdə Şam kəndində Sevda nənənin çəkdiyi haray qulaqları yandırırdı. Güləmail Murad "Yandım, ay haray, yandım" elegiyasında Sevda nənənin harayını belə bədiiləşdirmişdir:

Qarabağı aldılar,
Yandım, ay haray, yandım.
Bizi oda saldılar,
Yandım, ay haray, yandım.
Ağladı Sevda nənə,
Göz yaşı dərya nənə.
Dünyada dünya nənə,
Yandım, ay haray, yandım (11, 17).

Layla-elegiyaların tipik nümunələrindən biri də Yaqub Məğrurun "Layla, Xocalım, layla" əsəridir. Müəllif burada Xocalı faciəsini bütün dünyaya çatdırmaq istəyir. Məlum olduğu kimi 1992-ci ilin fevral ayının 26-da Ermənistanın hərbi birləşmələri Rusiyanın 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərində genosid aktı həyata keçirmişdilər. Dörd aydan artıq mühasirə şəraitində qalan Xocalıda bu qüvvələrin qarşısında tab gətirəcək qüvvə qalmamışdı. Erməni daşnakları rus şovinist qüvvələri ilə birlikdə Xocalı şəhərini işğal edib dağıtmış, dinc əhaliyə divan tutmuşdular. Xocalı soyqırımı zamanı 613 nəfər öldürülmüş, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olmuşdu. Ölənlərdən 106-sı qadın, 63-ü uşaq, 70-i ixtiyar qoca idi. 8 ailə tamamilə məhv edilmişdi. 25 uşaq valideynlərinin hər ikisini, 130 uşaq birini itirmişdi. Faciə baş verən gecə şəhərin 1275 nəfər dinc sakini girov götürülmüşdür ki, onlardan 150 nəfərinin taleyi hələ də məlum deyil.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımına siyasi qiymət verərkən demişdi: "1992-ci il fevralın 26-da Xocalıda baş verənlər Azərbaycan xalqının yad-

daşından heç vaxt silinməyəcəkdir. Çünki həmin vaxt hansısa kiçik cinayət hadisəsi deyil, bütöv Azərbaycan xalqına qarşı soyqırım aktı həyata keçirilmiş, bəşəriyyətin ən böyük faciələrindən biri törədilmişdir" (3).

Bu faciə Azərbaycan xalqına qarşı aparılan genosidin ən ağrılı və ağırlarından biri idi. Şairlər bu haqda çoxlu şeirlər yazdılar. Biz burada Yaqub Məğrurun layla-elegiyasından iki bəndi nəzərə çatdırmaq istəyirik:

Yatdı başbilənlərin,
Çox oldu ölənlərin,
Girovdu gəlinlərin,
Layla, Xocalım, layla.

Baş əyirəm adına,
Yetəmmədik dadına,
Getdin namərd badına,
Layla, Xocalım, layla (10, 30).

Burada şair böyük bir yurdun faciəsini şəhərə layla deməklə insanla yer arasında əlaqə yaradır, şəhəri şəxsləşdirir, bu günə qədər ədəbiyyatda rastlaşmadığımız bir şəkildə təqdim edir ki, bu da öz növbəsində yeni bir şeir şəklinin;- layla-elegiyanın hüdudları daxilində mərkəzləşdiyinin göstəricisi hesab edilə bilər.

Nüsrət Kəsəmənlinin "20 Yanvar" şeiri də bu səpgidə yazılmış xalqımızın dərdini, kədərini əks etdirən layla-elegiyalardandır. Şair sanki şəhidə əbədiyyət aləmində rahat uyumaq üçün layla deyir, onun şəhidliyini toyu kimi qələmə verir, lakin bu toy digər toylardan fərqli olaraq "şivən" qoparır, insanları ağladır:

Dağ üstə dağım mənim,
Od tutur ağım mənim.
Öldün, dedin yaşasın
Ana torpağım mənim.

Torpağım, daşım ağlar,
Bacım, qardaşım ağlar.
Boyuna qurban oğul,
Yanar göz yaşım ağlar.
Boyuna qurban, oğul,
Boyunu yer aparır,
Toyuna qurban, oğul,
Toyun şivən qoparır (6, 245).

90-cı illərin bir-birini əvəz edən faciələrinin bədii ədəbiyyatda elegiyalarla özünə yer alması təsadüfü deyildir. Faciənin böyüklüyü, dərdin ağırlığı insanları sıxır, hətta bəzən ümidsizliyə qədər yol açırdı. 20 yanvar şəhidlərinin yatdığı məzarlığa sevgi və dərdə şərik olmaq anlamında qoyulan qərənfillər nahaq tökülən şəhid qanlarını xatırladırdı. Milyonlarla qərənfillə süslənmiş bu məzarlıq bir hüzn gətirir, insanları ağladırdı. Sanki qərənfillər də ağlayırdı. Bu hüznlü, kədərli səhnəni görən Məmməd Aslan "Ağla, qərənfil, ağla" layla-elegiyası ilə günahsız ölənlərə matəm tutur, yas saxlayırdı:

Bu qara yazılara,
Bu körpə quzulara.
Quruyan arzulara
Ağla, qərənfil, ağla.

Xeyrə şər qalib gəldi,
İniltili gün gəldi.
Ağlamalı gün gəldi,
Ağla, qərənfil, ağla (1, 88).

Təbiətin bu və ya digər ünsürlərinə, xüsusilə də gülə, çiçəyə müraciətlə deyilən bayatılar, ağılar xalq yaradıcılığında geniş yer alıbdır. Sevgilisindən ayrı düşmüş aşiq gülə, çiçəyə müraciətlə bayatı çağırır, dərdini, arzusunu bu vasitə ilə qarşı tərəfə çatdırmaq istəyirdi. Məmməd Aslan da qərənfilə müraciətlə xal-

qın dərdinə şərik olmaq, içini göynədən ağrını qərənfillərin qan rənginin arxasında ovutmağa çalışırdı.

Müasir post-modernist cərəyanın nümayəndələrindən olan şair Əhməd Qəşəmoğlunun "uşaq qəbrstanlığı" şeirində də bu dəst-xəttə rast gəlirik. Uşaq qəbirstanlığının zahiri sakitliyi şairin qəlbini silkələyir, içindən gələn səslər Uca Yaradanla təmasa çağırır:

...kim qorxudub onları?
kim başdaşı kimi yan-yana düzüb
bu məsum insanları?
az qalıram çaşam, Allah!
mən belə başdaşı görməmişəm, Allah!
hər insan canlı-canlı,
üz-gözü suallı
öz ömrünün həyatda
başdaşı olarmış, Allah! (9, 157)

Layla-elegiyalar yeni yaranmaqda, formalaşmaqda olan janr olduğundan onun poetikası haqqında kifayət qədər araşdırma aparılmasa da, layla və ağılar haqqında yetərincə məlumat vardır. Düşünürük ki, burada qısa şəkildə verdiyimiz məlumatlar layla-elegiyalar haqqında da müəyyən təsəvvür yarada bilər.

Bu şeir şəklinin müstəqillik dövrü poeziyamızda özünəməxsus yer tutması milli-mənəvi dəyərlərimizin xalqımız tərəfindən düzgün qiymətləndirilməsi, Vətən sevgisi, Milli qürur, türk düşüncə tərzinin inikası ilə birbaşa bağlı özünü dərketmə kompleksidir.

## QAYNAQLAR:


1. Aslan M. Seçilmiş əsərləri, Bakı: "Avrasiya press", 2006, 320 s.
2. Babayev İ., Əfəndiyev P., Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı: Maarif, 1970, 268 s.

3. Əliyev H. Xocalı yarası qəlbimizi həmişə sızladacaq, Azərbaycan qəzeti, 26 fevral 1995-ci il.
4. Əsgəroğlu H. İham-Fərizənin sevgi dastanı, Bakı: Nasir, 2007, 544 s.
5. Güney Azərbaycan folkloru, I kitab, Bakı: Elm və Təhsil, 2013, 456 s.
6. Kəsəmənli N. Seçilmiş əsərləri, Bakı: Qərb-Şərq, 2004, 256 s.
7. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
8. Qafarlı R. Uşaq folklorunun janr sistemi və poetikası, Bakı: Elm və Təhsil, 2013, 540 s.
9. Qəşəmoğlu Ə. Sonsuzluğun ahəngi, Bakı: "XAN" n-ı, 2015, 352 s.
10. Məğrur Y. Gəlirəm, Qarabağ! Bakı: "Təknur" n-ı, 2014, 204 s.
11. Murad G. Qarabağ harayı, Bakı: Qanun, 2009, 56 s.
12. Paşa O. Yağmur qoxusu, Bakı: Uğur, 2015, 228 s.
13. Poetik yaddaşımızda ağılar. Tərtib edəni, toplayanı və ön sözün müəllifi Sədaqət Nemətova, Qızıl dağ, 2007, 142 s.
14. Tanrıverdi Ə. "Dədə Qorqud"un möcüzələr dünyası, Bakı: Elm və Təhsil, 2015, 536 s.
15. Təhmasib M.H. Seçilmiş əsərləri, 2 clddə, I c. Bakı: Mütərcim, 2010, 488 s.
16. https://az.wikipedia.org/wiki/İlham_və_Fərizə
17. www.clb.az/html/galleries/.../mersiyerekviye1.p.

# QURD OBRAZI

**Əpoş VƏLİYEV**
***filologiya üzrə fəlsəfə doktoru,***
***AMEA Folklor İnstitutunun***
***"Folklor və yazılı ədəbiyyat" şöbəsinin***
***elmi işçisi***

Qurd məfhumu türk inanc sistemində ucalıq, cəsurluq rəmzidir. Bu inam hunlarda, sonralar göytürklərdə geniş yayılmış, zamanlarda, dövrlərdə boz qurdlarla bağlı əfsanələr dəyişilmiş, müxtəlif variantlar yaranmış, yayılmış, bu günümüzə qədər gəlib çatmışdır. Qədim dastanlarda və digər folklor nümunələrində bu obrazın müxtəlif funksiyalarını izləməklə onun mifoloji təfəkkürdə yerini müəyyən etmək mümkündür. Daha çox ilkin yaradılışla bağlı miflərdə, əfsanələrdə və dastanlarda yer alan qurd obrazı haqqında geniş monoqrafiyalar, araşdırmalar aparılmışdır. Bizim araşdırmamız isə Azərbaycanın ayrı-ayrı bölgələrinə məxsus folklor nümunələrində və yazılı ədəbiyyatda olan qurd obrazı ilə bağlı olacaqdır.

Əski türkcədə Aşina, Börteçine, Çine, Azərbaycan türkcəsində Qurd, Boz qurd, Anadolu türkcəsində Gök börü, Gök kurt, Gök yele, Yalınsak (Yalquzaq anlamında) Qırğız türkcəsində Coo börüsü, Qazax türkcəsində Kaskır, Kök çal, Tıva türkcəsində Kuu pörü, Özbək türkcəsində Kök yal və digər adların daşıyıcısı olan, türklərin xilas, azadlıq, qurtuluş rəmzi sayılan Qurd totemi ilə bağlı dünyada külli miqdarda yer adı, adət-ənənələr, mərasimlər vardır ki, bu da Qurdun insan yaddaşında özünə yer tutmasını, bu nadir canlının həqiqətən cəsarət, mərdlik, düzgünlük, həmçinin, azadlıq simvolu olmasını göstərir. Qurdun azadlıq sevən canlı olduğunu onun daha bir xüsusiyyəti sübut edir: pəncəsi tələyə düşən Qurd öz pəncəsini dişləri ilə didib-dağıdaraq özünü tələdən qurtarır.Qurd

yegane heyvandır ki, öz dişisini qısqanır. Dişisini başqa bir erkək heyvanla görən Qurd onu parça-parça edir, digər erkək canlıya isə çəkilib getməyə imkan verir. Həmin erkək canlı qurdun gözünün düşmənidirsə, deməli, o da Qurdun qəzəbindən qurtula bilməyəcək. Yaşadığı əraziyə, ailəsinə, öz növündən olan digər qurda təcavüz edilərkən qəzəbli Qurdun qarşısını heç bir canlı ala bilmir. Sürü ilə ovdan dönərkən, düşmən saydıqları canlıların üzərinə gedərkən və s. sürüdən geri qalan Qurdu "dəstə rəhbəri" parçalayır ki, rəqibin "əsirinə çevrilməsin". Təsadüfi deyil ki, bütün Türklərin xarakterik xüsusiyyətlərinin bir çoxu Qurd psixologiyası üzərində qurulub və haradasa onu xatırladır. Eyni zamanda bu obraz türklərin totemidir. Qədim türklərin inancında "Boz qurd mədəni qəhrəman, əcdad-xilaskar, iki dünyanı birləşdirən mediator, ritual-mifoloji səciyyəli həmin ruh, nəhayət, döyüş və qəhrəmanlıq simvoludur...qurd bütün türk xalqlarının yolgöstərənidir". O türkləri qoruyandır. Əfsanəyə görə hətta Göytürklər qurddan törəmişdir və Qurd türk mifologiyasının ən əhəmiyyətli simvoludur.

Türklərin qurdla ilgili atalar sözləri və deyimlərinə nəzər salaq:

Qurd qonşusunu yeməz (Əski türk).

Qurddan qorxan qoyun saxlamaz (Azərbaycan).

Qazax, Qırğız və qurd qardaşdılar (Qazax, Qırğız).

Keçiyə rakı içirmişlər qurdun evini sormuş (Anadolu).

Qoyunu güdən qurdu görər (Anadolu).

Tüklü qoyunu qurd yeməz (Kərkük).

Qurdu nə qədər əhliləşdirsən, gözü yenə meşəyə baxacaq (Azərbaycan) (24).

Qədim türklərdə Qurd uğur rəmzidir, ilk türklərin inancında ataları qurda bənzədilir:

– Əfsanəyə görə hunların soyundan olan göytürklər tayfa şəklində yaşayarkən onların ölkəsinə düşmən basqın edir. On yaşında uşaqdan başqa hamısını öldürürlər. Düşmənlər uşağın ayaqlarını sındırırlar və bir bataqlıqda qoyub gedirlər. Balalarını

itirmiş bir dişi qurd bu uşağı bəsləyir. Uşaq böyüyəndən sonra qurd ondan hamilə qalır. Düşmənlər onun sağ qaldığını eşidib onu öldürmək qərarına gəlirlər. Qurd oğlanı ölümün pəncəsindən alır. Onu bir mağarada gizlədir. Burada onların on uşağı dünyaya gəlir. Uşaqlar böyüyür. Rast gəldikləri qızlarla evlənir, tez bir zamanda çoxalırlar. Yaşadıqları yer dar olduğundan ordan çıxıb Altay dağlarının ətəklərində məskən salırlar. Aşina adlı qardaş onlara xaqan olur. Qurd soyundan olduğunu bildirmək üçün xaqan çadırının üzərində qurd başı olan bayraq ucaldır. Bəzi tədqiqatçıların fikrincə "aşina" "canavar" deməkdir (20).

Boz qurdla bağlı əfsanələrin birində deyilir ki, Hun soyundan olan Göytürklərin başçısı Kapanpunun on altı, bəzi mənbələrdə on yeddi qardaşından birinin anası qurd idi. Düşmən tayfaları onların hamısını məhv etmiş olsalar da qurddan doğulan cəsur, güclü qardaş sağ qalmış, Yaz və Qış ilahələrinin qızları ilə evlənmiş, hərəsindən iki övladı olmuşdur. Uşaqların böyüyü olan Notuluşə xaqan seçilmiş və "türk" adını almışdır. Sonralar türk adlandırılan Notuluşənin on arvadı olmuş, onun uşaqlarından birinin anası "dişi qurd" deyilən Aşina adını daşımış və ondan olan uşaq xaqan olmuş, o, da "Aşina" adlanmışdı. Göytürkləri bu "Aşina" soyuna aid edirlər (21).

Türklərin Ərgenəkon dastanına görə isə, hiyləylə rastlaşaraq düşmənə yenilən türklərdən sağ qalan bir neçə nəfər qorunmaq üçün dağların arasında tək adamın zorla keçəcəyi yolla özlərinə kiçik yurd seçib, illərlə burada yaşayırlar. Bu məkana Ərgənəkon adı verən türklər düz dörd yüz il sonra həm özləri, həm də sürüləri o qədər çoxaldı ki, yurda sığmaz oldular. Qərara gəldilər ki, əvvəlki vətənlərinə qayıtsınlar. Türklər bu dağdan çıxmaq üçün çıxış yolu aradıqları zaman bir dəmirçi dedi: "Bu dağda dəmir mədəni var. Dəmiri əritsək, buradan çıxa bilərik". Beləcə, dağın geniş yerinə bir qat odun bir qat kömür qoyub od vurdular. Dəmir dağ əridi, türklər Ərgənəkondan çıxdılar və Bozqurdun onlara göstərdiyi yolla qurtuldular (21).

Qurd həm də müxtəlif xalqların mifologiyasında, folklorunda, deyimlərində yer alıb və onunla bağlı xeyli əfsanələr yaranmışdır. Qədim Roma müəllifləri şəhərin qurucuları kimi Rem və Romul qardaşlarının adlarını çəkirlər. Əfsanəyə görə, zalım dayının əmri ilə meşəyə atılan qardaşları dişi bir canavar tapır və onlara süd verərək bəsləyir. Sonra tifilləri bir çoban tərbiyə edib boya-başa çatdırır. Qurdla bağlı bu cür əfsanələr digər xalqların mifologiya və folklorunda da var. Məsələn, Cənubi Amerika hinduları qurdu döyüşə aparan sərkərdə kimi qəbul edirlər. Ümumiyyətlə, əgər Avrasiyada qurd daha çox yol göstərən kimi xarakterizə edilirsə, Qərbi Avropada ona daha çox ilkin başlanğıc kimi münasibət bəsləyirlər. Qurdlarla bağlı Hans Bidermanı məşhur "Simvollar ensiklopediyası"nda xeyli maraqlı məlumatlar var. Məsələn, Qədim misirlilər qurd başlı tanrılara müharibə tanrısı kimi sitayiş edirdilər. Slavyan mifologiyasında isə qurda şərin elçisi kimi yanaşılır.

Qədim Çin mənbələrində Orxon-Yenisey abidələrini yaratmış türk xalqının mənşəyi barədə türklərin öz dilindən bəzi əfsanələr qeydə alınmışdır və onlardan biri bu xalqın Qərbdən – Xəzər dənizinin qərb sahillərindən gəldiklərini bildirməkdədir (9, 72).

Böyük Türk Xaqanlığının əsasını qoyan göytüklərin mənşəyi ilə bağlı qədim Çin mənbələrində iki rəvayət qeydə alınmışdır. Birinci rəvayətdə deyilir ki, hunlarla eyni soydan olan göytürklər hun yurdunun şimalındakı Su (So) ölkəsindən çıxmışlar. Başbuğlarının, yəni sərkərdələrinin adı Kapan Pu idi və onun 16 qardaşı vardı. Bunlardan birinin anası boz qurd idi. Bu gənc yellərə və yağışlara hökm edərdi. Göytüklərin düşmənləri bir həmlə ilə qardaşları aradan apardılar. Bu fəlakətdən yalnız bir gənc qurtuldu. Bu gəncin iki arvadı vardı. Biri yaz tanrısının, digəri qış tanrısının qızı idi. Onun bu arvadlardan iki oğlu oldu və xalq böyük oğlu özünə xaqan seçdi. O, Türk adını aldı. Onun 10 arvadı vardı və bu arvadlardan türk xalqı törədi (9, 26-27).

Bir çox türk xalqlarının folklorunda qurd obrazına qarşı münasibət bir mənalı olub, bu xalqlar qurdu özlərinə totem seç-

miş, özlərinin ulu əcdadı elan etmişdirlər. "Qədim çağların köçəbə xalqlarında bütün sakral olanlara olduğu kimi qurda da ikili münasibət vardı. Bütün bunlarla yanaşı türk xalqlarında qurddan adama ziyan gəlməyəcəyi inancı əsas olmuşdur" (27, 229). Buna baxmayaraq, Azərbaycan folklorunda qurd totem kimi yox, əksər hallarda bələdçi-xilaskar rolunda çıxış edibdir. Qəhrəmanlıq dastanımız olan "Koroğlu" dastanında Koroğlu igidlərinin gücünü, qüvvətini qurdla müqayisə edir:

Korğluyam, sərt qayadan atıllam,
Harda dava olsa orda tapıllam,
Ac qurd kimi cümlənizə təpilləm,
Ortadan olmazsa, uc alam, gedəm! (10, 82)

Azərbaycan yazılı poeziyasında Qurd obrazından istifadə geniş yayılmışdır. Digər türk toplumlarında olduğu kimi Azərbaycan türkünün də düşüncəsində qurdun özəl yeri olub. "Qurd üzü mübarək" sayılıb. "Qurdu ulamaq" Azərbaycan türkünün böyük şansı olub, bəxtinin üzünə gülməsi anlamında işlənib. İndi də Azərbaycan türkləri arasında kiminsə şansı gətirəndə, işləri yoluna düşəndə "filankəsin qurdu uladı" ifadəsi işlənməkdədir. İdealı uğruna qorxmadan, dönmədən, sürəkli olaraq savaş aparan kimsə haqqında "qurd olub qurdlarla dolaşır" ifadəsi də işlənmişdir. Azərbaycanda "qurd ürəyi yemək" ifadəsi də yalnız son dərəcə cəsarətli insanlar haqqında deyilir. Ölməz şairimiz Şəhriyarın:

Qan var ikən qardaş deyib qaynardıq,
"Yoldaş məni qurd apardı" oynardıq –

deməsi Azərbaycan türkləri arasında "Yoldaş məni qurd apardı" adlı oyunun mövcudluğundan xəbər verirsə, əski Azərbaycan türklərinin and içərkən;

"And olsun boz qurdun mübarək üzünə",
"And olsun boz qurdun ruhuna",
"Boz qurdun paklığı haqqı" və s. - söyləməsi,
"Boz qurd yuvanın ağzında ov etməz"
"Boz qurdu qoca görmə, gecə gör" - kimi atalar sözləri,

“Qarşına qurd çıxsa əlinə pay gələr”

yaxud;

Qurd getdi yazıya,
Meydan qaldı tazıya (24)

və digər bu kimi məsəllər bu yurdda əskidən boz qurda (bozqurd ruhuna və özəlliyinə) nə qədər böyük önəm verildiyini anladır. Dahi Azərbaycan şairi Nizami “İskəndərnamə” poemasında Günəşin doğduğu zamanı, dan yerini “Qurdun ağzından gələn sübh nəfəsi” kimi dəyərləndirir:

Gəldi qurd ağzından sübhün nəfəsi,
Keşikçi itinin kəsildi səsi (23).

Qurd obrazından istifadə edən şairlərdən biri də Məmməd Arazdır. Onun yaradıcılığına nəzər saldıqda şeirlərində folklordan yazılı ədəbiyyata keçmiş “Qurd” obrazına çox rast gəlirik. Məsələn:

Düşdüsə bir sürü bir qurd payına –
Bunun da adı var-“qismətdi”-dedi (15, 97)

İtnən qurdu seçə bilmir...(13)

Qurda quzu desəm-bu, bu qurd arzusu,
Yazıqlıq bacarır cəllad olanlar.
Quzuya qurd desəm-istəməz quzu
Yazıqlar! Hər dəmdə yazıqdı onlar (15, 51)

Məmməd Arazın yaradıcılığında Qurd obrazından geniş şəkildə istifadə etməsi bir tərəfdən kənd həyatında, dağlar qoynunda doğulub boya-başa çatması, yaşadığı kəndin ətrafındakı dağlardakı sıx meşələrdə tez-tez rast gəlinən qurd-canavarla bağlı idisə, digər tərəfdən xalq arasında olan, “Kitabi Dədə Qorqud” dastanında da təsdiqini tapan, “Qurdun mübarəkliyi” haqqındakı inamlarla da sıx bağlı idi. Xalqımızın söz abidəsi olan “Kitabi -Dədə Qorqud” dastanında da Qurd obrazına rast gəlinir. “Salur Qazanın evinin yağmalandığı boy”da belə nəql edilir:

– “Sudan keçdi, bu kəz bir qurda tuş oldu. “Qurd üzü mübarəkdir, qurdlən bir xəbərləşəyim”,- dedi. Görəlim, xanım, nə xəbərləşdi. Qazan aydır:

Qaranqu axşam olanda güni toğan!
Qar ilə yağmur yağanda ər kibi turan!
Qaraqüc atları kişnəşdirən!
Qızıl dəvə gördügində bozlaşdıran!
Ağca qoyun gördügində quyruq çırpıb qamçılayan!
Arqasını urib, bərk ağılın ardın sökən!
Qarma-bükəc simüzin alub tutan!
Qanlı quyruq üzüb çap-çap yudan!
Avazı qara köpəklərə ğoğa salan!
Çaqmaqluca çobanları dünlə yügürdən!
Ordumun xəbərin bilürmisin, degil mana,
Qara başım qurban olsun, qurdim, sana-dedi.
Qurd qaçan xəbər versə gərək?! Qurddan dəxi keçdi” (7).

Azərbaycan şifahi xalq yaradıcılığında qurdla bağlı xeyli sayda atalar sözləri, məsəllər, rəvayətlər və çoxlu deyimlər vardır. Məsələn: “filankəsin qurdu uladı”, “qurd anılan yerdə hazır olar”, “qurd kimi”, “qurd quzu ilə otlayar”, “qurd ürəyi yemək”, “qurd yağı sürtmək”, “qurdla qiyamətə qalmaq” və s. Qədimdə Azərbaycan kişisi qeyri-adi qorxmazlıq, igidlik göstərib hamıdan seçilərkən ona belə deyərdilər: **“Sən lap qurd ürəyi yeyibsən”.**

Bundan əlavə, qurdla bağlı bəzi mərasimlərimiz də var. Məsələn: köpək qurdla boğuşubsa mütləq ona qoyunun quyruğunu verirlər ki, it qudurmasın, qorxaq olmasın. Bütün bunların izi tariximizin ən qədim dövrlərinə gedib çıxır. Hələ də bölgələrimizin bəzilərində süfrənin ən yağlı, ən gözəl tikəsindən söhbət düşəndə ona “qurd payı” deyilir. Bəzən də görürsən ki, biri başqasına hörmət əlaməti olaraq süfrədən daha dadlı bir tikə verəndə deyir: “bunu qardaş qardaşa qıymaz, mən sənə qıyıram. Süfrəmizin qurd payıdır”. Naxçıvandan toplanmış inanclarda deyilir ki, “Qurd ulayanda xeyir gətirər, it ulayanda bəla-fəlakət gələr” (18).

Qurd dişini dəyişər, amma xasiyyətini dəyişməz...
Arxalı köpək qurd basar.
Qurdun qonaqlığına get, köpəyi də yanınca apar.
Qoca qurd kahasından çıxmaz.
Qurddan qorxan qoyun saxlamaz (18).

kimi atalar sözləri və məsəllər bu gün də xalq arasında geniş şəkildə işlənir və xalq yaradıcılığında yazılı ədəbiyyata, poeziyaya keçir.

Atalar sözü və məsəllərdə Qurda ikili münasibətin nisbətini daha aydın görmək olar:

Qurdun xeyirliyi:
Qurd qurda dal çevirməz.
Qurd əti qurda haramdır.
Qurd ürəyi yeyib!
Qurddan qurd törəyər.
Qurd qaranlıq sevər.
Qurd üzü mübarəkdir (18).

Qurdun şərliyi:
Qurd acgöz olar.
Qurd dumanlı yer axtarar.
Qurda qoyun tapşırmaq olmaz.
Qurda sən tikmək öyrət, yırtmaq anasının peşəsidir.
Qurdu evdə saxlamaqla ev heyvanı olmaz.
Qurdun üzü ağ olsaydı, gündüz çölə çıxardı (18).

Xalqda işlənən qurdla bağlı atalar sözü və məsəl nümunələrinin demək olar ki, hamısı Məmməd Araz yaradıcılığında geniş şəkildə istifadə olunmuşdur. Nümunələr məzmunca dəyişilsə də məna cəhətdən eyniliyini qorumuşdur. Şeiri oxuyan kimi həmin ifadənin xalqdakı variantı yada düşür.

Xalqda:

Qurddur, qoyun dərisinə girib (2).

Məmməd Arazda:

Quzular qurd yeyəndir,
Toxlar toxluqdan doyub,
Toxlar sükut yeyəndir (15).

Hardasa insana qurd olur insan,
Cəllad gözlərindən dogulur insan,
Biz nə qurd olanıq, nə cəllad olan
Nə kölə olanıq, nə azad olan (15, 136).

Qurdnan qoyundan danışım,
Ya bunlar arasında
Gedən oyundan danışım...
Vallah sözüm tükənibdi (15, 182).

Xalq arasında talançı, güvənsiz, etibar qazanmayan insanlar üçün “Qoyunu qurda tapşırıb”, “Qurd tükünü dəyişər, xasiyyətini dəyişməz” kimi ifadələr işlədilir. “Qoyun cildinə (dərisinə, donuna) girmiş qurd” ifadəsi öz pis niyyətlərini xeyirxahlıq pərdəsi altında gizlədən qəddar, riyakar adamlar, “Köhnə qurd” ifadəsi isə heç bir hiyləyə aldanmayan, uymayan, hiyləgər, təcrübəli, ayıq, zirək adam haqqında deyilir. Bu ifadələr də Məmməd Araz yaradıcılığında da öz əksini tapıb:

Yaşar min illərlə bu qurd xisləti,
Ütüyə, ülgüyə, qəlibə gəlməz!
Ancaq, qəribədir, qurd xasiyyəti
Bəzi adamlara qəribə gəlməz (15).

Bizim içimizdə bizdən uzaqlar,
Bəzən qurd ağzından qoyun saldırar (15).

Aparır adamı qurd vahiməsi,
Qoyunu dalınca aparan kimi (15, 74).

Sonuncu şeir nümunəsindəki “qurd vahiməsi” ifadəsinə Naxçıvan MR Şərur rayonunda ekspedisiyada olduğum zaman

söyləyici Tağıyeva Meyxanım nənədən bir əhvalat dinləyib yazıya almışdım. O, söyləyirdi ki, “Qoyun-quzu qurddan çox qorxur. Bütün il boyu qurdun vahiməsi qoyun-quzunun yaddaşında qalır. Ancaq qoyun-quzu qırxılan zaman qurdu yadından çıxarır. Həmin vaxt qoyun-quzu yalnız qırxlıqdan qorxar. (Qırxlıq-qoyun-quzunu qırxmaq üçün qayçı formasında kəsici alətdir). Qurd qoyunu boynunun arxasından dişləri ilə tutar. Bu vaxt qoyun qurddan o qədər qorxar ki, qurdun vahiməsi ilə onun ardınca qaçar” (18). Məmməd Araz həmin bu əhvalatı öz şeirində yuxarıdakı formada qələmə almışdır.

Qurdla bağlı bir nümunə də insanın qurda çevrilməsidir ki, buna biz Azərbaycan mifoloji mətnlərində rast gəldiyimiz “Qurd Zalxa” mətnidir (8, 122). Burada qadın qurda çevrilib vəhşi bir heyvan olur və insanları etməklə məşğul olur. Bu mətnə əsasən qurd nəsli artıran bir totem kimi yox, əksinə onu məhv edən kimi göstərilmişdir. Eləcə də bir çox ovsunlarımız var ki, burada qurd ayrılıq, nifaq gətirən bir vasitəyə çevrilir. Qurdun ehtiva etdiyi mənəvi qüvvədən istifadə edərək insanların dilini, ağzını, könlünü bağlamaq da olur. Bunun üçün qurd yağından istifadə edilir. İnanca görə “üstünə qurd yağı sürtülən insanlar arasına nifaq, düşmənçilik düşür. İnsanların gülərüz olmalarını əngəlləyir, onların xoş danışmaqlarının qarşısını alır” (26).

Qurdla bağlı folklorda maraqlı bir inanc da var ki, bu da qurd ağzı bağlamaq inancıdır. Burada da qurda qarşı müsbət yox, mənfi münasibət özünü göstərmişdir.Əski türklərdə “qurd ağzı bağlama” adəti geniş yayılmışdır. Bu adət İslam dini yarandan sonra da davam etmiş və bu gün də yaşadılmaqdadır. “Qurd ağzı bağlamaq” hansı zərurətdən qaynaqlanır?! Professor Necati Dəmir “Qaradəniz bölgəsində qurd ağzı bağlama” yazısında bu adətin yaranma nədənini belə açıqlayır: “Kırsal kesimde yerleşik olan köylüler, özellikle hayvancılıkla uğraşmaktadır. Davarlarını hastalıklara, hırsızlara, yırtıcı hayvanlara karşıkorumak için bazı önlemler alırlar. Hastalık için veterinere

başvurulur ve ilaç alınır. Hırsızlara karşı köpek beslenir, kapılar kilitlenir. Kurtlara karşı önlem almak oldukça zordur. Çünkü hayvan sürüleri yaylalarda çok geniş bir alana serpilerek otlamaktadırlar. Çoban köpekleri, bunca geniş alanı koruyamadığı gibi, bazen de kurtlara güçleri yetmemektedir". Ancaq, hansı anlamda qurdlara "gücləri yetməməkdədir"? İstər Doğu, istərsə də Batıda yaşayan əski türklərin qurdun ağzını bağlamağa çalışmaları onların acizliyindən, heyvan-qaralarını qurddan qorumaq üçün çarəsiz durumda olmaqlarından qaynaqlanmır. Əski türk Tanrı qatında qurdun qutsal varlıq olduğuna inanırdı. Qurda saygısızlığın Tanrıya xoş getməyəcəyini düşünürdü. Bu üzdən sürünü qurddan fiziki güc vasitəsilə deyil, mistik üsullarla metafizik güc qaynaqlarına dayanaraq qorumağın yollarını arayırdı. Əks hallarda sürülərə saldıran digər heyvanların da ağzını bağlamağa çalışardı. Misal üçün, bu gün Azərbaycanın dağ rayonlarında yerləşən yaylaqlarda çobanlar sürüləri daha çox ayılardan qorumağa çalışırlar, nəinki canavardan... Həm də əski türklərin inancına görə "kurdun kutsal ruhlarla ilgisi vardı" (29).

Bu ovsunu Azərbaycanda və digər türk xalqlarının folklorunda gecə sahibsiz çöldə qalan heyvanları qurddan qorumaq üçün yerinə yetirərdilər. Bu inanc daha çox dağlıq əraziyə malik olan və təsərrüfatçılıqla-maldarlıqla məşğul olan regionlarda geniş yayılmışdır. Qurdun ağzını əsasən iki üsulla bağlardılar: Ağzı bağlanan bıçağa dua oxuyub bıçağı qapadar, ya da ipə oxuyub sonra üç düyün vurardılar. İtən heyvan tapılandan sonra bıçağın ağzını və ya ipin düyününü açardılar. Bəzi türk boylarında bıçağa oxunan dua belə idi:

Qurd ağzını qapa
Yolun olsun sapa
Bıçağımı yağladım
Qurd ağzını qapadım – deyib bıçağı bağlardılar (27).

Min illərlə tarixi olan bu adət İslamın türk dünyasına gəlişindən sonra məzmununu xeyli dəyişdi. Hazırda qurdun ağzını

bıçağa Qurandan ayələr oxuyaraq bağlamaq adəti geniş yayılmışdır (25).

Kəlbəcərin Çaykənd kəndinin sakini Məmişov Xansuvar Şahsuvar oğlu söyləmişdir ki, "Mal-qara meşədə qalanda onu canavardan qorumaq üçün müxtəlif ovsunlar oxuyardılar. Bunun üçün ya mollaya, ya da kəndin ağsaqqal-ağbirçəyinin yanına gedərdilər. Ovsunu oxumaqla yanaşı bəzi ayinlər də edərdilər. Sümük bıçağı və ya təzə bıçağı üfürüb ağzını bağlaya-bağlaya aşağıdakı sözləri oxuyardılar:

Ayı gördüm ağladım,
Gülü dəstə bağladım.
Öz əmlakımın üstündə,
Qurdun ağzını bağladım.
Bunu deyib bağlayırdılar" (1, 113).

İnanca görə mal-qaraya qurd dəyməz idi. Ovsunlanmış bıçaq mal-qara tapılmayınca açılmazdı. Açılardısa, qurd yeyərdi. Burada istifadə edilən sümük, yaxud da təzə, işlənməmiş bıçaq sanki qurdun ağzı kimi təsəvvür edilir və onun bağlanması, açılması ilə qurdun ağzı da bağlanır və açılırdı. İnsanların belə magik rituallarda, əsasən, metal alətlərdən istifadə etməsi metala verilən dəyərlə əlaqəlidir. Qədim insanlara təbiətdə mövcud olan bir çox proseslər kimi metal da qeyri-adi görsənmiş və onun bu gücündən özləri üçün istifadə etmişdirlər. Buna nümunə kimi yağışın yağması, yaxud da kəsməsi üçün edilən ayinlər içərisində dəmirin isladılması və qızdırılmasını da göstərə bilərik. Eyni zamanda, təkcə ayinin yerinə yetirilməsi bıçaqla yox, oxunan ovsundakı sözlərlə və onu oxuyan insanın kimliyi ilə də bağlı olmuşdur.

Kəlbəcərin Zivel kəndindən olan başqa bir söyləyici isə bu ovsunu oxuya-oxuya yeniyetmə bir qızın saçlarından və bıçaqdan istifadə etdiklərini söyləmişdir. "Qızın saçının ucunu düyünləyib aşağıdakı sözləri oxumalı idi. Mal-qara tapılana qədər də qız saçındakı o düyünü açmamalı idi.

Aya baxdım ağladım,
Günə baxdım ağladım.
Filan yerdəki yerlərdə,
Fatma nənənin əli ilə,
İmamlarımızın qılıncı ilə,
Qurdun dilin, ağzın bağladım,
Dərin quyuya salladım" (1, 112-113).

Burada ovsunu oxuyan adamın yeniyetmə olması və evli olmaması onun pak, təmiz biri kimi göstərilməsi ilə bağlıdır. Qurd ağzı ilə bağlı nümunələrin hər birində müşahidə etdik ki, bu ayini yetirən adam ya gənc, saf bir qız uşağı, yaxud da sayılıb-seçilən bir ağsaqqal, ağbirçək olmalı idi.

Zəngəzur folklor antologiyasında qurd ağzı bağlamaq inancı ilə bağlı maraqlı bir mətnə rast gəlirik. Ovsunda itmiş heyvanın gəzdiyi ərazi ilə yanaşı onun "rəngi" də qeyd edilir. İnanırdılar ki, əgər heyvanın rəngini qeyd deməsən, qurd onu tapıb yeyəcəkdir (3, 85).

Yuxarıda qeyd etdiyimiz ovsunun sözlərində Ay və Günün adlarının çəkilməsi onların sakral mənası ilə əlaqəlidir. Lakin "Fatma nənənin əli ilə, İmamlarımızın qılıncı ilə" bəndi isə dini məzmuna malik olub sonradan əlavə edilmişdir. Buna nümunə kimi Kəlbəcərdən topladığımız digər ovsunları da göstərə bilərik.

"Qurd ağzı azar olsun,
Dörd yanı bazar olsun.
Saxlayan Allah olsun,
İçində Məhəmməd olsun.
Qurdun, quşun ağzını bağlayıram" (1, 113).

Yaxud da:

"Bisim Bismillah,
Bisimi yazan Qulhüvallah.
Qulhüvallahın bir ola,
Yamanı verə yola.
Mal-heyvan gəzər örüşdə,

Qurd-quş dəyməsin deyə,
Bıçağın ağzını bağlayıram" (1, 112).

Eyni ovsun Laçın (11, 164) və Füzuli (11, 165) bölgəsində də qeyd edilmişdir. Fərqli bir qurd ağzı bağlamaq duası isə Qarabağdan toplanmış folklor nümunələrində vardır. Söyləyici deyir ki, "canavarı tutanda onun dodağını kəsif saxlayırlar. Heyvana canavar düşəndə o kimdədisə, onu alıllar, aparıf suya salıllar.Onun suyunu da aparıf heyvanıb üstünə səpillər. Heyvan qurd ağzınnan çıxsın deyənə" (11, 165) Gəncə folklorunda qurd ağzı bağlamaq ovsununu deyərkən arada fışqıqır çalınar, üç dəfə təkrar olunardı" (4, 25)

Naxçıvandan toplanmış folklor nümunələrində isə qurd ağzı bağlamaq fərqlidir. Burada qurdun ağzını bağlayarkən

Yağladım,
Zağladım,
Fatma nənənin saçağıynan,
Həzrət Əlinin pıçağıynan,
Qurdun ağzın
Bağladım –

deyərək baltanın ağzını darağın ortasına qoyurlar. Yaxud da qatlama bıçağa ovsunu oxuya-oxuya, yavaş-yavaş bıçağı bağlayırlar. Həm də bu ovsunu söyləyən insan birnəfəsə deməli, nəfəs almamalıdır (18).

Başqa bir söyləyici isə fərqli bir üsulla, yəni təmiz işlənməmiş qayçı, yaxud da ipə düyün vurmaqla da qurdun ağzını bağladıqlarını söyləyirdi. İplə ayinin yerinə yetirilməsi bir çox ovsunlarda mövcuddur. Azərbaycan folklorunda iplə ağız bağlamaq təkcə qurda aid deyildir. Burada insanların da ağzını bağlamaqla hər hansı bir istənilməyən hadisənin qarşısının alınması nəzərdə tutulur. Söyləyici, əsasən, elçiliyə gedəndə qızın evindən mənfi cavab almamaq üçün, yaxud imtahana gedərkən, hər hansı bir işin düzəlməyi üçün ona mane ola biləcək adamın dil-

ağzını bağlamaq məqsədi ilə ipə düyün vuraraq edirdilər. Bununla həmin işin uğurlu olacağına inanırdılar.

"Qurd ağzı bağlamaq" ayinində maraqlı bir fakt var ki, bu da çöldə, meşədə qalamış heyvana məhz qurdun toxunacağına necə əmin ola bilmələri idi. Belə bir sual ortaya çıxır ki, heyvana qurddan başqa bir heyvan toxuna bilməzdimi ki, bu ovsunda yalnız qurdun ağzını bağlamağa çalışırlar. Kəlbəcərin Qılıçlı kəndindən olan bir söyləyicinin dediklərinə əsaslansaq, biz bu suala məntiqli bir cavab tapa bilirik. Söyləyicinin danışdığı bir mətndə "ağzı bağlanmış qurd heyvanın yanına yaxınlaşa bilmir, onun ətrafında dolaşıb durur. Elə ki, sən heyvanı tapmamış ovsunladığın bıçağın ağzını açsan qurd heyvanı o andaca parçalayıb yeyir" (1, 112).

Bu da onu göstərir ki, qurdun ağzının bağlanması bir tərəfdən heyvanın yeyilməməsinin qarşısını alırsa, digər tərəfdən də onun başqa vəhşi heyvanlardan qoruyur. Başqa bir anlamda isə təbiətdə vəhşilik və qüvvətlilik səviyyəsinə görə də qurd digər heyvanlardan üstünlük təşkil edir. Bunun üçün də doğru olaraq ovsunda ən təhlükəli heyvanın adının çəkilməsi daha uyğun olardı.

Qurdun ağzının bağlanması və heyvanının sağ-salamat qalması bu ayinin bitməsi demək deyildi. Söyləyici deyir ki, "heyvan tapıldıqdan sonra bağladığımız bıcağı, yaxud ipi, saçı və s. açardıq. Böyüklərimiz deyirdi ki, qurdun ağzını açın, yoxsa ac qalıb ölər. Günah etmiş olarsınız" (1, 113).

Folklorda belə bir inanc da vardır ki, qurd yeddi çay üstündən, yaxud yeddi kənddən keçsə ovsun özü-özünə açılardı (8, 286). Başqa bir inanca görə isə bağlanmış bıçağı suya salanda ovsun pozulardı (25).

Bağlama və açma tətbiqi bir çox yerdə olduğu kimi bıçaqla edilməkdədir. Türkiyənin Çanaqqala bölgəsində isə "qurd ağzı bağlamaq" ayini "Quran"dakı "Qureyş" surəsi tərsindən oxunmaqla yerinə yetirilir (25).

“Qurd ağzı bağlamaq” inancı İslam dinindən əvvəl Türk xalqlarında mövcud olmuşdusa da, islam dinindən sonra ona yeni ayinlər əlavə edilərək dini don geyindirməyə çalışdılar. Bıçaq ağzı açıb-bağlamaq, düyün atıb, düyün açmaq dinimizdə magik, falçılıq, baxıcılıq kimi adlandırılan mövzulardır. Lakin qeyd etdiyimiz mətnlərdə əlavə edilən dini adlara baxmayaraq, ovsun öz ilkin variantından hər hansı bir elementini qoruyub saxlamışdır.

Dilimizdə istifadə edilən məsəllərdən biri “Qurd ilə qiyamətə qalmaq” ifadəsidir. Bu ifadənin Azərbaycan dilində çox qədim zamanlardan işləndiyini güman etmək mümkündür. İfadənin işləndiyi xüsusi məqamlar var. Belə ki, bu ifadə əbədilik, uzunömürlülük mənasında işlənir. İfadənin meydana çıxmasında türk mifologiyasında geniş yayılmış bir mifoloji süjet əsas rol oynayır. Bu, boz qurdla bağlı süjetdir. Həmin mifə görə, yer üzündə qiyamət günü tufan qopacaq. Tufan elə bir dəhşətli gücə malik olacaq ki, yer üzərindəki bütün canlıları məhv edəcək. Tufanın gücünə tab gətirməyən ağaclar kökündən qopacaq, dağlar, təpələr düzənliyə çevriləcək. İnsanlar da digər canlılar kimi məhv olacaq. Canlı adına yer üzündə ancaq boz qurd qalacaq. Tufan bu mübarək məxluqun dərisini soyacaq, tufanın güc gəldiyini görən qurd ayaqlarını güclə yerə diriyəcək və tufana tab gətirə biləcək. Məhz bu zaman mübarək boz qurd öz gücünün nəyə qadir olduğunu dərk edəcək. Bu mif türklərin boz qurdun əbədiliyi haqqında yaratdığı əbədiyyət salnaməsidir. Azərbaycan dilində işlənən “Qurd öz gücünü bilmir, yoxsa dünyanı dağıdar” ifadəsi məhz bu mifoloji süjetdən qıdalanır (22).

Məmməd Arazın “Qurd xasiyyəti” şeirində qurdların xüsusiyyətləri öz əksini tapmışdır:

Qurdlar yatışarlar ağız-ağıza,
Qurdlar bir-birinin gözündə yatar.
Dönüb öz yanında geriyə baxsa,
Qurd öz balasına diş çaqqıldadar (15).

Bu xüsusiyyətlər həm də qurdlar haqqında bir əhvalatın izlərini özündə əks etdirir. Folklor toplama zamanı Naxçıvanda olarkən Şərur rayon sakini Tağıyev Muxtar İsgəndər oğlundan həmin əhvalatı dinləmişdim. Əhvalat belə idi:

"– Qurdlar ov etdikdən sonra dincəlirlər. Həmin vaxt onlar bir-biri ilə agız-ağıza dayanar. Bir-birlərinin gözünə baxa-baxa, gözləri açıq şəkildə yatarlar. Bu onların bir-birini parçalamasının qarşısını alır. Əgər onlardan hansısa ehtiyatı əldən versə onu parçalayırlar. Ona görədə ayıq-sayıq insanlara "qurd kimisən", gözləri açıq yatana da "qurd kimi gözü açıq yatır" deyirlər". Xalqda belə bir atalar sözü də var. "Ac qurdlar, ağız ağıza yatarlar"(bir-birinə yem olmaq qorxusundan) (18).

Qurdla bağlı bir sıra oyunlar da vardır. Bunlardan biri "Gökbörü" oyunudur."Gökbörü" (Göy qurd) oyunu ən əski türk oyunlarından biridir. Əslində atlı yarışma olan bu oyun türk boylarında daha yaxşı süvari və inadcıl savaşçı yetişdirmək amacına xidmət edirdi. "Gökbörü" oyunu üçün daha çox oğlaqdan istifadə olunardı. Bunun üçün oğlaq kəsilər və qarnı boşaldıqdan sonra tikilər. Sonra oğlaq yola buraxılar. Sürətlə gələn süvarilərdən biri cəldliklə oğlağı yerdən götürər, digərləri isə inadla oğlağı ondan almağa çalışar. Oğlağı birinci olaraq yerdən götürməyi bacaran atlı əyər "ov"unu kimsəyə aldırmadan yarış meydanını bir dəfə dövr edib geri qayıda bilirsə qazanmış sayılır. Qutsal amaclara xidmət etmək nədəniylə yaradılan və türkün qutsal saydığı göy qurdun adını daşıyan "Gökbörü" oyunu bu gün də Orta Asiyada yaşayan bəzi türk boyları tərəfindən yaşadılmaqdadır (30).

Məmməd Araz şeirlərindən birində Bozqurdla bağlı da yazmışdır:

Dur içində qorxunu boğ,
Ölümünlə, qalımını ayırd elə.
Dur içində dovşanı qov,
Dur özünü Bozqurd elə! (14).

Bozqurdlar qurdların bir növüdür. Bozqurdlar, ümumiyyətlə, evcil heyvanlardan adətən qoyunlara, mallara və atlara tələ qururlar" və onlar əsla quzulu qoyunlara hücum etməzlər. Maraqlıdır ki, onlar balası yanında olan heç bir heyvana yaxın durmurlar. Bozqurd sürüdən yalnız bir heyvanı tələf edər və bunun da yarısını özü yeyər. O biri yarısını isə varsa ailəsinə, yoxsa ova çıxa bilməyəcək qədər yaşlı olan bozqurdlara aparar. Bozqurdlar qurdlar arasında gələnəyə ən çox bağlı varlıqlardır. Bozqurdlar məğrur və heç nəyə baş əyməyən heyvanlardır. Onlar heç bir zaman ev heyvanları ola bilməzlər. İnsanla dost olarlar, amma it, ya da başqa heyvan kimi insana tabe olmaz, kölələşməzlər. Onlar məğlub ola bilərlər, amma əyilməzlər, öldürülərlər, diz çökməzlər, ovlanarlar, həbsə düşməzlər. Bu baxımdan, türklərin bozqurdları yüksək dəyərləndirmələri əbəs deyil. Belə ki, bozqurdlarda da qədim türk gələnəklərinə uyğun bir həyat tərzi var – ataya bağlıdırlar, bir təşkilat halında yaşayırlar və onlarda da hamının tabe olduğu lider var. Savaş zamanı bozqurdlar da türklər kimi yarım aypara şəklində sıralanaraq hücuma keçirlər. Bozqurdların daha bir maraqlı xüsusiyyətləri var – yeganə heyvandırlar ki, dişi taylarını dəhşətli dərəcədə qısqanırlar. Bütün bu kimi xüsusiyyətlərə görə, türklər azadlıqlarının timsalı olaraq Bozqurdu özlərinə simvol seçiblər. Məhz buna görə, Bozqurd türk hürriyyətinin, türk dəyanətinin simvoludur.

Əski türklərdə qurdla bağlı xeyli sayda adət və inanclar var. Qaraçay türklərində hamilə qadınlar üzərlərində qurd dişi gəzdirərdi. Yeni doğulan oğlan uşağının beşiyinin dörd tərəfinə qurd rəsmi çəkilərdi. Ərzurumda və ətraf bölgələrdə dünyaya uşaq gətirmək üzrə olan qadınların yastığının altına bir parça qurd dərisi qoyulardı. Sarıqamış, Qars və onlara yaxın bölgələrdə oğlan uşaqlarının cəsur olmaları nədəni ilə burnunu iynə ilə deşər və ora qurd tükü keçirərdilər. Quzey Azərbaycanda yeni doğulan körpə oğlan idisə, anasının yastığının altına qurd dişi qoyardılar.Bolqarıstan türklərində bayram ocaqlarının yerində

qalan közün üstünü örtərdilər. Səhər durub axşamdan qalan közün şəklinə anlam verməyə çalışardılar. Közün şəkli qurd izinə bənzərdisə, bu xeyrə yozulurdu. Bu, gələcək uğurların işarəsi olaraq qəbul edilirdi. Avar, kumuk, özəlliklə Krım türklərində köpəyin qurd kimi ulaması pis bir xəbərin olacağına işarə kimi qəbul edilir. Qafqaz və Noqay türkləri isə bu durumu köpəyin gözünə ruhların görünməsi kimi yozurlar. Qaraim türklərinin düşüncəsində qurdun qutsal obrazı var. Onlarda "Kökümüz qurddan törəmişdir" – inancı günümüzə qədər dəyişməz qalmışdır. Qaraimlərdə "Tanrım bizi qurda bağışla" ifadəsi ilə başlayan dua örnəkləri də olmuşdur. Dədə Qorqud dastanlarında da "qara başım qurban olsun qurdum sənə" – ifadəsi var. Güney Türküstan türkləri uşaqları yaşamırdısa (olub ölürdüsə), növbəti dəfə uşağın yaşaması üçün onu qurdun dərisindən keçirərdilər. Uşaq yaşayardısa ona Börü adı verərdilər. Güney Türküstanda Börü han, Börücan qız adları, Börü, Börübəy, Börcü bəy kimi oğlan adları geniş yayılmış adlardan idi. Güney Azərbaycanda yaşayan Qaşqay türkləri qurdu söyməyi və ya qarğış etməyi böyük suç sayardılar. Əfqanistan türkləri uşaqları bədnəzərdən qorumaq üçün qurd dişindən istifadə edərdilər. Bu üsuldan türkmənlər və özbəklər də istifadə edərdi. Qaraçay tükləri ən qutsal and kimi qurda and içərdi. Bunu bildikləri üçün Stalin onları sürgün etməzdən öncə məhkəməyə çağırılan qaraçayların yalan danışmayacaqlarına əmin olmaq üçün qurda and içdirilərdi. Örnəklərin sayını ən az bu qədər də artıqmaq mümkündü. Məncə bu örnəklər də qurdun əski türk düşüncə və inancında hansı anlam daşıdığını bəlli etmək üçün yetərlidi. Qeyd etməliyəm ki, bu adət və inanclar bəzi türk boylarında bu gün də yaşamaqdadı.

Qurdla əlaqədar inanclar yalnız türk mifologiyasının məhsulu olmayıb, eyni zamanda yaşayan xalq inancımızda da sıx rast gəlinir. İstər xalq inanclarında, istərsə də türk dastanlarında qurdun missiyası eynidir. Qurd ağzının bağlanması ilə əlaqəli

olan inam və ayinlər bizə görə qurdun türk inanc sistemindəki gerçək yerinin təyin olunması etibarilə çox əhəmiyyətlidir.

Yazdıqlarımızı ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, bütün hallarda qurd bəşəriyyətin əzəl çağından insanların düşüncəsində, arzu və niyyətlərində özünə mühüm yer edib. Türklər isə qurd kultuna xüsusi bir ehtiramla bağlıdırlar.

## QAYNAQLAR:


1. Abbasova A. Kəlbəcər folkloru (Kəlbəcərli sakinlərdən toplanmış nümunələr). Bakı, Azərbaycan Gənclər Fondu tərəfindən nəşr olunub, 2014, 178 s.
2. Azərbaycan folklor antologiyası. 23 cilddə, II c. Naxçıvan folklor örnəkləri / Toplayanı, tərtib edəni A.Cəfərova, Ə.Ələkbərli. Bakı, Elm və təhsil, 2012, 332 s.
3. Azərbaycan folklor antologiyası. 23 cilddə, XII c. Zəngəzur folkloru / Toplayanlar: Nəbioğlu V., Kazımoğlu M., Əsgər Ə. Bakı, Səda, 2005, 464 s.
4. Azərbaycan folklor antologiyası. 23 cilddə, IX c. Gəncəbasar folkloru / Tərtib edənlər: İsmayılov H., Qurbanov T. Bakı, Səda, 2004, 522 s.
5. Azərbaycan mifoloji mətnləri. Elm, Bakı, 1988. 196 s.
6. Cəfərov N. Qədim Türk ədəbiyyatı. B., “AzAtaM”, 2004. 322 s.
7. Əliyev K. Eposun poetikası: “Dədə Qorqud” və “Koroğlu”. Bakı, Elm-təhsil, 2011, 164 s.
8. Əsatir, əfsanə və rəvayətlər. Bakı, Şərq-Qərb, 2005, 304 s.
9. Heyət, 1993, s.72; Qumilev, 2002, s.26-27
10. Koroğlu. Bakı, Lider, 2005, 552 s.
11. Qarabağ: Folklor da bir tarixdir. I c. / Toplayıb tərtib edənlər: İ.Rüstəmzadə, Z.Fərhadov. Bakı, Elm və təhsil, 2012, 464 s.
12. Məmməd Araz Oxucuya məktub. (şeirlər). Bakı, Gənclik, 1978. səh. 229.

13. Məmməd Araz Atamın kitabı. Bakı, Gənclik, 1974. səh 168.
14. Məmməd Araz Seçilmiş əsərləri. İki cilddə. I cild, Bakı, Lider, 2004. səh. 224.
15. Məmməd Araz Seçilmiş əsərləri. İki cilddə. II cild, Bakı, Lider, 2004. səh. 232
16. Ögəl B. Türk mifologiyası. l c. B., "MBM", 2006.
17. Toğan Z. V. Oğuz destanı. Reşideddin Oğuznamesi, tercüme ve tahlili, İstanbul 1972.
18. Vəliyev Ə.İ. Şəxsi arxivindən (Naxçıvandan toplanmış folklor nümunələri).
19. http://az.wikipedia.org/wiki/Canavar
20. https://bextiyartuncay.wordpress.com/2012/03/11/goyturk-və-uygurlarin-etnogenezi-ilə-bagli-mifoloji-motiv-və-sujetlərdə-boz-qurd-kultu-və-turklərin-ilkin-ata-yurdu/
21. http://kayzen.az/blog/3349/qurd.html
22. http://kayzen.az/blog/rəvayəti-ifadələr/5892/qurd-ilə-qiyamətə-qalmaq.html
23. http://qeribazeriler.ucoz.com/news/2008-09-20-1685
24. http://www.uluturk.info/new/menu/816/
25. Çelik A. İslamın kabul veya reddettiği halk inançları. İstanbul, Beyan yayını, 1995, s. 21
26. Kalafat Y. Balkalardan uluğ Türkistan türk halk inançları-I.T.C. Ankara, Kültür bakanlığı, 2002
27. Kalafat Y. Türk halklarında kurt ağzı bağlama inancı / Sosyal Bilimler Enstitüsü dergisi. Ankara, say 20, 2006/1, s. 273-280
28. Kuzey Hanedanlar Tarihi, Cilt 99'nin başlangıç kısımı Kuzey Hanedanlar Tarihi, Cilt 99.
29. Türk edebiyyatının mitolojik kaynakları. T.C. Anadolu Universitesi yayını NO:2388
30. Türk Efsane Sözlüyü, Deniz Qaraqurd, Türkiye, 2011, (OTRS: CC BY-SA 3.0)

# TƏBİƏT KULTLARI İLƏ BAĞLI İNANCLAR VƏ MÜASİR NƏSR

**Gülnar OSMANOVA**
*AMEA Folklor İnstitutunun*
*"Folklor və yazılı ədəbiyyat" şöbəsinin elmi işçisi*

Hər bir folklor materialının yaranmasında bədii xalq təxəyyülünün məhsulu olan mifik dünyagörüş böyük rol oynayır. Mifoloji düşüncədə qavranılan anlayışlar, inamlar dövri xarakter daşıyır. Bu düşüncə tipində hər şey – kultlar, inanclar və s. zamana tabedir. Təbiətlə bağlı olan bu kultlar, inamlar mifopoetik formada təbii obyektlərin üzərinə köçürülür. Mifoloji düşüncənin obyekti dağ, daş, çay, su, ağac və s. bilavasitə təbiətin özüdür. Odur ki, xalqın ibtidai təfəkkür və təsəvvürlərindən yaranan bir çox inamlar əsrlər boyu nəsildən-nəslə keçərək yaşamış, öz varlığını bu günə kimi qoruyub saxlamışdır. Oda, suya, ağaca, bitkiyə tapınan ulularımızın bəzi inamları hələ də yaşamaqdadır. Əski Azərbaycan, Altay və başqa türkdilli xalqların mifoloji inamında su, dağ, ağac, od-işıq kultu geniş yayılmışdır.

Azərbaycan folklorunda da ağacla bağlı motivlər, xüsusən alma ağacı ilə bağlı nümunələr çoxdur. Burada alma ağacı qədim həyat ağacına bənzəyir. Nağıl və dastanlarımızda alma ağacı həyat bəxş edən qüvvə kimi çıxış edir. Azərbaycan folkloru antologiyalarında müxtəlif ağaclarla bağlı inanclara rast gəlinir. Məsələn, IV kitab olan "Şəki folkloru"nda aşağıdakı inanclar verilmişdir: "Qoz ağacı ümidsizlikdir. Nar, alma, armud dilək ağaclarıdır. Onları becərən xeyir tapar. Nar həm də sağalmaz dərdin dərmanıdır. Çinar uzaqgörənlikdir. İlğım, söyüd sonsuz sayılır. Heyva bədnəzər, göz ağacıdır" (2, 91-92). Ağacın kölgəsində yatmaq pis əlamət sayılır. O adamı cin vura bilər (2, 78). Gecə qoz və əncir ağacının altında yatmazlar (2, 80). Körpə

heyva ağacını göy vaxtı kəsməzlər. Deyərlər ki, qarğışa düşərsən (3, 35). Şər vaxtı ağac altına getmək olmaz. Deyərlər ki, adama sədəmə toxunar (1, 55).

Xalqımızın çoxəsrlik mənəvi mədəniyyətinin tərkib hissələrindən biri olan folklorumuzda ağacla bağlı çoxlu atalar sözləri və məsəllər də var. Məsələn, ağacın barı ona yük olmaz. Yeni ağacın barı az olur, kölgəsi çox (5,114); Bar gətirən ağaca balta çalmazlar (5, 186); Ağac səmtinə yıxılar (4, 219); El söyən ağac quruyar (4, 310).

Yenicə yeriməyə, dil açmağa başlayan uşaqların paltarlarının çiyninə dağdağan ağacından bir parça tikilir, yaxud biləyinə iplə bağlanır ki, bu da uşağı pis gözdən qoruyurdu. Dağdağan olmasa, bunu heyva ağacı əvəz edirdi. İnsanlar inanırdılar ki, heyva ağacı insan bədəninə daxil olan müxtəlif ruhları bədəndən çıxarıb qovur və insan əvvəlki halına qayıdır, sağlamlığına qovuşur (4, 20).

Bütün bunlar göstərir ki, insanlar müqəddəs saydıqları, tapındıqları ağacların kiçik bir hissəsini üstlərində gəzdirməklə bəd ruhları uzaq salacaqlarına inanmışlar.

Belə ki, dağdağan əski türklərin tapındığı, sitayiş etdiyi müqəddəs ağaclardan olmuşdur. Azərbaycanda qələmə alınmış yaradılış əsatirinə görə yer üzərində bitən ilk yeddi ağacdan biri məhz dağdağandır. El arasında bu ağacla bağlı yaşanan inamlar da dağdağana bəslənilən münasibəti əks etdirir.

Fil.ü.f.d., dos. Afaq Xürrəmqızı yazır ki: "Orta Asiyada bütün qoruyucu həmayillərə verilən ümumi adlardan biri "dağdağ"dır. Ehtimal ki, bu ad dağdağanın təhrif edilmiş formasıdır" (12, 17).

Ağacla bağlı inamlara müasir nəsr nümunələrində də rast gəlinir. Məsələn, Sabir Əhmədovun "Yasamal gölündə qayıqlar üzürdü" əsərində müəllif Cəmilənin dilindən deyir: Anam axır çərşənbəyə inanırdı. Deyirdi ki, bayramdan qabaq axırıncı çərşənbədə gecə, gecənin hansı vədəsindəsə bütün ağaclar başlarını endirib üç dəfə yerə vururlar. Haman anda kim bunu görsə,

ağaclar üçüncü dəfə yerə səcdə qılanda nə arzu etsə, mütləq istəyinə çatacaq" (9, 10).

Qeyd edək ki, ağacla bağlı motivlər daha çox Azərbaycan şifahi xalq ədəbiyyatının min illik yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanında mövcuddur. Eposda ağac kultuna əcdad mifi səviyyəsində yanaşıldığı görünməkdədir. Qədim türklərin mifoloji dünyagörüşündə ağac ilkin həyati başlanğıc hesab edilir və ona xüsusi ehtiram ifadə edilərək sakral münasibət bəslənilirdi. "Basatın Təpəgözü öldürməsi" adlanan səkkizinci boyda Basat Oğuz elinə qənim kəsilən Təpəgözə öz əsil-kökünü xatırladaraq belə deyir:

"Atam adın sorar olsan-Qaba ağac!
Anam adın deyərsən Qoğan aslan!
Mənim adım sorarsan-Aruz oğlu Basatdır" (13, 116 ).

Bununla da oğuz igidi olan Basat öz nəsil şəcərəsinin bir ucunun Qağan aslana, digər ucunun isə Qaba ağaca söykəndiyini bildirir. Türkiyəli araşdırıcı Mətin Ərqun qeyd edir ki, əski türk etiqadına görə xaqanlar və bəylər bu dünyaya Tanrı tərəfindən ağac yolu ilə göndərilmişlər. Bu sözləriylə Basat da özünün mübarək üzlü müqəddəs ağac yolu ilə Cənnətdən, dolayı olaraq Tanrıdan gəldiyini deyir (11, 10). Eposun ikinci boyu olan "Salur Qazanın evinin yağmalanması"nda düşmənə əsir düşən Uruzun asılacağı ağacla danışması oğuz türkləri arasında ağacın canlı, diri bir varlıq kimi təsəvvür edilməsi düşüncəsinin mövcudluğundan xəbər verir. Qoyun məni bu ağacla söyləşim – dedi, çağırıb ağaca söyləmiş, görəlim Xanım, nə söyləmiş:

– Ağac, ağac dersəm sana ərlənmə, ağac!
Məkkə ilə Mədinənin qapısı ağac.
Musayi-kəlimin əsası ağac!
Böyük-böyük suların körpüsü ağac!
Qara-qara dənizlərin gəmisi ağac!
Məni sana asarlar, götürməgil, ağac!
Götürəcək olursan yigidligim səni dutsun, ağac! (13, 39)

Buradan göründüyü kimi, oğuzlar ağaca olan ilkin inamı unutmamış, onun deyiləni başa düşən olmasını zənn etmişlər.

Əski Azərbaycan, Altay və başqa türkdilli xalqların etnik-mədəni ənənəsinə görə ağac kultu ata və ana başlanğıc kimi dəyər qazanmışdır. Ağac türk tanrıçılıq sistemində Göy-Tanrının rəmzlərindən biridir və o, bir sıra etnoqonik miflərdə ilk ana kimi xatırlanır. Prof. F.Bayat qeyd edir ki, türk mifoloji sistemində göl ortasında ağac yerin simvolu kimi çıxış edir. Oğuzun ikinci arvadını göl ortasındakı ağacın içindən tapması bir daha təsdiq edir ki, ikinci qız mifoloji yer ananın qızıdır (6, 148). Ona görə də türklər tarixən müxtəlif ağaclara ("Bay terek", "Temir kavak" və ya "Həyat (Dünya) ağacı" deyilən mübarək üzlü övliya ağacı) tapınmış, onlara sevgi və ehtiramla yanaşmışlar. Türk ənənəsində müqəddəs ağacın kiçik bir budağını belə kəsməyə heç kim cəsarət göstərməz. Azərbaycanlıların inamına görə türbə, məzar başında olan ağaclar müqəddəs bilindiyindən qətiyyən yandırılmazdı. Ümumiyyətlə, ağac kəsmək ənənəvi təsəvvürlərə görə günah sayılmışdır. Türk mifoloji sözlüyündə deyildiyi kimi, Azərbaycan dekorativ-tətbiqi sənəti nümunələrindən hər hansı birinin kompozisiyasında da ağac artım, həyatın başlanğıcı ideyasının rəmzi kimi mərkəzi yer tutmuşdur (7, 19). Ağacla bağlı inamlar Azərbaycanda da çox geniş yayılmışdır. Barlı-bəhrəli olsun və ya bir neçə il bar verməyən ağacı məhsul gətirsin deyə türk xalqlarında, o cümlədən azərbaycanlılarda ağac qorxutmaq və başqa adlarla bilinən adətlər vardır. Bu adət Mövlüd Süleymanlının "Armud ağacının nağılı" hekayəsində belə verilmişdir: Mahmud kişinin həyətindəki armud ağacı çiçəkləmədiyi üçün o, ağacı qorxutmaq fikrinə düşür və inanır ki, bununla ağac tumurcuqlayacaq. Elə olur. Buradan da göründüyü kimi, ağaca bir canlı obraz kimi yanaşılır və əsərin sonunda onun çiçəkləməsi şərəfinə şadlıq məclisi də təşkil olunur.

Yuxuda çiçəkləyən ağac görməyin dünyaya uşaq gələcəyi şəklində, yıxılan ağac görməyin isə ölümün əlaməti kimi yozul-

ması da ağacla bağlı əski etiqadlardandır. Ağac pirlərin olması, niyyət edilərək onlardan parça asılması da bu etiqadlar sırasındadır Qədir gecələrində isə mifik inama görə, sular dayanar, ağaclar isə səcdəyə gələr... bundan başqa Novruz mərasimlərinin bir çoxu, səməni göyərtmək və s. dirilik, məhsuldarlıq, əmin-amanlıq ideyalarının rəmzi olan həyat ağacı ilə bağlıdır. Türk etnik-mədəni ənənəsində hər bir ağacın bir canlı varlıq olduğuna etiqad edilmişdir. Odur ki, çinar, söyüd, alma, nar, qoz və s. ilə bağlı simvolların dünya (həyat) ağacının əsrləri keçib gələn rəmzi pöhrələri olması fikri yaranmışdır. Ağac (söyüd, qarağac, palıd, küknar, pişpişə) kultu, bitki simvolu türk mədəniyyətinin mühüm anlayışıdır. Ağac, bitki aləmiylə ruhsal vəhdət, insanın, nəslin, soyun, icmanın nəbatatla bağlılığı türklər qədər heç bir xalqda izlənmir. Ağac simvolu türk əsatir və folklorunun, etnoqrafiyasının, xalq sənətinin özəyini təşkil edir. Bu obraz Azərbaycan incəsənətində, təsviri sənətdə və xalçaçılıqda da ən kamil ifadəsini tapmışdır. Azərbaycan xalçaçılığında işlədilən ən yetkin və parlaq nəbati naxışlardan olan "buta" dünyanın ahəngdarlığını və estetikliyini, həyati başlanğıcın təbiiliyini və əbədiliyini, kainatın vəhdətini, dirilik, artım ideyalarını təcəssüm edir.

Xalq arasında geniş yayılmış inancların bir qismi türklərin tapındığı ilkin təbiət varlıqlarından biri olan dağa pərəstişlə bağlıdır. Bu inamlardan biri ilə müasir Azərbaycan nəsrinin görkəmli nümayəndəsi Elçinin "Mahmud və Məryəm" romanında qarşılaşırıq. Əsərdə dağ əyəsi Dağlı arvad adlanır. Qeyd edək ki, dağ ruhunun qadın olması ilə bağlı inamlar bir çox türk xalqlarının folklorunda və mifologiyasında mövcuddur. Dağa pərəstiş mifoloji düşüncədə onun kosmoqoniya, yəni yaradılış ilə bağlı obrazını yaratmışdır. Dağın kosmoqonik görüşlərə daxil olması onun əcdad kimi təsəvvür olunduğunu göstərir. İnamlara görə dağ yaradıcı başlanğıcdır. "Oğuz Kağan" dastanında bunun şahidi oluruq. Belə ki, Oğuzun oğlanlarından birinin adı Dağ xandır ki, o da Oğuz etnosunun yaranmasında birbaşa kosmoqo-

nik başlanğıc kimi iştirak edir. Prof. C.Bəydilinin dediyi kimi, "mifopoetik dünya modelində dağ dünyanın öz obrazıdır. Kosmik nizamın bütün parametrlərini özündə əks etdirən dağ dünyanın tam mərkəzində ucalan sakral güc qaynağıydı və ulu başlanğıc, kök, soyun əsası, ana yurdun rəmzi kimi qavranırdı. Bu mənada dağlara tapınma türk kosmoqonik görüşlər sistemində də əhəmiyyətli yer tutmuşdur" (7, 87). Azərbaycan türk folklorunda "Alvız" deyilən dağ ana obrazı var. Bu dağ əyəsidir.

Görünür, xalqımızın folkloruna, onun mifoloji təfəkkürünə yaxından bələd olan Elçin bu obrazı əsərdə verməklə onu daha zənginləşdirmişdir. Əsərdə oxuyuruq: "Mahmud bu sözləri deyə-deyə atın başını döndərib çapdı. Çaldıran düzündən uzaqlaşdı, amma elə bil Dağlı Arvad dağlardan enib Çaldıran düzünə gəlmişdi – Mahmudun sözləri qarğa-quzğunun səsi ilə bir müddət əks-səda verdi" (8, 324). Əfsanəyə görə əks-sədanı verən də məhz dağlarda yaşayan gözəgörünməz qadındır.

"Dədə Qorqud kitabı"ndan da bəllidir ki, oğuzlar dağlara hiss və duyğuları olan bir varlıq kimi yanaşır, onlarla danışır, dağlara dua edir, and içir və salam verirdilər. Məsələn, "Dirsə xan oğlu Buğac boyu"nda Buğacın anası oğlunu yaralı görəndə sanki Qazılıq dağını günahkar bilərək ona qarğış edir.

Aqar sənin suların, Qazılıq dağı
Aqar kibi, aqmaz olsun!
Bitər sənin otların, Qazılıq dağı,
Bitər ikən, bitməz olsun!
Qaçaq sənin keyiklərin, Qazılıq dağı,
Qaçaq ikən qaçmaz olsun, daşa dönsün! (13, 42-43)

Xalq arasında geniş yayılmış inamların bir qismi də su ilə bağlıdır.Türk mifologiyasında su əbədi başlanğıc olan xaosu bildirməklə yanaşı, özündə yaradıcı başlanğıcı birləşdirən bir mifologemdir. Su o biri dünyanın, əcdadlar səltənətinin stixiyasıdır. Su ayrıca kult olmaqdan əvvəl insan törənişinin müqəddəs ünsürüdür. O, öz ətrafında silsilə etiqadlar və mərasimlər

sistemini yaratmışdır. Su hətta ilin axır çərşənbələri sistemində ayrıca, həm də ilk bayram törəninin başlanğıcıdır. Çərşənbələrin birinin – özü də birincisinin su kultu ilə bağlılığı təsadüfi deyildir. Bu çərşənbə əslində bütün yaz mərasiminin onunla bağlı olma ehtimalını doğurur. Həmin mülahizə bir sıra türk qaynaqlarında Xızırla əlaqələndirilir, onun yaşıllıq, bərəkətgətirmə funksiyaları ilə çuğlaşma mərasimindən xəbər verir.

Azərbaycan folklorunda su ilə bağlı bir çox inanclar mövcuddur. Məsələn, “İnsan sudan keçəndə salam verməlidi. Yoxsa su əyəsi, adama zəfər toxuyar (1, 46). Uşağı qırxdan çıxartmaqdan ötrü oturdurlar qara parçanın üstünə. Başına qırx üskük su tökürlər (1, 53). Evdən səfərə çıxan adamın arxasınca su atmaq – salamatlıq əlamətidir (3, 37). Kasanın içinə sü töküb iynə atarlar. İynə suyun ortasında dayanarsa, niyyət yerinə yetirmiş, yox dayanmırsa, yerinə yetməzmiş (4, 16). Süfrəyə su dağılması aydınlıqdır (4, 82). Su dolu qabla qabağına çıxsalar, işin avand olar (4, 82). Yazda birinci dəfə sel gələndə selin qabağından kim su doldurub içsə, hər dərdi sağalar, deyərlər (1, 54).

Suyun müqəddəsliyi, hətta onunla təmas qura bilmək inamı geniş yayılmışdır. Sudan dilək diləmə, pay alma ilə bağlı müxtəlif rəvayətlər mövcuddur. Nağıllarda suyun insanla danışması, suyun yatması, çərşənbə gecəsində xüsusi möcüzəyə malik olması və s. inamı vardır. Xalq arasında olan inama görə, çərşənbə gecəsi sular dayanır: «Bir arvad çərşənbə gecəsi səhərə çox qalmış səhəngi götürüb çaya su dalınca gedir. Səhəngi nə qədər basır, səhəng suya batmır. Sən demə su yatıbmış. Arvad qayıdıb evə gəlir. Sonra bir də gedir. Görür ki, su şırha-şırla axır. Səhəngi doldurub qayıdır».

Xalq arasında su ilə icra edilən qorxuluq salma ritualı da mövcud olmuşdur. Deyilənə görə, əgər bir adam, yaxud uşaq qorxursa, onun qorxuluğunu salmaq üçün harda qorxubsa, həmin yerdə başına bir çərqad və yaxud salafan salıb qırxlayırlar. Qırxlayarkən bu sözü yeddi dəfə deyirlər:

Bir, iki, üç, dörd, beş, altı, yeddi.
Qada-bala bizdən getdi, –

deyib, suyun bir azını başından aşağı tökürlər (5, 23).

Bundan başqa biz su ilə icra edilən bir vəsf-halın həm Azərbaycan folkloru antologiyasının IX kitabında, həm də eynilə İ.Şıxlının "Dəli Kür" əsərində verildiyinin şahidi oluruq: "Axır çərşənbə gecəsində kasaya bir az su töküb içərisinə bir ucuna pambıq dolanmış iki iynə salırlar. Əgər iynələr yaxınlaşsa, ürəyində niyyət tutan adam tezliklə öz sevgilisinə qovuşacaqdır- deyərlər".

Folklora, xalqımızın əsrlərin süzgəcindən süzülüb gələn yaradıcılığına, adət-ənənələrinə dərindəndən bələd olan İ.Şıxlı romanda suya salınmış iynə ilə bəxt sınamaq mərasimini belə vermişdir: "Pakizənin xalası iri bir siniyə plov çəkdi. Taxtın üstünə qoydu. Qızlar sininin ətrafında hərləmə bardaş qurub oturdular. Heç beş dəqiqə keçmədi ki, sini boşaldı. Süfrəni yığışdırdılar. Qızlardan biri gülə-gülə iri bir badyanı su ilə doldurub ortalığa qoydu.

– Gəlin iynəlik salaq.

Onlar iki iynə götürdülər. Uclarına pambıq doladılar. Sonra Pakizənin xalasına üz tutdular.

– Ay xala, sən de, bu iynə kimin olsun?

Arvad qızlara xeyli baxdı. Gözünü yaşı on altını ötmüş Fatmaya zillədi:

– Qoy onun olsun, hamınızdan böyükdür, – dedi. – Oğlanı da özünüz bilərsiniz.

Qızlar iynələri suya saldılar. Pakizə də onlara qoşuldu" (16, 190).

Buna bənzər digər bir su falı isə "Novruz bayramı" toplusunun "Ayinlər, etiqadlar, mərasimlər" bölməsində öz əksini tapmışdır: "Axır çərşənbə günü, yaxud ilin-ayın axırında (Novruz bayramından iki gün əvvəl) bulaqdan, yaxud çaydan-axar sudan "lal su" gətirilir. Su gətirməyə gedən qabı əlinə götürəndən ta suyu gətirib evdə, iynə salınacaq qaba tökənəcən dinməməlidir (həmin su şər qarışandan sonra gətirilir və bu suyu gə-

tirən şəxs bir neçə nəfər tərəfindən müşayiət oluna bilər). Suyu qaba tökəndən sonra iki iynənin ulduzlu tərəfinə pambıq dolayır və hərəsini bir tərəfdən suya salırlar. Sonra iynələrin hərəkəti ilə müəyyən mülahizələr söyləyirlər. Uğurlu halda iynələr müxtəlif səmtlərə hərəkət etsələr də, axırda bir-birinə yaxınlaşıb bitişirlər. Əksinə olanda isə iynələr o tərəf-bu tərəfə hərəkət edirlər. İynə suyun dibinə çökərsə, deməli, bu "lal su" deyil".

Mifoloji ənənələrdə insanı bir varlıq kimi digər canlılar aləmindən ayıran başlıca bir əlamət də oddur. Mif mətnlərində odun mədəni qəhrəman tərəfindən oğurlanaraq insanlara verilməsi motivi geniş yer alır. Türk etnik-mədəni ənənəsində od bir övliya bərabərində sayılan qüvvətdir. Od qalanan yer müqəddəs bilinmişdir. Altay miflərinə görə ilk odu böyük Ülgen-Bay Ülgen yandırıbmış. Ocağı da elə o qalayıb insanlara veribmiş. Türklərdə isə odun Od ananın göy yerdən ayrıldığı zaman yaranmış olduğuna inanılmışdır. Türkiyəli alim Bahəddin Ögəlin dediyi kimi, "belə məlum olur ki, türklər od mədəniyyətini çox qədim dövrlərdə tanımışlar. Sibirdəki qonşuları isə bu nöqtədə türklərdən geri qalmışlar. Odu tanıyan və onu insanlıq üçün faydalı bir istiqamətə yönəldən Orta Asiyanın mədəni türk qövmləri bu bölgələrə yayıldıqca mədəniyyətlərini də özləri ilə aparmışdılar" (14, 68).

Mifoloji materiallardan da məlum olduğu kimi, odun, ocağın bir sahibi, qoruyucu ruhu, yəni əyəsi var. Odur ki, odla bağlı inanclar bu günümüzə kimi qorunub saxlanmışdır. Azərbaycanın müxtəlif regionlarında bu tipli inanclarla tez-tez rastlaşırıq: Ocağa tüpürmək, üstünə su tökmək, ya da ayaqlayıb söndürmək olmaz. Yoxsa ocaq sahibinin acığına gələr, bundan da insana zərər dəyər (5, 15). Ocağı su ilə söndürməzlər, ocaqda məleykə var (2, 81). Evdən öz çırağını qonşuya vermək, pis əlamətdir (3, 38). Ocaqdan gecə vaxtı isti kül tullamazlar, guya cin, şeytanların ayağı yanar, sənə xətər toxunar (4, 18).

Məsələn, "Ağ dəvə" romanında belə bir ifadə var: "Od ki, gecə his elədi, bu o demək idi ki, gecə evə şeytan gələcək" (8,

110). Yaxud başqa bir nümunədə yazıçı Ələkbərin dilindən belə bir inanc verir: "Mən həyətimizdəki krantdan təzə su götürməkçün çaynikin dibindəki qaynar suyu yerə tökəndə, anam qışqırırdı: " – Tökmə, tökmə isti suyu yerə! Tökülər cinin üstünə yandırar, xataya düşərik!.." (8, 72).

Ümumiyyətlə, Azərbaycan folklorunda Günəş və Ayla bağlı xeyli əfsanələr də var ki, bu nümunələr Günəşə tapınmanın qədim tarixi köklərə malik olduğunu göstərir. Bir çox xalqlarda olduğu kimi Azərbaycanlılarda da Günəş Tanrısı – şüa, zoomorfik onqon və insan kimi təsəvvür edilmişdir. Günəşin mifləşdirilməsi, Günəş tanrısına inam şübhəsiz ki, onun təbiətin məhsuldar qüvvəsinin başlanğıcı olması ilə bağlıdır. Bu, günəşli günlərin insanların həyatında mühüm yer tutduğunu göstərir. Doğrudan da, Gün işığı olmadan bioloji varlıqların yaşaması və artması mümkün deyildir. Günəşin mifologiyada hansı obrazda çıxış etməsindən asılı olmayaraq o, müəyyən dərəcədə o biri dünyanı işıqlandırmışdır. Türk xalqlarının miflərindən məlumdur ki, günəş onlarda artımın, yaradılışın başlanğıcı sayılır və bu səbəbdən günəş və onun yerdəki əlaməti olan od da müqəddəs sayılmış, onunla əlaqədar mifik inamlar yaranmışdır.

Xalq arasında "Üskü çərşənbə", "Üskü gecəsi", "Addı çərşənbə" kimi adlarla da tanınan Od çərşənbəsi də həyati başlanğıc sayılan dörd ünsürdən biri olan oda tapınma ilə bağlı olub, xalqımızın təfəkküründə mifik çağlardan bu günə kimi müxtəlif dini və dünyəvi dünyagörüşləri ilə qovuşub-çarpazlaşmış, mərasim mədəniyyətimizdə və məişət həyatımızda tam oturuşmuş və möhkəmlənmişdir. Bunun nəticəsidir ki, müasir çağda da "Od haqqı", "İşıq haqqı", "Ocaq haqqı", "Günəşə and olsun", "O ocağa kor baxım ki" və s. tipli inanc və andlarımız öz aktuallığını, əhəmiyyətini itirməmişdir. Bunun ən bariz nümunəsi isə Od çərşənbəsi rituallarında, mərasim və oyunlarımızda özünü qabarıq büruzə verir.

Məsələn, "Dəli Kür" romanında belə bir səhnə var: "Yaxındakı həyətlərdən birində tonqal yandırdılar. Onun dalınca bütün

qonşular tonqallara od vurdular. Kənd şəfəqlərə qərq oldu. Cavanlar lopaları yandırıb damların üstünə sancdılar. Oğlanlar neçə gündən bəri hazırladıqları fişəngləri mazuta buladılar. Üstünə bir az neft çilədilər, od vurdular. Fişənglər alovlandı" (16, 188). Buradan göründüyü kimi, Novruz bayramında şam yandırmaq, tonqal qalamaq və fişəng atmaq xalqımızın qədim etiqadları ilə bağlı adətlərdən biridir. Yaradılışla bağlı dörd ünsürdən biri olan od müqəddəs sayılmışdır. Ona görə ki, bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır, isindirir, onu yaratmaq üçün hazırlayır. Odur ki, axşam vaxtı qaranlıq düşəndə bütün el-obada tonqallar qalanır. Tonqalların üstündən hər kəs ənənəyə uyğun olaraq üç dəfə hoppanmaqla köhnə ilin azar-bezarının elə köhnə ildə də qalmasını arzulayır.

Beləliklə, hər bir xalqın tarixi onun keçmiş olduğu ictimai-siyasi proseslərdə əks olunur. Tarixdə elə bir millət tapmaq çətindir ki, onun soykökünün, etnik-milli təfəkkürünün söykəndiyi hikmətli dəyərlər olmasın. Bu dəyərlər sistemi onun sonradan mənəvi cəhətdən inkişaf etməsinə, digər xalqlar arasında öz yerini tutmasına kömək edir. Prof. Kamran Əliyevin dediyi kimi: "Hər hansı bir folklor mətni xalq tərəfindən yaradılırsa və xalq həmin mətndə öz təfəkkür tərzini ortaya qoyursa, həmin xalqın sənətkar nümayəndəsinin qələmə aldığı bədii əsərdə də folklor nümunəsində müşahidə olunan müəyyən cizgilər özünü kifayət qədər büruzə verməlidir" (10, 122).

Sözügedən əsərlərdə olan ayrı-ayrı motiv və situasiyaların təhlili də göstərir ki, folklor elementləri tarixi fakt və hadisələrlə birlikdə bədii elementlərə çevrildikdə onlar yeni ideya-estetik yük daşıyır, əlavə mahiyyət kəsb edir. Yəni müəllif xalq psixologiyasının təsvirinə yer verərək əsərə yeni ruh verir və onu daha da koloritli edir.

## QAYNAQLAR:

1. Azərbaycan folkloru antologiyası, I kitab, Naxçıvan folkloru. Bakı, "Sabah", 1994, 388 s.

2. Azərbaycan folkloru antologiyası, IV kitab, Şəki folkloru, I cild. Bakı, “Səda”, 2000, 498 s.
3. Azərbaycan folkloru antologiyası, XI kitab, Şirvan folkloru. Bakı, “Səda”, 2005, 443 s.
4. Azərbaycan folkloru antologiyası, XIII kitab, Şəki-Zaqatala folkloru. Bakı, “Səda”, 2005, 550 s.
5. Azərbaycan folkloru antologiyası, XXIII kitab, Naxçıvan örnəkləri, II cild. Bakı, “Elm və təhsil”, 2012, 332 s.
6. Bayat F. Oğuz epik ənənəsi və “Oğuz Kağan”dastanı. Bakı, “Sabah”, 1993,194s.
7. Bəydili C. (Məmmədov). Türk mifoloji sözlüyü. Bakı, “Elm”, 2003, 418 s.
8. Elçin. Seçilmiş əsərləri. Bakı, “Avrasiya Press”, 2005, 424 s.
9. Əhmədov S. Yasamal gölündə qayıqlar üzürdü. Romanlar. Bakı, “Yazıçı”, 1984, 312 s.
10. Əliyev K. Romantizm və folklor. Bakı, “Elm”, 2006, 160 s.
11. Ərqun M. Türk ağac kultunun Dədə Qorqud oğuznamələrindəki izləri// “Dədə Qorqud” jur., Bakı, “Nurlan”, 2002, № 1, s. 3 -17
12. Xürrəmqızı A. Azərbaycan mərasim folkloru. Bakı, “Səda” nəşriyyatı, 2002, 210 s.
13. Kitabi-Dədə Qorqud Ensiklopediyası 2 cilddə. I cild. Bakı, “Yeni nəşrlər evi”, 2000, 623 s.
14. Ögəl B. Türk mifologiyası. I cild. Bakı, “MBM”, 2006, 626 s.
15. Süleymanlı M. Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 2006, 480 s.
16. Şıxlı İ. Seçilmiş əsərləri: İki cilddə. II cild. Bakı, “Azərnəşr”, 1986, 480 s.
17. Мифы народов мира: Энциклопедия. В 2 т. / Под ред. С.А.Токарева. – Репринтное изд. - М.: Большая Российская энциклопедия, Дрофа, том 2, 2008, 720 с.
18. http://unyezile.com/seyhahmet.htm

# MƏRASİM FOLKLORU VƏ ROMAN (ƏZİZƏ CƏFƏRZADƏ YARADICILIĞI ƏSASINDA)

**Gülsümxanım HASİLOVA**
***AMEA Folklor İnstitutunun***
***"Folklor və yazılı ədəbiyyat" şöbəsinin***
***böyük elmi işçisi***

Xalq yazıçısı, tədqiqatçı-alim Ə.Cəfərzadənin xalq ədəbiyyatına bağlılığı, onun bu sahədəki folklorşünaslıq fəaliyyəti, həm də xalq ədəbiyyatı örnəklərinin toplanması və təbliği işindən qaynaqlanır. Tədqiqatçı kimi Ə.Cəfərzadə Azərbaycan xalq məişətinə bağlı mərasimlər, onların təşkili, ritualları haqqında məlumatların, ayrı-ayrı folklor janrları, bayatı, layla, oxşamalar, lətifələr, aşıq şeiri şəkillərinin və s. toplanılmasını təşkil etmiş və əldə olunan nümunələrin mətbuatda dərc olunması, təbliğini aparmışdır. Digər tərəfdən, yazıçı olaraq Ə.Cəfərzadə bu örnəklərdən öz əsərlərinin süjet, kompozisiyasına uyğun yaradıcı şəkildə istifadə etmişdir. Qeyd edək ki, O, Azərbaycan ədəbiyyatı tarixinə daha çox iri həcmli əsərlərin - romanların müəllifi kimi daxil olmuşdur. Ədibin "Aləmdə səsim var mənim", "Vətənə qayıt", "Yad et məni", "Bakı-1501", "Cəlaliyyə", "Eldən-elə", "Eşq sultanı" və s. əsərləri milli nəsrimizin zəngin nümunələrindən olmaqla, sosial və siyasi həyatın gerçəkliklərinə bağlıdır. Romanları, eləcə də ayrı-ayrı povest, hekayələrində ədib mövzu və onun bədii həlli, qəhrəmanın mənəvi-əxlaqi səciyyəsi, tarixi dövrün sosial-fəlsəfi dərkində folklor mövzu, motivləri, folklor poetikasına istinad etmişdir. Əxlaqi, tarixi, ictimai-siyasi mülahizə, mövzulara bağlı Ə.Cəfərzadə romanları Azərbaycan şifahi xalq yaradıcılığından qaynaqlanmaqla bu yaradıcı irsdə ilkin, zəngin, qiymətli bir mənbə kimi seçilməkdədir. Başqa sözlə desək, xalq bədii təfəkkür və düşüncəsi ədibin romanlarının

əsasını təşkil edir. Onun romanlarında xalq sənətinə istinadı isə müvafiq yazıçı - folklor münasibətlərinin mahiyyətinə bağlıdır.

Ə.Cəfərzadə romanlarında folklor janrlarından istifadə, başlıca olaraq, müəllif fikrinin xalq dili-sözü ilə qüvvətləndirilməsi, həm də konkret bədii-poetik obraz düşüncəsindən qaynaqlanır. Ədibin bədii yaradıcılığının mövzu, poetik vüsətində ayrıca yer tutan folklorizm, xalq ədəbiyyatı örnəklərinin zənginliyi, çeşidliliyi burada daha çox işləklik qazanan janr, mövzuların tədqiqi məsələsini önə çıxarır.

Ə.Cəfərzadənin nəzərdən keçirilən zəngin bədii irsi bir fikri xüsusi olaraq vurğulamağa əsas verir ki, bu irs xəlqidir, obrazları, təsvir olunan məkanı, məişəti, bədii dili və s. tamamilə milli-mənəvi mədəniyyətimiz, varlığımızın əksidir. Ədibin bütöv yaradıcılığını səciyyələndirən xəlqilik hər şeydən əvvəl yazıçının şifahi xalq ədəbiyyatımızın janrlarından öz əsərlərində yeri gəldikcə yaradıcı şəkildə istifadə etməsi, əsərlərin strukturu, təsvir, təhkiyəsində folklor detalları və dilindən bəhrələnməsidir.

Xalq ədəbiyyatı örnəklərinin toplanılması işinə maraq, ardıcıl şəkildə bu sahədəki elmi-nəzəri araşdırmalar, publisistik şərhlər Ə.Cəfərzadəyə onun bədii yaradıcılığında folklorizmdən istifadəyə daha təcrübəli, daha dəqiq, yerində yanaşmaya əsas vermişdir. Çoxsaylı romanları ilə Azərbaycan nəsrini zənginləşdirən yazıçı bütöv yaradıcılığını xalq məişəti, həyatına bağlamaqla folklorumuzun müxtəlif janrları -bayatı, layla, əfsanə, atalar sözü, lətifə və s. əsərlərində geniş yer vermiş, böyük folklor xəzinəsini yazılı ədəbiyyata gətirməyin mexanizmini müəyyənləşdirmişdir.

Qeyd edək ki, Ə.Cəfərzadə yaradıcılığında folklorizmin öyrənilməsi eyni zamanda Azərbaycan nəsrinin yeni mərhələsində paralel və mürəkkəb konstruksiyaya malik janrın bu istiqamətdəki axtarışlarının nəticəsi kimi də maraq doğurur. Nəzərə almaq lazımdır ki, şifahi xalq ədəbiyyatının zəngin, təkrar olunmaz xəzinəsinin yazılı ədəbiyyatın strukturu və mahiyyətində

yer alması həm də bu əsərlərin daha fərqli prizmadan qavranılması, bədii nümunənin ideya-estetik bütövlüyünün müəyyənləşdirməsinə imkan verir.

Azərbaycan folklorşünaslığının tanınan nümayəndələrindən professor Əzizə Cəfərzadə ardıcıl olaraq elmi ictimaiyyətə təqdim etdiyi məqalə və kitablarında dövrünün aktual problemlərini dərindən təhlil etmiş, yaşanılan proseslərə fəlsəfi şərhini vermişdir. Şifahi xalq ədəbiyyatına dair əsərlərində Əzizə Cəfərzadə etnosun strateji inkişaf proqramını, milli ideyasını, dövlətin və millətin mövcudluğunun həmişəyaşarlığının mənası, inkişafın məqsədi və prinsipləri istiqamətində analitik fikir formalaşdırmışdır.

Əzizə Cəfərzadə xalqın mövcud olmasına və inkişaf etməsində əsas amil kimi mədəniyyətin irəliləməsində gen yaddaşının, adət-ənənə, mərasimlərin çoxçeşidli olduğunu, lakin bəsit və sadə olmadığını qeyd edərək, mərasimləri yaranma zamanına görə təsnif etmiş və burada ən qədim dövrlərin ibtidai görüşləri ilə bağlı adətlər, ənənələr olduğu kimi, orta əsrlərin ictimai-siyasi və dini-fəlsəfi baxışları ilə əlaqədar, habelə çağdaş dövrümüzün yaratdığı adət, ənənə və mərasimlərin də olduğunu göstərmişdir.

Azərbaycan məişəti, adət-ənənələri, inanc, rituallarına bağlı mərasimlər yazılı ədəbiyyatda xalq etnoqrafiyasının əsaslandırıldığı ilkin qaynaqlardan biri kimi seçilir. Yazıçının konkret etnos, tayfa, cəmiyyətin tarixi dövr və zamanından çıxış etməsi hər şeydən əvvəl etnik xüsusiyyətlərin müəyyənləşdirilməsi üzərində qurulur. Xalq məişətinin ayrılmaz adət-ənənə, ritual qaynağı olan mərasimlər bu baxımdan geniş həcmli epik əsərlərdə etnoqrafiyanın informasiya daşıyıcısına çevrilir. Ə.Cəfərzadənin müxtəlif tarixi dövr, zamanla səsləşən romanlarına baxsaq, xalq mərasimlərinin yazılı ədəbiyyatdakı fikir, qayə, eləcə də bədii-poetik funksionallığını daha təfsilatı ilə görmək mümkündür. Ədibin yaradıcılığında xalq mərasimləri-mövsüm

və ailə-məişət törənləri özlərinin zəngin adət-ənənə, inancları ilə bütöv bir sistem təşkil edir. Konkret olaraq ailə-məişət mərasimləri Ə.Cəfərzadənin bədii irsində əsasən aşağıdakı məzmun və mündərəcədən çıxış edir:

1. Toy mərasimləri və inancları.
2. Yas mərasimləri, inancları.

Xalq məişətində geniş yayılan, eləcə də müxtəlif bölgələrə görə fərqlənən toy adətlərinə də Ə.Cəfərzadənin romanlarında sıx-sıx rast gəlinir. Əsərlərdə hadisələrin geniş təfsilatı ilə verilməsi yazıçıya bu mərasimin ən incə, xırdalıqlarına qədər təsvirinə şərait yaratmışdır. ”Bakı-1501” romanında yazıçı “qəbilə daşını” uğur mənasında işlədir. Yəni ki, qədim zamanlarda bir qəbilənin üzvü digər tayfadan qız sevərsə, öz yaşadığı məskənə daş aparardılar. O daşın düşərli olması, toy mərasimləri ilə başa çatırdı. Hal-hazırda da, Azərbaycanın bəzi bölgələrində bu adətlər yaşamaqdadır (Şəki-Zaqatala bölgəsində). Müasir günümüzdə toy adətlərinin itirilən törən və rituallarının arxaik məzmunu bir çox xüsusiyyətləri ilə Ə.Cəfərzadənin etnoqrafik məlumatlarında öz əksini tapmaqdadır. Xalq toy mərasimlərinin dəbdəbəsi, qurulan süfrələrin zənginliyi, aşıq, saz ustalarının məharəti, oyun, yarışların aparılması və s. özəllikləri bütün incəliyi ilə yazıçı tərəfindən böyük ustalıqla ifadə olunmuşdur. Toy adətləri, məclisin bəzədilməsi, süfrələrin qurulmasından başlayan mərasimə hazırlıq burada yemək, meyvə və s. çeşidlərin məişət dilindəki növləri ilə geniş təfsilatda verilməklə Ə.Cəfərzadənin xalq toylarındakı süfrə mədəniyyətinə daha yaxından bələd olmasını göstərir. Türk elləri, uzaq Bağdad, müasir cəmiyyətin toyları onun əsərlərində bu baxımdan ən xırda detal görüntülərinə qədər canlanır: “Ağalar, bəylər, paşalar məclisinə Şirvanın adlı aşpazları yemək-içmək hazırlamış, bu baş – o baş salınmış süfrələr üstünə quzuplov, qırqovulplov, turacplov, kəklik plov, toyuqplov, mütənçəm, narqovurma, narınc-turunc plov... şərbətlərdən gül şərbəti, nar şərbəti, lumu ovlarası, reyhan ovşarası, narınc

ovşarası və onlarla başqalarını qoymuşdular. Meyvələr də bol idi, sarı və qara alça, gülabi armud, ağ zəhri, qırmızı şəhri, kürdüki armud, nar armudu, göleyşə nar, vələs narı, balayi-mürsəl narı.... bütün bu müxtəlif çeşidli meyvə və yer-yemiş, ucsuz-bucaqsız ölkənin bir-birindən fərqli iqliminə görə, müxtəlif yerlərindən sifarişlə gətirilmişdi" (8,136). "Vətənə qayıt" romanından toyun təşkili, süfrənin təsviri yazıçının xalqın bu gündəki xüsusi hazırlıq və səriştəsini aşılamaqla, həm də el arası meyvə, yemək, içki məzimələrinin çeşidliliyi; bolluğunu diqqət mərkəzində saxlayır. Qədim toy adətlərində xalqın şənlənməsi təkcə çeşidli süfrələrin ətrafında yeyib-içməklə keçməmiş, həm də saz-söz, qol-gücün sınanmasında, yarışlara meydan açılmasında da yer almışdır. Əski inanclar, adət-ənənələrin ilkin, qədim qaynağı olaraq "Kitabi Dədə Qorqud" dastanları-törənlərində gücün, qabilliyyətin sınaması ayrıca yer tutur. Ə.Cəfərzadənin adı çəkilən romanında Şəbnəm bəyim üçün qurulan ziyafətin rituallarında yer alan oxatma, çıdır keçirmə, güləş və s. sınayıcı oyunlar eyni ilə "Dədə-Qorqud" boylarının toy törən-adətlərini xatırladır: "...Üç gündə toyxana qurulmuşdu. Üç yerdə yarış meydanı açılmışdı. Meydanlar sulanıb, süprülmüş, ortasına kəpək, ovxantı səpilmişdi. Birində cəngi çalınacaq, güləş keçiriləcəkdi. İkincidə ox atanlar öz məharətini sınayacaqdılar. Üçüncü meydan ucsuz-bucaqsız Küdrü çoxu kimi sonsuz, nəhayətsizdi. Burada at çapılaçaq, çıdır keçiriləcəkdi. Nəməz də Şəbnəm bəyimin öz əli ilə veriləcək al "Samayı" kəlağayısı idi" (8, 141).

Müasir günümüzə qədər qorunub saxlanan toy adət-ənənələri isə ədibin "Eşq sultanı" romanında Məhəmmədin (Füzuli) toy mərasimində öz əskini tapmışdır. Gəlinin çıraq başına dolandırması, başı üzərində üzərrik yandıraraq ata evindən uğurlanması, qaynatanın gəlinin ayağı altında qurban kəsərək, qurban qanından onun alnına çəkilməsi, oxunan mahnılar və s. bugünkü Azərbaycan toylarının rituallarında qorunmaqdadır. Romanın başqa bir hissəsində isə Songül və Səbinə Sultanın izlədikləri

toyda gəlini ata evindən yola salınarkən böyük al kəlağayının altından keçirilir ki, bu adətlər geniş şəkildə olmasa da bugündə Azərbaycanın Şimal-Şərq bölgələrinin toy adətlərində qorunmaqdadır.

Ədibin "Yad et məni" romanında isə qızyığdı-xınayaxdı mərasiminin oxşar adətlərinə rast gəlinir. Müasir Bakı toylarının geniş təsviri isə Ə.Cəfərzadə "Səməndər quşu" povestində müşahidə olunur. Məclisə toplaşan qadınların "Brilyant", "Torqsin", "Bağdadır", "Günülər", "Carlistan", "Qazağı", "Şaloko" və s. havaları sifariş etməsi və bu havalara uyğun oxuyub, rəqs etmələri yazıçının müasir toy mərasimlərini də böyük həvəslə ədəbiyyata gətirdiyini bildirir.

Qeyd olunduğu kimi, Ə.Cəfərzadə bədii irsində xalq məişəti, həyatının bütün xırdalıqları ilə təsvirinə toy mərasimlərinə ayrıca toxunmuş, bu mərasimin öz əsərlərində geniş epik təsvirini vermişdir. Ə.Cəfərzadə el-oba toylarının keçirilməsində toyun təşkili, gəlin-bəyin bəzədilməsi, onların uğurlanması və s. yanaşı, toylarda oxunan xalq mahnılarına da mərasimin daxili, struktur özəlliyi kimi ayrıca toxunmuşdur. Bu mərasimlərin təqdimində yazıçının hər hansı bir hadisə, obraza münasibəti deyil, sadəcə xalqın toy mədəniyyətinə olan müşahidəçi kimi mövqeyi, etnoqraf kimi düşüncəsi yer alır. Aşıq deyişmələri, qadın məclislərində günü deyişmələri və s. maraqlı epizodlarda çıxış edən yazıçı Azərbaycan toylarının mahnı üzərində qurulan səciyyəviliyin və bölgələr üzərində dəyişən fərqli xüsusiyyətlərinə toxunur. "Bakı-1501" romanında da Ə.Cəfərzadə Taclı xanımın "Xınayaxdı" mərasiminin təsvirini vermişdir.

Taxtın bərəkallah, gəlin,
Bəxtin bərəkallah!
Ağ əllərə əlvan həna,
Yaxdın bərəkallah, gəlin,
Yaxdın bərəkallah" (4, 117).

Ədibin romanlarında xüsusi ilə diqqət çəkən məqamlardan biri qadın məclisləri -"qız yığdı", "paltar kəsdi", "xınayaxdı" mərasimləri ayrıca diqqət mərkəzində saxlaması, xalq məişətinin ailə birliyində müəyyən adətlərə üstüörtülü də olsa öz münasibətini bildirməsidir. Yenə də "Yad et məni" romanında yazıçı "qız yığdı" mərasiminin ümumi təsvirində Vayid qızının günü olan qadınların dilindən oxuduğu mahnı mətnini verir:

Gülü-gülüstan üstünə,
Gün düşdü bostan üstünə,
Gedin deyin o tülküyə,
Gəlməsin aslan üstünə !

Sonra da ikinci arvadın dili ilə söylənilir:

Gülü-gülüstan üstünə,
Şeh düşür bostan üstünə,
Gedin deyin o aslana,
Dağ gəlir aslan üstünə (9, 115).

Hal-hazırda da Azərbaycanın bəzi bölgələrində (o cümlədən Sirvan bölgəsində) "Xınayaxdı", "Qızyığdı" mərasimləri qeyd olunur.

Verilən nümunə və şərhlərdən bəlli olur ki, toy mərasimləri Əzizə Cəfərzadənin bədii irsində bütöv bir sistemlə müşahidə olunur. "Eşq sultanı" və "Səməndər quşu" povestindən fərqli olaraq "Yad et məni" romanındakı toya hazırlıq, toy səhnələri; rituallarının təsviri daha geniş və zəngindir. Bu və ya digər adətlərlə yanaşı, toy mərasimlərinin özəlliyindən xüsusi olaraq məlumat verən yazıçı burada həm də ən qədim adət-ənənələrimizi əsərin adının simvolikasına bağlayır. "Vətənə qayıt" təkcə obrazın məkan baxımından geri dönməsi deyil, həm də milli mentalitet, adət-ənənələrinin düşüncə, təfəkkürümüzə olan bir çağırışdır. Əsərdə mümkün qədər xalq törənləri, məişət adətləri və s. çıxış edən yazıçı bununla da əski mərasim, adətlərə səslənməklə, həm də onları ədəbiyyatın yaddaşına yazır.

Xalq mərasimləri içərisində öz funksionallığı, ritual və adət-ənənələri baxımından seçilən törənlərdən biri də yas mərasimləridir. İnsanın ölümü, dünyasını dəyişməsi müxtəlif mifoloji yozumlarda fərqli mənalara bağlanmaqla, ayrı-ayrı tayfa, xalqlarlada müqayisəli xüsusiyyətləri ilə mövcuddur. Mərhumun torpağa uğurlanması, dəfn ritualları, törənlə bağlı nəğmə-oxşamaların oxunması, təziyənin yoxlanması və s. mərasimlə əlaqəli adət və inanclar Ə.Cəfərzadənin bədii irsində etnoqrafik əsasda geniş təfsilatı ilə verilmişdir. Yas törənlərinə ayrı-ayrı romanlarında yeri gəldikcə sıx-sıx yer verən müəllif fərqli zaman və məkanlar üzrə yas mərasimlərinin ümumi məzmununa toxunmuşdur. İlkin variantda mərasimin ən qədim dövrü-Hun tarixi zamanında keçirilmə özünəməxsusluğu ədibin "Hun dağı" povestində qələmə alınmışdır. Povestdə qəbilənin dünyasını dəyişən gənc sakini-Laçının ölümü, dəfn olunması səhnəsinin adət-ənənələrə bağlı təsviri ən qədim yas törənlərinin məzmununu açıqlayır. Belə ki, burada dəfn olunan gənc tava daşlardan düzəldilən "sandıq" qəbrə ona aid əşya, geyim, bəzəkləri ilə qoyulur. Dəfn olunan insanın qəbilədəki mövqeyi, tutduğu vəzifəyə uyğun olaraq onun torpağa qoyulması da müəyyən qanunauyğunluqla aparılır"... Gətirilən tava daşlardan, qutu-sandıq qəbir düzəltdilər. Laçın Ayla xatunun kənizi olduğu üçün onu qutuda dizlərini qarnına yığmış vəziyyətdə əyləndirdilər. Sonra qızın əllərini özünə, dirsəklərini dizinə söykəyib dayaq verdilər. Bütün sadə çariyə qız bəzəyi üstündəydi" (5, 31). Əsərin başqa bir hissəsində isə eyni tayfadan olan Aylanın dəfn mərasimi canlandırılır. Aylanın dəfnə hazırlanması, qəbir evinə uğurlanması, eləcə də torpağa qoyulması xüsusi möhtəşəmlik və dəbdəbə ilə həyata keçirilir ki, bu da qeyd olunduğu kimi dünyasını dəyişən insanların qəbilədə hansı təbəqədə təmsil olunmalarından irəli gəlir: "Daş sandığın içərisinə Alptəkinin neçə gün əvvəl vurduğu vaşaqın dərisi salınmışdı. Cənazəni həmin dərinin üstündə ana bətnində olduğu vəziyyətdə uzandırdılar. Muncuqları boynunda, qızıl sırğaları qulağında, bilərzikləri bilək-

lərində, qalan qızıl-gümüş əşyası, sinəbəndi, bazubəndləri də yerli-yerindəydi. Ayla elə inanmışdı ki, elə bil toy üçün bəzənib düzənmiş, bir anlıq yorğunluqdan dirsələnmiş, nəyi isə bir şeyi yadına salmaq üçün fikrə dalmışdı....Yüksək cəmiyyət adamlarını: Xaqan nəslini, adlı sərkədələri belə basdırırdılar" (5, 60).

Ölən insanın dəfn olunması ən qədim inanclarda onun yeni bir "həyata" başlaması inancına bağlanmaqla dəfndə bir sıra rituallar məhz bu mifoloji görüş üzərində qurulur. Dəfn olunan insanla bərabər qab-qaçaq, qida məhsulları, ona aid minik vasitələri, kəniz, qulların torpağa tapşırılması eyni mifik düşüncədən qaynaqlanır. Digər bir tərəfdən isə əski təsəvvürlərdə dünyasını dəyişənin yeni-torpaq, su tanrılarına əmanət verilməsi kimi rəvayətləşir. Qeyd olunan povestə də dəfn olunan qəbilə sakininin ardınca tayfa başçısı tərəfindən "su-torpaq" payı verilir ki, bu ritual da ən qədim türk mifik düşüncəsinə bağlıdı"... Turqut baba yenə də qəbilənin ən qiymətli əşyası toplanan arabadan bəzəkli torbanı çıxartdı. İki çimdik torpaq götürdü, Aylanın hər ovcuna bir çimdik torpaq qoydu. Üstü naxışlı, gil qumqumadan iki damla su aldı. Gəlinin hər döşünə bir damla sıçratdı...". Görəsən su-torpaq payını verdin. Atan ulu tanrının Göy çadırı bizsiz də üstünə kölgə salacaq. Bizsiz də səninlədir.... – dedi" (5, 61).

Yas mərasimlərdə ölüm itkinin mərhumun yaxın, əzizləri tərəfindən ayrıca rituallarla qarşılanmasının da etnik mifoloji kökləri mövcuddur. Ölən şəxsin ətrafında dövrə vuranların saç yolub, üz cırması, qara bağlamaları ilə yanaşı xüsusi nəğmə-ağıların oxunması da qədim rituallar sırasındadır. Məclisə dəvət olunan xüsusi ağıçıların rolu isə təziyənin bir növ aparılması, nəğmə-ağılarda mərhumu yola salma, onu arzulama və xatırlanması adətindən irəli gəlir. Ədibin "Cəlaliyyə" povestində də Zahidə xatuna əri Çahan Pəhləvanın ölümü məhz ağıçı arvadın yanıqlı oxşaması ilə çatdırılır:

Aslan gedər ovuna,
Çeyran düşər tovuna,

Hanı bunun anası
Gəlsin bala lovuna (5, 98).

Mərasim, povestə ardıcıl olaraq, təziyə buraya yığılan qadınların ağlaşma-deyimləri üzərində qurulur:

Bu paltar xasa paltar.
Dönübdü nəsə paltar.
Ölüb igid yiyəsi
Batıbdı yasa paltar.

Məni bir ağı burdu
Dolaşdı, bağı vurdu,
Səhər-səhər bəllədi
Axşamın çağı vurdu.... hey! (5, 99).

Bayatı-ağıların daha fərqli forması isə ədibin ”Eşq sultanı” əsərində Məhəmmədin atası Süleyman kişinin təziyəsi üzərində oxunan nəğmənin dilindən verilir.

Bala, vay,
Bal yemədim, bala vay,
Çöp yığdım, yuva qurdum,
Uçurtmadım bala, vay (7, 58).

Yazıçı yas mərasimlərini istər tarixi, istərsə də müasir həyatın məişət, adət-ənənələrindən almasına baxmayaraq ötəri şəkildə təsvir etmir. Bu mərasimlər ədibin tarixi-etnoqrafik biliyi, məlumatlarında bütün incəlikləri ilə əks olunmaqla daha canlı real səhnələr yaradır. Ağılar, bayatılar üzərində qurulan yas mərasimləri obrazların faciəsi, itkiyə münasibəti və ağrılarını daha emosional, ovqatlı şəkildə oxucuya çatdırır.

Yas mərasimləri ilə bağlı ən qədim adətlərimizdə ağılarla yanaşı oxşamalar da yer almaqdadır ki, bu deyimlər, tarixən daha çox dilli-dilavər, xüsusilə yaşlı el, qəbilə sakinləri tərəfindən söylənilmişdir. Ölənin həyatı, faciəsi, rəşadəti, bu dünyada itirdikləri, arzuları və s. üzərində qurulan oxşamalar sadə xalq dilində daha canlı və emosionaldır. Əzizə Cəfərzadə əsərlərinin

dilində verilən oxşamaları, zaman və mühit baxımından tam tarixi bir fakt kimi diqqəti cəlb edir. Məsələn, "Cəlaliyyə" povestində Cahan pəhləvanın ölümünə söykənən oxşama tamamilə mərhumun qəhrəmanlığı, döyüş qabiliyyəti üzərinə qurulub. "Hanı anası? Hanı? Gəlsin bala başına. Özü də neçə bala? Sultanlara qan ağladan, düşmən sədlərini yaran, yağı kəlləsindən minarə yapan, əduya qan udduran, elin göyçəyi, soyu bəzəyi, at minəndə köhlən bağrı çatdadan, qılınc çalanda qalxan partdadan, əmud vuranda rəqibini yerin təkinə batıran, nizə atanda gözlərin oyan... Belə oğul doğan ana, gəl, gorun çatlasın!" (5, 99). Qədim qəhrəmanlıq ağılarının ən tipik nümunəsini verən Ə.Cəfərzadə bir çox təziyələrin məzmununda eyni-igidlik, şücaətə bağlı oxşamalardan çıxış edir. Bu isə yazıçının ən əski türk təfəkküründə ölümə uğurlananda belə türk insanın şücaət və qəhrəmanlığına bağlı ləyaqətini qorumaq təəssübkeşliyindən irəli gəlir. Təsadüfi deyildir ki, ədibin "Vətənə qayıt" romanında uşaq doğarkən dünyasını dəyişən ananın oxşaması onun özündən çox, hansı ocağa bağlılığı üzərində qurulur. "Şərəfnisə gəlnini oxşayırdı: "Əli dağ qalxanlı, çiyni ağır kamanlı, oxu Allah qəzəbli; qılıncı Zülfüqar kəsərli, hay deyəndə halay pozan, huy deyəndə tüp dağıdan, hayqıranda yağı bağrı çatdadan, dalı el arxalı, qənşəri ağır düşmənli, adı el-oba süpəri, dillər əzbəri Abduləli gəlini balam vay...!" (8, 95).

Ə.Cəfərzadənin yas adətlərinin etnoqrafik səciyyədə bələdliyi təkcə Azərbaycan, onun qədim məskənləri, əski türk görüşlər səviyyəsində qalmır. Bir sıra xalqların təziyə saxlamaq ənənələri də bu məlumatlara qoşulmaqla Şərq yas mərasimləri, onun ritualları haqqında dolğun təsəvvür yaradır.

Yazıçının ölməz qəzəl ustadı M.Füzuliyə həsr etdiyi "Eşq Sultanı" romanında qəriblikdə dünyasını dəyişən Süleyman kişiyə ərəb adətləri ilə təziyə tutulmasının təsviri xüsusilə maraq doğurur. Mərasimin keçirilməsindən bəlli olur ki, yas düşən evə ərəb adəti ilə ortalığa qəhvə məcməyəsi qoyulur, arvadlar onun

ətrafında sinə vuraraq ağı deyirlər. Təziyəyə yeni qoşulan qadınlar əvvəlcə xırda xına qaşıqları ilə sinidən qəhvə götürüb dillərinin üstünə tökür, sonra ölünü oxşayanlara qoşulurlar: Qəhvənin acılığı, onların bəd xəbər, hadisə-acılığa gəlmələri yozumuna qoşulur ki, burada şirin çayın verilməsi qeyri mümkündür. Eyni adətlərə uyğun ölən üçün evdə ehsan bişirilib təziyəyə dağıdılması da yasaqdır.

Xalq mərasimlərinin toy-yasla bağlı məclislərin geniş epik təsvirinin verildiyi Ə.Cəfərzadə romanlarında digər məişət mərasimləri, yaxud onların əski qayda və adətləri də qorunmaqdadır "Adqoyma", "Uşağın dünyaya gəlməsi" ilə bağlı məişət inanc və davranışları əslində geniş məişət mərasimlərindən ayrılmış törənlərdir. Qeyd edək ki, mərasim səciyyəsini saxlamasa da bu toplumlarda ilkin məclis ritual və inamdan yer alır. Məsələn, uşağın dünyaya gəlməsi, ananın azad olmasında şər ruhlu qüvvələrə qarşı "mübarizə" üsulları bugünkü xalq məişətində də qorunmaqdadır.

Göründüyü kimi, yazıçının əsərlərində mərasimi folklorizmlərə kifayət qədər geniş yer verilmişdir. Onun əsərlərində toy, yas, ayrı-ayrı məişət mərasimləri, ovsun, inanc və s. folklorizmlər gah monumental lövhələr şəklində təsvir olunur, gah hansısa psixoloji situasiyanı folklor qəlibində təqdim edir, gah da yazıçı ideyasının təcəssümündə sərrast bədii ifadə vasitəsi kimi çıxış edir. Bütün bu rəngarənglikləri aşağıdakı şəkildə ümumiləşdiririk:

**Birincisi**, Ə.Cəfərzadənin yaradıcılığında mərasim folklorizmləri onun əsərlərinin etnik-mədəni əsasını təşkil edir. Hər bədii mətn mövzusunun bəşərlik səviyyəsindən asılı olmayaraq, milli hadisədir. Bədii əsərdə millilik onu şərtləndirən, müəyyənləşdirən amillərin bədii təcəssümü olaraq meydana çıxır. Ə.Cəfərzadə bütün hallarda milli zəmindən heç vaxt ayrı düşməmiş yazıçı olmuşdur. Bundan dolayı onun qəhrəmanları,

təsvirləri həmişə milli naxışlarla bəzənərək, bu obraz və təsvirləri canlı sənət hadisəsinə çevirmişdir.

**İkincisi**, Ə.Cəfərzadənin əsərlərində mərasimlərə yer verilməsi etnoqrafizmi gücləndirməklə həmin bədii mətnləri oxunaqlı, maraqlı etmişdir.

**Üçüncüsü**, mərasimi folklorizmlər, xüsusilə inanclar, ovsunlar Ə.Cəfərzadənin əsərlərinə təkcə təsvir-təhkiyə səviyyəsində etnoqrafik kolorit verməklə qalmır, əsərlərin fəlsəfi-psixoloji gücünü və mənasını artırır. Bütün bunları ustalıqla bədii mətnə gətirən yazıçı bədii ideyanın tutumlu, inandırıcı təqdiminə nail olur. Bədii mətndəki magik folklorizmlər oxucu yaddaşındakı eyni folkorizmlərlə üst-üstə düşərək onun yaddaşını, iç dünyasını oyadır və oxucunu mətnə daha dərindən bağlayır.

**Dördüncü**, Ə.Cəfərzadənin baxışlarına görə, adət-ənənələr əsrlərin sınağından çıxmış mərasimlərlə bağlıdır. Mərasimlər isə xalqın həyatının təşkilinin xüsusi formalarıdır. Alimin diqqətini cəlb edən əsas məqam xalqın mərasimlərdə birləşmə imkanıdır. Öz şəxsi həyatında öz düşüncəsinə uyğun ixtiyari hərəkətlər edən insanlar mərasimlərdə eyni hərəkətlər kompleksinə, eyni adətlərə, eyni rəsmə köklənirlər. Bu məqam, yəni insanların mərasimdə birləşərək vahid topluma, vahid qüvvəyə çevrilməsi Ə.Cəfərzadənin xalq mərasimlərinə aid apardığı tədqiqatların alt plandakı mənasıdır. Uşaqlıqdan zəngin mərasim ənənələrinin içərisində böyüyən Ə.Cəfərzadə görürdü ki, ayrı vaxtlarda öz işləri ilə məşğul olan, hərə öz problemləri ilə başı qarışan insanlar digər mərasim günlərində bir araya gəlir, bir olurlar. Hər bir xalqın da öz milli hədəflərinə çatmasının əsas şərti onun bir ola bilməsidir. Bu səbəbdən Ə.Cəfərzadə xalq mərasimlərinə birləşə bilməyin, bir ola bilməyin, millət, xalq ola bilməyin əsrlərin sınağından çıxmış üsulu, forması, düsturu kimi baxır və öz yazılarının alt planında bu məqamı əsas götürürdü.

## QAYNAQLAR:

1. Azərbaycan folkloru antologiyası. Səki-Zaqatala folkloru. XIII kitab/ tərtibçilər: İ. Abbaslı, O.Əliyev, M. Abdullayeva, elmi redaktoru H. İsmayılov. Bakı: Səda, 2005, 550 s.
2. Bəydili C. Türk mifoloji obrazlar sistemi. Bakı: Mütərcim, 2007, 272 s.
3. Cəfərzadə Ə. Aləmdə səsim var mənim. Bakı: Gənclik, 1972, 224 s.
4. Cəfərzadə Ə. Bakı-1501. Bakı: Yazıçı, 1981, 263 s.
5. Cəfərzadə Ə. Cəlalyyə. Bakı: Gənclik, 1983, 468 s.
6. Cəfərzadə Ə. Eldən-elə. Bakı: Gənclik, 1992, 356 s.
7. Cəfərzadə Ə. Eşq sultanı. Bakı: Şirvannəşr, 2005, 204 s.
8. Cəfərzadə Ə. Vətənə qayıt. Bakı: Gənclik, 1977,
9. Cəfərzadə Ə. Yad et məni. Bakı: Gənclik, 1980, 317 s.
10. Nəbiyev A. Azərbaycan folklorunun janrları. Bakı: ADPN, 1983, 85 s.
11. Басилов В. Избранники духов. Москва: Политздат, 1984, 208 с.

# XALQ ADƏT-ƏNƏNƏLƏRİ VƏ ROMAN YARADICILIĞI (Y.V.ÇƏMƏNZƏMİNLİNİN "İKİ OD ARASINDA" ƏSƏRİ ƏSASINDA)

**Aytac ABBASOVA**
*AMEA Folklor İnstitutunun*
*"Folklor və yazılı ədəbiyyat" şöbəsinin*
*elmi işçisi*

Azərbaycan xalqının ictimai-siyasi, fəlsəfi, ədəbi fikir tarixində müstəsna yeri olan simalardan biri də Yusif Vəzir Çəmənzəminlidir. Zəngin tarixə malik Azərbaycan mədəniyyətinə, onun təşəkkül və inkişafına Y.V.Çəmənzəminlinin verdiyi töhfələr, onun göstərdiyi xidmətlər tədqiqatçılarımızın diqqətindən kənarda qalmamışdır. Azərbaycanda XIX və XX əsrin əvvəllərində ictimai-siyasi, ədəbi fikir tarixinin elmi problemlərini araşdıranlar istər-istəməz Y.V.Çəmənzəminlinin yaradıcılığına, onun elmi-ədəbi irsinə toxunmalı olmuşlar, bəzən də onun yaradıcılığı ilə bilavasitə bağlı olan, bəzən də ziddiyyətli məqamlara cavab verməklə çətinliklərlə rastlaşmışlar. Bu da ondan irəli gəlirdi ki, Y.V.Çəmənzəminli öz elmi-ədəbi yaradıcılığında çox müxtəlif fəaliyyət sahələrini birləşdirir. Bu sahələrdən biri də onun xalq yaradıcılığı və folklorla bağlı apardığı tədqiqatlar və təhlilləri olmuşdur. Tarixdə elə bir yazıçı tapılmaz ki, bu və ya digər cəhətdən xalq ədəbiyyatı ilə bağlı olmasın. Lakin xalq təfəkkürü ilə bağlılığın ölçü-biçimi hər bir sənətkar üçün eyni olmamışdır. Folklorla yaxınlığı və bağlılığı daha möhkəm olan yaradıcıların milli mədəniyyətlərin inkişafındakı xidməti daha böyükdür. Belə sənətkarlar böyük inad və maraqla xalqın minillik mənəvi sərvətini həm toplayıb, həm də öz bədii yaradıcılığında bu sərvətlərdən faydalanmışdır. Bu baxımdan Y.V.Çəmənzəminlinin yaradıcılığı Azərbaycan ədəbiyyatında xüsusi yer tutur.

Təhsilini rus dilində alan, bir çox dünya xalqlarının dillərini mükəmməl bilən görkəmli yazıçı Y.V.Çəmənzəminli Azərbaycan folklorunun gözəl bilicisi və toplayıcısı olmaqla, bu tükənməz çeşmədən ustad sənətkar kimi də faydalanmış, həm də bu zəngin xəzinəyə aid dərin elmi-nəzəri mülahizələrin müəllifi olmuşdur. Y.V.Çəmənzəminlinin folklorun müxtəlif məsələlərinə dair bu gün belə öz əhəmiyyətini saxlayan fikirləri Azərbaycan folklorşünaslığının tarixində böyük əhəmiyyət daşıyır. Yüz illər bundan əvvəl yaranmış ağız ədəbiyyatımızın çoxunu unudulmaq təhlükəsindən xilas etmək naminə qayğı və səliqə ilə toplayan, çox çətin şəraitdə onun bəzi nümunələrini belə nəşr etməyə müvafiq olan görkəmli yazıçının gördüyü xidmətləri yazmaqla izah etmək mümkün deyil.

Y.V.Çəmənzəminlinin Azərbaycan folklorunu toplaması, tərtibi ilə bağlı fəaliyyəti çox zəngindir. Onun fəaliyyətinin xronoloji baxımdan təsvir edilməsi, gördüyü bütün işlərin öz əksini tapması, ən başlıcası, folklorun hər bir janrının tərtibi zamanı təqdim etdiyi elmi prinsiplərin araşdırılması, yazdığı şərhlər, qeydlərin öyrənilməsi çox vacibdir.

Məlumdur ki, Yusif Vəzir Şuşada anadan olmuş, Qarabağ mühitində böyümüş, görkəmli yazıçılar, şairlər, rəssam, tarixçi və təzkirəçilər dünyasında yaşayıb, gənclik illərini başa vurmuşdur. Ədib Kiyevdə oxumuş, Volqaboyu şəhərində, Bakıda, Orta Asiyada, Moskvada, İstanbulda, Parisdə yaşamışdır. Onun yaşadığı illər həm də folklorşünaslıq elminin ilk nəzəriyyələrinin, məktəblərinin qızğın mübarizəsi, yaşadığı yerlər isə bu mübarizələrin əsas mərkəzi olmuşdur. Həmin illərdə belə şəraitdə yaşayıb, bu mərkəzin görkəmli filoloqları, filosofları, etnoqrafları ilə görüşüb və onlardan bütün nəzəriyyələrin ayrı-ayrı qollarını mükəmməl mənimsəmişdir. Eyni zamanda, isə folklorşünaslıq elmini belə incədən-incəyə bilmək ədibə uşaqlıqdan bəri yaddaşında yaşatdığı zəngin folklor nümunələrini saf-çürük etməyə, bu rəngarəng xalq xəzinəsinə dürüstlüklə yanaşmağa imkan vermiş, “İki od arasın-

da" və "Qızlar bulağı" romanlarının bu cəhətdən belə zəngin və dolğun çıxmasına şərait yaratmışdır. Eyni zamanda, folklorşünaslıqda onun müstəsna xidmətləri olmuş və bədii yaradıcılığında bu zəngin xəzinədən məharətlə faydalandığı kimi, mürəkkəb folklor aləminin tarixi-nəzəri məsələləri ilə də bir alim kimi çox ciddi məşğul olmuşdur. Ədibin "Azərbaycanda Zərdüşti adətləri", "Azəri nağıllarının əhval-ruhiyyəsi", "Xalq ədəbiyyatının təhlili" kimi elmi məqalələrində, "Qızlar bulağı", "İki od arasında" romanlarında və başqa əsərlərində Azərbaycan folkloru, "Avesta" fəlsəfəsi, Zərdüşt dininin ayrı-ayrı ayinləri, mütərəqqi adətləri bir alim dəqiqliyi ilə tədqiq olunmuşdur. Yazıçının "Qızlar bulağı", "İki od arasında" romanları bu gün də Azərbaycan ədəbiyyatının, Azərbaycan nəsrinin tarixi mövzuda yazılmış ən gözəl nümunələrindən hesab olunur.

Y.V.Çəmənzəminli ən qədim xalq adət-ənənələrinin, mövsüm, mərasim nəğmələrini, qarğışları, alqışları, bayatıları, atalar sözü və məsəlləri, hikmətli sözləri, aforizmləri, əfsanələri, rəvayətləri, nağılları, lətifələri, hətta əsatiri də bədii ədəbiyyata gətirmiş, belə demək mümkünsə, onlara ikinci həyat vermişdir. Qəribə və maraqlı haldır ki, yuxarıda sadaladıqlarımız folklor və mifoloji motivlər Y.V.Çəmənzəminli yaradıcılığında təsadüfi epizodlar kimi işlədilmir, əksinə əsərlərin bədii quruluşuna, süjet xəttinə, kompozisiyasına tam uyğun gəlir, qəhrəmanların davranışlarına, əhvali-ruhiyyəsinə, fikirlərinə uyğun şəkildə verilir. Əsərlərin qanına, canına elə hopur ki, onların adı, müasir epizodlardan fərqləndirmək çox çətindir, bəzi hallarda isə qeyri-mümkündür. Yazıçı əsərlərində folklor və mifoloji motivlərin təkcə geniş və əhatəli formalarından deyil, həmçinin belə demək mümkünsə, sadə formalarından da məharətlə istifadə etmişdir. Ədib əsərlərində adi məhəllə oyunları, adət-ənənələri çoxlarının diqqətini cəlb etmədikləri bir halda onun tərəfindən ən yüksək səviyyəyə qaldırılır və ömürlük milli status alır.

Y.V.Çəmənzəminli xalq məişəti ilə əlaqədar xüsusiyyətləri mükəmməl tədqiq edib öyrənmiş və təfəkkür süzgəcindən keçirərək, yaradıcı şəkildə əsərlərində istifadə etmişdir. Qədim dövrdən indiyə qədər qorunub saxlanılmış qonağa ehtiram, hörmət xalqımızın ən müqəddəs adətlərindən sayılır. Tarixi çox qədim olan qonaqpərvərlik xalqın kimliyini, qadirliyini, qabiliyyətini, ürək genişliyini, səxavətini, yüksək mənəvi keyfiyyətlərini əks etdirən və nəsildən-nəslə yaşadan müqəddəs adət-ənənədir. Bu nəcib adətin hər bir xalqın mənəvi mədəniyyətində özünəməxsus yeri vardır. Qonaqpərvərlik xalqımızın baş ucalığı, şöhrət tacı olubdur. Qonaq kimliyindən asılı olmayaraq qapısını döydüyü evin əziz adamı hesab olunur. Ev sahibi son azuqəsini belə qonaqdan əsirgəmir. Əbəs yerə deyil ki, xalq arasında "qonaq evin gülüdür", "qonağın ruzisi özündən əvvəl gəlir", "qonağın yeri göz üstədir", "qonaq sevənin süfrəsi boş olmaz" kimi ibrətamiz ifadələr geniş yayılmış, hətta qonaqsız ev suyu qurumuş dəyirmana bənzədilmişdir.

Ənənə xarakterli bu müqəddəs adət şifahi xalq ədəbiyyatında olduğu kimi, yazılı ədəbiyyatımızda da öz bədii əksini tapmışdır. Milli-etnik varlığımızın tarixi-ədəbi ensiklopediyası sayılan "Kitabi-Dədə-Qorqud" türk xalqlarının, o cümlədən, Azərbaycan türklərinin dərin mənəviyyatı, zəngin tarixi keçmişə malik olan əxlaqi-etik normaları haqqında son dərəcə maraqlı məlumatlar verir. Dastanın ayrı-ayrı boylarından da azərbaycanlıların həmişə genişqəlbli, açıqürəkli, səxavətli olublar. "Oğuz elinin başçısı", "xanlar xanı" Bayandur xan ildə bir dəfə böyük şadlıq məclisi qurur. "Atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırır", qonaqlıq edirdi (4, 231).

Y.V.Çəmənzəminli də xalqımızın qonaqpərvərliyini yüksək qiymətləndirmişdir. "İki od arasında" romanında belə bir epizod vardır ki, Londondan Qarabağa gəlib çıxmış Yusif Əmin adlı bir erməni bir yerdə yaşayan, qonşuluq edən Azərbaycanlı və erməni xalqları arasında ədavət toxumu səpməyə çalışır. O,

Qarabağ hökmdarı İbrahim xanla görüşür. Hamı elə zənn edir ki, xan onun qətlinə fərman verəcək. Lakin İbrahim xan Yusif Əminin pis əməllərə sahib olduğunu bilsə də adətə xilaf çıxmayaraq "qonağa zaval yoxdur" demiş və hətta ona bir at bağışlamışdır. Başqa bir epizodda isə çay qırağına paltar yumağa gedən Şərbaf Kazımın ailəsinə "Qara dolaqlı oğlan atını sürüb ailəyə yanaşdı, salam verdi, salam aldı: – Allah qonağı istəmirsiniz? Otun üstündə bardaş qurub oturmuş Kazım kişi qalxaraq: – Allaha da qurban olum qonağına da! – dedi və atın başından yapışdı" (2, 479). Yazıçının elə bu romanında və başqa bədii əsərlərində xalqımızın qonağa qayğısını, ehtiramını ifadə edən belə səhnələr çoxdur.

Romanda diqqəti çəkən bir adət də xalq arasında yaylıqla bağlı adətdir. Bu adətə görə guya bir-birinə yaylıq bağışlamış sevgililər mütləq ayrılmalı olurlar. Onlar heç vaxt birləşib xoşbəxt ola bilməzlər. Beləliklə, müşahidə və sınaqlar nəticəsində keçmiş insanların təsəvvüründə yaylıq ayrılıq rəmzinə çevrilmişdir. İndinin özündə də "yaylıq ayrılıqdır" ifadəsini eşitmək olar. Xalq həyatını, adət və ənənəsini dolğun şəkildə əks etdirən Y.V.Çəmənzəminlini bu etiqad da dərindən düşündürmüş və "İki od arasında" əsərində fikrinin daha canlı təsirli çıxması üçün bundan bir vasitə kimi ustalıqla istifadə etmişdir. Tezliklə İrana sevmədiyi bir adamın evinə gəlin köçəcəyini bilən Kiçikbəyim doyunca ağladıqdan sonra incə ipək dəsmalı ilə gözlərinin yaşını silir və dəsmalı qəlbdən aşiq olduğu əmisi oğlu Məhəmməd bəyə uzadaraq: "-Al bunu saxla, mən yadına düşəndə onu bağrına basıb mənim ətrimi ondan alarsan..." (2, 491) deyir. Məhəmməd bəy heç danışmır. Buna ehtiyac da duyulmur. Çünki ayrılıq nişanəsi olan yaylıq onların hər fikrini tam ifadə etmişdir. Lakin bəzən şifahi və yazılı ədəbiyyatımızda yaylıq ayrılıq yox, əksinə qovuşdurmaq mənasını da daşımışdır. Məsələn, "Əsli Kərəm" dastanında dişinin qanını kəsmək üçün dəsmalını çıxaran Kərəmi Əsli ayrılarkən ona verdiyi dəsmaldan

tanıyır və aşiqlər bir-birinə qovuşurlar. Burada göründüyü kimi, dəsmal ayrılan və bir-birini tanıya bilməyən aşiqləri qovuşdurur.

Y.V.Çəmənzəminlinin romanda yaylıqla bağlı digər maraqlı bir epizod göstərmişdir. "Məhəllədə yaşayan kumuk qoşunu arasında dava olur. Telli bu kumuk davasını çox görmüşdü və bilirdi ki, dalaşanlar arasına bir qadın girib, yaylığını ortalığa atsa kişilər qadın örtüsündən həya edib adət-ənənəyə görə davanı kəsərdilər. Telli özünü itirməyib cəld yüyürdü və əlliyə qədər bir-birinə hücuma hazır olan kumukların arasına soxulub, başının güllü yaylığını yerə atdı. Bir dəqiqədə bir-birinə susamış iki tərəf də geri çəkildi; xəncərlər və qılınclar qınına qoyuldu" (2, 493).

Qadın baş örtüsünə-yaylığına belə hörmət edilməsi adət-ənənəsinə xalqımız lap qədim dövrlərdən nail olmuşdur. Kişinin papağı, atı onun namusu sayıldığı kimi, qadının da baş örtüsü onun namusu, abır-həyası sayılardı. Kişilər də bu adətə hörmət edərdilər. Qadının örtüyü, gəlinin örtüyü onun namuslu əxlaqlı olmasına işarə idi. Qadın heç vaxt başı açıq kişilərin qarşısına çıxmaz, bir yerdə oturmazdır. Bütün bunlar qadının böyük nüfuza və hörmətə malik olduğunu göstərən faktlardır.

Y.V.Çəmənzəminlinin xalq folklorunda, mifologiyasında dərin mənaya malik olan "ocaq, pir" haqqında da əsərində qeyd etməyi unutmamışdır. Romanda bir kiçik epizod kimi verilib, üzərindən keçdiyi ocaq, pir məfhumu qədim insanların ən çox inandığı ümid gözlədiyi, arzu, dilək dilədiyi, müqəddəs bir yer kimi böyük əhəmiyyət daşımışdır.

Romanda göstərilir ki, "Kiçikbəyim fındıq və yemişan kollarını əyərək otlaq bir talaya çıxdı. Bir tərəfi quzulayıb, ot saçaqları sallanan bir təpədə iri, qol-qanadı qurumuş bir ağac vardı. Kovuşuna üst-üstə bir neçə daş qoyulmuşdu. Budaqlarına cürbəcür cındırlar bağlanmışdı. Bir şaxdan xırdaca beşik asılmış, o birisinə balaca yay-ox nəsib olunmuşdur. Ətrafda ocaq yerləri görünürdü: ora-bura qoyun sümükləri tökülmüşdü. Bu pir idi. Diləkləri olan bura gələr, diləyini pirə xatırlatmaq üçün ağacın

budaqlarını əlvan cındırlar, rəngbərəng saplarla bəzərdilər: sonsuz arvadlar beşik asar, igid oğul anası olmaq istəyənlər budağa yay-ox bağlayıb gedərdilər, xəstələr bir həftəlik sursatları ilə bərabər buraya gətirilib, ağacın altında yatar, pirdən şəfa diləyirdilər...” (2, 490).

Bu təsvir edilən epizodda xalqın inancların daxil olan və onların həyatında əhəmiyyətli rolu olan ocaq, pir haqqında göstərilmişdir. Qədim xalqlar belə yerləri müqəddəs hesab etmiş, ondan ümid ummuşdular. Ocaq, pirlər hər hansı bir yer olmamışdı, bu yerlər ya hansısa müqəddəs əməlləri olan şəxslərin, seyid, axundların qəbrləri, yaxud da təbiətin öz yaratdığı müqəddəs hesab olunan yerləri idi. Xəstə insanlar şəfa tapmaq, gənc qızlar, oğlanlar bəxtini, qismətini tapmaq üçün, analar övlad sahibi olmaq üçün “ocaq, pir”lərə üz tuturdular. Burada qurban kəsər, onun ətrafında qalar, pirdən ümid, şəfa diləyərdilər.

Bir də dilək ağacı vardır ki, bu ağacda müəyyən mənada müqəddəs olmuş, arzu, istək, niyyətlərin qəbul olub, olmamasını göstərirdi. Dilək diləyib ağaca ən çox rəngli parçalar, saplar, lentlər bağlanırdı. Ağacdan asılan lent diləyini ocağa xatırlatmaq üçün asılırdı. Ox-yay simvolik olaraq nağıllardan və əfsanələrdən bildiyimiz kimi oğlan uşağını mənalandırmışdır. Oğlan olanda ox-yay asmaq, qız olanda ələk asmaq nağıllarımızda tez-tez rast gəldiyimiz adət idi. Beşik isə sonsuz anaların övlad sahibi olması üçün simvolik məna daşıyırdı. Yuxuda beşik görən qadının övladı olardı. Ç.Aytmatovun “Ağ gəmi” əsərində buynuzunda beşik gətirən ana maralı gözləyənlər, övlad sahibi olmağa çalışan sonsuz qadınlar idi. Ana maral buynuzunda beşik gətirir və qadın hamilə qalıb övlad sahibi olardı. Buna əsasən bütün türk xalqlarında beşik övlad sahibi olmaq mənasını bildirmişdir.

Əsərin başqa bir yerində ədib ocaq barəsində başqa maraqlı bir faktı qeyd etmişdir: “Ağa, – dedi, – bilirsən ki, Şahməmməd ağanın həyətində ocaq var, ora ziyarətə çoxlu ilan gəlir. O

ilanlara dəymək olmaz, bilirsən ki, ilan kinli olar, onlardan birini öldürsən, qisasını alarlar... Şahməmməd ağa həyətdə armud ağacı əkirmiş, beli vuranda yerdən bir ilan çıxır, rəhmətlik öldürmək istəyir, ilan çevrilib barmağından çalır" (2, 614).

Mifoloji inamlara daxil olan mətnlər içərisində ocaq və ocağa ilan gəlməsi ilə bağlı düşüncələr var. "Ocax ilanını öldürmək olmaz, günahdı. Hər evdə yeddi ocax ilanı olur. Biri bərəhdi, biri mələhdi, qalan beşi evə dirəhdi. Fərəh ilan ziyannıx eliyər. Mələh ilan köməklik eliyər, qalanları da evə bərəkət və urzu gətirər. Ziyanlıx eliyən fərəh ilanı öldürmək lazımdı. Onda evdə həmişə xoşbəxtlik olar. Ən çox bu birilərindən öldürsən, evin urzusu qaçar, ocağın sönər" (3, 224).

Ocağa, pirə inamın qədim dövrdən indiyə qədər böyük əhəmiyyət daşıması xalq arasında insanların bu yerlərin müqəddəs bir yer kimi görüb ondan xeyir almaları ilə əlaqədardır. Y.V.Çəmənzəminlinin də dediyi kimi, xalqımız ocağa və çırağa and içərdilər, qız ərə gedərkən onu ocağın başına dolandırılması, çərşənbələrdə tonqal qalanması da odun, ocağın "Avesta"dan və hətta ondan da qədim bir dövrə gedib çatması ilə izah oluna bilər. Hələ ibtidai icma dövründə insanlar sürü halında yaşayarkən, təbiəti və onun hadisələrini möcüzəli görən vaxtlarda öz işlərini, həyatlarını dəyişən, asanlaşdıran "odu" kəşf etdilər. Odun yaranması da möcüzəli olmuşdur. Və insanlar əhəmiyyətli olan bu dörd ünsürdən birini-odu müqəddəs hesab etmişdirlər. Adətən od, ocaq qalanmış yeri təmiz saxlamaq, murdarlamamaq adəti də lap qədimdən indiyə qədər xalqımız arasında qalmışdır.

Romanda kosmoqonik miflərlə bağlı əsatir də diqqəti çəkir. Kosmoqonik miflərdə əsasən günəş, ay, ulduzlar, dünyanın yaranması ilə bağlı əsatirlər, rəvayətlər əsas yer tutur. Ay və günəş əsatirlərin çoxunda əsasən ər-arvad, sevgili, oğlan-qız, bəzən də bacı-qardaş, ana-baba kimi təsvir edilir. Amma ən çox isə bir-birini dəli kimi sevən və qovuşmayan sevgililərdir. Onların birinin gecə, o birinin gündüzlər görünməsi və heç vaxt

görüşə bilməməsi nakam aşiqlər kimi təsvir edilir. "Günəş çox qəşəng bir qız imiş. Ay da aləmə nur saçan oğlan. Ay günəşi sevirdi. Günəş Ayın onu sevdiyini bilirdi. Amma ona tərəf heç baxmırdı da. Ay da ki əl çəkmək bilmirdi. Bir gün Günəş öz obasına gedirdi. Yolda Ay ona çatdı. Günəşi sevdiyini dedi. Günəş onu yaxın qoymadı. Ay Günəşin qolundan tutmaq istədi. İşi belə görən Günəş yerə tərəf əyildi. Yer ona bir ovuc çirkab uzatdı. Günəş çirkabı Ayın üzünə çırpdı. Ay gözlərini yumdu, ömürlük qaranlığa çəkildi" (2, 30).

Ayın Günəşə olan nakam sevgisini Y.V.Çəmənzəminli romanda qəhrəmanın əhvali-ruhiyyəsi öz daxili hissləri ilə əlaqəli şəkildə göstərmişdir. Romanda oxuyuruq: "Vaqif yataqda uzanmışdı, amma gözlərinə yuxu gəlmirdi. Çadırın qapısından gecikmiş ayı seyr edir, onun da əfsanəvi bir eşqi olduğunu xatırlayırdı. Ay da əsrlərdən bəri məftunu olduğu məşuqəsi günəşin arxasınca qoşur, onun həsrətindən çırpınırdı. O da Vaqif kimi eşq yorğunu olaraq təpələr arxasından sönük çöhrəsi ilə aləmə tamaşa edir, sevgi üzüntülərinin sirrinə vaqif ola bilmirdi" (2, 583).

Göründüyü kimi, Vaqif özünü, öz halını aya bənzədir. Ayın, günəşin canlı varlıq kimi təsvir edilməsi və insan kimi onlara özünü bənzədilməsi ibtidai insanın inanclarına, təfəkkürünə və onun məhsulu olan bu mifə istinad edilməsidir.

Ümumiyyətlə, Y.V.Çəmənzəminli bədii əsərlərində əfsanə və rəvayətlərindən istifadə edərkən onların təsvir etdiyi hadisələrlə uyğunlaşmasına, ictimai məzmun kəsb etməsinə xüsusi fikir vermişdir. Folklorun bütün janrlarını yaşatmağa və ondan yaradıcılığında hər addım başı istifadə edən tədqiqatçı alim Y.V.Çəmənzəminli atalar sözü və məsəllərdən də romanında, hekayələrində istifadə etmişdir. Y.V.Çəmənzəminlinin digər həmkarlarından fərqləndiyi bir əlamətdar xüsusiyyəti var ki, bu da folklorşünas kimi özünün topladığı atalar sözü və məsəllərdən bədii əsərlərində ustalıqla faydalanmasıdır.

Yazıçı "İki od arasında" romanında işlətdiyi atalar sözü və məsəlləri yaradıcısının xalq olduğunu vurğulamaq üçün "atalar demişkən", "məsəl var", "atalar doğru buyurmuş", "məsəldir", "deyirlər", "atalar yaxşı deyib", "atalar misalıdır" və s. tərkib və ifadələr işlədir. Bununla o, həmin nümunələrin yaranma mənbələrini açıq-aydın göstərmişdir.

"Sürü arxasız olmaz"-atalar doğru buyurmuş" (2, 464). "Kəsilən yerdən qan çıxar deyərlər. Atalar yaxşı deyib" (2, 510). Deyərlər: "Papağın keçi dərisindən, xəbərin yoxdur gerisindən" (2, 537).

"İki od arasında" romanında "Palaza bürün el ilə sürün", "Milçək murdar deyil, qəlb bulandırır", "Dil dönər, düzünü söylər", "Qız ağacı-qoz ağacı, hər yetən bir daş atar", "Keçi can hayında qəssab piy axtarır", "Neyləyirəm qızıl teşti ki, içinə qan qusum", "İt-itin ayağın basmaz", "Qurunun oduna, yaşda yanar", "Yaxşı igidin adın eşit, üzün görmə!", "İlan vuran ala çatıdan qorxar" və s. kimi dərin mənalı el sözlərindən tez-tez istifadə etmişdir.

Y.V.Çəmənzəminli olduğu kimi əsərlərinə daxil etdiyi atalar sözü və məsəllərdən başqa forma və məzmun baxımdan dəyişdirilmiş nümunələrdə vardır. Məsələn "İki od arasında" romanında belə bir epizod var.

"Vidadi Vaqiflə razılaşmayaraq dedi:

– Bu zülümləri görən şad ola bilərmi?

Vaqif ciddi bir səslə:

– Şad olmasan nə çıxar ki? – dedi: - Atalar demişkən: Tökülən dolmaz! (2, 588).

Ədib "Tökülən çanaq daha dolmaz" atalar sözünü burada "Tökülən dolmaz" formasına salmışdır. Başqa bir atalar sözündə isə "Dil dönər, düzünü söylər!" (2, 460) nümunəsinin bir neçə variantında işləndiyini görürük. "Dil yanılar, doğrusunu danışar" atalar sözündə ədib "yanıları", "dönər", "danışarı" söylər kimi yazmış və dili daha rəvan, axıcı, səlist etməyə müvəffəq olmuşdur.

Prof. Bəhlul Abdullayev yazır: “Yusif Vəzir atalar sözünə cüzi bir əlavə ilə, sözü başqa bir kəlmə ilə əvəz etməklə təsvirdəki reallığı daha da qüvvətləndirir ” (1, 91).

Y.V.Çəmənzəminli əsərlərində şifahi xalq ədəbiyyatının müxtəlif janrlarından öz yaradıcılığında – “İki od arasında” romanında geniş istifadə etmişdir. Bunlar içərisində xalqı bir yerə toplayıb kütləvi əyləncəni təşkil edən xalq oyunları vardır ki, bu xalq oyunları yazılı ədəbiyyatın bir çox janrının təməl daşında sarsılmaz bünövrə olmuşdur. Y.V.Çəmənzəminlinin “İki od arasında” romanında ədibin təsvir etdiyi zorxanalar da xalq əyləncə və oyunlarından biri hesab olunurdu. Bu tamaşada zorçu öz gücünü, qüvvəsini nümayiş etdirir. Ağır daş qaldırır, onları atıb-tutur. Bəzi hallarda zorxanada pəhləvanlar güləşirdilər.

Y.V.Çəmənzəminlinin romanında təsvir etdiyi zorxana da yaz fəslində, insanların, təbiətin oyanması, sevinc hissinin yüksək olduğu bir vaxtda təşkil edilir. Miyandar (zorxanada idman işlərinə rəhbərlik edən) gəncləri zorxanaya çağırır. Zorxana idman oyunu kimi göstərir və idman fəsli başladı deyə adlandırılır. Təsvir edilmiş zorxana geniş bir dairə ətrafında taxta səkilər yapılmış, üstü taxtapuşla örtülü bir binadan ibarət idi. İlk oyun mil oyununa başladılar. Gənclər iki dəstə olub iki-iki sağ, solda düzülür. Ortalığa qoyulmuş ağac millə bir-bir götürüb nazikdən başlayaraq əllərində oynada-oynada qoşa-qoşa dairəni dolaşır, dincəlir, təkrar mil oynadırdılar. Oyun musiqi sədaları altında, miyandarın göstəricisi ilə aparılırdı. Mil oyunundan sonra güləş oyunu başlayır. Gənclər bir-birinin bədənlərini piyləməyə (yağlamağa) başlayırlar. İki nəfər meydana çıxıb güləşir. Onlar bir-birinin arxasınca dolaşır, şəkilləri doldurmuş camaat qarşısında igidlik göstərmək eşqilə coşurdular. Güləşçilər bir-birinin kürəklərini yerə vurmalı idilər. Ancaq bu vaxt onlar qalib ola bilərdilər. Miyandarın gümrah səsi ilə oyun bitir. Güləşçilər qucaqlaşıb, öpüşürlər. Zorxananın bu adətindən sonra artıq ürəklərdə heç bir kin qala bilməzdi. Barışıb ayrılırdılar (2, 522).

Qeyd olunan əyləncələr gənclərin idmanla məşğul olmasını təmin edə bilən bir əyləncə idi, eyni zamanda bu əyləncələri, oyunları qədim insanlar bəsit formada hazırlasalar da, sonradan həmin bu zorxanalarda təşkil olunana oyunların çoxu, məsələn, güləş dünya miqyasında yüksələrək mühüm idman növünə çevrilmişdir.

Ədibin başqa bir oyunu, fincan oynunu təsvir etmişdir. Qış aylarında ev şəraitində, ocaq başında oynanılan bir oyun, əyləncədir. Fincan oyunu adından da göründüyü kimi fincanlar vasitəsilə oynanılır. Romanda da deyildiyi kimi: Fincan oyunu çox da mürəkkəb bir şey deyildi: qalaylı bir məcməyiyə üzüqoylu on iki princ fincan düzülür, fincanlardan birinin altında bir üzük gizlədilir. Oyunun müvəffəqiyyəti üzüklü fincanı tapmaqda idi (2, 533). Romanda "gül vurmaq" deyilir ki, bu ilk əldə üzüyü tapmaq demək idi. Təsvir edilən bu oyun da xalqımızın yaradıcılıq qabiliyyətini göstərən bir oyundur. Xalq ədəbiyyatımızın janrlarının çoxluğunda istifadə edən Y.V.Çəmənzəminli bu oyunları əsərində təsvir etməklə xalq yaddaşının təzələnməsinə və gələcək nəsillərin bu kimi xalq oyunlarını bilməsinə şərait yaratmışdır.

Romanın digər bir yerində toy mərasimi ilə əlaqədar keçirilən "güvəng oyunu"ndan bəhs edilir. Bu oyun romanda göstərildiyi kimi nədimlərlə oynanılır. Məclisin hər başında bir nədim oturub "güvəng oynu"na başlayır. Bu adi və incə bir rəqs idi, yalnız ayaqlar iştirak etməyirdi, oturaraq qollar və çiyinlər hərəkətə gətirilirdi. Güvəngdən sonra mənzum deyişmələr başlayır. Nədimlər bir-birini sındırmağa çalışırdılar. Bu deyişmələr hazırcavablığın, zərifliyin nümunələri idi (2, 496). Ölkəmizin şimal-qərb rayonların bəzi kəndlərində toy mərasimlərində güvəng oynu hələ də oynanılır.

Y.V.Çəmənzəminli doğma xalqını yaxşı tanıyan, onun tarixinə, milli psixologiyasına və xarakterinə, mənəvi sərvətinə dərindən bələd olan bir qələm sahibi idi. Odur ki, yazıçının yaradıcılığındakı xəlqilik məhz bu köklərə və qaynaqlara onun

dərindən bələd olmasının, xalqının kədərinə də, sevincinə də şərik çıxmasının nəticəsidir. Ədib Azərbaycan folklorunun gözəl bilicisi və toplayıcısı olmaqla, bu tükənməz çeşmədən faydalanmış, həm də bu zəngin xəzinəyə aid dərin elmi-nəzəri mülahizələrin müəllifi olmuşdur. Folklorun müxtəlif məsələlərinə dair bu gün belə öz əhəmiyyətini saxlayan fikirlərin Azərbaycan folklorşünaslığı tarixində mühüm əhəmiyyəti vardır.

## QAYNAQLAR:


1. Abdullayev B. Yusif Vəzir Çəmənzəminli və folklor. Bakı, Yazıçı, 1981, 123 s.
2. Çəmənzəminli Y.V Əsərləri. 3 cilddə, II cild. Bakı, 2005, 663 s
3. Əsatir, əfsanə və rəvayətlər / Tərtib edənlər: A.Acaloğlu, C.Bəydili. Bakı, Şərq-Qərb, 20.05, 302 s.
4. Kitabi-Dədə Qordud. Bakı, Öndər nəşriyyat, 2004, 375 s

# TƏMSİL VƏ NAĞILLARDA MÜŞTƏRƏK MOTİVLƏR

**Sevinc ƏLİYEVA**
***AMEA Folklor İnstitutunun***
***"Folklor və yazılı ədəbiyyat" şöbəsinin***
***elmi işçisi***

Heyvanlar haqqında nağılların əsas özəlliyi onda xalqın dünyagörüşünün, mübarizliyinin, humanist keyfiyyətlərinin əks olunmasıdır. Belə ki, heyvanlar haqqında nağıllar insanları mənəvi cəhətdən zənginləşdirir, kamilləşdirir, onlarda əxlaqi hisləri daha da gücləndirir. Bu müsbət keyfiyyətlərə görədir ki, heyvanlar haqqında nağılların motivləri təmsil yazanlar tərəfindən dönə-dönə işlənmiş, yeni məna çalarları qazanmışdır. Ona görə də heyvanlar haqqında nağıllardan bir çox motiv və əsasən də obrazlar yazılı ədəbiyyata keçmiş, təmsillərdə işlənərək yeni məzmunların yaranmasına səbəb olmuşdur. Məsələn, quyruq motivi heyvanlar haqqında olan iki nağılda vardır. Bu motiv hiyləgərlik, dosta xəyanət kimi məzmunların yaranmasına səbəb olmuşdur. Qasım bəy Zakirin "Tülkü və qurd" adlı təmsilindəki quyruq və hiyləgərlik motivləri "Tülkü ilə canavar" adlı nağıldan götürülmüşdür. Eyni adlı təmsili həm Abbas Səhhət, həm də Abdulla Şaiq yazmışdır. Ancaq bunların heç birində tələ motivi yoxdur. "Tülkü ilə canavar" adlı nağıldan gələn bu motiv yalnız Zakirin təmsilində işlənmişdir:

Bir rubəhi-gühənsalə gedirdi,
Qismət üçün seyri-aləm edirdi.

Obadan kənara gördü, ittifaq,
Atıblar səhrayə bir dünbeyi-çaq.

Diqqət ilə baxıb, tələni seçdi,
Yavuğa düşməyib, uzaqdan keçdi.

Tülkünün diqqətli olması, tələyə düşməməsi süjeti heyvanlar haqqında nağıldan alınmadır. Bundan sonrakı hissədə aldatma motivi vardır.

Aldatma və ya aldanma motivi həm nağıllarda, həm də təmsillərdə geniş yayılmışdır. Həm də aldatma motivində sadəcə hər zaman biclik, hiyləgərlik simvolu olan tülkü hansısa heyvanı və ya insanı aldatmır, özü də aldanır. Bu da simvolların həm heyvanlar haqqında nağıllarda, həm də təmsillərdə yerinə və funksiyasına görə dəyişdiyini isbat edir. Tülkünün aldandığı "Tülküynən xoruz" nağılına diqqət edək. Ac tülkü xoruzu yaxalayıb kənddən kənara çıxarır ki, rahatca yesin. Xoruz ağlı sayəsində tülkünü aldadır:

"Beləliynən, onnar xeyli getdihdən sora bir qəbirsannığa çatıllar. Xoruz bu vax ağlıya-ağlıya tülküyə deyir:

- Görürsənmi o balaca arxı? Ordan axan su göz yaşıdı. Burda yaxşı adamnar – bizim babalarımız yatır. Bir gün biz özümüz də burda yatacıyıx. Gəlsənə bir fate verəh, yoxsa Allahın qəzəbinə gələrih.

Tülkü, xoruzun sözdərinə diqqətnən qulax asannan sora öz-özünə fikirləşir ki, doğurdan da fate verməsə, Allaha xoş getməz.

Tülkü ağzını açıb fatə verməh isdiyəndə xoruz tülkünün ağzınna çıxıb, qanad açır və uçub yaxınnıxdakı ağaca qonur.

Tülkü baxır ki, o allanıb, şikarı əlinnən çıxıb, üzünü qəbirsannığa tutub deyir:

Nə yaman ləfz idi gəldi dişimə
Kül abid olub fatə verən başıma" (2, 114).

Xain dost və ya dostlar motivi həm heyvanlar haqqında nağıllarda, həm də təmsillərdə özünü göstərir. Xain dost motivi heyvanlar haqqında nağıllardan təmsillərə keçmişdir. Belə ki, "Dost dosta tən gərək" nağılında dostluğun səmimiyyət üzərində deyil, tamah, güc üzərində qurulduğunun şahidi oluruq. "Dost dosta tən gərək" nağılında şir, qurd, bir də tülkü dost olurlar.

"Bunlar şərt qoydular ki, hər nə tapsalar bir yerdə yesinlər. Həm də bir-birinə kömək eləsinlər. Bir gün şir bir öküz, qurd bir qoyun, tülkü də bir toyuq gətirdi. Şir qurda dedi:

– Bunları bölüşdür

Qurd dedi:

– Şir ağa, öküz sənin, çünki sən böyüksən. Səndən xırda mənəm, qoyun da mənim. Hamımızdan kiçik tülküdü. Toyuq da tülkünün olsun.

Bu bölgü şirin xoşuna gəlmədi, dartıb qurdun dərisini boğazından çıxartdı, qurdu parça-parça elədi. Tülkü bunu görəndə üzünü şirə tutub dedi:

– Şir ağa, qulaq as, gör mən necə bölürəm.

Bir öküz naharın olsun
Gündüz yeməyin qoyun olsun
Şam yeməyin toyuq olsun
Tülkü kənarda qalsın.

Bu bölgü şirin xoşuna gəldi. Tülküyə afərin dedi. Soruşdu:

– Bu bölgü qaydasın kimdən öyrənmisən?

Tülkü gülə-gülə dedi:

– Sən qurdun dərisini boğazından çıxaranda mən dərsimi aldım" (1, 68).

Qasım bəy Zakirdə tısbağa, ilan və dəvənin dostluğu, yəni xain dostlar motivi nağıllardan alınmışdır. Təmsildə xain dostlar tısbağa, ilan və dəvədirsə, heyvanlar haqqında nağılın qəhrəmanları isə şir, qurd və tülküdür. Zakir mövzunu da qismən dəyişmiş, qaravəllilərdə rast gəldiyimiz yaş motivini təmsilə daxil etmişdir. Nağılda həm də pay bölməyi dərisi üzülən qurddan öyrənən tülkü hiyləgərliyin, həyatda qalmağın formulunu tapmış olur.

Qasım bəy Zakirin "Xain yoldaşlar haqqında" təmsili bu baxımdan səciyyəvi nümunə ola bilər. İlanla tısbağanın hiyləsini duyan dəvə yeməyi onların əlindən alır, hər ikisini də cəzalandırır. Təmsilin poetikasına uyğun olaraq müəllif finalda əxlaqi

nəticə çıxarır, dostluqda xəyanəti, yalnız öz mənafeyini düşünməyi mənfi hal kimi pisləyir:

Dəvə zahir edib bir nimxəndə,
Dedi: "öz yaşımı deyərəm mən də".
Götürüb ağzına yerdən çörəyi,
Başladı ahəstə tər göyşəməyi.
Dedi: "ey mədəni-hədyanü kəzaf!
Bu söz ilə dəvə uşaq imiş saf"
Lazımdır şol yerdə bu növ misal
Nəsihət eyləsin xəlqə əhli-hal.
Özündən böyüyə etsə xəyanət,
Ac qalır, etməsin, əlbət, səd əlbət.
Bir adam ki, qoya hiylə binası,
Aqibət özünə dəyər xətası.
Yoldaş yoldaş ilə xədəng nisbət,
Düz gərək ta ruzi-həşru qiyamət.
Əgər əyri ola dəruni, çün yay,
Kirişi qırılıb axır olur zay (7, 344).

Əslində heyvanlar arasında pay bölmək motivi Zakirin "Aslan, qurd və çaqqal" təmsilində də vardır. Burada aslan, qurd və çaqqalın dostluğu sınanır, üç gün, üç gecə ac qalan dostların pis niyyətləri ortaya çıxır. Nağılda "mən dərsimi aldım" zərbi-məsəli Zakirin təmsilində daha da poetikləşir. Ona görədir ki, çaqqalın sözləri bu gün də zərbi-məsəl kimi işlədilir:

Qalib olmuş idi şirə iştəha,
Qurda dedi: – "Bölgü sənindi, durma,
Təqsim eylə, olaq yeməyə məşğul".
Anlamayıb fikrin kürki-biüsul,
Dedi: – "Ey sərvər, cənabi-bari,
Öz əlilə göydə bölüb buları.
Qoyun sənin, quzu mənim, çaqqalə
Göndərib toyuğu xaliq nəvalə".
Gəlmədi bu sözlər şirin xoşuna,

Bir tapança saldı qurdun başına.
İki gözü ol biçarə fəqirin,
Çıxıb yerə düşdü zərbindən şirin.

Çaqqal zərbi-məsəli məhz bu hadisədən sonra çəkir ki, bu da şairin əyani şəkildə hadisəni nəzmə çəkməsi ilə daha da konkretlik qazanır. Beləliklə, çaqqal üç heyvanın üçünü də şirə verməklə labüd ölümdən qurtulmuş olur.

Təmsillərdə tez-tez qarşımıza çıxan doğruluq, düzgünlük, insanlara faydalı məsləhətlər vermək və s. kimi motivlər də heyvanlar haqqında nağıllardan alınmadır. Ədalətlilik, doğruluq, düzgünlük kimi qədim zamanlardan bəri insanları düşündürən ümumbəşəri anlayışlar həm heyvan miflərində, həm heyvanlar haqqında nağıllarda, həm apoloqlarda, həm də təmsillərdə müştərək motivlərin yaranmasına səbəb olmuşdur. Mənəvi saflığa, yüksək insani keyfiyyətlərə və xeyirxah əməllərə çağırış heyvanlar haqqında nağıllarla təmsilləri məzmun planında bir-birinə yaxınlaşdıran əsas keyfiyyət olmuşdur. Məsələn, sədaqətli olmaq motivi heyvanlar haqqında nağıllardan təmsillərə keçmişdir. Firidun bəy Köçərlinin "Balalara hədiyyə" kitabında verdiyi "Nazikbənazik-Tazikbətazik" nağılında ailə həyatında və dostluqdakı sədaqət Qasım bəy Zakirin "Tısbağa, qarğa, kəsəyən, ahu" təmsilində dostların sədaqətinə çevrilmişdir. "Nazikbənazik-Tazikbətazik" nağılında deyilir ki, qarlı qış günündə Nazikbənazik (bit) Tazikbətaziyə (birə) umac bişirir ki, gəlib yesin. Tazikbətazik isə dama çıxıb qar kürədiyi yerdə bacadan sürüşür və isti umac qazanına düşüb ölür. Nazikbənazik ərinin ölümünə çox kədərlənir. Bu nağılda da sədaqətli dostlar motivi vardır. Belə ki, Tazikbətaziyin dostları dəvə, çinar, qarğa, sərçə bu xəbəri eşidəndə Nazikbənaziyi tək buraxmırlar və onun dərdinə şərik olurlar (5, 16).

Bu da ilk növbədə insanların bir-birilə ünsiyyət ehtiyacından doğmuşdur. Bu ünsiyyətin qurulmasında böyük potensial qüvvəyə, lakonik ifadə üsuluna və geniş məzmuna malik olan, insanda dərin fikirlər, bəşəri hisslər, yüksək mənəvi-əxlaqi key-

fiyyətlər yaradan, insanı daha da zənginləşdirən nağılların da rolu böyük olub. Əməkdar elm xadimi, professor Kamran Əliyevin də qeyd etdiyi kimi, xalq yaradıcılığının gözəlliyi onun təbiiliyində, səmimiliyində və sadəliyindədir (3, 23). Nağılların yerli-yerində, zamanında söylənilməsi insanların məntiqi təfəkkürünün inkişafında mühüm rol oynayan amil kimi diqqəti cəlb edir. Nağıllar insan ruhunun müqəddəs yazısı, insan fikirlərinin güzgüsü, min illərin müşahidəsinin bədiiləşmiş şəklidir. Nağıllar xalqın şüurudur, onun mənəvi həyatının diriliyidir. Nağıl sadəcə əyləndirmək üçün deyildir, hamının-qocanın da, cavanın da, uşaqların da ona ehtiyacı var. Nağıllar bizi ötən əsrlərin mənəvi həyatının varisi edir. Nağıllar insanda görmədiyimiz, bilmədiyimiz cəhətləri güzgü kimi göstərmək qüdrətinə malikdir.

Həm dostların bir-birinə hiylə gəlməsi, bir-birini aldatmağa, bir-birinə xainlik etməyə çalışması, həm də dostların bir-birini darda qoymaması, ən təhlükəli anda da birlikdə olmaları, dostlarını xilas etmək üçün bütün güclərini birləşdirmələri folklordan gələn xain dostlar və sadiq dostlar motivinin yazılı ədəbiyyatdakı variantlarıdır. Bu cür təmsillər müəllif əlavələrinə, izahlarına baxmayaraq yenə də folklor motivlərinin yenidən işlənmiş şəklindən başqa bir şey deyildir.

Burada əsas məsələ motivlərin oxşar və ya fərqli olmasına baxmayaraq onların həm nağıllarda, həm də təmsillərdə sadə inkişaf süjetinə malik olması ilə seçilməsidir. Ona görə də heyvanlardan bəhs edən nağıllarda sonluq nikbin də olsa, bədbin də olsa hadisələr təbii, sadə formada inkişaf edir. Eyni süjet-kompozisiya elementi təmsillərə də aiddir.

Hikmət Ziyanın bir təmsili "Qarı və pişik" nağılı ilə səsləşir, daha doğrusu şair təmsildə lovğalıq motivini heyvanlar haqqında nağıldan almışdır.

Pişik bığına baxıb,
Danışdı kişilikdən.

Siçana xoruzlanıb,
Qorxdu, qaçdı küçükdən (4, 143).

Heyvanlar haqqında nağıllardan təmsillərə keçən bir çox motivlər şairlər tərəfindən o qədər sərrast işlənmişdir ki, sonradan məntiqi sonluq zərbi-məsələ çevrilmişdir. Bunlardan biri "ədalət olmayan mülk bərbad olar" məsəlidir ki, bayquşların söhbəti motivi şəklində yazılı ədəbiyyata gətirilmişdir. Məsələn, Nizami Gəncəvinin "Sirlər xəzinəsi" məsnəvisində "Nuşirəvan və bayquşların söhbəti" adlı təmsilində bunu açıqca görürük.

Sadəcə nağıldan gələn hazır motivlərin məsələ, aforizmə çevrilməsindən söhbət getmir, həm də eyni motivin təmsildə aforizmə və ya məsələ dönüşməsindən gedir. Belə təmsillərdən çıxarılan nəticə aforizmə, bəzən də məsələ dönüşür. Bir çox halda heyvanlar haqqında nağıllarda buna rast gəlmək mümkün deyildir. Azərbaycan təmsil ədəbiyyatının görkəmli nümayəndəsi Qasım bəy Zakirin hekayə və təmsillərində aforizmə çevrilmiş ifadələr üstünlük təşkil edir. Belə ki, formaca şərq və qərb təmsillərindəki bir çox ənənəvi xüsusiyyətləri yaradıcılığına gətirən Zakir hekayə və təmsillərdə əvvəl əhvalatı danışır, sonra isə əsas məqsədi yığcam, ümumiləşdirilmiş şəkildə verir. Hekayə və təmsillər məsnəvi formasında, geniş xalq kütlələrinin başa düşdüyü canlı və sadə dildə yazılmışdır (8, 17). Yuxarıda Qasım bəy Zakirin "Dost dosta tən gərək" nağılı əsasında yazdığı "Aslan, qurd və çaqqal" təmsilində zərbi-məsələ çevrilmiş sonluq (Dedi: – "Mən bilməzdim binadan, başdan. Öyrəndim o gözü çıxan qardaşdan") haqqında danışdıq.

Nağıllardan keçən motivlərin dəyişikliyə uğraması təmsil yazan şairlərin məhdud bir çərçivədə qalmayıb geniş ümumiləşdirmə apardığını, heyvanlar haqqında nağılları yaxşı bildiyini göstərir. Təmsil müəllifləri aldıqları mövzuları, motiv və süjetləri çox vaxt olduğu kimi işləmir, onu dəyişir, yeni məzmunla, xüsusən də ibrətamiz ifadələrlə bəzəyirlər. Bir çox mütəxəssisin Mirzə Ələkbər Sabirin İ.Krılovun "Qarğa və tülkü" təmsilini

sərbəst şəkildə dilimizə çevirdiyini dediyi (6, 7) eyni adlı təmsil əslində yuxarıda qısa məzmununu verdiyimiz heyvanlar haqqında nağıldan faydalanılmaqla yaranmışdır. İ.Krılov da bu mövzunu Lafontendən alaraq işləmişdir. Orijinal deyə biləcəyimiz səviyyədə olan "Qarğa və tülkü" təmsili bu cəhətdən spesifikdir:

Belə sözdən fərəhlənib qarğa,
Ağzını açdı, ta кi, etsin "ğa".
"Ğa" edərкən hənuz bircə кərə
Pendiri dimdiyindən endi yerə.
Tülкü fövrən havada qapdı, yedi,
Qarğaya tənə ilə böylə dedi:
"Olmasaydı cahanda sarsaqlar,
Ac qalardı, yəqin кi, yaltaqlar" (5, 360).

Mirzə Ələkbər Sabir "Qarğa və tülkü" təmsilində iki obrazın misalında bir axmaqla bir yaltağın hekayəsini təqdim etmişdir.

"Qarğa və Tülkü" təmsilinin orijinala yaxın tərcüməsini verən A.Şaiqdə isə Sabirin son misraları kimi didaktik kəsər yoxdur.

Suya girmədən onun dərinliyini yoxla, yaxud çayı görmədən çırmanma məsəli motiv kimi həm heyvanlar haqqında nağıllarda, həm də təmsillərdə mövcuddur. "Tülkü və qurd" təmsilində tülkü nağılda olduğu kimi orucam deyir, qurdu aldadaraq tələyə salır və quyruğu ələ keçirir. Zakir nağıldan fərqli olaraq təmsili nəsihətamiz bir sonluqla bitirir:

Hər kimsə ola əqlü fəhm-huş,
Bu məsəli eyləməsin fəramuş:
Əvvəl gərək suyu yoxlasın möhkəm,
Boyluyandan sonra soyunsun adəm (5, 46).

Həm təmsillərdə, həm də heyvanlar haqqında nağıllarda bir çox müştərək motivlər vardır ki, bu motivlərə hətta lətifələrdə, məzəli hekayələrdə də rast gəlirik. Məsələn, məzəli əhvalat kimi çox yayılan dəvənin toya dəvət edilməsi, onun da oynamaq, oxumaq bilmədiyini, bu dəvətin su, yaxud duz gətirmək

üçün olduğunu söyləməsi təmsillərdə də eyni ilə təkrarlanır. Bu məzəli əhvalatın yazılı ədəbiyyatın nümunəsi olan təmsillərə düşməsinə ilk olaraq Xaqaninin bir epik şeirində rast gəlirik. Burada sadəcə olaraq dəvənin yerində eşşək obrazı iştirak edir. Bu təmsil bu gün lətifə şəklində danışılan məzəli əhvalat olub, Xaqani tərəfindən təmsilləşdirilmişdir. Bu da farsca yazan şairin xalq arasında dolaşan heyvanlar haqqında nağıllardan, lətifələrdən istifadə etdiyini sübut edir. Ancaq onu da demək lazımdır ki, həm Xaqaninin, həm də Nizaminin təmsilləri şifahi xalq ədəbiyyatından alınsa da, bu təmsillər eyni zamanda xalq arasında məşhurlaşaraq nağıllara və lətifələrə də təsir etmişdir.

Bəhs olunan əhvalat Xaqani Şirvaninin bir əsərində Kufəli bir gözəlin kor bir əcəmi varına, puluna görə sevməsi səhnəsində verilmişdir. Kor əcəm gözəlin saxta sevgisinə, yalan sözlərinə inanır. Şair, Kor əcəmə sevgisinin yalan üzərində qurulduğuna inandırmaq üçün aşağıdakı təmsili söyləyir:

Eşşəyə dedilər: "Buyur toya gəl",
Eşşək qah-qah çəkib güldü nəhayət.
Dedi: "Siz istəyən rəqqas deyiləm,
Nə də çalğıçı tək tapmışam şöhrət.
Hamballıq etməyə çağırırsınız,
Su, odun daşımaq lazımdır əlbət" (10, 426).

Burada təmsil əslində fikri qüvvətləndirmək, ideyanı daha da qabarıq vermək üçün yazılmışdır. Eyni obrazdan F.Kərimzadə "Xudafərin körpüsü" əsərində də istifadə etmişdir: "Dəvəni toya çağırdılar, bikef oldu. Soruşdular bu nə hikmətdi? Cavab verdi ki, oynamağa çağırmırlar ha, ya duza göndərəcəklər, ya suya, ya da oduna."

Lovğalıq, təkəbbür, özündən razılıq kimi motivlər üzərində qurulmuş heyvanlar haqqında nağıllarda ("Qarı və pişik", "Dəvə və tikan" və s.) mövzu təmsillərə keçmiş, müəyyən dəyişikliyə uğrasa da əvvəlki əsas ideyasını qoruya bilmişdir. Burada dəyişən obrazlar, məzmundakı epizodik xətlərdir.

Həm Molla Nəsrəddin lətifələrindən bəzilərini, həm bəzi əfsanələri, həm də heyvanlar haqqında nağıllardan bir neçəsini nəzmə çəkməklə uşaqlar üçün ədəbiyyat yaradan böyük satirik şair Sabir eyni nağıl mövzusunu təmsil şəklində işləmişdir. Təbii ki, Sabirin uşaqlar üçün yazdığı orijinal, sadə və çox anlaşıqlı olan şeirləri ilə bərabər heyvanlar haqqında nağıllardan, lətifələrdən alınan motiv və süjetli təmsilləri də vardır. Ümumən buna bənzər təmsillərin motiv və süjetlərinin bəziləri yazılı ədəbiyyatdan, Kəlilə və Dimnədən, Sədidən, Mövlanədən alındığı kimi orijinal olanları da vardır.

## QAYNAQLAR:


1. Azərbaycan nağılları, V cild. Bakı: “Çıraq”, 2004, 336 səh
2. Azərbaycan folkloru antologiyası. X kitab, İrəvan Çuxuru folkloru. Tərtib edənlər: H.İsmayılov, Ə.Ələkbərli. Bakı: “Səda”, 2004, 471 səh.
3. Əliyev Kamran. Romantizm və folklor. Bakı: “Elm”, 2006, 160 səh.
4. Hikmət Ziya. Təmsillər. Bakı: “Yazıçı”, 1982, 237 səh.
5. Köçərli F. Balalara hədiyyə. Bakı: “Gənclik”, 1987, 75 səh.
6. Krılov İ.A. Təmsillər. Tərtib edən: Telli İbrahimova, ön söz: Məmməd Arif. Bakı: “Şərq-Qərb”, 2006, 144 səh.
7. Zakir Qasım bəy. Seçilmiş əsərləri. Bakı: “Yazıçı”, 1984
8. Zakir Qasım bəy. Seçilmiş əsərləri. Bakı: “Avrasiya Press”, 2005, 400 səh.
9. Sabir Mirzə Ələkbər. Hophopnamə, 2-ci cild. Bakı: “Şərq-Qərb”, 2004, 384 səh.
10. Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı: “Lider”, 2004, 672 səh.

# ƏMƏK NƏĞMƏLƏRİ VƏ UŞAQ ŞEİRLƏRİ

**Gülnar MƏMMƏDOVA**
*AMEA Folklor İnstitutunun doktorantı*

Xalq yaradıcılığının spesifik xüsusiyyətlərindən biri janr sinkretikliyidir. Bir janra aid olan forma imkanları digər janrlar üçün də keçərli ola bilir. Məsələn, bayatı forması folklorda çox geniş işlənmə arealına malikdir. Bu baxımdan uşaq şeirlərində folklor janrları kimi şəkli əlamətlərin qovuşuqluğu ilə zəngindir. Yazıçı və şairlər folklordan yaradıcı şəkildə istifadə edərək yeni tipli nümunələr yaratmışlar.

Ədəbiyyatımızın ümumi mənzərəsinə nəzər yetirdikdə, istər kollektiv yaradıcılıq məhsulu olan şifahi xalq yaradıcılığında, istərsə də xalq yaradıcılığının dərin kökləri üzərində inkişaf edən fərdi yaradıcılıqda da ən geniş yayılmış poetik formanın bayatı forması olduğu nəzərə çarpır. Əmək nəğmələrinin də böyük bir qisminin bayatı formasından, yəni dördlükdən istifadə edilərək yaradıldığı məlumdur. Bu səbəbdən dolayı uşaq ədəbiyyatında əmək nəğmələrinin izlərini müəyyən edərkən məzmun xüsusiyyətini, giriş pişrovlarını əsas götürmək daha doğru olardı.

Bir məqamı da qeyd edək ki, əksər tədqiqatlarda bayatı forması dedikdə 7 hecadan, 4 misradan və aaba şəklində qafiyələnmə formasında olan poetik qəliblər diqqətə çatdırılır. Bayatı şəklinin mövcud olan müxtəlif qafiyələnmə formalarından az hallarda bəhs olunur. "Həmin qafiyə sisteminin mənzərəsini belə təsəvvür etmək olar: 1) Dörd misra həmqafiyə ola bilər (a,a,a,a). 2) Hər qoşa misra həmqafiyə ola bilər (a,a;b,b). 3) Birinci və üçüncü, ikinci və dördüncü misralar həmqafiyə ola bilər (a,b,a,b). 4) Üç misra həmqafiyə olub dördüncü misra sərbəst buraxıla bilər (a,a,a,b). 5) Bir, iki və dördüncü misralar həmqafiyə olub üçüncü misra sərbəst buraxıla bilər (a,a,b,a)" (2,11).

Bayatının-dördlüyün müxtəlif qafiyələnmə formalarından əmək nəğmələrində və digər folklor örnəklərində də rast gəlinir. Həmçinin yazılı ədəbiyyata aid şeir nümunələrində aaba qafiyələnmə forması geniş istifadə olunsa da digər formalarda da yaradılan nümunələr mövcuddur. Məsələn, A.Şaiqin "Uşaq və dovşan" şeiri yeddilik poetik qəlibində yazılmışdır və hər bəndində ayrı qafiyələnmədən istifadə olunur. Birinci misra aaaa, ikinci misra isə aabb şəklində qafiyələnmişdir.

Uşaq:

– Dovşan, dovşan, a dovşan.
Qaçma dayan, a dovşan.
Qaçma səni sevəndən,
Can kimi istəyəndən (6,10).

A.Şaiqin bayatının geniş yayılmış aaba şəklində qafiyələnmə formasında yazılan "Eloğlu" pyesindən olan nümunəyə nəzər salaq:

Keçim, keçim, şən keçim,
Atlanıb düşən keçim.
Böyü, oğlaq doğ bizə,
Südündən ver mən içim (6, 376).

Başlanğıc misra sayaçı pişrovuyla başlanır, xalq ədəbiyyatı üçün səciyyəvi olan sintaktik təkrardan istifadə olunub. Məzmununda da bol məhsul əldə etmək arzusu ifadə edilir. Deməli, şeir nümunəsi sözlərin həm məzmun, həm də forma imkanlarını mənimsəmişdir.

A.Şaiqin "Dovşan" şeirində şifahi xalq şeirlərinə aid forma xüsusiyyəti qorunub saxlanmışdır. Sayaçı sözlərə xas olan cəhətlərdən biri heyvana aid olan real təbii xüsusiyyətlərin əks olumasıdır. Bu baxımından, "Dovşan şeirində də dovşana aid xüsusiyyətlər əks olunmuşdur. Amma sayaçı sözlərdəki kimi bol məhsul əldə etmək arzusu deyil, dovşanın insanlara vurduğu ziyan ifadə edilmişdir.

Dovşana bax, dovşana
*Dovşan qaçdı* bostana,
Yedi qovun qarpızı,
Saldı bizi ziyana (6, 7).

Nağıllarımızda kifayət qədər dovşanla bağlı nümunələr vardır. Folklorda dovşan obrazı qorxaqlığın simvoludur. A.Şaiqin hər iki şeirində ("Dovşan", "Uşaq və Dovşan") dovşan obrazının folklorda müşahidə olunan xarakteri öz əksini tapmışdır. Belə ki, Dovşanın folklordakı xarakterik xüsusiyyəti olan *qorxaqlıq* hər iki şeirdə adi biri fadə olaraq işlədilmişdir (*Dovşan qaçdı bostana, Qaçma dayan a dovşan).*

R.Əfəndizadə də "Keçi" şeirində əmək nəğmələrinin müxtəlif elementlərindən yaradıcı şəkildə bəhrələnmişdir. Qeyd edək ki, sayaçı nəğmələrində ən çox yer verilən heyvanlardan birincisi qoyundursa, ikincisi keçidir. Həmçinin folklor ənənəsində keçi obrazının geniş işlənmə dairəsinə malik olduğu da məlumdur.

Başda uzun buynuzları,
Yekəsaqqal, tükü sarı
Keçim gedir dağ yuxarı,
Aman, a keçim, a keçim,
Dayan, a keçim, a keçim (3,32).

Bəndin ilk misrasında keçinin buynuzları təsvir olunur. Bu əlamət Keçiyə aid olan əksər nümunələrdə öz ifadəsini tapır. Bir tərəfdən qeri-adi bir şey yoxdur və heyvanın malik olduğu fiziki quruluşundan irəli gələn fikirdir. Digər tərəfdən yanaşsaq, buynuzluluq, uzun saqqala sahib olmanın demonik varlıqlara-yeraltı aləmin təmsilçilərinə aid element olduğu da bəllidir. Bundan da əlavə ilkin mifik təsəvvürlərin yaranış mənbəyinin insanın primitiv şüurunun dərk edə, tanıya bilmədiyi ətraf aləm, təbiət olduğu aydın məsələdir. Məsələn, heyvanları əhliləşdirmədən öncə keçinin xarici görünüşü insanların şüurunda qorxu və vahimə yaradacaq bir varlıq olaraq qala bilərdi.

Təsadüfi deyil ki, "Şəngülüm, Şüngülüm, Məngülüm" nağılında keçinin qurdu yenməsində əsas rolu onun itilənmiş buynuzları oynayır. Sehrli nağıllarımızdan da məlumdur ki, sehrli qüvvəyə malik olan düşmənlərlə mübarizədə qəhrəmanın da sehrli bir vasitəylə silahlanması lazım gəlir və mütləqdir. Müxtəlif nümunələrdə bu element fərqli şəkildə ifadə oluna bilər. Buna görə də dəmirçinin keçinin buynuzunu itiləməsi nəticəsində keçinin qalib olmasının təminatı yaranmış olur. Həmin vasitəylədə qaranlıq aləmə (qurdun qarnı nəzərdə tutulur) daxil ola bilir. Qaranlıq aləm dedikdə o biri dünya-ölülər aləmi nəzərdə tutulur. Mifoloji təsəvürlərdən də o biri dünyanın qaranlıq təsvir olunduğu bəllidir.

A.Şaiqin vahid süjet xətti olan "Keçi" şeirindən fərqli olaraq R.Əfəndizadənin 6 bənddən ibarət olan şeirində isə vahid süjet xətti yoxdur və sayaçı sözlərdə olduğu kimi ayrı-ayrı bəndlərdə müxtəlif fikirlər öz əksini tapmışdır. Həmçinin hər bəndin sonunda sintaktik təkrarlardan istifadə olunmuşdur ki, bu da folklor üslubunun göstəricisidir.

Keçim, adın Qurban ağa,
Yavaş-yavaş en aşağa,
Gözəl xanım səni sağa,
Aman, a keçim, keçim,
Dayan, a keçim, a keçim (3,32).

R.Əfəndizadənin bu şeiri Abdulla Şaiqin "Quzu" şeiri ilə həm forma, həm də məzmun baxımından oxşardır. R.Əfəndizadənin "Keçi" şeirində olduğu kimi A.Şaiqin "Quzu" şeirində də sayaçı sözlərin məzmun xüsusiyyətləri saxlanılmışdır.

Sayaçı sözlərin təsiri ilə yazılmış bir sıra şeirlərdə müxtəlif folklor obrazlarının transformasiyası müşahidə olunur. Bunlardan biri də Fatı qarı obrazıdır. Nümunə üçün "Quzu" şeirindən olan iki misraya nəzər salaq:

Qoyunları çoban yığar,
Fatı xala gəlib sağar (6,13)

Fatı qarı və bütünlükdə qarı obrazları folklormuzda böyük bir surətlər qalereyası təşkil edir. Qarı obrazları, əsasən, xeyir və şəri təmsil etməklə iki böyük qrupa bölünür. "Keçəl Məhəmməd" nağlında olduğu kimi Fatı qarı nağıllarımızda əməkçi qadın obrazı olaraq da təsvir edilir. A.Şaiqin "Çoban mahnısı" şeirində çobanın dilindən verilən xalq şeiri nümunəsində də həmin ada rast gəlirik. Deməli, Fatı qarı obrazı sayaçı nəğmələrinin də obrazlarından biridir və sayaçı sözlərinin təsiri ilə yazılmış uşaq şeirlərində də işlədilməsi bununla bağlıdır.

"Yaşıllanıb çəmən, bayır,
Səfalanıb dərə, bayır,
İnəklərim, ot otlayın,
Sabaha süd hazırlayın!
Sizigözətləyir Fatı
Əlində badya, həm çatı (6,11).

Hər iki şeir beşlikdə yazılmışdır, nəqarətdən istifadə olunmuşdur. Abdulla Şaiqin şeiri 1906-cı ildə, R.Əfəndizadənin şeiri isə 1912-ci ildə qələmə alınmışdır. R.Əfəndizadənin A.Şaiqdən yararlandığı fikrini söyləmək də mümkündür. Həmçinin R.Əfəndizadənin "Quş", "Qırqovul, "Durna" şeirlərində, A.Səhhətin "Quşlar", "Qaranquş balaları" şeirlərində də sayaçı sözlərin təsiri nəzərə çarpır. Həmçinin A.Şaiqin "Yetim cücə" şeiridə sayaçı sözlərin imkanlarından istifadə ilə yaradılmışdır.

A.Şaiqin əməyin tərənnümünə həsr olunan "Yeni köməkçi" şeirində folklorda geniş yer tutan obrazdan istifadə edilmişdir. A.Şaiq bu şeirdə folklor obrazından yaradıcı şəkildə bəhrələnərək mükəmməl nümunə yaratmışdır. İlk baxışda tarlada çalışan ataya övladın yardımı təsvir olunursa, digər tərəfdən obrazın adında boluğun, məhsuldarlığın yaranmasının, taxılın yetişməsinin vacib elementi olan günəş enerjisinin, istiliyin əks olunduğu nəzərə çarpır.

Tarlaya gəldi Nəbi,
Gördü səhərdən bəri

Atası tək işləyir,
Tarlasını xışlayır (6,8).

M.Seyidov qədim azərbyacanlıların inanclarında bu obraza geniş yer verildiyini qeyd edir. "Xızır-(Xıdır)-Xızır İlyas-Xızır Nəbi mərasimində azərbaycanlılar hər şeydən öncə yazın uğurlu gəlməsi üçün istiliyi vəsf edir, onun həsrəti, intizarı ilə yaşayırdılar. Xalqı daha çox od-Günəş-istilik maraqlandırırdı" (5, 104).

Əmək nəğmələrinin digər növlərinə aid olan nəğmələrlə oxşarlıq təşkil edən nümunələrə də uşaq ədəbiyyatında rast gəlirik. Abdulla Şaiqin "Eloğlu" pyesində Anaxanımın dilindən oxunan parçanı xatırlayaq:

Allı, bəzəkli xalçam,
Güllü çiçəkli xalçam!
Nənəm məni toxumuş,
Bayatıdan oxumuş
Gözəldir hər naxışın,
Can verir hər baxışın. (6,351)

İlk baxışda məzmunu hana nəğmələrini xatırladır. Allı, güllü, bəzəkli kimi ifadələr hana nəğmələrində geniş istifadə olunan sözlərdir. Həm şeiri təşkil edən ifadələr folklordan gəlmə ifadələrdir, həm də toxuma prosesinin insanların həyatının hadisələrini özündə əks etdirən bayatıların sədaları altında getdiyi nəzərə çarpır.

Uşaq ədəbiyyatında folklordan bəhrələnməyin yollarından biridə xalq yaradıcılığından götürülən poetik parçaların heç bir əməliyyat aparılmadan istifadəsidir. Abbas Səhhətin "Köç" şeirində yaşayan parçaya nəzər salaq:

"Ağ dəvə alçaq gedər,
Qolunda qolçaq gedər.
Ağ dəvənin gözləri,
Yerə dəyər dizləri.
Endi çaya yuh-yuh,
Ağca maya yuh-yuh" (4,174)

Beləliklə, əmək nəğmələrinin forma və məzmun imkanları uşaq şeirində geniş dairədə işlədilmişdir.

**QAYNAQLAR:**

1. Azərbaycan nağılları. Beş cilddə. I cild, Bakı, "Şərq-Qərb", 2005, 360 səh.
2. Əliyev K. Açıq kitab-"Dədə Qorqud", Elm və təhsil, 2015, 116 səh.
3. Əfəndiyev R. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb, 2006, 120 səh.
4. Səhhət A. Seçilmiş əsərləri, Bakı, Lider nəşriyyatı, 2005, 456 səh.
5. Seyidov M. Azərbaycan mifik təfəkürün qaynaqları. Bakı,"Yazıçı",1983, 326 səh
6. Şaiq A. Seçilmiş əsərləri. 3 cilddə. III cild. Bakı, "AVRASİYA PRESS", 2005, 536 səh.

# RƏYLƏR

## FOLKLORUN YAZILI ƏDƏBİYYATDA İNİKASI

**Tahir ORUCOV**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Folklor İnstitutunun***
***aparıcı elmi işçisi***

Azərbaycan ədəbiyyatında folklor dəyərləri ilə yazılı ədəbiyyatın qarşılıqlı əlaqəsi öyrənilməyə başlandığı vaxtdan etibarən o, milli ədəbiyyatın silsilə problemlərini əks etdirə bilən yaradıcılıq sahəsi kimi özünü göstərməyə başladı və daim diqqət mərkəzində oldu. Azərbaycan ədəbiyyatının getdikcə bu yeni dəyərlərə daha möhkəm söykənməsi, şübhəsiz ki, onun bəhrələndiyi qaynaqlar və xüsusilə əvəzsiz folklor dəyərləri ilə sıx bağlı idi. Əgər XIX əsrin maarifçi ədəbiyyatı, xüsusilə A.Bakıxanov, İ. Qutqaşınlı, M.Ş. Vazeh, M.F.Axundov, Q.Zakir, S.Ə.Şirvani və başqaları bu qaynaqdan bəhrələnib milli nəsr, dramaturgiya və poeziyaya xalqın milli-mənəvi düşüncəsinin qeyri-mütəşəkkil axınını yaratmışdılarsa, XX əsr ədəbiyyatında folklor, folklorizm özünü yeni məzmunda, daha mütəşəkkil formada göstərməyə başladı.

Azərbaycan ədəbiyyatında folklorizm, əsasən, üç formada – mətnaltı qəlibdə, mətndaxili üslubda və müstəqil folklor süjetlərinin, eləcə də folklor motivlərinin ədəbiyyata gətirilməsi formasında özünü göstərdi. Amma təəssüf ki, bir sıra istisnalara, xüsusilə ayrı-ayrı ədiblərin folklor süjetlərindən öz əsərlərində istifadəsin əks etdirən bir çox tədqiqatların aparılmasına baxmayaraq, ümumilikdə problemin geniş tədqiqinə, Azərbaycan ədəbiyyatında folklorizmin meydana gəlməsi və nəzərə çarpan üç

mühüm qəlibdə geniş şəkildə öyrənilməsinə, demək olar ki, indi-indi başlanılmışdır.

Folklor süjetləri və folklorizm Azərbaycan ədəbiyyatının qüdrətli yüksəlişinin, xalqın milli-mənəvi, eləcə də dini-əxlaqi dəyərlərinin ədəbiyyatımızda bədii təcəssümünün başlıca vasitələrindən biridir. Folklor süjet və motivlərinin bu gün ayrıca tədqiqata cəlb edilməsi bu ədəbiyyatın təkcə törəniş və inkişaf istiqamətlərini öyrənməyə deyil, eyni zamanda sonrakı mərhələlərdə, ayrı-ayrı epoxal dönəmlərdə milli həyatı əks etdirmək, özünün etik-estetik dəyərini qoruyub saxlamaq, xalqın yeni şəraitdə davam və inkişaf edən həyatının yazılı ədəbiyyatda ənənəvi ardıcıllıqda əks olunmasına, inikasına imkan verir.

Təbii ki, bunlar bütövlükdə XX əsr Azərbaycan ədəbiyyatını dəyərləndirməyə, ona yeni baxışların formalaşmasına və ədəbiyyatımızın ayrı-ayrı dövrləri, mərhələləri və ədəbi simaları barədə müasir mərhələdə daha doğru qənaətlərə gəlməyə yol açır. Azərbaycan yazılı ədəbiyyatı və folklorun qarşılıqlı əlaqələri ədəbiyyatımızı təkcə məzmunca tamamlamamış, eyni zamanda ona yeni mündəricə vermiş, etik və estetik cəhətdən onu zənginləşdirmişdir. Folklorla yazılı ədəbiyyatın qarşılıqlı əlaqəsi onun mövcud olduğu bütün dövrlərdə ədəbi-nəzəri fikrin aktual problemlərindən olmuşdur. Yazılı ədəbiyyat və folklor probleminin öyrənilməsi bu gün daha önəmli, daha aktual məsələ olduğundan, Azərbaycan folklorşünaslığında son zamanlar bu məsələnin araşdırılmasına, problemlərin elmi-nəzəri baxımdan ümumiləşdirilməsinə maraq daha da artmışdır. Çünki ədəbiyyatımızı, o cümlədən folklorumuzu yeni istiqamətdə araşdırmaq, onun daxili məzmun və məna əhəmiyyətini, xalq həyatına dərin köklərlə bağlılığını öyrənmək üçün folklor və yazılı ədəbiyyat əlaqələrinin qarşılıqlı şəkildə araşdırılması çağdaş dönəm üçün çox aktualdır.

Bu baxımdan, 2013-cü ildə AMEA Folklor İnstitutunda çapdan çıxan, elmi redaktoru filologiya üzrə elmlər doktoru

Muxtar İmanov (Kazımoğlu) olan 236 səhifəlik "Folklor və yazılı ədəbiyyat" (I hissə), (Bakı, "Nurlan", 2013) kitabı folklorla yazılı ədəbiyyatın qarşılıqlı əlaqəsinin tədqiqi sahəsində irəliyə doğru atılmış böyük bir addımdır. Kitaba daxil edilən və ayrı-ayrı müəlliflər tərəfindən yazılan 12 müxtəlif mövzulu elmi-tədqiqat məqaləsi AMEA Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsində, həmin şöbənin müdiri, filologiya üzrə elmlər doktoru, professor Kamran Əliyevin rəhbərliyi ilə hazırlanmışdır.

"Folklor və yazılı ədəbiyyat" kitabına daxil edilən birinci məqalə professor K.Əliyevin "Məhəbbət əfsanəsi: faciə və dastan" məqaləsidir. K.Əliyev Azərbaycan çağdaş filoloji elm tarixində xüsusi üslubu, özünəməxsus dəst-xətti olan, məşğul olduğu sahələri professional səviyyədə və dərindən bilən dəyərli elm xadimlərimizdəndir. Orijinal və maraqlı yazı manerası olan bu alimin, demək olar ki, bütün yazılarında hökmən bir yenilik, bir novatorluq olur. K.Əliyevin ədəbiyyat tariximizin müxtəlif, eyni zamanda az öyrənilmiş sahələrinə marağı hər zaman böyük olmuşdur. O, yazdığı bütün əsərlərində həmişə aktual olan elmi məsələlər barəsində daim orijinal fikirlər, mülahizələr söyləmək xüsusiyyəti ilə də daim diqqət mərkəzində olmağı bacarmışdır.

K.Əliyevin "Məhəbbət əfsanəsi: faciə və dastan" məqaləsi də bu nöqteyi-nəzərdən istisna deyil. Müəllif bu məqaləsində görkəmli Azərbaycan ədibi, taleyinə faciəli bir ömür yaşamaq qismət olan H.Cavidin "Şeyx Sənan" faciəsindən söz açıb və əsəri eyni adlı əfsanə ilə müqayisə edib. Hüseyn Cavid Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən və zənginləşdirən qüdrətli söz ustasıdır. O, öz yaradıcılığı ilə, dərin hikmətli və fəlsəfi poeziyası, təkrarsız dram əsərləri ilə Azərbaycanda milli şüurun intibahına misilsiz xidmət göstərmişdir. H.Cavid mütəfəkkir şair, görkəmli dramaturq və Azərbaycan ədəbiyyatı tarixinin orijinal ədəbi simalardan biridir. Azərbaycan ədəbiyyatının əsas inkişaf mərhələlərindən sayılan XX əsr

Azərbaycan romantizmi daha çox Hüseyn Cavidin adı ilə bağlıdır. "Şeyx Sənan" faciəsi dramaturgiya tariximizdə romantizmin bütün problematikliyi, ideya və məzmun xüsusiyyətləri ilə təzahür etdiyi əsərlərdəndir. H.Cavid bu əsəri ilə Azərbaycan dramaturgiyasının mövzu sərhəddini daha da genişləndirmiş, faciəvi xarakterin, romantik qəhrəmanın və dramatik konfliktin yeni tiplərini yaratmış, ədəbiyyatımızı humanist, nəcib və bəşəri ideyalarla daha da zənginləşdirmişdir.

Kamil və ülvi bir sevgi dastanı olan "Şeyx Sənan" faciəsi (1914) Hüseyn Cavidin ən qüvvətli faciələrindən biridir. Əsər Azərbaycan teatrlarında uzun müddət müvəffəqiyyətlə tamaşaya qoyulmuş, şərəfli bir səhnə yolu keçmiş, tamaşaçıların böyük rəğbətini və məhəbbətini qazanmışdır. Faciənin belə xoşbəxt sənət taleyinə səbəb ondakı yüksək sənətkarlıq, gərgin dramatik münaqişə, parlaq xarakterlər, nəcib bir məhəbbət və insanlıq fəlsəfəsi idi. Hələ faciəni qələmə almazdan öncə yazdığı "Şeyx Sənan" şeirində Cavid öz bədii-estetik qayəsini bu cür ifadə edirdi:

"Nədir mənası eşqin?" söyləyənlər nerdə, bir gəlsin,
Görüb qüdsiyyəti-Sənanı lal olsun xəcalətdən!..
Məhəbbətsiz bütün mə'nayi-xilqət şübhəsiz hiçdir,
Məhəbbətdir əvət, məqsəd şu pürəfsanə xilqətdən (1, s.58)

K.Əliyev bu şeir barədə yazır: "H.Cavid bu şeiri vasitəsilə Şeyx Sənan obrazına və onun adı ilə bağlı əfsanəyə öz rəğbətini bildirir. Şeirdən məlum olur ki, romantik sənətkar Şeyx Sənanı ən böyük məhəbbət simvolu hesab edir. Onun yaxından və hərtərəfli dərki ilə insanlar daha böyük mənəvi dəyərlərə sahib ola bilər... Beləliklə, romantik sənətkar "Şeyx Sənan" şeiri ilə bu mövzuda yeni bir əsər yazacağına imkan açmışdır. Onun nəzərincə, Şeyx Sənanın adı ilə bağlı əfsanə Leyli və Məcnunun adı ilə bağlı əfsanədən heç də əhəmiyyətsiz deyildir. Ümumiyyətlə, Azərbycan romantizmində əfsanəyə sənətkar diqqəti H.Cavidin "Şeyx Sənan" faciəsi ilə yeni zirvə qazanır" (2, s.3-4). Daha

sonra K. Əliyev fikrini əsaslandırmaq üçün Məmməd Cəfərin belə bir fikrini də misal gətirir: “Cavid … eyni əfsanənin mayasında olan reallığa yeni bir məzmun vermiş, əfsanəni təbliğ etmək istədiyi fikrə böyük insan məhəbbəti qarşısında milli və dini təəssübkeşlik heçdir, gücsüzdür ideyasına tabe etmişdir” (3, s. 185-186).

Bu bir həqiqətdir ki, H.Cavid “Şeyx Sənan” faciənin mövzusunu “Şeyx Sənan” əfsanəsindən, onun müxtəlif variantlarından götürmüşdür (4, s.100-239). Lakin başqa bir cəhəti də unutmaq olmaz ki, H.Cavidin “Şeyx Sənan” faciəsinin süjeti və obrazları ilə “Əsli-Kərəm” dastanının süjet və obrazları arasında xeyli yaxınlıq vardır. Deməli, “Şeyx Sənan” əfsanəsinin seçilməsində “Əsli-Kərəm” dastanının müəyyən qədər rolu olmuşdur. K.Əliyev məqalədə H.Cavidin “Şeyx Sənan” faciəsi ilə “Əsli-Kərəm” dastanının müqayisə edərək onlar arasındakı tam yaxınlığı təsdiq edir. Müəllifin fikrincə, hər iki nümunənin bir-birinə oxşarlığı ilk növbədə bədii təsvirlərdə özünü göstərir. Belə ki, hər iki qəhrəman – həm Kərəm, həm də Şeyx Sənan Tiflisə gəlib çıxırlar. Faciə və dastandan gətirilmiş nümunələrə nəzər salmaqla K. Əliyev bu qənaətə gəlir: “Açıq-aydın görünür ki, Kərəmin Tiflisi tərif etməyi ilə Şeyx Sənanın Tiflisə münasibəti arasında ciddi bir oxşarlıq vardır. Doğrudur, bu oxşarlığı, yəni hər iki obrazın müəyyən bir obyektə eyni münasibətini həmin obrazların əhval-ruhiyyəsi ilə də izah etmək olar. Ona görə də Kərəm və Şeyx Sənanın təbiətə münasibətində kifayət qədər yaxınlıq vardır. Hətta onların deyimlərində bəzi təbiət obrazları da eyniyyət təşkil edir.

Kərəmlə Şeyx Sənanın – bu iki qeyri-adi aşiqin bir-birinə yaxınlığını və doğmalığını təsdiq edən faktlardan biri də onların öz sevgi və məhəbbətləri yolundan dönməzliyidir. Bu fikir, bu dönməzlik sadəcə olaraq, ümumi təsvirlərlə deyil, həmçinin onların öz dilləri ilə də oxuculara çatdırılır” (2, s.6).

"Şeyx Sənan" eşqin qüdsiyyəti haqqında mahnı, lirik, şairanə bir nəğmə idi.

Poeziyamızda "eşqin mənası" haqqında böyük mahnını hələ XII əsrdə dahi Nizami oxumuşdu. "Xosrov və Şirin"də ali bir sevginin qüvvəti mənəviyyatsız bir hökmdarı əsil insana çevirirdi (5). "Şeyx Sənan" isə eşqin mövhumat və xurafat üzərində təntənəsi idi. Başqa sözlə, "Şeyx Sənan" faciəsi əqidə və zehniyyətdə olan puçluğun və saxtalığın üzərində qələbəsi idi. Süjetin bədii həllində əksini tapan əsas dramatik hadisə də məhz bu qələbənin ifadəsi idi: əsərdə "böyük şeyx" "böyük aşiqə" çevrilirdi...

Məhəbbəti tərənnüm etmək üçün H.Cavid əvvəlcə öz fəlsəfəsini dünyəvi eşqə qarşı çevirmiş bir filosofdan bəhs edir. Bu filosof həm də din və təriqət başçısıdır. Maraqlıdır ki, əsərin qadın qəhrəmanı da başqa cinsə könül verməməyi qərara almışdır. Şeyx Sənan "eşqi-ruhani" xatirinə Zəhranın odlu məhəbbətini rədd edərək səhralara üz tutduğu kimi Xumar da monastıra hazırlaşır. Lakin əsər hər iki qəhrəmanda bu saxta inamın sarsılması və böyük, təmiz bir məhəbbətin hər şey üzərində qələbəsi, üstünlüyü ideyası ilə bitir.

Görkəmli alman şair-dramaturqu, mütəfəkkir və naturalisti İohann Volfqanq Höte alman ədəbiyyatının ensiklopediyası sayılan və 57 il ərzində yazdığı "Faust" faciəsində (1774-1831) alim və filosof obrazını- Faust obrazını yaratmışdır. Y.V.Hötenin yaratdığı bu obraz dünyəvi elmlərin və biliklərin zirvəsinə qalxmış, Mefistofelin köməyi ilə göyləri və əbədiyyəti dərk etmişdir. Faust bütün bunlardan sonra isə bataqlıqdan qurudub əldə etdiyi bir parça torpaqda əkinçiliklə məşğul olmuşdur. Faust axtardığı böyük həqiqəti, həyatın mənasını, dünyada ən "bəxtiyar anı" yalnız bu zaman tapmış və yalnız bu zaman "dayan, ey an, sən gözəlsən, dur!" – demişdir.

H.Cavidin "Şeyx Sənan" faciəsində yaratdığı Şeyx Sənan obrazı da "min dürlü" və "pərdəli" hikmətlərə nüfuz etmiş, din

və islam rəhbəri olmuş, ölkələr, məmləkətlər dolaşmış və ən nəhayət, təmiz, təbii, dünyəvi bir hissin naminə iki il donuzlara çobanlıq etmişdir. “Aradım nurihəqqi ta buldum” – deyə Sənan yalnız bu zaman həqiqi müdrik, əsil bəxtiyar bir insan kimi təntənə etmişdi! Hər iki əsərdəki ideya – Sənanın “azad duyğuların təbiiliyi və sərbəstliyi hər şeydən yüksəkdir” və Faustun “əkinçilik sxolastik fəlsəfəçilikdən yaxşıdır” ideyası bir nöqtədə birləşirdi: insan fəaliyyətində realizmi, əməli istiqaməti, həyat sevgisini təsdiq edirdi!.. Sonda Sənanın sevgisi ideallaşsa da, xəyali, əfsanəvi mənalar kəsb etsə də, bütövlükdə əsərin pafosu, onun həyat sevgisini təsdiq edən fəlsəfəsi idi.

K.Əliyev "Məhəbbət əfsanəsi: faciə və dastan" məqaləsi boyu apardığı müqayisələr və hər iki əsərdən: “Şeyx Sənan” faciəsindən və “Əsli-Kərəm” dastanından gətirdiyi faktlarla bu fikrə gəlir: “Kərəmin Əsli yolunda dözdüyü bütün cəfalara Şeyx Sənan da Xumarın yolunda dözür. Bu iki məhəbbət fədaisi arasındakı mənəvi yaxınlıqlar yuxarıdakı faktlarla sübut olunur və bunlar kifayət qədərdir. Lakin başqa bir mühüm cəhət də vardır ki, həmin cəhət iki bədii nümunənin ortaq cəhətlərini ortaya çıxarmaq üçün yuxarıda sadaladıqlarımızdan az əhəmiyyət kəsb etmir. Bu da ondan ibarətdir ki, H.Cavid "Şeyx Sənan" faciəsində sanki "Əsli-Kərəm" dastanına (bütövlükdə folklora!) öz məhəbbət və rəğbətini bildirmək üçün yeri gəldikcə qoşma formasından istifadə etmişdir... Bu poetik nümunələr bir tərəfdən "Şeyx Sənan" faciəsi ilə "Əsli-Kərəm" dastanı arasında müəyyən paralellər aparmağa imkan verirsə, digər tərəfdən də H.Cavidin özünün heca vəzninə olan diqqət və marağını sübut edir” (2, s.15-19).

“Folklor və yazılı ədəbiyyat " kitabına daxil edilən ikinci məqalənin müəllifi tanınmış Koroğluşünas alim İslam Sadıqdır. Onun məqaləsi “Koroğlu”dastanının Azərbaycan şeirinə poetik təsiri" adlanır. XVII əsr Azərbaycan ədəbiyyatının ən möhtəşəm xalq abidəsi olan “Koroğlu” eposu qədim türk oğuz dastan

ənənələri əsasında Azərbaycan ərazisində, təxminən, 400 il bundan əvvəl formalaşmışdır. “Koroğlu” eposu Azərbaycanda XVI-XVII əsrlərdə yaransa da, XVII-XVIII əsrlərdə zəngin inkişaf yolu keçmişdir. Bu epos bütün türk dünyasında geniş yayılaraq ozanların repertuarının əsasını təşkil etmişdir. Tarixi qəhrəmanlıq dastanı “Koroğlu” eposu yalnız Azərbaycan xalqının, türk xalqlarının deyil, ümumən, dünya ədəbiyyatının ən qiymətli ədəbi abidələrindən sayılır. Azərbaycan ədəbiyyatında «Dədə Qorqud»dan sonra şifahi xalq ədəbiyyatının ən möhtəşəm əsəri “Koroğlu” eposudur. «Dədə Qorqud» dastanı Azərbaycan xalqının, “Koroğlu” eposu isə Azərbaycan millətinin formalaşdığı tarixi dövrlərdə təşəkkül tapmışdır.

İslam Sadıq məqalənin əvvəlində "Koroğlu" dastanının belə populyar olmasından, onun sevilmə səbəblərindən bəhs edərək yazır: “Koroğlu” dastanı dünya epik söz sənətinin şah əsərlərindən biridir. Dünyada yayılma coğrafiyasının genişliyinə, variantlaşma və versiyalaşma zənginliyinə görə ikinci belə əsər tapmaq mümkün deyil. Bunun iki mühüm səbəbi var. Birinci səbəb dastanda xalqın bütün arzu və ideyalarının öz dolğun təcəssümünü tapması, epik qəhrəmanların idealları ilə xalqın ideallarının üst-üstə düşməsi, onun bədii siqləti, poetik gözəlliyi ilə bağlıdır. İkinci səbəb Koroğlunun şəxsiyyəti ilə bağlı olub dastanın sevilə-sevilə yaddaşlarda yaşamasını və belə geniş coğrafiyada yayılmasını təmin etmişdir. Koroğlunun şəxsiyyəti deyəndə gözlərimiz önündə iki obraz canlanır: Qəhrəman Koroğlu və aşıq-şair Koroğlu. Koroğluya ümumxalq məhəbbətinin böyüklüyünü bu iki obraz birlikdə yaratmışdır. Koroğlunun aşıqlığı-şairliyi onun şöhrətlənməsində heç də qəhrəmanlığından az rol oynamamışdır. Birincisi, Koroğlunun aşıqlığı-şairliyi dastanın bədii siqlətini, poetik dolğunluğunu təmin etmişdir, ikincisi, Koroğlu həm də sinəsindəki saza, düzüb qoşduğu bənzərsiz qoşma və gəraylılara görə sevilmişdir” (2, s. 20).

Məqalə müəllifi folklorun bütün zamanlarda və bütün xalqlarda yazılı ədəbiyyatın tükənməz ilkin qaynağı olmasını, dünyanın ən böyük şair və yazıçılarının, ilk növbədə, şifahi xalq yaradıcılığından bəhrələndiyini vurğulayır. İslam Sadıq Azərbaycan ədəbiyyatının da ilkin qaynağının həmişə şifahi xalq yaradıcılığı olduğunu qeyd edir: "Azərbaycanda yazılı ədəbiyyatın ən tükənməz, ən zəngin qaynaqlarından biri "Koroğlu" dastanı olmuşdur. Bu dastan yüzillər boyu aşıqların repertuarından düşməmiş, xalqın yaddaşında yaşamış, dillər əzbərinə çevrilmişdir. Ona görə də "Koroğlu" dastanı həm aşıq yaradıcılığına, həm də yazılı şeirimizə çox güclü poetik təsir göstərmişdir. Azərbaycanda "Koroğlu" dastanının poetik gözəlliyindən, ideya zənginliyindən, məzmun dolğunluğundan az və ya çox dərəcədə bəhrələnməyən şair tapmaq çətindir. Hətta bizim elə şairlərimiz var ki, onun yaradıcılığındakı xəlqilik büsbütün "Koroğlu" dastanının təsiri ilə yaranmışdır" (2, s. 21).

Daha sonra İslam Sadıq doğru olaraq, "Koroğlu" dastanının Azərbaycan yazılı ədəbiyyatına poetik təsirlərinə müxtəlif aspektlərdən yanaşmışdır. Tədqiqatçı bu təsirin ideya və məzmun baxımından daha qabarıq nəzərə çarpdığına görə bir neçə bölgü apararaq qruplaşdırmanı da bu istiqamətdə aparmağı məqsədəuyğun hesab edib:

1. Koroğlu qəhrəmanlıq rəmzidir.
2. Koroğlu mərdlik rəmzidir.
3. Azərbaycan şeirində Qırat obrazı.

İslam Sadıq məqalədə ilk olaraq Koroğlunun qəhrəmanlıq rəmzi olması fikrini əhatəli şəkildə əsaslandırıb. Müəllifin qənaətinə görə, şairlərimiz qəhrəmanlıq ruhlu şeirlər yazarkən, ilk növbədə, "Koroğlu" dastanından bəhrələniblər. Məsələn, İ.Sadıq qeyd edir ki, S.Vurğunun Böyük Vətən müharibəsi dövründə yazdığı şeirlərində qəhrəmanlıq ruhu Koroğlu obrazına görə daha da qüvvətli olub. Böyük Vətən müharibəsi dövründəki yaranan ədəbi nümunələrdə qəhrəmanlıq ruhu daha da güclənmiş, bir

çox şairlərimiz öz arzu və fikirlərini dolğun ifadə etmək üçün "Koroğlu" dastanından ustalıqla bəhrələnmişlər. Həmin dövrdə bir çox ədiblər, xüsusilə Səməd Vurğun "Koroğlu" dastanına tez-tez üz tutmuşdur. Belə ki, S.Vurğun "Koroğlu" dastanından, Koroğlu obrazından təsirlənərək, "Azərbaycan balası", "Partizan Babaş", "Yandırılan kitablar", "Ukrayna partizanları", "Qafqazdan Dona doğru" və s. şeirlərini yazıbdır.

İ.Sadıq Xalq şairi B.Vahabzadənin "Dörd yüz on altı", M.Günərin "İlyana haqqında nəğmə", M.İsmayılın "Əsir saz" poemalarında, Ə.Cəmilin Böyük Vətən müharibəsi dövründə yazdığı şeirlərdə, O.Sarıvəllinin, H.Arif, X.Rza kimi şairlərin bir sıra şeirlərində də "Koroğlu" dastanındakı epizodlarla müqayisələr aparır, bu nümunələrdə Koroğlu qəhrəmanlığının, Koroğlu mərdliyinin izlərini axtarır. Tədqiqatçı vurğulayır ki, hər zaman Koroğlu yada düşəndə onun qəhrəmanlıqlarla dolu həyatı gözlərimiz önündə canlanır. "Bunları düşündükcə içimizdə bir qürur hissi oyanır, bizim də qəlbimizdən bir igidlik, qəhrəmanlıq keçir. Millət keçmişini qürur hissi ilə andıqca, içində qəhrəmanlıq hissləri doğduqca gələcəyə daha inamla addımlayır" (2, s. 41).

Tədqiqatçı, bundan başqa, R.Rzanın, H.Arifin, X. Rzanın, M.Arazın, F.Mehdinin və Abbasağanın yaradıcılığında rast gəlinən Koroğlu, Qırat mövzularını tədqiqata cəlb edərək, bu nümunələrə də öz araşdırmaçı münasibətini və mövqeyini ifadə edib.

Kitaba daxil olan üçüncü məqalə filologiya üzrə fəlsəfə doktoru, Fidan Qasımovanın "Folklor və klassik ədəbiyyat" məqaləsidir. Azərbaycan ədəbiyyatının mühüm tərkib hissələrindən olan klassik ədəbiyyatımızın zəngin ədəbi ənənələri vardır. Bu ənənələr ədəbi inkişafın müxtəlif dövrlərində zənginləşib inkişaf etmiş, xalqın məişətini və mədəni həyatını, estetik dəyərlərini, eləcə də qabaqcıl görüşlərini özündə əks etdirmişdir. Klassik ədəbiyyatımızın təbii ki, müəyyən yaranma dövrü, inkişaf mərhələləri və xüsusiyyətləri də olmuşdur. Onun yaranma zəmini

isə şübhəsiz ki, xalq ənənələri üzərində meydana çıxmış, zaman keçdikcə həm mövzu, həm də məzmun etibarı ilə daha da zənginləşmişdir.

Azərbaycan ədəbiyyatşünaslığının son illərdə ciddi əhəmiyyət verdiyi mühüm problemlərdən biri də ədəbiyyat və şifahi söz sənəti, yazıçı və folklor əlaqələri məsələsidir. Aydındır ki, klassiklərin, eləcə də müasir yazıçıların yaradıcılığının fərqli qaynaqlardan bəhrələndiyini göstərmədən onların dəyərini tam üzə çıxarmaq çətindir. Azərbaycan klassik irsi ilə yanaşı, xalqımızın şifahi söz sənəti bu qaynaqlardandır. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərləri özündə qədim mədəniyyətin incilərini qoruyub saxlayan və əsrlər keçərək bu möhtəşəm mənəvi mirasın günümüzə qədər itki və zədə görmədən gəlib çıxa bilməsini təmin edən mühüm mənbədir.

Məlumdur ki, yazılı ədəbiyyatla şifahi xalq yaradıcılığı arasında hər zaman sıx əlaqələr mövcud olmuşdur. Ədəbiyyatın bu iki qolu müxtəlif vaxtlarda bir-birlərindən bəhrələnmiş, qarşılıqlı surətdə inkişaf etmişlər. Fidan Qasımova yazır: “Yazılı ədəbiyyat və folklor problemi iki məsələdən ibarətdir. Bunlardan biri yazılı ədəbiyyatda folklordan istifadə, digəri isə yazılı ədəbiyyatın folklora təsiridir. Ümumiyyətlə, Azərbaycan yazılı ədəbiyyatı tarixi inkişafın bütün mərhələlərində folklorla çox sıx əlaqədə olmuşdur. Bu əlaqə ikitərəfli şəkildə özünü göstərmişdir. Belə ki, yalnız yazılı ədəbiyyat folklorun mövzu, süjet, ideyalarından istifadə etmirdi, həmçinin folklor da öz növbəsində yazılı ədəbiyyatın bədii forma, obrazlarından bəhrələnirdi” (2, s. 43).

Folklorun hər zaman – bütün dövrlərdə yazılı ədəbiyyatın ilk qaynağı olduğu, yazılı ədəbiyyata təsir etdiyi bir həqiqətdir. Folklor – yazılı ədəbiyyat münasibətinin uzun tarixinə baxmayaraq yazılı ədəbiyyatdakı folklorizmin rolu, semantikası hələ də müasir elmin uğurları baxımından araşdırılmamışdır. Yazılı ədəbiyyat-folklor əlaqələri metodoloji baxımdan sovet humanitar elmində fərqli şəkildə qoyulsa da, bugün aparılan tədqiqatlar

bu istiqamətdədir. Bu baxımdan Fidan Qasımova yazır: "Folklor klassik ədəbiyyat üçün əsas mənbələrdən biridir. Xalq yaradıcılığından istifadə ilə ədəbiyyata yeni süjet, obrazlar daxil olmuşdur. Folklor janrları ədəbiyyatın inkişafının bütün mərhələlərində ona təkan vermişdir. Belə ki, yazılı ədəbiyyat folklorun rəvayət, məsəl, atalar sözü, ağı, bayatı kimi janrlarına müraciət etmişdir. Həm klassik ədəbiyyatda, həm də folklorda köhnə ənənəvi obrazlı ifadələrdən, simvol və məcazlardan istifadə edilmişdir" (2, s. 44).

F.Qasımova daha sonra məqalədə Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Məhəmməd Füzuli kimi klassik şairlərin yaradıcılığında folklor məsələlərini tədqiq etmiş, onların əsərlərindən müqayisəli nümunələr vermişdir. Məqalə müəllifi məqalədə həmçinin bu mövzuda yazılan digər araşdırmalara da nəzər salmış, onlara münasibət bildirmişdir. Sonda Fidan Qasımova ümumiləşdirmələr apararaq bu qənaətə gəlmişdir: "...hər iki tərəf, istər folklor, istərsə də klassik ədəbiyyat müxtəlif zamanlarda bir-birlərinə təsir etmiş, biri digərinin mövzu və süjet cəhətdən inkişafına təsir göstərmişdir" (s. 56).

Filologiya üzrə fəlsəfə doktoru Xəyalə Orucqızının kitaba daxil edilmiş məqaləsi "Professor Paşa Əfəndiyev folklor və yazılı ədəbiyyat haqqında" adlanır.

Paşa Əfəndiyev XX əsr Azərbaycan folklorşünaslığının görkəmli nümayəndələrindən biridir. Onun Azərbaycan folklorunun toplanması, nəşri və xüsusən tədqiqi sahəsində böyük fəaliyyəti olmuşdur. Paşa Əfəndiyev Azərbaycan folklorşünaslığının ən mütərəqqi ənənələrini öz elmi fəaliyyətində birləşdirən, dövrünün qabaqcıl elmi-nəzəri nailiyyətlərini milli folklorşünaslığımıza tətbiq edən görkəmli Azərbaycan alimlərindən biridir. Alimin Azərbaycan şifahi söz xəzinəsinin toplanması, yazıya alınması, tərtibi, nəşri və tədqiqi sahəsində geniş və çoxşaxəli fəaliyyəti olmuşdur.

Məqalədə Xəyalə Orucqızı bütün həyatını Azərbaycan folklorşünaslığının inkişafına xidmət edən Paşa Əfəndiyevin bir sıra nəzəri fikirlərinə, o cümədən "Cəfər Cabbarlı və xalq yaradıcılığı", və "Səməd Vurğun və xalq yaradıcılığı" monoqrafiyalarına ətraflı nəzər salır. Müəllif folklorşünas alimin bu əsərlərdə folklor və yazılı ədəbiyyat mövzusuna olan münasibətini araşdırır və ədəbiyyatın bu iki qolunun bir-birinə qırılmaz tellərlə bağlandığını vurğulayır.

"Səməd Vurğunun "Vaqif" dramında epik ənənələr" məqaləsinin müəllifi AMEA Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsinin elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aynur İbrahimovadır. Aynur İbrahimova məqaləsində ilkin olaraq Səməd Vurğun yaradıcılığında yer alan folklor nümunələrindən bəhs edir. Məlumdur ki, xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatı yaradıcılığında ən yüksək səviyyədə uzlaşdıran dahi şair S.Vurğun, əsasən, heca vəznində yazdığı seirləri və dram əsərləri ilə, o cümlədən "Vaqif" dramı ilə dilimizin bütün zənginliyindən və sirinliyindən bəhrələnərək dillər əzbəri olan poeziya örnəkləri yaratmışdır. Tədqiqatçı S.Vurğunun xalq poetik düşüncə tərzinə yaxın olan bir üslubda-daha çox heca vəznində yazıb-yaratmasını təqdir edir. A.İbrahimova vurğulayır ki, Səməd Vurğun yaradıcılığı Azərbaycan folkloru ilə elə qaynayıb qarışmışdır ki, çox zaman bunları bir-birindən ayırmaq, təcrid etmək, kimin kimdən faydalandığını müəyyən etmək mümkün olmamışdır. Müəllif Səməd Vurğun haqqında fikirlərini ümummilli lider Heydər Əliyev S.Vurğunun 90 illik yubileyinə həsr edilmiş gecədəki nitqi ilə tamamlayır: "Səməd Vurğun şeirinin böyüklüyü, eyni zamanda, gözəlliyi ondan ibarət idi ki, onun hər kəlməsi, hər sətri hər bir azərbaycanlının qəlbinə çatırdı, onun beynini fəth edirdi, onu öz təsiri altına salırdı. Səməd Vurğunun şeiri bu gün də müasirlərimizə, gənc nəslə ilham, ruh verir, onları coşdurur, daha da vətənpərvər edir, onlara vətəni, milləti, torpağı sevməyi öyrədir.

Səməd Vurğunun yaradıcılığı dəryadır, indiyədək yazılanlar bunun hamısını əks etdirə bilməyib. Hesab edirəm ki, onun yaradıcılığı və qoyduğu irs bu gün də, gələcəkdə də tədqiq olunacaq və bu barədə yeni-yeni əsərlər yaranacaqdır. Səməd Vurğun böyük şairdir. Şərq aləmində şair həmişə ən yüksək hörmətə layiq olubdur. Səməd Vurğun isə öz dövrünün şairlərinin şairi olubdur" (6; 7).

"Folklor və yazılı ədəbiyyat " kitabına daxil edilən altıncı məqalənin müəllifi filologiya üzrə fəlsəfə doktoru, Nizami Muradoğludur. Onun tədqiqat obyekti böyük Azərbaycan şairi Əhməd Cavaddır. Məqalə "Əhməd Cavad poeziyası və folklor" adlanır. Məqalənin əvvəlində müəllif Əhməd Cavad şəxsiyyəti və poeziyası, onun özəllikləri haqqında məlumat verərək yazır: "Əhməd Cavad (1892-1937) XX əsrin əvvəllərində yazıb-yaradan, şəxsiyyəti şairliyinə, şairliyi şəxsiyyətinə heç bir xələl gətirməyən, əksinə, bir-birini tamamlayan Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biridir... Məlum olduğu kimi, Əhməd Cavad da 37-ci ilin repressiya qurbanlarındandır. Şairin faciəli taleyi əsərlərinin də taleyindən yan keçməmişdir. Çoxlu əsərləri yandırılıb məhv edilsə də, hazırda qalan əsərləri də şairin Azərbaycan poeziyasındakı yüksək yerini qoruyub saxlamağa kifayət edir" (2, s. 91-92).

Sonra Nizami Muradoğlu məqaləsində Ə.Cavad yaradıcılığının folklor qaynaqlarını şairin "Elin bayrağı", "Bismillah", "Allahu Əkbər", "Dağlar", "Gəncəm hey", "Ağlayırdım, gülürəm!", "Əfəndiyə", "Göy-göl" və digər şeirləri əsasında araşdırır, onun əsərlərinin folklorla bağlılığını, xalqın şifahi söz təfəkkürü ilə şairin düşüncə oxşarlıqlarını müəyyənləşdirməyə çalışır.

N.Muradoğlu bu araşdırmalarından sonra Ə.Cavad və onun poeziyası haqqında fikirlərini belə yekunlaşdırır:"...Əhməd Cavadsız Azərbaycan ədəbiyyatının da bir tərəfi boş qalardı. Əhməd Cavad Azərbaycan ədəbiyyatının bəşəriyyətə bəxş etdiyi özü, sözü bir olan, sağlam məfkurəli, əbədiyaşarlıq qazanan,

"Göy göl"ü ilə qəlbimizə həmişə sərinlik gətirən, mavi göylər qədər dərin olan bir sənətkardır" (2, s. 108).

Kitaba yuxarıda adları çəkilən məqalələrlə yanaşı, Gülnar Osmanovanın mifoloji obrazların folklor nümunələrində, habelə yazılı ədəbiyyatda oynadığı roldan bəhs edən "Çağdaş Azərbaycan nəsrində mifoloji obrazlar", Gülsümxanım Hasilovanın görkəmli yazıçı Əzizə Cəfərzadənin əsərlərində istifadə etdiyi folklor nümunələrindən bəhs edən "Əzizə Cəfərzadənin bədii yaradıcılığı və xalq ədəbiyyatı", Tahir Rzayevin məşhur Azərbaycan yazıçısı İsmayıl Şıxlının "Dəli Kür" romanının dilini, obrazlar aləmini sistemli şəkildə tədqiqata cəlb edən, surətlərin milli-etnoqrafik xüsusiyyətlərini obrazlı folklor təfəkkürü müstəvisində təhlil edən "İsmayıl Şıxlının "Dəli Kür" romanında epos ənənəsi" adlı məqalələri də daxil edilmişdir.

Bunlardan başqa, "Folklor və yazılı ədəbiyyat" kitabında doktorant Aytac Abbasovanın həm folklor, həm də tarixilik baxımından mühüm əhəmiyyəti olan "Göl obrazı: əfsanə və yazılı ədəbiyyatda" adlı məqaləsi, Folklor İnstitutu "Klassik folklor" şöbəsinin elmi işçisi Vüsal Səfiyevanın Azərbaycan xalqının ən möhtəşəm qəhrəmanlıq eposu olan "Kitabi-Dədə Qorqud"un akademik Həmid Araslının elmi irsində tutduğu mövqedən bəhs edən "Akademik Həmid Araslının elmi irsində "Kitabi-Dədə Qorqud", eləcə də Sevinc Əliyevanın "Heyvanla haqqında nağıl və təmsillərin janr xüsusiyyətləri" adlı maraqlı məqalələri yer almışdır.

"Folklor və yazılı ədəbiyyat" (I hissə) kitabı 2013-cü ildə AMEA Folklor İnstitutunda çapdan çıxan və maraqla qarşılanan nəşrlərdən biridir. Həmin institutun Folklor və yazılı ədəbiyyat şöbəsində hazırlanan bu nəşrin hazırda II hissəsi oxuculara təqdim olunur. II kitabda da xeyli sayda elmi tutumu böyük, folklor və yazılı ədəbiyyatın qarşılıqlı əlaqələrindən və təsirindən bəhs edən maraqlı, diqqəti cəlb edən elmi məqalələr toplanmışdır. İnanırıq ki, AMEA Folklor İnstitutunun "Folklor və yazılı

ədəbiyyat" şöbəsində, həmin şöbənin müdiri, filologiya üzrə elmlər doktoru, professor Kamran Əliyevin rəhbərliyi ilə hazırlan "Folklor və yazılı ədəbiyyat" (II hissə) kitabı da elmi ictimaiyyat, eləcə də oxucular tərəfindən maraqla qarşılanacaqdır.

## QAYNAQLAR:


1. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. I cild. Bakı: "Lider nəşriyyat", 2005, 256 səh.
2. Folklor və yazılı ədəbiyyat. Bakı: "Nurlan", 2013, 236 səh.
3. Məmməd Cəfər. Azərbaycan ədəbiyyatında romantizm. Bakı: Azərb.SSR EA nəşriyyatı, 1963.
4. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. II cild. Bakı: "Lider nəşriyyat", 2005, 352 səh.
5. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı: "Lider nəşriyyat", 2004, 392 səh.
6. Əliyev H. S.Vurğunun 90 illik yubileyinə həsr edilmiş gecədəki nitq.Bakı:1996
7. Əliyev H.ebooks.preslib.az/pdfbooks/azbooks/H.Aliyev-kul/9.pdf

# FOLKLOR VƏ YAZILI ƏDƏBİYYAT

**Məlahət BABAYEVA**
***Filologiya üzrə fəlsəfə doktoru***

AMEA Folklor İnstitunun "Folklor və yazılı ədəbiyyat" adlı birinci kitabı işıq üzü görmüşdür. Kitabdakı məqalələr "Folklor və yazılı ədəbiyyat" şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor Kamran Əliyevin gərgin əməyi və bilavasitə rəhbərliyi ilə hazırlanmışdır. 216 səhifə olan bu top-luda professor K.Əliyevin də məqaləsi daxil olmaqla 12 məqalə daxil edilmişdir. Bütün məqalələr elmi mənbələrlə, isinad edil-miş ədəbiyyatla əsaslandırılmış və zənginləşdirilmişdir.

Professor Kamran Əliyevin "Məhəbbət əfsanəsi: faciə və dastan" məqaləsində H.Cavidin "Şeyx Sənan" faciəsindən bəhs edilmiş və əfsanə ilə əsər müqayisə olunmuşdur. K.Əliyev ilk öncə H.Cavidin "Şeyx Sənan" faciəsini yazmaq səbəbini açıqla-mış və müəllifin baş qəhrəmana olan rəğbətini əsaslandırmağa nail olmuşdur. Professorun qənaətinə görə H.Cavid Şeyx Sənanı ən böyük məhəbbət simvolu hesab edir. K.Əliyev dastanla əlaqədar yazılmış bütün tədqiqat işlərini analiz etmiş, əsərin süjetində "Əsli və Kərəm" dastanının rolunu göstərmişdir. Müəllif, bu əsərlər arasındakı oxşarlığı bütün müstəvilərdə ana-liz etmiş və fikrini konkret nümunələrlə əsaslandırmışdır. Belə ki, tədqiqatçı bu əsərləri müqayisə edərkən ilk növbədə bədii təsvirlər arasında olan oxşarlığı ön plana çəkmişdir. K.Əliyev bundan sonra Şeyx Sənanla Kərəmin qeyri-adi aşiq kimi bir-birinə olan yaxınlığını qeyd edir. Daha sonra müəllif Kərəmin Əsliyə olan münasibətilə Şeyx Sənanın Xumara olan münasibəti arasındakı doğma çalarların olduğunu deyir.

K.Əliyev bu dastan arasında oxşarlığı, əlbəttə ən əsas hər iki gəncin islam dininə mənsub olmayan bir qıza aşıq olduğunu

qeyd edirdi. Belə ki, bu dastanlarla əsas problem dinlərarası izdivacın doğurduğu səddlər və maneələrdir: "Beləliklə, aydın olur ki, bu iki klassik bədii nümunəni ortaq mövqəyə gətirən ən əlamətdar cəhət elə məhz inikas etdirilən məsələlərdən doğan ideya yaxınlığı və ideya edilmişdir".

"Folklor və yazılı ədəbiyyat" adlı I kitabın "Koroğlu" dastanının Azərbaycan şeirinə poetik təsiri" adlı ikinci məqaləsinin müəllifi İslam Sadıqdır. Müəllif haqlı olaraq, Azərbaycanda "Koroğlu"dastanının poetik gözəlliyindən, ideya zənginliyindən, məzmun dolğunluğundan az və çox dərəcədə bəhrələndiyini qeyd edir: "Hətta bizim elə şairlərimiz var ki, onun yaradıcılığındakı xəlqilik büsbütün "Koroğlu" dastanının təsiri ilə yaranmışdır". İslam Sadıq,"Koroğlu" dastanının Azərbaycan yazılı şeirinə poetik təsirinin öyrənilməsinə müxtəlif aspektlərdən yanaşmış və bir neçə bölgü aparmışdır. Burada birinci yerdə Koroğlunun qəhrəmanlıq rəmzi olması durur. Belə ki, şairlərimiz qəhrəmanlıq ruhlu şeirlər yazarkən, birinci növbədə, "Koroğlu" dastanından bəhrələnmişlər. İ.Sadıq, S.Vurğunun Böyük vətən müharibəsi dövründə yazdıqrı şeirlərində də qəhrəmanlıq ruhu Koroğlu obrazına görə daha da güclənmişdir. S.Vurğunun "Koroğlu" dastanından, Koroğlu obrazından təsirlənərək, onun da qəhrəmanlığını vurğuladığı "Azərbaycan balası", "Partizan Babaş", "Yandırılan kitablar", "Ukrayna partizanları", "Qafqazdan Dona doğru" şeirlərini yazmışdır.

Xalq şairi Bəxtiyar Vahabzadənin "Dörd yüz on altı" poemasında "416-cı Taqanroq" diviziyası haqqında poemada "Dünən-bu gün" fəslində Koroğlu dastanındakı səhnələrlə müqayisələr var. Şair burada Koroğlu ilə Bolu bəy qarşılaşdığı səhnəni göz önündə canlandırır.

Məstan Günərin "İlyana haqqında nəğmə" poemasında da "Koroğlu" dastanın motivləri var. Məmməd İsmayılın "Əsir saz" poemasını Aşıq Qaranın Gədəbəydən müharibəyə əlində sazla getməyindən bəhs etmişdir. Bildiyimiz kimi, Koroğlu da

döyüşlərə bir əlində saz, bir əlində tüfəng iştirak edərmiş. M.İsmayıl Aşıq Qaranın bu hərəkətini Koroğlu ilə müqayisə etmiş və Azərbaycan əsgərlərinin qələbədən sonra bu dastanı aşığa oxutdurduğunu vurğulamışdır.

Əhməd Cəmilin Böyük Vətən müharibəsi dövründə yazdığı şeirlərdə də, "Koroğlu" dastanının poetik təsiri açıq-aydın duyulur. Müəllifin Əhməd Cəmil Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədova həsr etdiyi "Qəhrəman qardaşıma" adlı şeirdə qəhrəmanın göstərdiyi hünərlərdən vəcdə gələrək, vətənin ağır günündə köməyə gələn Koroğluya bənzətmişdir.

İslam Sadıqin apardığı bölgüyə görə ikinci yerdə Koroğlunun mərdlik rəmzi olduğu önə çıxarılır. Müəllif, Səməd Vurğunun "Qəhrəmanın hünəri" şeirində əsas obrazı Koroğlu ilə müqayisə etmiş, öz qəhrəmanını da mərdlikdə ona bənzətmişdir. Məmməd İsmayıl "Əsir saz" poemasında, B.Vahabzadə "Özgə limanlarda" adlı şeirlərində Koroğlu dastanının, ümumiyyətlə onun mərdlik konsepsiyasının böyük rolu var.

Tədqiqatçı apardığı üçüncü bölgüyə əsasən Azərbaycan şeirində Qırat obrazı da önə çəkilmiş mövzulardandır. Belə ki, İ.Sadıqa görə S.Vurğunun "A köhlən atım" şeiri bütünlüklə Qırata həsr olunub. Məmməd İsmayılın "Qırat da bir at idi" şeirində Qıratın məziyyətləri vəsf olunub.

Araşdırmaçı Hüseyn Arifin, Abbasağanın, Xəlil Rzanın, R.Rzanın, M.Arazın, Famil Mehdinin yaradıcılığında da Qırat mövzusunu, Qıratla olan bənzətmələrini aşkar edib tədqiq etmişdir.

Fidan Qasımova "Folklor və klassik ədəbiyyat" məqaləsində yazılı ədəbiyyatla şifahi xalq yaradıcılığının mövcud olduğu əlaqələrdən söz açmışdır. Tədqiqatçı, yazılı ədəbiyyat və folklor probleminin iki məsələdən ibarət olduğunu qeyd etmişdir: "Bunlardan biri yazılı ədəbiyyatda folklordan istifadə, digəri isə yazılı ədəbiyyatın folklora təsiridir". F.Qasımova Nizami yaradıcılığında folklor məsələlərini tədqiq edərkən bu mövzuda

yazılan digər araşdırmalara da nəzər salmış, onlara da münasibət göstərmişdir. Nizami yaradıcılığında folklor nümunələrini necə istifadə etməsini, onların müqayisəsini konkret misallarla verərək o, Tağı Xalisbəylinin, Vəhdət Sultanzadənin bu istiqamətdə apardığı tədqiqatlarından da faydalanmışdır. F.Qasımova Məhsəti Gəncəvinin, Məhəmməd Füzulinin yaradıçılığında da folklor nümunələrini araşdırmış, onların xalq deyimləri ilə eyniyyət təşkil etdiyini sübut etmişdir. Fidan Qasımovanın bu tədqiqatı folklor nümunələrinin qədimliyini, bizim xalqa mənsubluğunu, ilkin variantını öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir.

Xəyalə Orucqızının "Professor Paşa Əfəndiyev folklor və yazılı ədəbiyyat" məqaləsində tədqiqat obyekti folklorşünas alimin öz əsərlərində bu mövzuya olan münasibətidir. Belə ki, hörmətli professor "Cəfər Cabbarlı və xalq yaradıcılığı", "Səməd Vurğun və xalq yaradıcılığı" monoqrafiyalarında sırf bu məsələlərə toxunmuşdur. Lakin tədqiqatçının da qeyd etdiyi kimi P.Əfəndiyevin bu mövzuda yazdığı ilk məqalə A.Şaiqə həsr olunmuşdur. X.Orucqızı Paşa Əfəndiyevin Nizami, M.F.Axundov, M.Ə.Sabir və digər sənətkarların əsərlərində folklor nümunələrini tədqiq etməsini yüksək qiymətləndirmiş, onun: "folklor və yazılı ədəbiyyat ikiəsirlik folklorşünsalıq elmimizin ilk mərhələsidir" fikrini sitat gətirmişdir.

Aynur İbrahimovanın "Səməd Vurğunun "Vaqif" dramında epik ənənələr" adlı məqaləsində ilkin olaraq Səməd Vurğun yaradıcılığında yer almış folklor nümunələrindən bəhs edilir. Tədqiqatçı, şairin xalq poetik düşüncə tərzinə yaxın olan bir üslubda yazıb-yaratmasını təqdir edir və "S.Vurğun xalq yaradıcılığı qaynaqlarından bəhrələnərək öz ideyalarının, bədii yolla demək istədiklərinin bir qismini xalq sənəti nümunələrinin köməyi ilə əks etdirmişdir" deyə söyləmişdir.

Bundan sonra A.İbrahimova Vaqifin tarixi şəxsiyyəti, S.Vurğunun nə üçün Vaqif obrazını yaratmasını elmi şəkildə

əsaslandırmışdır. Tədqiqatçı S.Vurğunun "Vaqif" dramında xalq həyatının özünəməxsus təsvirini, toy adət ənələrini, ailə münasibətlərini və əsərdə istifadə olunan bayatı, atalar sözlərini ayrı-ayrı tədqiq və təhlil etmişdir.

"Əhməd Cavad poeziyası və foklor" adlı məqaləsində Nizami Muradoğlu Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən olan Əhməd Cavadın həyat və yaradıcılığına ekskursiya etmişdir. Tədqiqatçı Əhməd Cavad haqqında yazılan bütün monoqrafiyalarla, məqalələrlə tanış olmuş, yalnız qarşıya qoyduğu mövzuya yox, bütünlükdə Əhməd Cavad şəxsiyyəti, yaradıclığı haqqında araşdırma aparmağa nail olmuşdur. N.Muradoğlu, şairin "Elin bayrağı", "Bismillah", "Allahu Əkbər", "Dağlar", "Gəncəm hey", "Ağlayırdım, gülürəm!", "Əfəndiyə" (M.C.Bağırova ünvanlanıb), "Göy göl" və digər şeirlərini ayrı-ayrı böyük həssaslıqla tədqiq və təhlil etmişdir.

Gülnar Osmanova "Çağdaş Azərbaycan nəsrində mifoloji obrazlar" adlı məqaləsində folklor nümunələrində, habelə yazılı ədəbiyyatda mofoloji obrazların oynadığı roldan bəhs etmişdir.

Məlum olduğu kimi, müasir nəsrimizdə bir sıra yazıçılar öz əsərlərini xalq nağıllarının, dastanların, əfsanələrin əsasında yazmışlar. Tədqiqatçı, İ.Əfəndiyev, M.Süleymanlı, K. Abdullanın əsərlərində təsvir etdiyi mifoloji obrazları tədqiqat obyektinə cəlb etmişdir. Məqalədə İ.Əfəndiyevin "Apardı sellər Saranı", "Geriyə baxma qoca", "Qarı dağı"; M.Süleymanlının "Şeytan", "Quru kəllə", "Köç"; K.Abdullanın "Yarımçıq əlyazma" əsərlərindəki mifoloji obrazlar, mifoloji düşüncə, mifik elementlər, o cümlədən etnoqrafik cizgilər araşdırılmışdır.

Bundan əlavə müəllif, bu əsərlərdəki mifoloji obrazları folklor nümunələrindəki obrazlarla müqayisə etmiş, oxşar və fərqli cəhətləri göstərmişdir.

Gülsümxanım Hasilovanın "Əzizə Cəfərzadənin bədii yaradıcılığı və xalq ədəbiyyatı" adlı məqaləsində görkəmli yazıçımızın əsərlərində istifadə etdiyi folklor nümunələrindən bəhs

edilir. Müəllif Ə. Cəfərzadənin romanlarında folklor janrından istifadəsini aşağıdakı şəkildə qruplaşdırır:

1. Mətnlərdə xalq bayatı, layla-oxşamalarına istinad;
2. Xalq mərasimləri;
3. Mərasim rituallarına bağlı ovsun, fallar və inanclar;
4. Lətifələr;
5. Uşaq oyunları, oyun nəğmələri;
6. Bu və ya digər fikir, mətləbin açılmasında atalar sözü, zərbi-məsəllərdən istifadə;
7. Mahnı mətnləri.

G.Hasilova məqalədə Əzizə Cəfərzadənin "Aləmdə səsim var mənim","Bakı-1501", "Gülüstandan öncə", "Bəla", "Eldən-elə" və s. romanlarında istifadə etdiyi zəngin folklor qaynağını tədqiq etmişdir. Tədqiqatçı bundan əlavə bu romanlarda atalar sözü, məsəlləri, alqış və qarğışları da sistemləşdirmişdir.

Tahir Rzayev "İsmayıl Şıxlının "Dəli Kür" romanında epos ənənəsi" adlı məqaləsində əsərin dilini, obrazlarını, etnoqrafik xüsusiyyətlərini milli folklor təfəkkürü müstəvisində tədqiq etmişdir.

Bildiyimiz kimi, XX əsrin ortalarından başlayaraq nəsrimizdə milli təfəkkür, xalq dili, əsl insan xarakterləri və onun iç dünyası ön plana çəkilmişdir. Müəllif də bunları nəzərə alaraq öz qənaətlərini görkəmli alim, f.ü.e.d. Muxtar İmanovun "Müasir Azərbaycan nəsrində psixologizm" (Bakı: Elm, 1991) kitabından istifadə edərək əsaslandıra bilmişdir. Belə ki, M. İmanovun fikrincə, "...Nəsrin yeni mərhələsində qəhrəman müəllifin oxucuya çatdırmaq istədiyi idealların ruporu olmaqdan xilas edilir. Yeri gəldi-gəlmədi istər müəllif, istərsə də qəhrəman nitqində hansısa problemin qeyri-bədii ifadə edilməsi, publisistik tonun bəsitlik dərəcəsinə endirilməsi halları tədricən aradan qalxır. İnandırıcı boyalar, real cizgilərlə işlənmiş bədii xarakterlər sosial problemləri ifadə etməyin səmərəli yolu sayılır".

Onu da qeyd edək ki, T.Rzayev "Dəli Kür" romanının epos təfəkkürünü araşdırarkən ilk öncə roman və epos münasibətlərinə nəzər salır. Müəllif burada roman janrının xüsusiyyətləri barədə söhbət açmış, daha sonra isə roman-epos münasibətlərinin tipoloji modelini nəzərimizə çatdırmışdır. Tədqiqatçı, roman yaradıcılığında epos təfəkkürünü üç formada özünü göstərdiyini qeyd etmişdir:

1. Epos təfəkkürünə məxsus universallıq, diapazonluluq, mürəkkəb süjet xətti və çoxsaylı obrazlar aləminə məxsusluq;
2. Epos təfəkkürünün süjet və motivlər, detal və faktlar şəklində əks olunması;
3. Epos təfəkkürünün epik düşüncə modeli şəklində özünü göstərməsi.

Müəllif məqalədə "Dəli Kür" haqqında yazılan bütün sanballı mənbələrə istinad etmiş və Cahandar ağa obrazını epos qəhrəmanı kimi səciyyələndirilmişdir. Bundan əlavə, əsərin epos ənənələri baxımından tədqiqata cəlb edilməsinin zəruri olduğunu qeyd etmişdir.

Doktorant Aytac Abbasovanın "Göl obrazı: əfsanə və yazılı ədəbiyyatda" adlı məqaləsi də həm folklor, həm də tarixilik baxımından son dərəcə əhəmiyyətlidir. Müəllif, vətənimizin müxtəlif bölgələrində yerləşən göllərlə bağlı əfsanələr haqqında fikir söyləmiş, hətta onların bir neçə variantda olan versiyalarının mövcud olduğunu göstərmişdir. Bundan sonra tədqiqatçı, yazılı ədəbiyyatda N.Gəncəvinin, M.Füzulinin, İ.Nəsiminin, Ə.Haqverdiyevin, Y.V.Çəmənzəminlinin, C.Cabbarlının, S.Vurğunun, S.Rəhimovun, İ. Məlikzadənin, İ.Əfəndiyevin və başqaların əfsanələr əsasında əsərlər yazdığını və yaxud da əsərlərində əfsanə motivindən istifadə etdiyini qeyd etmişdir.

Vüsal Səfiyevanın "Akademik Həmid Araslının elmi irsində "Kitabi-Dədə Qorqud" mövzusu" adlı məqaləsi görkəmli folklorşünas alim haqqında yazılan ən yaxşı araşdırmalardandır. Tədqiqatçı alimin " Aşıq poeziyası və klassiklər", "Kitabi-Dədə

Qorqud", "Koroğlu", "Aşıq yaradıcılığı" və s. əsərlərini, "Kitabi-Dədə-Qorqud"un təkmilləşmiş nəşrlərini burada tədqiqata cəlb etmişdir. Müəllif, H.Araslının "Kitabi-Dədə Qorqud" dastanı haqqında söylədiyi bütün mülahizələrini konkret nümunələrlə əsaslandıraraq incələmişdir.

Sevinc Əliyevanın "Heyvanlar haqqında nağıl və təmsillərin janr xüsusiyyətləri" adlı məqaləsində folklor və yazılı ədəbiyyat arasındakı sıx əlaqələrdən bəhs edilmişdir. Müəllifin qeyd etdiyi kimi heyvanlar haqqında nağıllar janr xüsusiyyətinə görə şifahi xalq ədəbiyyatına, təmsillər isə yazılı ədəbiyyatla bağlıdır. Məhz buna görə də, heyvanlar haqqında nağıllar şifahi xalq ədəbiyyatının janr xüsusiyyətini, təmsillər isə yazılı ədəbiyyatın janr xüsusiyyətini daşıyır. Tədqiqtçı məqaləsində ayrı-ayrı nağıl və təmsillərdən nümunələr gətirərək həm bu heyvanların oxşar və fərqli xüsusiyyətlərini göstərmiş, həm də uşaqların tərbiyələndirilməsində heyvanlar haqqında yazılan əsərlərin əhəmiyyəti haqqında maraqlı mülahizələr yürütmüşdür.

Sonda onu da qeyd etmək istərdik ki, AMEA Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsinin I toplusu olan bu kitabda yer alan bütün tədqiqatlar həmin institutun eyni adlı şöbəsinin yalnız bir ayda hazırladığı materialların məcmusudur.

AMEA Folklor İnstitununu direkroru, kitabın elmi redaktoru, dəyərli alimimiz, filologiya üzrə elmlər doktoru Muxtar İmanovdur. M.İmanovun qeyd etdiyinə görə bu toplunun növbəti saylarının da nəşri planlaşdırılır və bundan əlavə olaraq eyni zamanda tematik topluların da yaxın zamanlarda nəşri gözlənilir.

## MÜNDƏRİCAT

**Kamran ƏLİYEV.** *Atalar sözləri və aforizmlər* .................. 3
**Cəlal QASIMOV.** *Bəkir Çobanzadə və folklor* ..................... 14
**Pərvanə BƏKİRQIZI (İSAYEVA)** *"Xortdanın cəhənnəm məktubları": o biri dünyaya səyahət* ................... 45
**İslam SADIQ.** *Azərbaycan dramaturgiyasında "Koroğlu" motivləri* ........................................................... 54
**Fidan QASIMOVA.** *Folklor və klassik ədəbiyyat (Xaqani Şirvani yaradıcılığı əsasında)* ................................ 72
**Xəyalə ƏLİYEVA.** *Paşa Əfəndiyev: Səməd Vurğun və xalq yaradıcılığı* ............................................................ 80
**Aynur İBRAHİMOVA.** *Səməd Vurğunun "Fərhad və Şirin" dramında folklor motivləri* ...................... 96
**Nizami MURADOĞLU.** *Yeni şeir şəkli: layla-elegiya* ....... 108
**Əpoş VƏLIYEV.** *Qurd obrazı* ........................................... 121
**Gülnar OSMANOVA.** *Təbiət kultları ilə bağlı inanclar və müasir nəsr* ....................................................... 142
**Gülsümxanım HASİLOVA.** *Mərasim folkloru və roman (Əzizə Cəfərzadə yaradıcılığı əsasında)* ................................ 154
**Aytac ABBASOVA.** *Xalq adət-ənənələri və roman yaradıcılığı (Y.V.Çəmənzəminlinin "İki od arasında" əsəri əsasında)* ................................................................. 168
**Sevinc ƏLİYEVA.** *Təmsil və nağıllarda müştərək motivlər* ............................................................... 181
**Gülnar MƏMMƏDOVA.** *Əmək nəğmələri və uşaq şeirləri* ............................................................... 191

## RƏYLƏR

**Tahir ORUCOV.** *Folklorun yazılı ədəbiyyatda inikası* ........ 198
**Məlahət BABAYEVA.** *Folklor və yazılı ədəbiyyat* ............. 214

**Folklor və yazılı ədəbiyyat.**
**II kitab**
Bakı, Elm və təhsil, 2017.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**fil.ü.f.d. Fidan Qasımova**

Kompüterdə yığdı:
**Gülnurə Canməmmədova**

Korrektoru:
**Gülnar Osmanova**
**Aytac Abbasova**

Kompüter tərtibçisi və
Texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60X84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 224 səh.
Tirajı: 300

Kitab AMEA Folklor İnstitutunun Redaksiya-nəşr
bölməsinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş,
“Elm və təhsil” NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.